AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XIV kitab

## (DƏRBƏND FOLKLORU)

BAKI – "SƏDA" – 2006

Az
A-39

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

TOPLAYICILAR: f.e.d. Hüseyn İSMAYILOV, f.e.n. Samilə XURDAMİYEVA

TƏRTİB EDƏNLƏR: f.e.d. Hüseyn İSMAYILOV, Tahir ORUCOV.

ÖN SÖZÜN MÜƏLLİFLƏRİ: f.e.d. Hüseyn İSMAYILOV, Tahir ORUCOV.

REDAKTORU: f.e.d. Hüseyn İSMAYILOV

RƏYÇİLƏR: f.e.n. Səxan XAVƏRİ, f.e.n. Ağaverdi XƏLİL

NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

**Azərbaycan folkloru antologiyası, XIV kitab (Dərbənd folkloru),** Bakı, “Səda“ nəşriyyatı, 2006.

Azərbaycan MEA **Folklor İnstitutunun** “Azərbaycan folkloru antologiyası“ silsiləsindən nəşr etdiyi bu cildə Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Dərbənd mahalından toplanılmış maraqlı folklor örnəkləri daxil edilmişdir.

ISBN-586874-032-7

©“Səda“ nəşriyyatı, 2006

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

1. **AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön söz"ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

2. **AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.

3. **AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

4. **AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov, Vaqif Aslan, elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.

5. **AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.

6. **AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön söz"ün müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2002.

7. **AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi redaktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2002.

8. **AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələkbərli, Bakı, "Səda" nəşriyyatı, 2003.

9. **AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

10. **AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov.

11. **AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Oruc Əliyev, Ağaverdi Xəlil.

12. **AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfsələddin Əsgər, tərtib edənlər: Əfsələddin Əsgər, Muxtar Kazımoğlu, redaktoru: f.e.d. Hüseyn İsmayılov, rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Oruc Əliyev.

13. **AFA, XIII.** Şəki-Zaqatala folkloru, tərtibçilər: filologiya elmləri doktoru, prof. İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev, filologiya elmləri namizədi Mətanət Abdullayeva, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Təhmasib Fərzəliyev, filologiya elmləri namizədi Ramil Əliyev.

## *DƏMİRQAPI DƏRBƏND: ETNİK-MİLLİ YADDAŞIMIZ VƏ MƏNƏVİ DÜNYAMIZ*

***Azərbaycan folklor antologiyası (AFA) silsiləsindən olan növbəti – XV cild oxuculara təqdim olunur. AFA-nın bu dəfəki cildi tarixən qədim Azərbaycan torpağı, oğuz alp-ərənlərinin əzəli yurdu olan Dəmirqapı Dərbəndin etnik-tarixi və mənəvi dünyasına – folkloruna həsr olunub. Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. Bu qədim şəhər haqqında latın, yunan, ərəb, fars, türk, gürcü, rus mənbələrində, həmçinin orta əsr Avropa səyyahlarının və tarixçilərinin əsərlərində dəyərli məlumatlar verilmişdir. Dərbənddə arxeoloji qazıntılar nəticəsində b.e.ə. VII-VI əsrlərə aid yaşayış məskəni aşkara çıxarılmışdır.***

***Qafqaz dağları ilə Xəzər dənizi arasında bir keçid vardır. Bu, Dərbənd keçidi adlanır. Şimal ölkələrindən Azərbaycana, İran və başqa cənub ölkələrinə, eləcə də adı keçən ölkələrdən şimala quru yolla, əsasən, bu ərazidən – Dərbənd keçidindən keçib getmək olurdu. Bu keçid vasitəsilə daim şimaldan cənuba və cənubdan şimala ticarət karvanları gedirdi. Avropa dövlətləri də Şərqin böyük ticarət mərkəzləri ilə əlaqəni Dərbənd keçidi vasitəsilə saxlayırdılar. Qədim Dərbənd şəhəri də elə bu keçiddə yerləşirdi.***

***Dərbənd keçidi çox əlverişli və strateji bir ərazi idi. Skif, sarmat, hun, alan, xəzər və b. tayfalar Zaqafqaziya və Ön Asiyaya hücumları zamanı həmişə Dərbənd keçidindən istifadə etmişlər. Onların hücumlarının qarşısını almaq və bu keçidi daim öz əllərində saxlamaq məqsədilə Dərbənd keçidi boyu gözətçi məntəqələri və müdafiə istehkamları tikilmişdi. Buna görə də türk mənbələrdə Dərbənd "Dəmirqapı Dərbənd" adlandırılmışdır. Dərbənddən ərəb mənbələrində Bab, Bab-əl-Hədid, Bab-Əl-Əbvab, fars mənbələrində, Dərbənd, Teymur, Kahalqa,***

***Kahulqa, eləcə də “Xəzər Dərbəndi”, “Sirvan Dərbəndi”, “Bakı Dərbəndi” və s. adlarla bəhs olunmuşdur. Ancaq tarixi mənbələrdə verilən çoxsaylı bu adlardan ancaq “Dəmirqapı Dərbənd” adı nəsildən-nəslə keçərək günümüzədək gəlib çatmışdır.***

***Erkən orta əsrlərdə Dərbənd Şimali Qafqazı və Şərqi Avropa ölkələrini Orta və Yaxın Şərq ölkələri ilə birləşdirən mühüm ticarət mərkəzi idi. Strateji-coğrafi mövqedə yerləşməsi Dərbəndin iqtisadi inkişafına əlverişli şərait yaratmışdı. Hələ b.e.ə. I əsrdə Dərbənddəki üzümlüklər və meyvə bağları dənizə qədər uzanırdı. Albaniyanın Çala (Çora) vilayətinə daxil olan Dərbənd eramızın əvvəllərindən Qafqaz Albaniyasının iri yaşayış məntəqələrindən birinə çevrilmişdi. V əsrdə isə Dərbənd iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin – mərzbanlarının iqamətgahı idi. Sasanilər dövründə hunların, barsilərin, xəzərlərin və b. tayfaların hücumlarının qarşısını almaq üçün Dərbəndin möhkəmləndirilməsinə xüsusi diqqət verilirdi. Üç cildik Azərbaycan tarixinin I cildində bu barədə oxuyuruq: “Alban (Dərbənd) qapıları rayonunda sasanilər əvvəlcə torpaq sədlər çəkdilər. Belə bir məlumat var ki, burada (Dərbənddə – H. İ., T. O.) ilk istehkamlar II Yezdigerdin (438-457) vaxtında tikilmişdir. Bir neçə vaxtdan sonra, VI əsrin I yarısında nəhəng daşlardan divarlar hörüldü. Böyük qalaları tikmək üçün isə belə nəhəng daşları deşərək, dəmir çubuqlar keçirir və həmin dəlikləri ərinmiş qurğuşunla doldururdular. Dərbənd divarları dənizinin qərb sahilində, Böyük Qafqaz sıra dağlarının bir qolunun dənizə qədər uzanaraq dar bir keçid əmələ gətirdiyi yerdə tikilmişdi. Bu divarlar dənizin içərilərinə qədər uzanırdı”***[1]

-------------------------

1. Azərbaycan tarixi. I cild. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1961, səh. 96-97

***"Sədlərin tikilməsi ilə kifayətlənməyən sasanilər Azərbaycanın şimal hissəsində özlərinə siyasi dayaq yaratmaq istəyirdilər. Bu məqsədlə sasanilər İrandan fars ləhcəli əhali köçürüb orada məskunlaşdırırdılar. Sasanilərin köçürmə siyasəti eyni zamanda torpaqsız İran əhlini münbüt torpaq sahələri ilə təmin etmək məqsədi güdürdü. İrandilli əhali şimaldan cənuba uzanan və strateji əhəmiyyəti olan yollar ətrafında məskunlaşdırıldı. Bunlar indi tat adlanırlar. Tatların dili, ləhcəsi – fars dilinin ləhcəsi kimi formalaşmışdı. Çox güman ki, köçürülən tatların hamısı farsdilli olmayıb, bir qismi tat ləhcəsini də bilən türk əhli olmuşdu. Onlar yerli türk etnoslarının qonşuluğunda məskən salaraq bu etnosların dilinin və mədəniyyətinin təsiri nəticəsində yerli əhali ilə qaynayıb-qarışırdılar. Bu regionlara yaxın ərazi tədricən Dağıstan (ləzgi qrupunda) dillərində danışan əhali tərəfindən də məskunlaşırdı."[1]***

***Bu dövrlərdə Türk xaqanlığı Şimali Qafqazda sasanilərə ciddi təhlükə yaratmağa başladı. Təhlükə sasanilərə Dərbənd keçidini daha da möhkəmlətməyə məcbur etdi. Dərbənd ətrafında yeni istehkamlar tikildi və bu istehkamlarda qarnizonlar yerləşdirildi. Əlavə olaraq, sasanilər İranın daxili əyalətlərindən buraya üç min farsdilli ailə köçürdülər. IX əsr ərəb tarixçisi Bəllazurinin məlumatına görə, sasani hökmdarı I Xosrov (531-579) Dərbənd keçidini qorumaq üçün beş minlik hərbi hissə ayırmışdı. Lakin bütün bu tədbirlər türkdilli tayfalarının cənuba axınının qarşısını ala bilmədi. 626-627-ci illərdə xəzərlər Çəbe xaqanın başçılığı ilə Dərbəndi tutub onun qala divarlarını dağıtdılar. Bundan sonra Dərbənd uzun müddət xəzərlərin cənuba hücum məntəqəsinə çevrildi.***

***VII əsrdə – ərəb işğalları dövründə xəzərlərlə döyüş -***

----------------------

1. Azərbaycan tarixi. I cild. (Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə) Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, səh. 199-200

***meydanına çevrilən Dərbənd dəfələrlə əldən-ələ keçdi. 642-ci ildə ərəblər Dərbəndi tutduqdan sonra şəhəri mühüm bir strateji məntəqə kimi möhkəmləndirməyə çalışırdılar. VIII əsrin əvvəlində yenidən xəzərlərin əlinə keçən Dərbənd 714-cü ildə ərəb sərkərdəsi Həbib İbn Məsləmənin başçılığı ilə geri qaytarıldı. Bundan sonra ərəblər dağıdılmış qala və bürcləri bərpa etdilər. Dərbəndə 24 min ərəb əsgəri yerləşdirildi. Abbasilər sülaləsi dövründə (750-1258) Dərbənd Xəzər xaqanlığı, Rus knyazlığı, Bizans, Avropa ölkələri, İran, Çin, İraq, Suriya, Hindistan, Orta Aisya və s. ilə ticarətdə əsas tranzit məntəqəsinə çevrildi.***

***IX əsrdən etibarən Müsafiri və Haşimi əmirləri tərəfindən idarə olunan Dərbənd X əsrdə Şirvanşahların hakimiyyəti altına keçdi. Ərəb tarixçilərinin verdiyi məlumatlara əsasən, həmin dövrdə iri şəhərə çevrilən Dərbənd şəhəri əhalisinin sayına görə Tiflis və Ərdəbil kimi şəhərlərdən böyük idi. XI əsrin 30-40-cı illərindən etibarən Oğuz tayfaları Dərbəndə gəlmiş, burada hələ əvvəllərdə məskunlaşmış digər türk tayfaları ilə qaynayıb-qarışmış və Azərbaycan xalqının formalaşmasında fəal iştirak etmişlər. XIV əsr tarixçisi Fəzlullah Rəşidəddin (1247-1318) Oğuzların Dərbəndi tutması və orada məskunlaşması haqqında belə yazır: "Onlar (oğuzlar – H.İ.; T.O.) Xəzər Dərbəndinə sarı köç etdilər... Oğuz Qara Sülüyü çağırdı və ona əmr etdi: "Bura çox dar və çətin keçilən bir yerdir. Bizi bura sən gətirmisən... Bəs biz nə edək? Bir yan dənizdir, o biri yan uca dağlar." Qara Sülük məsləhət üçün atasına üz tutdu və qoca ona belə dedi: "... Bu vilayət çox darısqal bir yerdədir: bir tərəfdən dəniz, o biri tərəfdən dağ olduğundan vilayətin əhalisi baş əyməyə məcbur olana qədər bütün əməliyyatları şəhərin ətrafında davam etdirmək lazımdır." Qara Sülük bu söhbəti Oğuza çatdırdı. Oğuz onun dediklərindən razı qaldı... Oğuzun əsgərləri***

***yaydan gələn ilin yazına qədər şəhəri mühasirədə saxladılar... Səkkiz aylıq mühasirədən sonra sülh bağlamaq üçün onlar oğuzun yanına gəldilər. Özləri ilə hədiyyə olaraq doqquz kəhər at gətirdilər və il oldular"[1]***

***XIII əsr tarixçisi Nəsəvinin məlumatlarına görə, Cəlaləddin Xarəzmşahın (?-1231) dövründə Dərbənd ətrafınına 50 min qıpçaq ailəsi köçürülmüşdü. 1239-cu ildə – monqolların Azərbaycana ikinci hücumu zamanı Dərbənd monqollar tərəfindən işğal edildi. O dövrlərdə Azərbaycana yiyələnmək uğrunda Qızıl Orda və Elxanilər (Hülakülər) arasında gedən qanlı müharibələr zamanı döyüş meydanına çevrilən Dərbənd əldən-ələ keçdi. Elxanilərin zəiflədiyi dövrdə Dərbənd müstəqil Şirvanşahlar dövlətinin tərkibinə qatıldı. Şirvanşahların yeni sülaləsinin banisi I İbrahim (1382-1417) əslən Dərbəndli olduğundan bu sülalə Dərbəndilər adlandırıldı. Dərbəndilər sülaləsinin hakimiyyəti dövründə Dərbənd şəhəri Şirvanın mühüm yaşayış məntəqələrindən birinə və əsas liman şəhərinə çevrildi. Əmir Teymurun Qızıl Orda xanı Toxtamışla 1395-1396-cı illərdə apardığı müharibələr Dərbəndin iqtisadi həyatına ağır təsir göstərdi.***

***XV əsrdən etibarən cihad adı altında tez-tez Dağıstana hücum edən Səfəvi şeyxləri Dərbənd keçidindən istifadə edirdilər. 1509-cu ildə I Şah İsmayıl (1501-1524) Dərbəndi tutaraq İraqda yaşayan bayat tayfalarının bir hissəsini Dərbəndə köçürdü. Səfəvi – Osmanlı müharibələri zamanı isə türk ordusu 1578-ci ildə Dərbəndi tutdu.***

***1722-ci ildə I Pyotrun başçılığı ilə rus qoşunları Dərbəndə daxil oldu. 1723-cü ilə Rusiya-İran və 1724-cü il Rusiya-Türkiyə müqavilələrinə əsasən Dərbənd Rusiyaya birləşdirildi. Lakin sonra Nadir şahın Xəzərsahili vilayətlərə, o cümlədən Dərbəndə hücumlarından sonra, Rusiya ilə İran arasında bağlanmış 1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələrinə əsasən Dərbənd yenidən Səfəvilərə***

***qaytarıldı. Nadir şahın dövründə Kür çayı sahilində yaşayan Sorsor (Sursur) tayfaları da Dərbənd yaxınlığına köçürüldü.***

***XVIII əsrin ortalarında mərkəzi Dərbənd şəhəri olmaqla Dərbənd xanlığı yaradıldı. 1759-cu ildə Qubalı Fətəli xan Dərbənd xanlığını Quba xanlığına birləşdirdi. 1796-cı ildə isə Rus qoşunları yenidən Dərbəndi ələ keçirdi və 1813-cü ildə Rusiya ilə İran arasında bağlanmış Gülüstan sülh müqaviləsinə əsasən Rusiyaya birləşdirildi.***

***Bu dövrdə Dərbənd yenə mühüm şəhərlərdən biri və əsas ticarət məntəqəsi olaraq qalırdı. O dövrün statistik məlumatlarına görə, 1897-ci ildə Dərbənddə 13856 nəfər adam yaşayırdı. Ümumiyyətlə, qədim, şərəfli tarixə malik olan Dərbənd, bütün tarixi dövrlərdə mühüm iqtisadi, siyasi, hərbi, strateji və mədəni əhəmiyyətə malik bir şəhər olmuşdur.***

* * *

***Dəmirqapı Dərbənd qədim tarixə malik olmaqla yanaşı, həm də qədim maddi və mənəvi mədəniyyəti olan və çox zəngin söz xəzinəsini – folklor nümunələri özündə ehtiva edən bir ərazidir. Tarixin müxtəlif keçməkeşli dövrlərini öz yaddaşında yaşadan Dərbənd özünəməxsus qədim memarlıq abidələri ilə Yaxın Şərqdə, eləcə də bütün dünyada məşhurdur. ASE-nin III cildində oxuyuruq: "Dərbənd ensiz, dolanbac küçə və dalanlardan ibarət yuxarı – köhnə hissəyə, eləcə də XIX əsrdən tikilməyə başlanmış düzbucaqlı məhəlləri, geniş küçələri olan aşağı hissəyə ayırılır. Dərbənddə çoxlu memarlıq abidələri qalmışdır. Bunlardan ən qədimi Dərbənd qalasıdır (V əsrdə çiy kərpicdən, VI əsrdə isə daşdan tikilmiş, XVII-XIX əsrlərdə dəfələrlə bərpa edilmişdir); təpə üzərində salınmış İç***

----------------------------

1. F. Rəşidəddin. "Oğuznamə". Bakı. Azərbaycan Dövlət Nəşiryyat-Poliqrafiya birliyi, 1992, səh.20

***qaladan (Narınqala) və dənizə doğru uzanan möhtəşəm qoşa daş divarlardan (uzunluğu 3 km) ibarətdir. Qala divarlarında (eni 2,3-3,8 m, hündürlüyü 12-15 m) çoxlu bürc və qapılar var. Şimal divarında Qırxlar qapısı (VI-XIII əsrlər), cənub divarında Orta qapı (VI-XV əsrlər) yerləşir. Dərbənddə Cümə məscidi (VIII-XIV əsrlər), mədrəsə (XV-XIXəsrlər), Minarəli məscid (XIV-XIX əsrlər), Şah Abbas məscidi (Qırxlar məscidi; XVIII əsr), Sultan Bayazid hamamı (XVII-XVIII əsrlər), Xan məqbərəsi (XVIII əsr), yeraltı İçqalada hamam (XVII əsr), Xan sarayının qapıları (XVIII əsr), qarovulxana (1828) mühafizə olunmuşdur”[1]***

***Dərbəndin adı “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarında, “Dərbəndnamə” əsərində də çəkilir. XV əsr rus səyyahı Afanasi Nikitin, XVII əsr səyyahları: alman Adam Oleari və türk Evliya Çələbinin, XIX əsr fransız yazıçısı Aleksandr Dümanın (Ata) və başqalarının əsərlərində də bu qədim şəhər haqqında məlumatlar verilmişdir. Bu məlumatlar çox qiymətli olub, hərəsi Dərbəndin müəyyən bir tarixi dövrü haqqında məlumat verir. A. Nikitin Dərbəndi o dövrdə əsas ticarət məntəqəsi kimi təsvir edirsə, A. Oleari və E. Çələbi Dədə Qorqudun qəbrinin Dərbəndə olduğu haqda məlumat verir, ayrı-ayrı mədəniyyət abidələrini təsvir edirlər. Dünya şöhrətli Aleksandr Düma (Ata) özünün 1858-59-cu illərdə Qafqaza səfərinin nəticəsi olan “Qafqaz səfəri” (1859) əsərində Quba, Bakı, Şamaxı, Nuxa kimi şəhərlərlə yanaşı, Dərbənd şəhərindən, orada yaşayan azərbaycanlılardan, onların adət-ənənələrindən, mədəniyyətindən də fərəhlə, heyrətlə, ürək dolusu söhbət açır: “... İlahi! Bu ki, Dərbənddir! Çox-çox qədimlərdə pelasgilər dövründə əsası qoyulmuş qala divarları dağın zirvəsindən dənizin sahilinə qədər uzanaraq***

---------------------

1. ASE, III cild. Bakı, 1979, səh. 418

***yolumuzun üstündə durmuşdu. Hələ mən tağlı şəhər qapılarını demirəm. Yalnız insanları deyil, zamanın özünü də heyrətə gətirən Şərq memarlıq üslubunda tikilmiş bu möhtəşəm, tağlı qapılar açılır, gediş-gəliş başlanır... Yolun o biri tərəfində isə Şərq şəhərlərində tez-tez müşahidə edilən uçuq divarlar görünürdü. Elə bil bu uçuq divarlar adama daha çox təsir bağışlamaq üçün belə saxlanmışdır.***

***Qədim hadisələrin şahidi və zəngin tarixi olan şəhərləri barmaqla saymaq olar. Onlardan biri də Dəmirqapı Dərbənddir. Asiya ilə Avropanın ayrıldığı yerdə yerləşən bu qədim şəhəri Skiflərin hücumundan və keçmişin başqa bəlalarından qala divarları xilas etmişdir. İki qitənin birləşdiyi yerdə inşa edilən Dərbənd qismən Şərq, qismən də Avropa şəhəridir. Şəhərin yuxarı hissəsində məscid, bazarlar, yastı damlı evlər görünürdü. Dolama yol dağın başındakı qalaya qədər gedib çıxırdı."[1]***

***Məlumdur ki, hər bir ərazinin – istər məhəlli (lokal) olsun, istərsə də regional, onun ən qədim tarixi məişəti haqqında ilkin bilgilər öncə xalqın mifik təfəkküründə və düşüncəsində əbədiləşən folklor nümunələrində – nağıllarda, dastanlarda, əfsanə və rəvayətlərdə, atalar sözləri və məsəllərdə, tapmacalarda və s. janrlarda bu günümüzə qədər gəlib çatır. Bu mənada bir çox etnik qrupların – avarların, dargenlərin, qumuqların, ləzgilərin, tabasaranlıların, tatların və s. məskunlaşdığı qədim türk diyarı Dərbənd də istisnalıq təşkil etmir.***

***Dərbənd folklorunda milli qüruru, məğrurluğu, gücü və qüdrəti ifadə edən, xeyirxahlığı, işığı təmsil edən folklor personajları yetərincədir. Onlar zülmün, pisliyin ayaq açmasına, qaranlığın işıq üzərində qələbəsinə, şərin xeyiri üstələməsinə yol vermir. Xeyirxah qüvvələr onu yaradan xalqın arzu və istəklərinə uyğun olaraq həmişə şər***

-----------------------

1. A. Düma. Qafqaz səfəri. Bakı, Yazıçı, 1985, səh.12-13

***qüvvələrə qalib gəlir. Ədalətin qələbə çalmasına çalışırlar. Bu cəhət epik növün janrlarında – nağıllarda, dastanlarda, lətifələrdə, qaravəllilərdə xüsusilə özünü büruzə verir.***

***Lirik folklor janrları olan bayatılarda, ağılarda, mövsüm-mərasim nəğmələrində, sayaçı sözlərində, holavarlarda isə daha çox məişətlə bağlı motivlər, xalqın adət və ənənələri, lirik düşüncələri daha qabarıq şəkildə özünü göstərir. Ancaq Dərbənd folklorunda epikləşmə, epik janrlara meyl xüsusilə güclüdür.***

***Qədim və orta əsrlər dünya mədəniyyətinin inkişafında onun sosial və mədəni tərəqqisində əhəmiyyətli rol oynamış türk mədəniyyəti və onun tərkib hissəsi olan Dərbənd mədəniyyəti və folkloru mürəkkəb tarixi bir yol keçmişdir. Ancaq keçilən bu yol özünün inkişaf dinamikası ilə xüsusi olaraq fərqlənmişdir. Tarix boyu Dərbənd türkləri, fars, monqol, ərəb, slavyan və s. xalqların etnik mədəniyyəti ilə çulğalaşaraq etnokulturoloji əlaqələrdə olmuş, eyni zamanda özünün sırf milli-tipoloji xarakterə malik, yaddaşlarda daşlaşdığı mənəvi söz dünyasını – əsrarəngiz folklorunu yaratmışdır. Bu isə türklərin daxili zənginliyi, vahid bir türk mədəniyyətinin tərkib hissəsi olması və onların digər bəşər sivilizasiyaları ilə qarşılıqlı əlaqələri ilə şərtlənmişdir. Ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan Dərbənd folklor mühiti adı keçən mədəniyyətlərlə nə qədər sıx, qarşılıqlı əlaqələrdə olsa da, öz inkişafının və mövcudluğunun bütün mərhələlərində öz üstünlük keyfiyyətlərini, özünəməxsus fərdi xüsusiyyətlərini həmişə yüksək səviyyədə qorumuş və çağdaş zəmanəmizə qədər onu böyük türk dünyasının ayrılmaz bir parçası kimi mühafizə edərək çatdırmışdır. Tarix boyu Dərbənd ərazisində məskunlaşan türklərə nə Sasani, nə monqol, nə rus, nə də digər müdaxilələr heç zaman etnik-mədəni sistemdə bu ərazidə geniş mənada türklüyün ziya-***

*nına heç nəyi dəyişdirə bilməmişdir. Əksinə, bütün bu tarixi-mədəni proseslər bu və ya digər formada türkçülüyün bu ərazidə daha da inkişaf etməsinə gətirib çıxarmışdır. Folklor isə bu etnik-milli yaddaş sistemində ən mühüm bazis olmuşdur. Çünki məhz folklor onu yaradan etnosun təfəkkürünün, düşüncə tərzinin, zövqünün inikası kimi meydana çıxır. Elə bu səciyyəvi cəhətllərinə görə folklor etnik-milli mədəniyyətdə aparıcı və əsas rol oynayır.*

*Yuxarıda sadalanan bütün tarixi faktlar və dəlillər, maddi və mənəvi mədəniyyət nümunələri Dərbəndin və Dərbənd türklərinin ta qədimdən bu günədək Azərbaycanın və Azərbaycan türklərinin ayrılmaz bir tərkib hissəsi olduğunu sübut edir. Digər tərəfdən, bu bölgədən toplanan qiymətli folklor nümunələri isə burada tarixən məskunlaşan türk etnosunun əsrlərdən bəri mövcud olan varlığına, onun dərin təfəkkürünə, həyata fəlsəfi baxışlarına, yüksək mənəvi-əxlaqi dəyərlərə malik olmasına dəlalət edir. Bu regiondan toplanan folklor nümunələrinin – istər epik olsun, istərsə lirik, özündə əks etdirdiyi etnik-milli dünyagörüş kompleksi, regional səciyyə nöqteyi-nəzərindən, bəzən də lokal (məhəlli) baxımdan fərqlənsə də, ancaq bütün mövcud parametrləri üzrə (mövzu, süjet, surətlər aləmi və s.) həm Azərbaycanın digər bölgələrinin, həm də əski türk folklorunun ideya-məzmun istiqamətləri ilə tam bir paralellik, oxşarlıq yaradır. Dərbənd folklor antologiyasında təqdim edilən folklor örnəkləri istər epik, istərsə də lirik növlər üzrə zəngin janr rəngarəngliyinə malikdir.*

*Dərbənddəki bir sıra toponim və etnotoponomik adlar tarixin çox qədim qatları ilə səsləşir. Bu isə həmin yer, bölgə və ya ərazinin folklorunun və mədəniyyətinin də qədim, ulu olması anlamına gəlir. Bütün bunlar isə tarixin bütün dönəmlərində Dərbənddə məskunlaşan türk etnosunun şifahi və yazılı yaddaşında daşlaşaraq, orada öz də-*

***rin izlərini buraxmışdır. Onlar bu və ya digər şəkildə tədqiq olunub öyrənilsə də, bu ərazidə mövcud olan türk mənşəli yer, ərazi, coğrafi məkan anlayışları, tarixi faktlar hələ də dəqiq araşdırılmamış, özünün dəqiq şərhini, tarixi-linqvistik izahını tapmamışdır. Məsələn, Dərbənd şəhərinin, həmçinin Dağıstanın və Şimali-Şərqi Azərbaycanın V-XI əsrlər tarixindən bəhs edən, müəllifi məlum olmayan "Dərbəndnamə"[1] kimi qiymətli bir əsərin Azərbaycan, ərəb və fars dillərində müxtəlif variantları olmasına baxmayaraq, bu əsər, demək olar ki, azərbaycanlı alimlər tərəfindən tədqiq edilib araşdırılmamışdır. Halbuki, bu əsərdə ərəb qoşunlarının Dərbəndi tutması, burada silah, ərzaq və neft anbarları tikdirmələri, Bakının neft və duz mədənlərinin Dərbənd əhalisinə vəqf verilməsi, xəzərlərin Azərbaycana hücumları və s. kimi qiymətli tarixi məlumatlar vardır. Bu hadisələrin bəziləri isə folklorun epik və lirik növlərində, onların müxtəlif janrlarında öz izlərini qoruyub saxlamışdır.***

Epik janrlar. ***Xalqın epik və etnik yaddaşı onun folklorudur. Epos, epik janrlar isə sözün həqiqi mənasında hər bir xalqın, hər bir etnosun elə özüdür, onun milli "məni", baba ruhunun, ata soyunun və ana dilinin təşəkkül tapdığı, formalaşdığı ilahi, sakral ərazidir. Bu mənada Dərbənd folkloru antologiyasının böyük bir hissəsini epik janrlar – əfsanə və rəvayətlər, nağıllar, lətifələr təşkil edir. Bu nümunələr ümumtürk eposunun bütün incəliklərini, janr xüsusiyyətlərini özündə ehtiva edərək, həm də lokal (məhəlli) baxımdan öz spesifikliyini saxlayır.***

***Bu janrlarda xalqın ruhu, tarixi, mentaliteti, eləcə də arzu və istəkləri, təsəvvür və təfəkkürü, mənəvi aləmi öz geniş əksini tapmışdır. Xalqın həyata münasibəti, bəxt,***

-----------------------

1."Dərbənd-name" Pod.red. M.Alixanova-Avarskoqo, Tiflis, 1898

*tale, xöşbəxt həyat barədə dünyagörüşünü əks etdirən, xeyirin şər, haqqın haqsızlıq üzərində qələbəsini, ədalətin, zəfərin təntənəsini göstərən və təbliğ edən bu əvəzsiz epik incilər Dərbənd folklorunda yetərincədir: "Dərbənd xanının qızı", "Üç qardaşın bacısı", "Xuçni qalası", "Sərkəni kəndi", "Dürx mağarası" kimi əfsanə və rəvayətləri, "Zümrüd quşu", "Şahzadə Yusif və Ceyran qızın nağılı", "Ata vəsiyyəti", "Molla Dursunalı", "Sevimli qardaşlar", "Çaqqal padşahın nağılı", "Dağlar qızı Sevda", "İyid Eldar" kimi nağıl nümunələrini buna misal göstərmək olar.*

*Xalqın həyatı, güzəranı, adət-ənənəsi, yaşam tərzi haqqında maraqlı hadisələri özündə əks etdirən Dərbənd nağıllarında padşah, hökmdar, vəzir, molla, qazı və başqaları ilə zəhmətkeş xalq nümayəndələrinin qarşılaşmasından, ictimai haqsızlıq, ədalətsizlik, yoxsulluq, xöşbəxt həyat axtarışlarından bəhs edilir. Bu nağılların baş qəhrəmanları öz ağıl, ədalət, insaf, vicdan, doğruçuluq və xeyirxahlıqları ilə şər qüvvələrə qalib gəlir, yüksək mənəvi keyfiyyətləri hesabına öz istəklərinə nail olurlar. Xalq bu qəhrəmanların şəxsində öz arzularını təcəssüm etdirir, real həyat həqiqətləri, ictimai-siyasi həyat haqqında fikirlərini qabarıq şəkildə göstərir.*

*Epik janrlar, xüsusilə nağıllar xalq təfəkkürünün əvəzsiz xəzinəsi olub, Dərbənd türklərinin milli xüsusiyyətlərini, onun adət-ənənəsini, məişətini, ümumiyyətlə, mədəniyyətini öyrənmək baxımından tarixlə, uzaq keçmişlə bağlı olsalar da, öz müasirliyini, aktuallığını indi də itirmirlər. Bu nümunələr hər bir insanın, xüsusilə gənclərin və uşaqların həyatında misilsiz rol onyayırlar. Belə ki, bu nağıllar onlarda vətənə, doğma yurda, ata-anaya, insanlara məhəbbət, pisliyə, qorxaqlığa, satqınlığa, xəyanətə, tənbəlliyə, yalançılığa qarşı nifrət, kimsəsizlərə, gücsüzlərə, arxasızlara hörmət və mərhəmət kimi nəcib hisslər aşılayır.*

Lətifələr. ***Dərbənd folklorunda xalqın həyat və məişətindən doğan duzlu-məzəli lətifələr çoxdur. Bu lətifələri tipinə görə, əsasən üç yerə bölmək mümkündür:***

***1. Molla Nəsrəddin haqqında lətifələr.***

***2. Bəhlul Danəndə haqqında lətifələr.***

***3. Lokal (məhəlli) xarakterli lətifələr.***

***Molla Nəsrəddin lətifələri ümumazərbaycan xarakterli olub xalq arasında dərin mənası, hikməti ilə daha çox seçilsə də, lokal (məhəlli) səciyyəli lətifələr də öz koloriti, duzluluğu ilə diqqəti cəlb edir: "Səməd dayının elçiliyi", "Lal gəlin, kar gəlin", "Eşşək olacax", "Səbr daşı", "Birinci dəfə durmazdım", "Yəqin sizdə adətdir" lətifələri bu tip lətifələrdəndir. Belə lətifələrdə istehza, kinayə, rişxənd, incə yumor, lağaqoyma, ələsalma, rusvayetmə və s. bədii üsullar qabarıq nəzərə çarpır. Bu lətifələrdə iştirak edən personajların dili, danışıq tərzi onların dünyagörüşlərinə, şüurlarına, ağıl və dərrakələrinə, hazırcavablığına uyğun gəlməklə bərabər, həm də onların hansı təbəqəyə mənsub olduqlarını və psixologiyasını da özündə əks etdirir: "Bir kişinin adını eşşək quymuşdular. Hamı unu "eşşək" diyə çağırırdı. Axırda bu addan bezən kişi kəndün ağsaqqallarını evinə yığıb didi:***

***– Ey ağsaqqallar, gelün siz mənim adımı dəgişün, hamı məni "Eşşək" – diyə çağırır. Belə qalsa, arvadum məni indidən sonra eve qoymaz. Ağsaqqallar ona evdən çıxmağı məsləhət gürüllər. Məsləhətdəşib "Eşşək" adlanan kişini evə çağırır və diyillər:***

***– İndidən sonra sənin adın Qoduq olacaq.***

***Təzə adı Qoduq olan çox razı oldu, ulara yimax – içmax verdi. Sonra undan arvadı soruşdu: "Di gürüm, ağsaqqallın sənə təzə nə ad verdi?" Kişi didi:***

***– İnnən sonra arvad, mənə Qoduq diyinən. Doğurdan da, gözəl addı? – diyə Qoduq arvadına sual verdi. Arvadı özünnən çıxdı:***

***– Ay dəli, heç bilmirsən ki, Qoduq da iki ildən sunra eşşək olacaq?”***

Lirik janrlar. ***Lirik növün janrları olan holavalar, sayaçı sözlər, mərasim nəğmələri, laylalar, bayatılar və ağılarda xalqın arzu və istəkləri, düşüncələri bütünlüklə real məzmundan ibarət olur. Bu janrlarda xalqın, sadə əmək adamlarının sevgisi də, nifrət və kədəri də epik növün janrlarına nisbətən daha konkret, daha dəqiq verilir. Bu janrlar içində daha populyar və geniş yayılan janr isə bayatılardır. Hər biri bitkin bir əsərə bərabər olan bu bayatıların hər birində dərin bir məna, mükəmməl bir fikir verilir. Dörd misralıq bu bayatıların hər misrasında onu yaradan xalqın ürək döyüntüləri, sevinci, kədəri, vətən həsrəti, sevgisi, məhəbbəti, zəmanədən şikayəti, dostluğu və s. hissləri öz əksini tapmışdır:***

***Dağlarda gəzən mənəm,***
***Əhdim var, bəzənmərəm.***
***Ürəkdən yaralıyam,***
***Çox dərdə dözəmmərəm.***

***Dərbənd yulu şüşədi,***
***Dərbəndə gün düşədi.***
***Dərbənddəki yarımın,***
***Gözləri bənövşədi.***

***Bayatıların yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri aşağıdakı bu bayatıların da ruhuna hakimdir:***

***Əzizim dalda gəzər,***
***Gün gedər, dalda gəzər.***
***Mərddər qabağu gözlər,***
***Namərddər dalda gəzər.***

***Su gəlib bəndə dəyər,***
***Gümüş kəməndə dəyər.***
***Sənin bir kəlmə sözün,***
***Cümlə Dərbəndə dəyər.***

Laylalarda ***isə sanki ana ilə körpə arasında əbədi məhəbbətin təməli qoyulur, onunla körpəyə ilk öncə, ən saf, ən ülvi və ən müqəddəs duyğular aşılanır. Çünki ana laylası ilə böyüyən uşağın qəlbində mərhəmət, şəfqət, vətən məhəbbəti, xeyirxahlıq və ata-anaya, insanlara məhəbbət kimi insani hisslər güclü olur:***

***Gül dolu taxtın olsun,***
***Qızıldan taxtın olsun.***
***Qardaşının toyunda,***
***Oynayan vaxtın olsun.***
***Laylay, göyçəyim, laylay,***
***Gülüm-çiçəyim, laylay.***

Paremilər: ***Atalar sözləri və məsəllər, inanmlar, tapmacalar, alqış və qarğışlar, təmsilciklər və başqa paremilər xalqın dünyagörüşün, həyatın sınağından keçmiş inam və etiqadları, həyata baxışı, eləcə də öz mentaliteti haqqında ən dolğun informasiya daşıyır.***

Atalar sözləri və məsəllər ***folklorunun əsas janrlarından biri kimi xalqın tarixini, onun bədii-fəlsəfi təfəkkürünü, inkişaf mərhələlərini, milli soyun və etnosun həyat tərzini, dünyagörüşünü, inam və etiqadını təcəssüm etdirən misilsiz dəyərə malik olan söz xəzinəsidir. Bu nümunələrdə xalqın qədim keçmişilə bağlı hadisələrə, adət-ənənələrə, hətta bəzən unudulub getmiş həyat həqiqətlərinin izlərinə də təsadüf edilir:***

***Düşmən zəif olsa da, ehtiyatı əldən buraxma.***
***Quçun buynuzu quca ağırlıq eyləməz.***
***Mullaya al demişlər, ver deməmişlər.***
***Bəynən bostan əkənin tağı çiynində bitər.***
***Xatuna qulaq asanın başına dərs olar.***
***Quca evin bərəkətidir.***
***Mullanın cibi dərin olar və s.***

***Dərbənd folklorundakı sağlam düşüncə, iti ağıl, müdrik fəlsəfə, dərin hikmət məhsulu olan, həyat təcrübəsindən***

***doğan və bədii hədəfə sərrast tuşlanan atalar sözləri və məsəllər öz məna zənginliyi və məzmun rəngarəngliyi ilə də seçilirlər:***

***Ağlı olmayana bəxt nə eylər?***
***Peşə yaddan çıxmaz, lakin incəlikləri unudular.***
***Bir öküzdən iki dəri çıxmaz.***
***Elçi çux olar, qismət bir.***
***Buş çuval dik durmaz.***
***Dili şirin, əməli bəd.***
***Olanda qat-qat, olmayanda ac yat və s.***

***Bunlarla yanaşı, Dərbənd folkloru antologiyasında toplanan atalar sözləri və məsəllərin və tapmacaların və inamların bir qismi Azərbaycanın digər bölgəsindən qeydə alınan paremik ifadələrlə, demək olar ki, eyniyyət təşkil etsə də, variant səviyyədə fərqlərə, bəzən isə ancaq lokal səviyyəyə malik olan nümunələrə də rast gəlmək olur.***

Dastanlar və aşıq yaradıcılığı. ***Dərbənd folkloru antologiyasına daxil edilmiş nümunələri içərisində dastanlar və aşıq yaradıcılığı nümunələri də mühüm əhəmiyyətə malikdir. Dərbənd aşıq yaradıcılığı, hər şeydən əvvəl, özünün janr rəngarəngliyi ilə diqqəti cəlb edir. Kitabın bu bölməsinə "Koroğlunun Dərbənd səfəri", "Şahzadə Əbilfəz və Rəna xanım" dastanı, eləcə də Aşıq Niftulla, Aşıq Minatullah, Tayırbek, Abdaraxman, Baba Babayev, Təhmiraz İmanov və başqa bu kimi aşıq və el şairlərinin müxtəlif mövzulu şeirləri daxil edilmişdir.***

*   *   *

***Dərbənd bölgəsi tarixən qədim türk milli adət-ənənələrinin həmişə ciddi şəkildə qorunduğu, kənar, yad təsirlərə çox az məruz qalan bölgələrimizdəndir. Buradakı toy və yas adətləri, bölgənin hər yerində qeyd edilən dini bayramlar, demək olar ki, Azərbaycanın digər bölgələrindən heç nə ilə fərqlənmir.***

***Oxucuların ixtiyarına verilən Dərbənd folkloru antologiyası da qədim və şərəfli bir tarixə malik olan Dərbənd bölgəsinin tarixinin, orada yaşayan türklərin adət-ənənələrinin, milli dəyərlərinin, həyat tərzinin, mentalitetinin, mədəniyyətinin və folklorunun yalnız bir hissəsidir. İnanırıq ki, antologiyada toplanmış folklor nümunələri öz janr müxtəlifliyinə, spesifikliyinə, lokal xüsusiyyətlərinə, özündə ehtiva etdiyi zəngin tarixi-mədəni informasiya tutumuna, səciyyəvi əlamətlərinə görə oxucuların diqqətini çəkəcək, folklorşünaslarının tədqiqat obyektinə çevriləcəkdir. Ən azı ona görə ki, xalq müdrikliyinin bütün incəliklərini özündə yaşadan Dərbənd folklorunda xalqını, türkçülüyü sevən hər bir kəs ruhu titrədən və insan zəkasını nurlandıran çox qiymətli incilər görə biləcəkdir...***

***HÜSEYN İSMAYILOV***
***TAHİR ORUCOV***

# I. İNAMLAR VƏ SINAMALAR

Qaydadı ki, təzə gəlin gəldiyi evin kəndarına ayaq basmazdan qabaq gərekdi baş barmağını bala batırıb astanaya sürtə. Sınayıblar ki, belə edəndə gəlinin ümrü-günü şirin keçər, özüynən xuş güzəran gətirər.

* * *

Gəlini bəy evinə yula salanda arxasınca su, un, bir də daş atallar. Su aydınlıq istəyidi, yəni gedib aydınnığa çıxasan. Un atmax da odur ki, qədəm basdığın ocağa özünlə ruzu, bərəkət aparasan. Daşı da o qəsdnən atarlar ki, geri qayıtmayasan, getdiyin yerdə qalıb qayım-qədim olasan.

* * *

Təzə duğan inəyin ağız südünün ilkini sağıb yerə axıdallar ki, südü çux olsun, beləcə sel təki axıb getsin.

* * *

Südü bişirib kərpiç üstə quyar, bir az həniri alınannan sonra içinə çalatı töküb diyəllər:

Dovşan kimi yat,
Kərpiç kimi qat.

Bir para yerlərdəsə eləcə belə diyəllər:

\- Kərpiç kimi gələsən.

Bu inam-istəklə də içinə çalatı tökülən südü ta gəlincəyə qədər kərpiç üstə saxlallar.

* * *

İşdi-şayəd, inəyin südü çəkilsə, qaratikanı incil yarpağına keçirib sərnicin altına qoyallar. Belədə süd qayıdıb əzəlki qaydasına düşər.

* * *

Bir evdə gec ayaq açan uşaq olsa, cümə günü danüzü onu qapıda yellədə-yellədə diyillər:

Adaq-badaq istəyirəm,
Şilə ayaq istəyirəm.
Besdi qucaqda durduğu,
Ay Tanrı, buna kümək ol,
Qul-qıçına dirək ol.

Sınayıblar ki, bunnan bir az keçənnən sora uşaq ayaq açıb yeriyir.

* * *

Uşaq dişini dişəyəndə düşən süd dişini, qoz qabığının arasına quyub sora verəllər özünə ki, aparsın ətrafdakı ən uzunömürlü adamın evinin damına atsın. Atan zamanda da gəzən belə desin:

Qollu-budaqlı olum,
Mən də onun çağlı olum.

Deyilənə görə, belədə həmən uşaq da uzunömürlü olur.

* * *

Çox külək əsib kəsmək bilməyəndə yeltutara un atıb deyirlər:

Çat payıva,
Get öyüvə.

Belə eləsən, külək yavaşıyıb çəkilər.

* * *

Həftənin birinci günü ağac kəsmək günahdı, deyillər ki, həmən gün ağacların ruhu ziyarətə gedər. Kim o gün ağac kəssə, ağacın ziyarətdən qayıdan ruhu hansısa bir günəsə ona sədəmə* toxundurar.

* * *

Yağış yağmayıb quraqlıq keçəndə dərin quyudan torpaq götürər, sonra onu aparıb bulağın axarına səpəllər, deyəllər, belədə yağış yağar.

--------------------

*sədəmə – ziyan

* * *

Yağış daşını külgədə saxlallar ki, quraq olmasın. Çox yağış yağıb kəsmək bilməyəndə yağış daşını çevirəllər – onda yağış kəsir.

* * *

Sağ güzün səyirməyi xeirliyədi, şaddıq tapasısan, amma bu şərtlə ki, gərək səyriyən gözünün üsdünə bir tikə çörək qoyub ürəyinnən xuş dilək keçirəsən.

* * *

Sol güzün səyirməyinin düşər-düşməzi var, atdanan güzün üsdünə qırmızı parça quyub üç dəfə deyəllər:

Şaddığa gəlibsən – buğaca düş,
Bəddiyə gəlibsən – ocağa düş.

* * *

Ev tikmək istəyəndə binə yerinə gətirib uşaq beşiyi qoyar, dövrəsinə buğda səpər, ağ pul atallar. Bunun səhəri günü gəlib binə açallar. Binənin ilk daşının altına at nalıynan qurd aşığı qoyallar ki, özülü mühkəm olsun.

* * *

Atı birində bəslə,
İkisində süslə.
Üçündə gözlə,
Dördündə oldu at,
Olmadı sat.

* * *

Örüşdən qayıdan mal-heyvanın qabağına əldə süpürgə ilə çıxmazlar. Bərəkəti qaçar.

* * *

Şər qarışannan sora nə od, nə süd, nə də un vermək olmaz, əgər versən, əvəzində şirin bir şey istə ki, evinnən bərəkət çəkilməsin.

* * *

İlaxır çərşənbədə evin işığını sübhəcən söndürməzdər. Deyillər, həmin gecə ulularn ruhu sübhəcən yurda baş çəkməyə gəlir.

* * *

Səhər açılana yaxın qarşına su dulu vedrəylə qız-gəlin çıxsa, xeyrə çatarsan.

* * *

Evdə çux azar-bezar olsa, hər yatağın altına qırmızı əsgiyə bükülmüş at nalı, bir də bişmiş yumurtaynan sarımsaq qabığı quyar, üç günnən sonra nalı kəndara atar, yumurtanı daşa çırpar, sarımsaq qabığını da ocağda yandırallar. Ocağ sünənnən sonra da bir ovuc külü sübh tezdən axar suya səpə-səpə deyəllər:

Mənası bu olsun,
Küməyi su olsun.
Sınayıblar ki, belədə azar-bezar çəkilib gedər.

* * *

Xəsdə adam tez sağalsın diyə, onun adını tutub tut ağacının kükünü burallar. Belə olanda xəsdə sağalar.

* * *

Uşaqlar asqıranda diyəllər: min yaşa, qocalarla, qarılarla sən yaşa!

* * *

Evin qapısının üsdünnən deşikli daş asanda o evdə söz-sov olmaz.

* * *

Qurxulu yuxu gürəndə, yuxunu axar suya danışıb diyəllər:
Axar su, yuxumu sənə diyirəm,
Quy, su yuxumu aparsın.

* * *

Əgər yuxunu işığa danışsan dimәlisən: "Aydınnığa yoz!". Bir para yerlərdəsə eləcə belə diyəllər: "Yusif peyğəmbər yaxşılığa yozsun!"

* * *

Axşamçağı uşağı çimizdirənnən sonra suyunu atmazdar. Həmin suyun içinə yanar kibrit atıb "şeytanı yandırdım" diyəllər. Uşaq ayılannan sora, səhər suyu atmaq olar. Yoxsa, uşağa xətər yetər.

* * *

Ev tikəndə evin binəsinə xırda pul, bir də düyü atallar ki, evdə düvlət, xeyir-bərəkət olsun.

* * *

İtki itəndə "Allah şeytana lənət eləsin, şeytanın tükünü bağladım" diyib dəsmala, ya da ipə düyün vurallar. İtkini tapannan sora düyünü açallar.

* * *

İlanı gürəndə deyəllər: "Ay heyvan, mənə dəymə, dəysən, Süleyman peyğəmbərin, Həzrəti Fatimənin yanına üzüqara gedərsən".

* * *

İlin axır çərşənbəsi heyva ağacının budağınnan balaca bir parça kəsib uşağın biləyinə bağlayallar ki, ona güz dəyməsin.

* * *

Uşağın nədənsə qorxduğunu bilməhdən ötəri qurğuşunu əridib suya tükəllər. Qurğuşun suda nəsə bir heyvanın, qurd-quşun şəklini alar. Bunnan biləllər ki, o, nədən ürpənib.

* * *

Bilməyib köynəyi tərs geyinəndə evə qonaq gələr.

* * *

Çuvaldan unu üç dəfə götürüb qoyur və diyəllər: - "Bərəkəti içində qalsın". Bunnan sora çuvaldakı unu işlətmək olar.

* * *

İki xatun bir gündə uşağa yatsa, gərək qırx gün bir-birilə kəlmə kəsməyə. Danışsa, uşağın üsdünə qırx düşər. Qırx düş-sə, qırxhaçar gətirib, onun başı üsddən üç dəfə su tükər, qırxı götürəllər.

# II. MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ

## TOY MAHNILARI

Atdar yəhərrənibdi,
Minmədim həyətdədi.
Qız atası evinnən,
Küçməyini isdədi.

* * *

Araba yula düşdi,
İpi kula ilişdi.
Sənə muşduluq deyim,
Gəlinin yula düşdi.

* * *

Ay aylandı azbara,
Yem səpərəm qazdara.
Ağ duvaq gəlin gəlsin,
Atam tikən azbara.

* * *

Məli, məli yuldaşdu,
Məli un iki başdu.
Məlini bilmək gərək,
Qəriblikdə yuldaşdu.

* * *

Ay bu qızı ükür-ükür,
Ağladarıq yarı-yar.
Ay bu qızın buxçaların,
Bağladarıq yarı-yar.

* * *

Ərəbə bəzənübdü,
Minməy isdər bu qız.
Şirin ata evinnən,
Küçməy isdər bu qız.

* * *

Evimizin dalında,
Cəhillər işdər.
Yar yarı gürəndə,
Barmağın dişdər.
Şəhərə gəlmişdi,
Əlvan gümişdər.
Tərifin eylərəm,
Adın demərəm.

* * *

Bir küynək almışam,
Gülləri qara.
Dərdinnən ulmuşam,
Dəli, divana.
Əziz qardaşdan,
Uldum avara.
Mən ağlamıyım,
Kimlər ağlasın?.

* * *

Alma atdım nar gəldi,
Kətən küynək dar gəldi.
Qapuya külgə düşdü,
Elə bildim, yar gəldi.

* * *

Yarım, yarımaşayan,
Dərdə dayanmıyasan.
Mənnən qəyrisin sevsən,
Quşa qarımayasan.

* * *

Bağa girmə, çin ulur,
Bağda gögərçin ulur.
İnanma, qız, uğlana,
Uğlan yalançı ulur.

* * *

Gəlin tuya gedək, qızlar,
Deyin yara uynamasın.
Billəm, yaddar təklif eylər,
Deyin yarə uynamasın.

* * *

Yullara qar yağsın,
Qızdar bəzənsün.
Gütürüb səhəngi,
Yula düzəlsün.

* * *

Ay azbara, azbara,
Yem səpərəm qazdara.
Qardaşa gəlin gəlsin,
Babam tikən azbara.

* * *

Səməni nazlı gəlin,
İncə belində kəmər.
Bəzəkli nəlbəkidə,
Baharın elçisidir.

* * *

Şəkərbura, paxlava,
Bəzək verir xunçaya.
Bu tuy necə yaraşır,
Mənim yurduma.

* * *

Qızlar əlində xına,
Xunça düzür yan-yana.
Tuylar necə yaraşır,
Bu Dağısdana.

* * *

Yurdumuza yaz gəlir,
Tez barışsın küsənnər.

Taleh sizə yar ulsun,
Sevilənnər, sevənnər.

* * *

Evlərimiz bəzənsin,
Tuy-bayrama qarışsın.
Hər həyətdə bir tunqal,
Bir-biriylə yarışsın.

* * *

Get, bacım uzatıram,
Taxtıvı bəzətirəm.
Sənin taxtın mübarək,
Al geyib uzatıram.

* * *

Apar-apar bu qızı,
Küynəkləri qırmızı.
Aparannar şad ulsun,
Şaddığa saldı bizi.

* * *

Gəlin gedək gəlinə,
Kəmər vuraq belinə.
Gelinin incə beli,
Düşsün uğlan əlinə.

* * *

Al almağa gəlmişik,
Şal almağa gəlmişik.
Bəzətün gəlinmizi,
Aparmağa gəlmişik.

* * *

Can baci, getmə bizdən,
Qar yağar əyri dizdən.
Elçinün buyni sinsın,
Səni ayırdı bizdən.

*   *   *

Ha çin-çini, çin-çini,
Üpüm ağzuv içini.
Uçub hara gidərsən?
Məhləmiz güyərçini.

*   *   *

İstikanın ağ ulsun, muleyli,
İçi dolu yağ ulsun, muleyli.
Sən ha gelin gedəsən, muleyli,
Sənin üzün ağ ulsun, muleyli.

*   *   *

Ay işığlı geçələr, muleyli,
Güydən yağış səpilər, muleyli.
Ağlama, əziz bacım, muleyli,
Səni kimi neçələr, muleyli.

*   *   *

Tapanca lülələri,
Gümüşdən güllələri.
Cəmi Dərbəndə dəgər,
Sevdanın kəlmələri.

*   *   *

Mis qutqanın içində,
Qulbağı saz ulaymış.
Atasının əlinnən,
Gelin azad ulaymış.

*   *   *

Qızıl gül həmən uldu,
Künlüm pərişan uldu.
Düşdüm qərib yerlərə,
Ağlamax peşəm uldu.

*   *   *

Qızıl gül uyun-uyun,
Dərib sinəmə quyum.

Yer yağışdan duymayır,
Mən səndən necə duyum?

* * *

Qudalar gəldi bizə,
Yaylıqlar verdi bizə.
Biz yaylığı neyləyək?
Gelin gələrdi bizə.

* * *

Qardaşımız bir xandu,
Dağlara quş quvandu.
Qardaşımın gəlini,
Uzun saç, qara xaldu.

* * *

Gəldilər aparmağa,
Üreklər quparmağa.
Yığılın, quhum-qardaş,
Quymayın aparmağa.

* * *

Qızıl güllər əréndə,
Tüküləydi dərəndə.
Yarpax kimi əsirdim,
Yar qapıdan girəndə.

* * *

Ərəbələr quşavar,
Navurçalar daşavar.
Ağlayın, anam-bacım,
Gəlin yula düşəvar.

* * *

Quda, gelmişik sizə,
Hürmət eyləyin bizə.
Hindiyəcən qız sizdə,
Hindi aparrıx bizə.

* * *

Baxdun mübarək, bacım,
Taxdun mübarək, bacım.
Ağ ələ əlvan xına,
Yaxdun, mübarək, bacım.

* * *

Bu mahnılar qız küçəndə uxunardu. Bu mahnılarını süzdərini də, mahnısın da xalx bəsdələyib:

Ha çin-çini, çin-çini,
Üpüm ağzın içini.
Uçub handa gedəsən,
Məhləmiz giyərçini.

* * *

Ay çətiri, çətiri,
Üsdüm üsdə ətiri.
Qiyab evə gələndə,
Gəlin tükər ətiri.

* * *

Qız bacım uzatıram, muləyli,
Al bəzək bəzətirəm, muleyli.
Ərəbə bəzənübdi, muleyli,
İldirça çətiriynən, muleyli.

* * *

İstikanın ağ ulsun, muleyli,
İçi dolu yağ ulsun, muleyli.
Sən ha gəlin gidəsən, muleyli
Sənün üzün ağ ulsun, muleyli.

* * *

Ay işıxlı geçələr, muleyli,
Güydən yağış səpələr, muleyli.
Ağlama, əziz bacım, muleyli,
Səni kimi neçələr, muleyli.

* * *

Alçalar düğün eylər,
Bilmirəm nə gün eylər.
Qardaşsuz qız küçənnər,
Bayramın bu gün eylər.

* * *

Tut ağacı buyunca,
Tut yemədim duyunca.
Yarı xəlvətdə gürdüm,
Danışmadım duyunca.

* * *

Evlərinin dalı qaya,
Qayadan baxallar aya.
Sənsiz keçən günnərim,
Gəlməz heç zaman saya.

* * *

Get bacım, sağlığiynən,
Gül apar yaylığiynən.
Səni gəlin eylərəm,
Qardaşum sağlığiynən.

* * *

Ağlama, abır eylə,
Bir azca sabır eylə.
İndi səni aparar,
Bu sahat, sabır eylə.

* * *

Qiz səni, çinçə səni,
Salallar güncə səni.
Güncdəki şaxmar ilan,
Qurxuram sanca səni.

* * *

Qızılgül həşəm uldu,
Qəlbi pərişan uldu.

Düşdün qərib yerlərə,
Ağlamax peşəm oldu.

* * *

Arabanı bağlayın,
Dürd tərəfin bağlayın.
Atasuz küçənnərin,
Buğçaların bağlayın.

* * *

Ay bu qız yarı-yar,
Ağladarux yarı-yar.
Bu qızın sürmələrin,
Bağlayarux yarı-yar.

* * *

Qəriblih yaman ulur, muleyli,
Saralıb saman ulur, muleyli.
Mən düşmüşəm bu dərdə, muleyli,
Siz düşsəz, yaman ulur, muleyli.

* * *

Küynəyim utdu menüm,
Güzüm bulutdu mənim.
Mən bir baxtavar qızdım,
Baxdum qəyitdi mənüm.

* * *

Gəlinnər gəldi bizə,
Yağmurrar verdi bizə.
Biz yağluci neyləyəh,
Gəlin gərəhdi bizə.

* * *

Dağlar bağumdu mənim,
Qəm yaylağumdu mənim.
Dindirsən qan ağlaram,
Yaman çağımdu mənim.

* * *

Şixların ucağında,
Qurannar qucağında.
Baş quyub can verəydim,
Şirin yar qucağında.

* * *

Qardaşım **hannan*** gəlir,
Aylanıb damnan gəlir.
Qultuğında "Quranı",
Mulla yanınnan gəlir.

* * *

Yar gedipdi, yanıram,
Gedən günün sanaram.
Gidəndə küsdürmüşdüm,
Gəlsə, künlün alaram.

* * *

Tərəg kükü yerdədi,
Bəhəri yərlərdədi.
İsdəyibən yar sevdim,
Qərib ülkələrdədi.

* * *

Alma atdım, al, uğlan,
Al cibinə sal, uğlan.
Al diyəndə almadın,
Hindi yana qal, uğlan.

* * *

Qara-qara quzular,
Xırmanda dayanıpdı.
Yarı ulmayan uğlan,
Şərməndə dayanıpdı.

-----------------

***Hannan –** hayannan, haradan.

* * *

Yar yara suvqat verər,
Gül verər, çiçəh verər.
Əğər suvqat tapmasa,
Yarıb ürəyin verər.

* * *

Yarı yuxuda gürdüm,
Mənnən küsübdü gürdüm.
Məhəbbəti unudub,
Əlin üzüpdü gürdüm.

* * *

Ağ küynəyi lillü yar,
Səni sevən mənəm, yar.
Aləm səni sevsə də,
Sənə qalan mənəm, yar.

* * *

Bağça bar üsdən gələr,
Həyva nar üsdən gələr.
Eləvay qalmış canım,
Hamı yar üsdən gələr.

* * *

Ağ günü ağartmısan,
Rənğlərin saraltmısan.
Çadranı başa çəkib,
Sən niyə saralmısan?.

* * *

Açın pərdə yanını,
Qiyav gürsün gəlinı.
Qiyav gürcəh gəlini,
Halal eylər malını.

* * *

Durna gedər ay, ilnən,
Qarrı dağlar üsdüynən.

Apar yara salamımı,
Mənim yazıx dilimnən.

* * *

Axşam uldu, qaş qaraldı,
Dünya başıma daraldı.
Heyva kimi saraldım,
Yetir Allah, yara məni.

* * *

Axşamnan kəsdilər qara quyunu,
Duyuncan gürmədim yarın buyunu.
Mən biləydim, yar vəfasız ulduğunu,
Belə bilsəm bu yerrərə gəlməzdim.

* * *

Qızdar bilir qızılgülün ətrini,
Qül alub satmağun zamanı gəldi.
Yarum vərdi üzgələrə sirrini,
Baş alub keçməyin zamanı gəldi.

* * *

Tuyun mübarəh ulsun!
Almalu dağlar!
Almalu dağlar!
Gəlin, mubarəh ulsun!
Yaşıl dağlar!
Yaşıl dağlar!
Qardaşa aldıx gəlin,
Almalu dağlar!
Almalu dağlar!
Ay tuyunuz mubarəh.
Yaşıl dağlar!
Yaşıl dağlar!
Qardaşa bey deyəllər,
Almalu dağlar!
Almalu dağlar!
İpəh şalvar geyəllər,

Yaşıl dağlar!
Yaşıl dağlar!

* * *

Axşamnan qar yağsın,
Əyri düzəcən.
Üzülsün bulaxdan,
Yulu qızdarın.
Duldurub səhəngi,
Quyar, çiyninə.
İşlər barmaxları,
Qolu qızların.

## Oğlanla qızın deyişməsi

Ay qız, Qaradağlısan,
Künlü gülə bağlısan.
Elçimi gündərirdim,
Eşitdim adaxlısan.

Qız da, uğlan ürəyincədisə, səsində güyərçin ədası cilvələndirə-cilvələndirə uğlana cavabını belə yetirər:

Qaradağlı deyiləm,
Gülə bağlı deyiləm.
Gündər gəlsin elçini,
Mən adaxlı deyiləm.

## Ağılar, yas deyimləri

Cəhil adam üləndə xatunnar tüklərin dartıp didib, üzün cırıb dizlərin dügüb güyərdərdilər və “vəxsey-şəxsey” diyib yıxılıb qalardılar. İndi isə elə eləmillər, ancax yaman ağlamax və çığırmax indi də var:

Can, əzizim atam,
Evimizin bərəkəti atam.
Bizi kimə tapşırdun, atam,
Sənnən necə ayrulax atam?

* * *

Can, güzümün işığı anam,
Canım dərmanı anam.
Can, xanım-xatun anam,
Can, dərdimin dərmanı anam,
Can, başımızın aqili anam,
Can, qarnı qubarrı anam.

* * *

Can, bizi yetim quyanım,
Canın turpağa salanım.
Can anam, canan anam,
Bu dərdi necə hal eləyim?
Qardaşımı necə lal eləyim?

Sən bu balalaruvu
Kimə tapşırdun?
İşixlı dünyadan,
Tez küçən anam.
Dünyadan tamahın,
Tez üzən anam.
Duxturrar dərmanı,
Səbəb ulmayan anam.

* * *

Ürəyi qubarrı anam,
Qarnı dərmannı anam.
Can, muradı canında,
Qalanum anam.

* * *

Can, urman dilinnən,
Ulanım anam.

Can, bimar ulan anam.
Can, bədbəxt anam,
Can, həm atam,
Həm də anam,
Ulanım anam.

* * *

Can, bizi yetim,
Quyanum anam.
Güzəl canın turpağa,
Quyanım anam.

* * *

Can, anam, can anam,
Bu dərdi necə həll,
Eləyim, anam,
Qardaşımı peşman,
Eləyən anam.

* * *

Evümizin yaraşığı anam,
Başumuzun tacı anam.
Günurta qunağı anam,
Mən səni aparmağa,
Quymaram, anam.

* * *

Bir küynəh almışam,
Gülləri qara.
Dərdinnən ulmuşam
Dəli-divana.
Əziz qardaşımnan,
Uldum avara,
Bəs mən ağlamıyım,
Kimlər ağlasın?.

Əgər quhum uğlan ülsə, diliynən anası, bacısı belə diyər:

Can qardaş, nakam qardaş,
Bizi biyabır eləyən qardaş.

Gelinivə hindi qardaş,
Biz nə deyəh, qardaş?.
* * *
Qara saçın,
Qara yerə,
Quyan qardaş.
Cavan canin qara yerə,
Quyan qardaş.
Can qardaş, sən ülüncən,
Bacın üləydi.
Can qardaş,
Sən ülüncən,
Anav üləydi.
Gəlni qarageyim,
Ulan qardaş.
Nağarası tərs,
Düyülən qardaş.
* * *
Xınası qara,
Buyanan qardaş,
Tuyu yasa,
Çevrilən qardaş,
Qiyav partali,
Gürməyən qardaş.
* * *
Ayağnan gedib,
Pasılka ulub.
Gələn qardaş,
Danışan dili,
Lal ulan, qardaş.

Evlənməyən qız üləndə diyəllər:
Can balam, muradı,
Canında qalan balam.

Gəlin ulub ərəbəyə,
Mimməyən balam.
Əlinə əlvan xına,
Yaxmayan balam.
Anasın belə,
Yanduran balam.

* * *

Dəyirmanın püskünə,
Çaxmağına, üsdünə.
Özün üldün qutardın,
Məni quydun pis günə.

* * *

Aman aman uldu gəl,
Halım yaman uldu gəl.
Bir də səni gürəydim,
Axır zaman uldu gəl.

* * *

Aşıq nəşəli yerdə,
Gül-bənövşəli yerdə.
Sənin güzəl bədənin,
Qaldı düşəli, yerdə.

# AĞILAR

Buxara qurum ular,
Od yanar qurum ular.
Oğlu ülən anaya,
Yaman çox zülüm ular.

Əzizim gələr keçər,
Ahular mələr keçər.
Oğulsuz anaların,
Qəlbinnən nələr keçər.

Şalım qara buyandı,
Uçu yerə dayandı.
Bizim ah-naləmızdən,
Güydə fələh uyandı.

Kərbəlada gül ağlar,
Gül ağlar, bülbül ağlar.
Belə uğul itirən,
Tükər başa kül, ağlar.

Taxtın qurmağa qəldım,
Halın surmağa qəldim.
Yaraların hardadır?
Məlhəm ulmağa gəldim.

Ağlarıx ağlar kimi,
Dərdımız dağlar kimı.
Xəzan ulduz tüküldüz,
Viranə bağlar kılımı.

Aşıq, uralı ullam,
Başı qaralı ullam.
Sağ yanında yer elə,
Mən də uralı ullam.

Dağların qarı mənəm,
Gün dəysə, ərimərəm.
Qəbrim quzeydə qazın,
Cavanam, çürümərəm.

Eləmi qızın ağlar,
Qaynar qazanın, ağlar.
Bu dərdlərnən ülərəm,
Qəbrimi qazan ağlar.

Ürəhdə yara sızlar,
Hovlanan yara sızlar.
Yaralılar dərdini,
Nə bilsin yarasızlar.

Eləmı üzü qannı,
Ayağı, dizı qannı.
Canı yanan, ülən bız,
Tutdular bizi qannı.

Sən mənim, ayım bacı,
Baharım yayım, bacı.
Vətən üçün can verdim,
Eləyin vayım, bacı.

Əlımdə kaman ağlar,
Eyləyər fəğan, ağlar.
Ölmə, güzüm giləsi,
Dalınca anan ağlar.

Yaylığın ağı mənnən,
Əl çəkməz yağı mənnən.
İlahi, sən rəhm elə,
Gütür bu dağı mənnən.

Xan Arazın qacıyam,
Ocaqların sacıyam.
Əlimdə xonçalarla,
Güzü yaşlı bacıyam.

Eləmi canım qədər,
Dərd gələr canım qədər.
Ürəhdən yaralandım,
Güzümnən qanım gedər.

Bulandı güz yuvası,
O qızdı süz yuvası.
Hər kim yuva dağıdır,
Dağılsın öz yuvası.

Muğana gəl, yüz yul var,
Yüz karvan var, yüz yul var.
Yağı bildiyin elər,
Sən Allaha yüz yalvar.

Qarabağın bağı var,
Bustanı var, bağı var.
Əl saxla, qarı düşmən,
Məndə uğul dağı var.

Ürəyimdə yara var,
Üsdü xal-xal yara var.
Aç sinəmin üsdünü,
Gür yammamış hara var?

Gürünən qara qaşdı,
Hürülən qarğı saşdı.
Pünhan ağla, güzdərim,
Yağı gürməsin yaşdı.

Dəyırmana pər dəydı,
Karvan küçdü, pərdəydi.
Anamın şax qamətin,
Uğul üldü, dərd əydi.

Bustanda tağım ağlar,
Eşmə, yarpağım ağlar.
Sağamsa, üzüm ağlar,
Ülsəm, turpağım ağlar.

Əzizinəm, ay qardaş,
Dərdinə qalam, qardaş.
Tup altında bürc sındı,
Uçuldu qalan, qardaş.

# SAYAÇI SÖZLƏR VƏ HOLAVARLAR

## SAYIÇI SÖZLƏRİ

Saya, saya sayadan,
Quyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığı mayadan.

Nənəm, a ağbaş quyun,
Qarlı dağlar aş, quyun!
Yağından pilov ular,
Quyruğundan aş, quyun.

Fermanın güzu, quyun,
Dulan gəl, düzü, quyun,
İldə bir əkiz gətir,
Sevindir bizi, quyun.

Quyunun özü gəldi,
Dulandı düzü gəldi.
Çubanın qucağında,
Bir əkiz quzu gəldi.

Nənəm, a nazlı quyun,
Qırquvul güzdü quyun,
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü, quyun.

Çal, kürə, əbrəş quyun,
Dağlarda yerləş quyun.
İşdi yerin dar ulsa,
Buynumda əyləş, quyun.

Quyun deyər: kür mənəm,
Hər qapıdan girmənəm.
Girdiyim qapıları,
Bərəkətsiz gürmənəm.

Quyun deyir: - quyunam,
İçi dulu uyunam.
Qışda geyrəm kürkümü,
Yaz ulacax suyunuram.

Canım quyun qarası,
Yunu məfrec arası.
Yağlı südün sağaram,
Yazın-yayın arası.

Saya saya sayadan,
Bir səs gələr bacadan.
Bacanı bərk bağla sən,
Qurxma gəlməz sayadan.

Saya, saya sayadan,
Quyun gələr qayadan.
Sayaçıya pay verin,
Damazdığı mayadan.

Nənəm a şimşək quyun,
Yunu bir düşək quyun.
Dağdan evə gələndə,
Eyləyər güvşək quyun.

# HOLAVARLAR

Quşquda kəl üküzüm,
İmana gəl, üküzüm,
Şumla yeri, çıx başa,
Sunra dincəl, üküzüm.

Hayda, a balım hayda,
Kutanım, kalım, hayda.
Qara şumu vur başa,
Dincələh gələn ayda.

Qara kəl samandadı,
Əyəsi amandadı.
Tərpən, şumu qurtarax,
Kutanın dabandadı.

Qara kəlim naz eylər,
Quyrux bular, tuz eylər.
Ay qarannıq gecədə,
Kutanı pervaz eylər.

Qara kəl asda gedər,
Dulanar düzdə gedər.
Ay qarannıq gecədə,
Astaba asda gedər.

Qara kəl gedir işə,
Qurxum var bağrı bişə.
Nə ula bir bulud gələ,
Güydən yerə nəm düşə.

Qara kəlim aranda,
Çıxar gün qızaranda.
Xudah murada çatar,
Çəmənnən var alanda.

Qara kəl quşa gəldi,
İşdədi, cuşa gəldi.
Kutan bağrı qırıldı,
Zəhmətim başa gəldi.

# III. ƏFSANƏ RƏVAYƏTLƏR

## XUÇNİ QALASI

XIV-XV əsrdə Dağıstanın şimali-şerq hissesinde İbraqim addı bir şah özünə büyüh bir quşun tuplayıb bir neçə yerlerdə müharibələr aparır. Her muharibede İbraqim üsdün gelirmiş. Dağıstanın bir çux payına hükmüranlıq edirmiş. Bu İbrahime xəbər çatır ərazidə yaşayan yeddi qardaşdan.

Onnarın büyüh qardaşı Salmana İbrahim bele bir məktub yazır:

"Mən Dağıstanın şimali-şerq hissesinin hükmdarıyam. Eşitdim ki, siz de bir qedər quşun toplayıb Tabasarana hükmdarlıq edirsiz ve heç bir başga hükmüdara baş eymirsiz. Meninə, bele iş yaramaz. Ona gürə mən məsləhət gürürəm ki, sizin qoşununuz bizim qoşunla birləşsin, siz də Tabasaran ahalisiynen mənim hökmdarlığıma keçin".

Həmən məktuba Salman bele cavab verir:

"İbrahim biz Tabasaran turpağında anadan olmuşux. Tabasaran ana vetenimizdir. Siz hele fikir etməyin ki, bizim qoşunumuz azdır. Xeyr, siz o baredə arxayın olunuz. Tabasaranda olan Salmanın qoşunnarı sizin kimi beş qoşuna cavab vermeqe hazırdır. Tabasanın əlli min ahalisi bizim arxamızdadır. Bizdə nəfəs qalmışken biz heç bir kese baş eymeyeceyik, ve bizim turpağlara heç bir kesi buraxmayacağıq".

Bele cavab alan İbrahim tez qoşunu yığır ve Tabasarana teref yola düşür. Orda bir neçe vaxt qalır. Sonra ise Darvaq deredən keçib Xuçniye yaxınnaşır. İbrahimin qoşunnarının arasında süz keçir ki, yeddi qardaşın hereketlərin hökmü artır, qoşun tuplanır. Onnar qorxullar. Axır ki Herbe-quran deyen yerdə muharibe başlanır. Dava iki gün gedir. İki terefdən çuxlu əsgər qırılır. İbrahim qalib gelmədiyini başa düşüb tez dala çekilir. Hemin kendin üsdündəki erazilərdə binə vurub uturdu.

İbrahim başa düşdü ki, gücle, qüvvə ilə qalib gele bilməyəcək. Burada bir hiylə işlətmək lazımdır. Yeddi qardaş qoşunun əhvalatını üyrenmek üçün casus gündərir. Dilençi paltarını geyib bir casus Salmanın qoşununa girir ve tez-tez her işi üyrenir. Bu casusun adı Hafiz imiş. Her şeyi üyrenən Hafiz tez İbrahimin yanına gayıdır. O deyir ki, qoşunun büyühləri yeddi qardaşdır. Onnarın güzəl ve igid bacısı Zeynab da var.

Qalanın ətrafında çoxlu qoşun var. Muharibe yarağları Zeynabın elindedir. Casus məsləhət gürür ki, Zeynabı elə kəçirmək lazımdır. Yuxsa heç bir iş edə bilməyəcəyik. Bu süzdəri eşidən İbraqim casusun süzdəri ilə Zeynaba aşiq olur. Heç şeyi yaddan çıxarıb İbraqim gecə-gündüz Zeynabı yada salır. Axırı bir gün bir neçə şəxs alıb özünnən İbraqim Yağdıq kendinə geldi. Yağdıqda İbraqim eşidir ki, yeddi qardaşlarının quşununun sayı gündən-günə artır.

Axşam İbraqim Yaqdıqda kendli Əskenderin evine qunax gedir. Onun evində uzun söhbət edir. Əskendər hemən kendin varrı, sannı adamlarınnan biri idi. İbraqimə kümәh etməqe razılıq verir, Zeynab xanımi ele keçirmək üçün bir göpəgirən qarını çağırır. Bu qarının adı Melek idi. İş-hadisəni başa düşən qarı tez özünü Zeynaba çatdırdı. Qarı İbraqimdən çux-çux danışdı. Zeynabın bu süzlər xuşuna gelmedi. Qarı bildirdi ki, İbraqim isdeyir her qardaşı Tabasarının bir maqalının büyükü quymağa, Zeynabı ise özünə arvad etmeye. Bu işdəri etməh üçün gereh Zeynab qarşılıx etməsin. Bunnarı eşidən Zeynab qarıya çox pis süzdər dedi ve onu çıxarıb evdən quvdu. Burdan çıxan qarı yeddi qardaşın əskərlərindən Xalil, Omar ve Rasula rast gelir. Əskerlər qarıdan suruşur hara getdiyini, hardan geldiyini. Qarı bunnara deyir ki, yetim arvadam, bir tikə çürek axtarırdım. Bele süzdəri eşidən əskərlər qarını buraxdılar.

Zeynabın yanınnan neticəsiz qayıtdığı Melek qarı İbraqimin ve Əskendərin yanına gelir ve başına geldiyi hediseleri bunnara danışır. İbraqim ve Əskendər məsələhətleşib qarını yene Zeynabın yanına gündərillər. Melek qarı yene bir hal ilə

Zeynaba özünü çatdırır. Zeynab hiyleger qarını yene gürüb quvmax isdeyir. Qarı bunu başa düşüb tez-tez özündəki şeyleri ve İbraqimin şeklini ona güstərir. Şəkli gürəndə, Zeynab özünü itirmiş bir halda olur. Onnar tez-tez içeri otağlara girir. Burda sühbət edillər.

Qarı Zeynaba İbraqimin mektubunu verir. Mektubda bele yazı var idi:

"Muharibe aparmağ, qan tükmeh vehşilikdir. Gereh məsləhət ulsa, güzəl bir heyat qurub yaşayax".

Bu süzlər Zeynab xanımın xuşuna gelir. Ancax o, qarıya deyir ki, qardaşdarı heç bu məsləhətə razı olmaz.

Hele olsa, qarı deyir Zeynaba, bele bir iş: Onnarın dava yarağını puç elə. Qarı gayıdıb gelir Yaqdığa. İş-əhvaləti süyləyir ağalarına. Onnar ise çox razı qalıllar ve qarıya çuxlu beşkeş veriller.

İbraqim davaya hazırraşır. Zeynab ise ananın vesiyyetini unutdu, veteni, qardaşları unutdu ve məhəbbəti üzünnən bunnara qarşı çıxdı. Galarada olduğu əskərlər Xalil, Omar qızın bir halda ulduğunu gürub bunu Selime dediler:

Ancax Zeynabdan bular heç ne üyrene bilmedi. Zeynab ise her yeri otağbaotağ gezir, ne ise düşünür. Birdən yarağlar otağına geldi, orada tez bir büyüh duzdu su olan qabı qaldırıb tükdi. Seher açılanda İbraqimin qoşunu hücumuna keçdi. Yeddi qardaşların qoşunu bu hucuma davam edə bilmədi, çünki yarağlar paslaşıb puç ulmuşdu. Qalmış əskerlər ile yeddi qardaş qalın meşelige girdi.

Burda yığıb əskerləri Salman məsləhətdəşdi. Xəlilə ve Omara dedi ki, gedib üyrensin görək nə təhər İbraqimin qoşunu bizə qalıb gəldi? Əskərlər gedirlər ve bir-iki günnən sonra gelib Salmana bele bir ixtilat edillər. Yadıq kendində Melek adlı köpəgirən bir qarı var ve dövlətdi Əskendər. İbraqim onnarın hiylesiynen Zeynabı ele keçiribdir. Zeynab xanım da İbraqimə aşiq olub bele iş gürüb. Tüfənglərə duzlu su tüküb. Bunu eşidən qardaşdar özderini itirir. Onnar yığıb qo-

şunu qalaya hücum edir ve tez galanı ele keçirir.

İbraqim öz qoşunu ilə qaçmağda olur. Ancax Derbend terefdən gelən bir başga qoşuna rast olub dava edir. Bu davada İbraqimin qoşunu qırılır. Özü də ölür. Yeddi qardaş bu hadisələrden sonra Xuçnidən çıxıb gedir. Öz mülklərini, Xuçin, Hepil, Darvaq, Ersi, Dyubek, Zil kendlere bağışlayır. Heresi bir kendde yaşayır. Tabasarın bu hisseside olduğu ahali o yeddi qardaşlardandır.

## ŞƏRKƏNİ KƏNDİ

Rəvayətə gürə, bizim eradan qabaq Dərbənd dairəsinin, Himlipdi kəndi ilə, Zidyan-Bilhəti kəndi arasında Şərkən adlanan bir kiçik şəhər var imiş. Bu şəhərdə qırx nəfər ala-paça atdı var imiş. Bu atdılar hər tərəfi zəft edib, var-dövlət sahibi olub yaşayırmış. Şəhərin adını Şərkən ona gürə quymuşdular ki, burada hündür bir qayanın üsdündə minərə var idi. Ordan hər yerə səs yayılırdı. Şərkəndin əsli mənası "xəbər yayan" deyən süzdür. Bu şəhərdə qırx atlıya qullux etmək üçün bir neçə kəndli yaşayırdı. Şəhər əhalisi isə alver ilə məşğul olurdu. Bu şəhərdə Xəcəli adında bir iyid kişi var idi. O, arvadı ilə tək yaşayırdı. Bir gün bunnarın hər ikisi, ər-arvad, qızını Durbax kəndinə ərə vermişdi. Odur ki, qızını gürməh üçün o kəndə getmişdilər.

İndi sizə kimnən deyim, ruhani quca baba Pirbaladan. Bu kişi çox ruhani, hər yerdə hürməti olan, Allahın altında günahsız bir kişi idi. O, şəhər yulu ilə həcə getmək üçün yula çıxmışdı. Onun yulu Şərkənin qərb tərəfinnən, güzəl bir çəmənnihdən keçirdi. Çəmənniyin, cənub tərəfində güzəl bir çeşmə var idi. Pirbala neçə dəfə bu çeşmədən su içib, namaz vaxdı namaz qılarmış. Bu dəfə də o, çeşməyə tərəf yullandı. Ancax gürüş heç də qabaqkilərə oxşamadı. Çeşmənin üsdündə qırx nəfər alaçada atlı məclis qurub, kəf-kifayətlə şarab içirdilər. Pirbala əvvəla kiridi, sonra yaxınnaşıb salam verdi. Pirbala ilə

yenə bir üç nəfər var idi. Bunnarın başçısı ayağa qalxıb Pirbalanı qarşıladı. Ona əlindəki şərab piyaləsini uzatdı. Pirbala yalvarmağa başdadı: – Mən bir ruhani adamam, özüm də həcə getmək üçün yula çıxmışam, mən şərab içmirəm, məni bağışlayın! Quçuların başçısı süzünnən dünmədi. Kişini dal üstə yerə yıxdılar. Şarab piyaləsindəki şərabı onun buğazına tükdülər. Sonra qəh-qəhə ilə gülüb: - "Quca, həcin mübarək!" – deməyə başdadılar. Pirbala kişi ayağa qalxıb üzünü qiblə tərəfə tutdu:

– Allah, sənə əyandır ki, bu sərsaqlar məni nə hala saldılar. Odur ki, sənnən xahiş edirəm ki, bu şəhəri bu gecə yerlə-yeksan edəsən.

Quçular qucaya xeyli güldülər, sonra onu buraxdılar. Pirbala öz yuluna davam etdi. O, axşam yetişdiyi üçün Qayakənd addanan kənddə gecələdi. Bu kənddən Şərkəni çox güzəl gürünürdü. Səhər açılanda Pirbala kişi qunağına əhvalatı süylədi. Birdən onun güzü Şərkəniyə sataşdı. Gürdü nə gürdü, şəhərin yerində tuz-tufan yellənir, şəhərdən bir əsər qalmayıb. O, Allaha yalvarıb razılığını bildirdi. Şərkəni şəhəri belə batdı.

Gəlin indi sizə Xəcəli kişi ilə arvadınnan danışax, onnar qunaxlıxdan səhər qayıtmalı uldular. Gəlib Şərkəniyə yetişəndə nə gürdülər. Şəhərin yerində heç bir nişanə qalmayıb. Qərb tərəfdə qalanın bir darvazadan başqa bir daldalanmax üçün ev belə qalmayıb. Onnar Şərq tərəfdə qalanın bir ucqarında daldalanır, orada  yaşamağa başdayıllar. Bu yerə qəriblikdən gələn bir neçə aylə toplaşır, ev-eşik tikir, kəndin adını da, Bilhayer quyullar. İndiki Bilhədi kəndinin əhalisi içərisində Xəcəlinin nəslindən bir çux adam var.

## DÜRX MAĞARASI

Tabasaran rayonunun Dübəy kəndi ərazisində bir mağara var. Bu mağaranın əhvalatı çox qədim və uzundur. Deyilənnərə gürə, mağara 5-6 min il əvvəl olmuşdur. Mağaranın dəri-

nniyi yüz metrə bərabərdir. Oraya girəndə naməlum səslər eşidilir. Daxilində pillələri, qayalıxları vardır. Yetmiş metrə qədər endikdə, artıq heç nə gürümmür. Ətraf tam qarannıqdır. Aşağı endikcə də soyuqlux artır. Deyilənə görə, bura əjdaha, divlər məkanı olmuşdur. Sonralar bu yer müqəddəs yerə çevrilmişdir. İnanannar bura gəlib Quran da oxuyurdular. İndi də adamlar buraya nəzir olaraq pul və xalça gətirillər. Mağaranın bütün divarları xalçadır. Kimin quhumu xəsdədirsə, üvladı ulmursa, səfərə hazırlaşırsa, həccə gedirsə, buraya müxtəlif sədəqələr gətirib paylayıllar.

Hal-hazırda da bu mağara inanan və inanmayan insanların ən çux gəldiyi yerrərdən biridir. Dürx mağarası haqqında belə bir mahnı da var:

Dübəydə yerləşir Dürx mağarası,
Kəsilmir insanın ardı-arası.
Gələnnər gətirir Dürx sədəqəsi,
Yeyib-içənnərə xoş-halal olsun.

## YEDDİ QARDAŞ QALASI

Evel zamannar Xuçni böyük bir şehər imiş. Bu şehərin adamlarının boyu hündür, canlı, bedeni berk insanlar olur. Şehərə çuxlu düşmən hücum edir. Şehəri ele keçirən düşmən onu yandırır, çoxlu qaramal, qızlar, cavan oğlannar götürüb geri çekilir. Özünü düşmannan qurtarıb, meşelerdə gizlənən xalq yene burda kend quyur. Xuçni kendi get-getə büyüyür, güclü olur ve başqa kendlere hükmdarlıx edir. Xuçni yene böyük şeher olur.

Xuçnidə bir Aslan diyen usda kişinin yeddi oğlu ve bir qızı olur. Öz sənətini usda Aslan oğlannara üyredir. Oğlannar sənət üyrenib, atasınnan da addı-sannı olullar. Atası Aslan kişi, hündürboy, cannı bir insan olur. Oğlannarı ise onnan da iri insannar olur. Deyillər ki, bir camışın derisindən ancax üçünə carıq olardı. Yeddi qardaşın yeddi adı var imiş: büyükünün adı

Gaflan, o birilərin adı isə Amiraslan, Yaqub, Nevruz, Ramazan, Rustam ve Süleyman. Bacısının da adı Hüribike imiş.

Bir vaxt qelib düşmənnər Xuçni şəhərini bir ele keçirmək isdeyir. Gücü çatmasa hiyle işlədib gece girib şehəri yandırıb ele keçirirdilər.

Yeddi qardaşın usdalıqından xəbər çatır Xuçinin begi Rustam xana. Rustam xan onnarı çağırıb bele bir məsləhət görür:

– Şehərin her terefi dağlığdır, ancax şimal terefden bir yul var, o yulun ağzında gerek biz bir gala tikek. Eşitdim sizdə büyük ustalıx var. Gerek siz bu işə razı olasız. Qardaşlar razılığını bildirir, ancax xandan yeddi camış, yeddi baş qaramal, yetmiş yeddi qoyun isdeyillər, söz verillər ki, iki aya gala hazır olacağ. Rustam xan camahatla məsləhətdəşib, qardaşdar teleb etdeyini verir. Yeddi qardaş işe girişir. Dediyləri kimi iki ayda büyük bir gala tikillər. Xan ve camahat tikilişi beyenir.

Məsləhət olur ki, galada həmişə əsgər olsun. Yeddi qardaş xana deyillər:

– Biz razıyıx, bizim baciynən galada yaşamağa ve yula gözçülük etmeye. Bacısı ise xorey bişirir ve qardaşların yulunu güzləyir. Hürübikenin güzəlliyindən dildən-dilə, eldən-elə xəbər gezir. Hürünün ele saçları vardı ki, galanın divarından saçına su qabı bağlayıb çaydan su alır. Qızın güzəlliyinnən xəbərdar olan xannar, beylər ona ilçi güdərir. Ancax ki, qardaşlardan ayrılmax isdemeyen Hürübike heç kese razılıx vermir.

Qardaşdarı da bu işdən çux razı idilər. Xəbər çatır ki, İranlı Nadir şah Derbendi alıb. İranların quşununun bir hissesi Xuçni terefe gelir. Yeddi qardaş gece-gündüz güzülük edir. Günnərin bir günü İran quşunu Xuçniye yaxınnaşır. Yolun üstündə gala görüb çadırlar çekdirir ve galada kim olduğunu üyrenmek üçün bir desde əsgər gündərillər. Dar yulda gürünən iranlı əsgər galadan açılan ateşle məhv ulur. Yusif paşa iranlıların cavan serkerdesi olur. Dar yuldan ne teher keçeceyini çux fikirreşir. Çux vaxtı özü galaya yaxınnaşır, yaxınlaşdığı zaman

birdən ateş açılır. Gülle başındakı papağı atır. Yusif tez-tez geri çekilir. Özü güzəl bir cavan olur. Buna ateş açan da Hürübike olmuşdu. Qardaşdarı yatıb istirahət ədərken, qız yula güzçülük edir. Bu güzçülük edende gürür, güzəl ve cavan bir irannı galaya yaxınnaşır. Yazığı gelib, ancax papağını güllə ilə aşağı salır. Qorxusuz Yusif paşa neçə defelerle galaya yaxınnaşır. Her gün Hürübike onu ateşle qorxudur. Bir gün Yusif paşa galanın divarı üsdə güzəl bir qız gürür. O, qıza vurulur ve özünü itirmiş halda galaya yaxınnaşır. Qız ise ateş açmır. Birdən özünü lap galanın yaxınnığında gürən Yusif dala çekilir. Tez öz qoşununun çadır kendine qayıdır. Aylar keçir, ancaq Yusif paşa hücuma keçmir. Hemişə fikre gedir, Hürübike yadına düşür. Günnərin bir günü Yusife deyillər ki, onu bir köpegirən qarı quşunla birgə irandan gelib imiş. Qarı Yusifden nədən bele qəmdə-fikirdə olduğunu suruşur. Yusif əhvalatı ona danışır. Qarı süz verir, qızı ve galanı əle keçirmeqe bir hiyle edəcək. Sabahı gün qarı bir dua oxuyub galanın divarı üsde olur. Qarı evde olmayanı bilib, içeri girir. Hürübike bunu dilençi bilib ona çörey-zad verir, ancax qarı şirin dillə qızı ixtilata tutur ve evde eylənir. Sonra qıza Yusif paşanın güzəlliyinnən ve ona aşiq olduğunnan danışır. Qızın bu süzdərdən xuşu gelir. Köpeqiren qarı qıza bele məsləhət gürür, deyir ki, irannılar qayıdıllar. Amma Yusif paşa qayıdınca qızı gürmək isdeyir. Onun üçün qız qardaşdarın tüfenglerinə duzdu su tüksün. Belke qardaşları gürüb ateş açsa, onu üldürməsinnər. Qız razı olur. Her tüfenge bir qeder duzdu su tükür. Tüfənglər pas vurur. Bele çirkin iş ətdiyini qarı gelib Yusif paşaya süyleyir. Sabahı günü irannılar hücuma keçillər.

Hürübike tez qarının hiylesini başa düşdü. Üzünü qardaşdarına tutub iş, hadise necə olduğunu ixtilat edir. Qardaşdar acığlanıb onu tapdayırlar ve tez-tez yeddi qardaş minib atdarı galadan çayın o biri terefe atıllar. Xuçni şeherinin çay terefində galın meşeye girib gizleniller.

İrannılar galaya girendə orda ancax Hürübike olur. Yusif

paşa onu bu halda gürdükde fikirreşir ve bele süzdər deyir:

– Əgər sən bizdən ütrü senin qardaşdarını satdınsa, bizi də satarsan.

Tutub onun saçlarınnan galanın divarından tullayır. Qız yulun bir qırağına düşür. Ordan keçen xalq yeddi daş atıb, yeddi defe "sene nelət" deyir.

Qızın qebri 1961-62-ci illerədek qalmış idi. Uşaqlığımda men de ora çux daş atmışdım. Gala indi de qalıb – "Yeddi qardaş galası" adlanır. Qardaşdarın biri galadan atılanda, atın ayağı bir daşa toxunub. O daş da qalıb. Daşın üsdə atın izi qalıb. Yeddi qardaş gizlendiyi meşe de qalıb. Ora isə "Meçit meşe" adlanır.

## MARAĞA KƏNDİ HAQQINDA

Marağa kəndi Tabasaran kəndi ərazisində, demək ular ki, Dərbəndlə eyni məsafədə yerrəşmişdir. Öz ərazisinə gürə rayonun ən büyük şəhərrərinnən biri hesab olunur. Əvvəllər kənd beş mahaldan ibarət olub:

1. Qala – bu mahalların ən kiçiyi olmuşdur. Amma, o hündürrükdə yerrəşdiyinə gürə "Qala" adı hündür, zirvə mənasında işlədilmişdir. Əgər bı mahala uzaxdan baxılsa, o həqiqətən, qalanı xatırradır. Cənubi-şərqdən mahalı mühtəşəm qayalar əhatə edir. Hal-hazırda isə mahalın yerində xarabalıx və düzənnik yerrəşir.

2. Bu mahaldan bir qədər aşağıda başqa bir mahal – Cuğdağ mahalı yerləşir. Hal-hazırda da burda yaşayış var. Mahal dağlara meyilli yerləşmişdir. Orta məktəb və mədəniyyət evi də məhz bu mahalda yerrəşir. 1965-ci ildən 1997-ci ilə qədər kənddə çürək bişirilən yer fəaliyyət güstərmişdir. Bu bina hələ də istifadəyə yararlı şəkildədir, amma nədənsə çürək bişirilmir.

3. Çuxur mahal – dərə dibindən 100-150 metr enində məsafədə yerləşmişdir. Şimal və şərq tərəfdən mahal hündür

qayalıxlarla əhatə olunmuşdur. Onnar sanki mahalın üsdündən sallanmışdır. Elə hallar da olur ki, iri qaya parçaları qoparaq aşağı düşür və bu da evlərə ziyan vurur. Bu mahaldan asfaltlanmış Xuçni-Dərbənd yulu keçir.

4. Xələlli – bu, çox qədim mahaldır. Burada da nə vaxtsa yaşayış olmuşdur. Amma indi burada xarabalıxlar və meçitlər qalıb. O, kəndin cənub hissəsində, demək olar ki, Qala kəndi ilə eyni hündürrükdə, amma dərənin o biri tərəfində yerrəşmişdir. Uzaxdan bu mahallar bir mahala oxşayır. Amma əslində onnarın arasında çux dərin, şişman qayalıxlar və dərələr yerrəşmişdir. Düzənnik yerlərin olmamasınnan insannar yenə də yüksəkliklərə qalxarax oralarda evlər tikməyə başdamışlar.

5. Qumral mahal – Bu mahal ən büyük mahal hesab olunur. O, kəndin şərq hissəsində yerləşmişdir. Başqa mahallara nisbətən o daha düzən və geniş ərazini əhatə edir. Əvvəllər kənddə  maldarlıqla məşğul ulmuşlar. İndi isə məşğuliyyət iri əkinçiliklə əvəzlənmişdir. X əsrdən başdayaraq ərəb istilaçıları güc tətbiq edərək, Dağıstan ərazisindəki əhalini İslam dinini qəbul etməyə məcbur etmişlər. Kənddə ilk ərəb xəlifələrindən ulan Mehri ağa olmuşdur. O vaxtdan da kənd Mehağa adını daşıyır. Kəndin əhalisinin hamısı azərbaycanlılardan ibarətdir. XIX əsrin urtalarında burada  məscid fəaliyyət güstərmişdir. Buraya Hacı Molla Pənah adlı şəxs himayədarlıx etmişdir. Məsciddə o düvrdə yaşamış bir çux tanımmış adamlar dərs almışlar. Tanımmış alim və dini xadim Yusif Hacı-Ziyəddin-Əl-Kurixi-Tabasarani (məşhur ərəbşünas) bu məsciddə təhsil almış və sunralar həmin məsciddə dərs vermişdir.

Kənddə yüzlərlə yeraltı bulaqlar vardır ki, bunların əksəriyyəti də müqəddəs hesab olunur. Onnarın hər biri müəyyən bir əfsanə və rəvayətlə bağlıdır:

1. Gəlinbatan bulağı. O, 30-35 il əvvəl yeraltı çeşmə olmuşdur. Sonralar bulağın ətrafında zavod tikilmişdir. Çeşmənin yerində isə bulax tikmişlər. Bulax haqqında belə bir rəvayət var ki, guya çeşmənin yaxınnığından gəlin aparıllarmış.

Su içmək üçün dayanıllar. Gəlini isə sevmədiyi birinə ərə verirlərmiş. O da oğlan adamından gizlin Allaha yalvarır ki, onu yux etsin. Allah da onun isdəyini yerinə yetirir və o, həmin çeşmədə boğulur.

2. Nazik novurça. Belə adı onun suyunun az olduğuna gürə vermişlər.

3. Çuvuddar bulağı. Bu çeşmə Cuvudağ mahalında dərənin dibində yerləşir. Tərcümədə "Yəhudi bulağı" deməkdir. Çeşmənin suyu çux suyuxdur. Bulağı qədimdə yaşamış yəhudilər tikmişlər. İndi isə, bu sadəcə qayalıxlar arasında itib-batmış bir bulaxdır.

4. Kur bulaq. Bu bulaq dağların cənubi-şərq hissəyə meyilli tərəfində yerləşmişdir. Deyilənə gürə, bir vaxtdar bu bulax ən güzəl bulax olmuşdur. Bulaq iri daşlardan tikilmişdir. İllər keçdikcə bulaq dağılaraq, sıradan çıxmışdır. Rəvayətə gürə, bu bulağın suyu güzdəri zəif olannara şəfa verirmiş.

5. Pir bulaq – "Müqədəs bulax". Bu bulaq müqəddəs palıd ağacının altında yerrəşir. İnsannar bu bulağın suyunnan çox az isdifadə edillər. Deyillər ki, sudan çux içdikdə qarın şişməyə başlayır.

## DƏRBƏND XANININ QIZI

Dərbənd şimal tərəfdən daş qala ilə əhatə ulunmuş, orada bir neçə qapu quyulmuşdu. Bu qapularda qapıçılar durur, xanın əmrilə gələnnəri yuxlayıb şəhərə buraxırdılar. Daş qapu, Coraçı qapu, Bayat qapu, adlanan qapılar gecələr bağlı ulardı.

Dərbəndi ələ keçirmək məqsədilə, bir cavan şah, quşun çekib bura gəlir. Ancax qalanı gürüb, dayanır. Xan əmr edir ki, qapular açılmasın. Cavan şah bir həftəyə qədər qalanın divarlarının dibində gezir. Şəhərə girmək üçün yer tapmır.

Xanın Gülbəniz adında bir qızı var imiş. Xan bu qızı qabığsız çürək və sümüksüz ətlə saxlayırmış. Çürəyi su ilə yox, malın sümüyünün iliy ilə yuğururlarmış. Qız bir gün Narın qala adlanan qalaya seyrə çıxır. O, qala dibində gəzir, seyr edən ca-

van şahı gürür. Qız o üzdən bu üzə bu oğlana vurulur. Atasının bu işdən xəbəri olmur. Qız xəlvətcə bir namə yazıb oğlana atır. Gecə yarısı quşunu hazır etməyi ona tapşırır. Şah da hələ bunu güzləyirdi. Gülbəniz gecə yarı qapıçılara deyir ki, xan əmr edib, qapıları açın. Şah artıx çəkilib gedir. Qapıçılar xan qızının süzünə inanıllar, qapıları açıllar. Şahın quşunu şəhərə girir. Xanı həbs edirlər. Şah qızı tapıb, onunla gürüşür. Xana xəbər göndərir ki, qızın kəbinini ona kəsin. Sonra şəhərdən çıxıb gedəcəyik. Xanı həbsdən çıxarıllar. O, qızına kəbin kəsib, cavan şaha verir. Bir həfdə bunnar şəhərdə qalmalı, sonra xanı azad edib arvadı ilə getməli idilər. Cavan şah arvadı ilə bir neçə gün xanın otaqlarında qalır. Bir gün o, şəhəri gezəndə, bağban bir dəsdə qızılgül dərib arvadı üçün getirir. Qızılgülləri arvadına verir. Bir çux süzlərdən sonra yatmalı olullar. Adət üzrə şahlar arvad olan evdə yatmırlarmış. Odur ki, arvadın otağı ayrı idi. Gecə şah bir neçə dəfə arvadın qapısının açar salan dəliyindən arvadına baxır ki, gürsün nə edir. Bir neçə  dəfə bu baxışı təkrar edir. Gürür ki arvad yatmır, o tərəfə-bu tərəfə çevrilir. Şah qapını açıb içəri girir. Arvaddan nə üçün yatmadığını soruşur. Arvad deyir:

– Heç bilmirəm mənə nə ulub, yurğan-düşəy məni yatmağa quymur, - deyə arvadı cavab verir.

Bunnar hər ikisi yurğan-düşəyi yuxlayır. Arvad birdən:

– Budur tapdım – deyib düşəyin içinnən axşam şah verən qızılgülün bir ləçəyini güstərir, bu ləçək məni narahat edibmiş – deyə gülməyə başlayır. Şah öz-özünə fikirləşir ki, xanın bu cür hürmətlə saxladığı qız, öz atasına xain çıxdı. Düşməni şəhərə buraxdı, düşmənə ərə getdi. Bəs bunun axırı necə olar? Bu arvad öz atasının başına açan həngaməni mənim də başıma açmaz ki, - deyə fikirə getdi səhər açılan kimi, qızı özünə namə atan yerə çıxarıb dedi:

– Sənin kimi xayinlərdən mənə arvad olmaz. Al, bu sənin payın – deyib onu hündür qaladan tulladı. Bütün əhvalatı məktub şəklində yazıb xana gündərdi. Özü isə şəhərdən çıxıb getdi. Xan qızının namərd çıxmasını bilib heç ağlamadı da.

## YEDDİ QARDAŞ VƏ BİR BACI

Bezi qucalar bele ixtilat edillər ki, Tabasaranın Xaraq mahalında Curdaf kendində Musa adlı bir kişi var imiş. Musanın sənəti naxırçılıx idi. Başqaların malına naxıra gedər, ümrün keçirermiş. Sakqalı-bığı naxırçılığda ağarmışdı. Musanın yeddi oğlu ve bir qızı var imiş, bir də Sayad addı arvadı. O, naxırçılığnan öz ayləsini saxlayırmış. Uşaqların vaxdı çatanda medreseyə günderir. Musanın uşaqları mektebdə hamısınnan artıx bilikli, zihinli ulmuşdu. Bir neçe il bele oxuyullar. Varlıların oğlannarı yeddi qardaşnən medresedə yula getmirdilər.

Axırı, qardaşlar medresedəki varlıların oğullarını düyür. Neticəsi bele olur. Musa kişini çıxarıb kendden qavıllar.

Əlacsız qalan Musa Ruquc kendine gelib yaşamağa başlayır. Bu kendde naxırçılıx edir. Seyad xala qapı-qapı kendi gezib, iş tapıb öz balalarına çürek qazanırdı.

Musa kişi ciger xesdeliyinnən ülür. Seyad xala üçün çux çetin ulur ayleye çürek tapmağ. Bu vaxtı o, kiçikləri medresede quyub büyüklərin isə heresini bir işə məşğul edir. Yeddi qardaşın ən büyüyü Salman cumart, igid, süzbilən, işbacaran adamlar sırasından sayılırdı. Bacısı Zeynab güzəl, qardaşdarı kimi igiddir– deye yeddi qardaşdan ve bacısınnan yaxın kendlerde hamı danışıdı.

Bir gün berk xesde olan anası Sayad xala çağırıb öz balalarını bele bir vesyet etdi:

– Balalarım, mən bu xesdeliydən qurtaran deyiləm. Ona gürə mənim sizə vesiyetim olacaq. Bizim türk ahalisi başgalara nisbetən igid, namus saxlayan xalqlardan hesab olunur. Ancax başga yerdən gelen xalqlar Tabasarana ağalıx etmək isdeyecek. Ona gürə mənim sizdən xayişim budur ki, hakqı, namusu saxlayın, ve bir də siz burdan çıxıb başqa yerde meskən qurun. Sizə tay, sizə lazım olan adamları tuplayın.

Aylar, hefteler keçir. Səyad xala ümrünü balalarına baxışlayır. Ata-anasız qalmış oğlanlar ve qız büyük qardaş Salma-

nın süzünə baxarax iş gürüllər.

Hemen vaxtdan başga yerlerdən quşunlar gelir ve Tabasaran xalqına ziyanlık edir, incidir. Bu işlər, hadisələr yeddi qardaşın xuşuna gelmir. Onlar Ruquc kendinnen çıxıb Xuçni kendində "Xekuli” adlanan yerde kend salırlar. Burda büyük bir kend olur. Yeddi qardaş ve bacısı çayın üsdə olduğu qalaya gedib orda düşmənlərdən Xuçni kendini qoruyur. Onnar cürbecür kendlerden özlərinə qoşun toplayır. Hemen qoşunun başçısıda büyük qardaşı Salman olur. Yeddi qardaşlar quşununu saxlamağdan ötrü Tabasaran xalqınnən xerc alarmış. Bir qeder vaxt keçennen sonra yeddi qardaş özleri üçün çux yerler tutur. Yeddi qardaşın mülkləri Xeneqde, Xuçnidə, Yaqdıqda, Qasində, Dyubekdə olmuşdu. Quşunlar üçün Yarsaq, Xurik, Dağni, Xarxni, Huri, Kurkaki ve başga kendlerdə yer hazırlayırdı. Xuçninin yaxında olduğu galada yeddi qardaş olmuş, ancax onnar gelib orda yaşamağa başlayanda "Yeddi qardaş galası" adlanmağa başlanmışdır. Deyilənə görə, gala XI-XII əsrlerdə tikilmişdir.

## BEYİN NÜKƏRİ

Axşamüsdü bəy nükərlərdən birini çağırıb tapşırır:

– Sabah ərtədən Rukelə gedəcəysən, Qazanaf bəyə qulluğum ulacax. Hazırraş, yuxudan tez dur!

Səhər açılan kimi nükər yuxudan durur. Doğrusu, yazıx nükər gecəni necə səhər etdiyini bilmədi. Hava hələ ala-qarannıx idi. O, tez geyinib Rukelə yula düşür. O, Qazanaf beyin otaqlarına çatanda, nükərrər artıx bayır-bucağı tamizdəyirdilər. O, Himeydin beyindən gəlməsini onnara bildirdi. Nükərrərdən biri beyə xəbər verdi ki, onu gürməyə Himeydi beyindən nükər gəlib. Bey əmr etdi ki, nükəri içəri buraxsınnar. Nükər içəri girib, başında dəridən papax olan Qazanaf bəyə baş endirdi. Qazanaf bəy didi:

– Nükər, buyur qulluğunu, nə işə gəlmisən? - dedi.

– Bey sağ ulsun, mənim beyim axşam məni yanına çağırıb didi:

– Səhər ərtə dur, Rukelə gedəcəksən, - mən də tez durub gəlmişəm, o mənə başqa süz dimədi.

Qazanaf çux arif bəy idi. O annadı ki, nükər çux avam adam imiş. Tez fikirrəşib didi:

– Hə yarma çəkmək üçün daş isdəmişdi. Səni hələ ondan ütəri gündərib.

O, nükərrərdən birini çağırıb diyir: – O ağır daşları bu nükərin dalına yaxşı, mühkəm bağlayın, Himeydi bey üçün apararsan. Nükərrər əmri yerinə yetirir. Yazıx nükərə yeməyə çürək belə vermillər. Yay fəslinin isdi günü idi. Nükər dalına bərk daşdan olan daş bağlı Rukeldən Himeydiyə yula düşür. Sərin eyvanda əyləşən bey gürür ki, nükər dalında daş artıx evə girdi:

– Bey sağ olsun! Mən gedib, Rukeldən gəldim, sizin əmrinizi yerinə yetirdim, - deyə, nükər luvğalammağa başdadı. Bey uca səslə qəh-qəhə çəkib güldü, nükərin bu qədər avam olduğu üçün onu otaxdan, nükərrikdən quvdu. Yazıx nükər tutduğu işdən peşiman olub, kur-pəşman evlərinə gəldi.

Anası və arvadı nükəri peşman gürüb suruşdular:

– Sənə nə olub?

– Məni ağam quvdu.

– Bəs niyə?

– Mənə Rukelə gedəcəksən dimişdi, mən də getdim, oradan daşlar gətirdim.

– Bey sənə nə üçün gedəcəyini deməmişdi?

– Yux. Ancax, səni sabah Rukelə gündərəcəyəm, – demişdi.

– Ey axmaq bala, bilməyib, suruşmayıb özbaşına getdiyin üçün başın baş düyül. İndi gürüm necə dulanacaqsan? – diyə anası onu pisdədi.

Nükər bir-iki günnən sonra iş axtarmax üçün varlıların maldarların evlərini gəzməyə başdadı. Bir maldar onu malçı

tutmax isdədi. Dimə bir başqası da hələ mala baxmax üçün bu kişinin yanına gəlmişdi. Maldar kişi bunnara didi:

– Bax, mənim belə şərtim var, kim o şərtə əməl etsə, onu malçılığa alacağam.

– Şərtin nədir ağa? – deyə nükərrər suruşdu. Maldar dedi:

– Əvvəl siz xürək yeyib qarnınızı duydurun, sonra şərti deyərəm – diyə, maldar dilləndi. Arvadına tapşırdı ki, bunnarı yaxşı yedirsin. Özü isə iki dananı çülə buraxır, sonra nükərrərin çarıxlarının içinə xırda çınqıl daşdar tükür (nükərrər evə çürək yeməyə girəndə çarıxları çıxarıb bayırda quymuşdu). Nükərrər çürəyi yiyib qurtarır. Sonra bayıra çıxır. Ağa diyir:

– O qaçan danaları gürürsünüz? Kim onlara tez çatıb qaytarsa, onu nükərliyə qəbul edəcəyəm. Tez olun, çarıxları geyin.

Nükərrər yüyürməyə başdayıllar. Maldarın evinə qabaqcadan gələn uğlan hiss edir ki, ayaxlarının altında xırda çınqıllar var, tez oturub çarıxları çıxarıb çınqılları buşaldır, geyinib yüyürməyə başdayır. O, biri isə heç ayağının ağrısına fikir verməyib, o birinnən qabax danalara çatıb onnarı qaytarır. Gülə-gülə maldarın yanına gəlir. O fikir edir ki, maldar şərtə gürə onu işə qəbul edəcək.

– Çarıqlarını çıxar! – diyə maldar ona əmr etdi. Çarıqları çıxaranda onun çınqıl batmış ayaqlardan qan axırdı. Odur ki, maldar ona didi:

– Sən öz canının qədrini bilmirsənsə, mənim malımın qədrini də bilməzsən, get özünə başqa iş axtar – deyə onu quvdu.

Yazıx nükərin işi bu dəfə də baş tutmadı. Evə qayıdıb hünkürtü ilə ağlamağa başdadı.

## PƏHLƏVAN NƏZƏR

Himeydi kəndində təxminən 1810-15-ci illərdə Nəzər adında bir pəhləvan var imiş. Onun adı bütün Dərbənd mahalına, Tabasarna yayılmışdı. O, çox iyid pəhləvannarla güləş-

miş, qalib gəlmişdi. Bir dəfə Tabasarının Çilix kəndinnən olan bir hərbə-zorba pəhləvanı Nəzər öz gücüylə yerə vurmuşdu ki, yazığın güzdəri bərəlmişdi.

Bu sühbəti Ucarda sühbət edəndə, bir cavan oğlan ona diqqətlə qulax asır. Dimə bu cavan özü də pəhləvan imiş. O, bir süz dimədən evə gedir. Səhərə qədər güzünə yuxu getmir. Oğlan Nəzər pəhləvanı tapıb, onunla güləşmək isdiyirdi.

Səhər ertə geyinib, ayağına mal dərisinnən olan çarıxları taxıb yula düşür. Günortadan keçmiş, ilkindi hələ yetişmək üzrə idi. Pəhlivan kəndə yetişdi.

Bir küçə ilə gedərkən, o, araba oxu sığallayan bir kişini gürdü. Ona yaxınnaşıb, salam verdi. Sonra Nəzər kişinin evləri hansıdır? – deyə onnan suruşdu. Kişi əlindəki araba oxunu təkərə geyindirib bir əli ilə qaldırır: – Odur, o ev Nəzərindi – deyə, ox keçirmiş təkərlə evi güstərir. Cavan bu işə məhətdəl qalır, ancax bəyan etmir. O, Nəzərin evinə qunax düşür. Axşam yeməyinnən keçənnən sora, sühbət edillər. Ancax güləşmək üçün Nəzərin yanına gəlməsini cavan ona demir. Gecə keçməkdə idi, yatıb rahatlıx etməli oldular. Qunax otağında cavan üçün yer saldılar. O yatdı. Nəzər cavanın ürəyindəkini onun baxışdarınnan duymuşdu. Onun çarıxlarını, evin tavanında quyulan tirin  arasında quydu. Özü də yuxuladı.

Səhər açıldı. Deyəsən, qunax bütün gecəni yuxulamayıb talaş içində gecələmişdi. O, səhər pəhlivan Nəzəri güləşə dəvət etməli idi. Səhər yeməyinnən sonra cavan geyinməyə başdadı. Çarıxları tapa bilməyib, ev yiyəsindən suruşdu:

– Çarıqlarım hardadır?

– Odur ey, – deyə, Nəzər tirin altına quyulmuş çarıxları güsdərdi və çarıxları almağı qunağa təklif etdi. Qunax nə qədər dartdı, əlləşdi, ancax çarıxları tirin altınnan çıxara bilmədi.

Bunu gürən Nəzər gülümsəyərək sağ əlinin iki barmağı ilə tiri qopardır,  al çarıxları – deyir.

Cavan bu işi gürüb kiridi. Buradan başı salamat qaçmağı

qərara aldı. Qunaxla sağollaşıb, birbaş Çilixə yula düşdü. Əhvalatı kənddə dusdarına süylədi. Hamı Nəzərin qüvvəsinə afərin – dedi.

## ÜÇ QARDAŞIN BACISI

Rəvayətə görə deyillər ki, Bilhədi ilə Himeydinin arasında, hündür bir təpədə, qala içində Şərkəni adlanan kiçik bir şəhər var imiş. Bu şəhərdə Məmmədəli xan xannıq edirdi. Şəhərin pəhlivannarı, quçuları və muzdur əhalisi var imiş. Şəhərin cənubunda İslam məscidi, şimalında isə Dəmir Xarman adlanan meydança var imiş. Bu meydançada şahın quçuları, pəhlivannarı məşq edərmişdər. Şəhərdə bir quca arvad, üç oğlu, bir qızı ilə yaşayırdı. Şəhər gediş-gəliş üçün əlverişli idi. Bura Dərbənd, Şamaxı, Xəzər şəhərrərindən ticarətçilər gəlib alver edərdilər. Məmmədəli xan, ucaboylu, sarımtıl saqqallı, uzun sifətli, ənlikürək bir adam idi. O, həmişə mohüd çuxalı, qızıl çalmalı, xəncəl belində, tapanca və qılınc ilə gezirdi. Ayağında qara xurum çəkmələr zığıltı ilə onu gəzməyə iştaha gətirirdi. Xanın bu səxavətinə baxmayarax, onun bir əxlaqsız işi də var imiş. O, güzü tutan, güzəl qızlar ərə gedəndə, ilki gecəni onun yanında keçirməli idi, sonra isə gəlin öz nişannısının evinə aparılardı. Şəhərlilər arasında bu əxlaqsızlıx nifrət ilə qarşılanırdı. Nə etsinlər, belə bir xana yuxsul adamlar qalib gələ bilərmidi? Yox, bu kəflə xan xeyli ömür sürmüşdü və qüvvətli idi.

Şəhərdə olan quca arvadın oğlannarının adı hər yerdə çəkilirdi. Onnar hər səhər atdarını minib şəhərin yaxınnığında olan meşələrə maral, ceyran, qırqovul ovuna gedərdilər. Çux sərrast ovçular idilər. Tüfəng üçün barıtı özdəri hazırlayırdılar. Bacısı Ruhanə anası ilə birgə ev işləri ilə məşğul olurdular. Bir dəfə ovçular özdəri ilə evlərinə bir qunax gətirdilər. Qunax qaraqaş, qaragüz, sərv buylu, qısa bığlı güzəl bir oğlan idi, 20-22 yaşı olardı. O, qunşu kənddərin birində yaşayırmış.

Atmağa barıtı olmadığı üçün barıt almağa bu ovçularla gəlmiş idi. Yəni, Allah onun qismətini bu evdə gürmüşdü.

Axşam yeməyinə qırqovul quvurması bişirmişdilər. Budur, süfrəyə buşqablar düzüldü, şərab qoyuldu, qaşıx-çəngəllər cingildəməyə başdadı. Süfrəyə xürəkləri qız gətirirdi. Qunax oğlan qıza xəlvətcə, çux diqqətlə baxarax, onun düvranına, gözəlliyinə, mərahətinə vuruldu. Duğrusunu desək, axşam yeməyini necə yediyini bilmıirdi. Səhər açıldı, səhər yeməyi də belə məzəli oldu. Oğlan qardaşlara bir süz deməyib kəndinə qayıtdı. O, bir neçə gün ürəyində bu əşq ilə gizli alovlandı. Məhəbbətə düzə bilməyib ata-anasına bildirdi ki, o, Şərkəni şəhərində olan üç qardaşın bacısına aşiqdir. Ata-ana çal-çapdıya düşür, qıza elçi getməyə hazırrıx edillər.

İlin fərman ayının onu, cümə-axşamı günü, ata ilə ana Şərkəni şəhərinə gedir. Qızın evinə düşüllər. Axşam düşən kimi qardaşdar üçü də bir maral ləşilə evə gəlillər. Anası oğlannarına evdə səxavətli bir qunağlar olduğunu xəbər verir. İçəri girib, qunaxlara xoşgəldin edillər. Axşam yeməyinnən sonra qunaxlar, bura gəlmələrinin mətləbini, ona və oğlannarına deyillər. Qardaşdara oğlanı nişan da verdilər. Qardaşdar oğlanın səxavətli bir oğlan ulmasına şübhə etmədilər, razılıxla gecə rahat yatdılar. Qunaxlar  səhər kəndinə qayıdıb, əhvalı oğluna süylədilər. Oğlan şadlığınnan yerə-güyə sığışmırdı. Bu üç qardaşla onun quhum olmasını o, artıx xoşbəxtlik hesab edirdi. O, Ruhanəni canla sevirdi.

Vaxt keçdi. Baharın gül-çiçək açan səfalı günnəri yetişdi. Çüllərdə, ağaclar arasında quşdar yuvalamağa, baharın gəlişilə cəh-cəh vurub oxumağa başdadılar. İlin belə bir səfalı fəslində iki cavanın bir-birinə yetişməsi ayrı bir ləzzət verirdi. Hər iki ayilə toy tədarükünə başdadı. Qayda üzrə gəlin cümə axşamı aparılmalı idi. Xəbər xana çatdı. O, nükərin birini gündərib qarıya xəbər verdi ki, çərşənbə günü qızı onun evinə gündərsin. Qarı dərdi-sər içində ağlamağa başdadı. Axşam əhvalatı oğlannarına süylədi. Üç qardaşın başı hərləndi. Nə

etmələrini bilmədilər. Tez gürməli tədbirə əl atdılar. Onnar bacılarının bədbəxt olmasına razı ola bilməzdilər. Müsəlman ayiləsində bu namusa tuxunan iş idi.

Kiçik qardaşı kəndə **giyovun*** dalınca gündərdilər. Əhvalatı bilən giyov özü ilə üç nəfər iyid oğlan da getirdi. Tədbir gürüldü. Qardaşdardan biri qız paltarı geyindi, küynəyin altına şirmayı xəncəl saldı. Xanın qardaşdarı ilə Məmmədəlinin evinə getdilər.

Gecə o biri qardaşdar, giyovları və iyid oğlanlarla xanın sarayını əhatə edib puşquda durdular. Budur, xan adəti üzrə gəlin dayanan otağa girir, üsd paltarlarını soyunub asır, bu zaman "gəlin" xəncəli hazır edir. Xan qızın duvağını qaldıranda, onun sinəsinə xəncəli elə zərbə ilə sıxır ki, bir başı xanın kürəyinnən çıxır. Xan cəhənnəmə vasil olur. Yeddi oğlan xanın cəlladlarını, nükərrərini də xanın yanına yıxıllar.

Səhər açılanda əhvalat bütün şəhər əhlinə yayıldı. Əhali bu şad xəbər gününü bayram edirlər. Beləliklə, şəhər, kənd əhlilər xanın əxlaxsız hərəkətdərinnən azad olur. Üç qardaşın büyüyünü şəhər başçısı seçillər.

Ruhanə xanım öz nişannısı ilə xuşbəxt həyat qurur. Üç qardaş namusla yaşamağa və şəhərdə ədalət qurmağa başdayıllar.

Vaxt keçir, illər bir- birinin ardınca ötüb keçir. İlin uğursuz bir ayında Şərkənidə büyük bir zəlzələ ulur. Şəhər batır. Ancax nişanə üçün İslam məscidi və mülla əzəni üçün tikilən minarə qalır.

Bu abidələrin uçuxları, məzar daşları indi də qalmax üzrədi.

----------------------

*Giyov – kürəkən

## MOLLA PƏNAHLA ÇUBAN QIZI

Molla Pənah bir çuban qıza aşiq olur. Bu işdən qıza xəbər göndərir. Qız üreydən gülür, ancax mullanı acığlatmağ istemeg üçün belə deyir:

– Nə elər mulla, sənnən yaxşısına erə getməyecəyəm ki? Amma şertim var. Mənim erim gerek yaxşı saz çalan olsun. Əgər bu işi bacarsan, sənə erə gedeceyem.

Bu vaxtacan saz çalmağı haram hesab edən və camahata qadağa edən mulla qızın şertinə razı olur. O, saz çalmağı üyretən bir məllim tapır və gizlin saz çalmağı üyrənir.

Bir vaxtdan sonra qızın evinə gelir və üyrəndiyi havaları çalır. Qız bu havaları məsçitdə, xalqın qabağında çalmağı tələb edir. Çarasız mulla bu şertə razı ulur.

Sabahı gün mulla çuxanın altında saz gizletib, məsçidə gelir. Ordan-burdan danışannan sonra müsülmanlara saz çalmağın haram olduğunnan süz açıb deyir:

– Əy müsülman qardaşlar! Pəyğəmbər saz çalmağı bizə haram buyurmuşdur. Bütün çalınan havalar haramdır və onlara qulax asannar cəhənnəmə vasil olacağdır. Bu havaların içində on iki havanı da başgalarından artıq haram buyurmuşdur. Bu on iki havanı seçmağı baçarın siz də. İndi mən onnarı sizə çalacağam. Siz də fikir verib o havaları yadınızda saxlayın.

Bu süzdəri deyib, mulla çuxanın altınnan sazı çıxarıb bir-bir on iki havanı çalır. Her hava qurtardıxdan sonra:

– Bax, bu havanı çalmax haramdır, - deyir.

Bələ işlərnən Mulla Pənah həm qıza verdiyi süzü bitirir, həm də üzünə ecayib gürünən işi bacarığla ürt - basdır edir.

Üç günnən sunra qızı da üzünə arvad edir.

## GƏLDURAQ KƏNDİNİN XANI

Keçmiş zamannarda Dağbasar vilayətində bir kənd var imiş. Bu kəndin adına Gəlduraq kəndi deyirdilər.

Bəs bu kənd necə əmələ gəlmişdi? İndi onun tarixinnən söhbət açaq:

– İslam tarixinin 1200-ci illərində, Qaragüz xan öz oğlunu dağları gəzmək üçün seyrə çıxarmışdı. Oğlan 20-30 atdı ilə o dağ-bu dağ gəzərək gəlib bir səfalı dağa çatır. Dağın təbiəti, güzəlliyi, şəlalə ilə axan çayları, ətir quxusu verən çiçəkləri xan oğlu Camanı valeh edir. Güzəl bir çəmənnikdə yatıb dincini alır. Sonra nükərrərdən birini atasının dalınca göndərir ki, onu bu dağa gətirsin. Xanın güzünün ağı-qarası olan bir oğulu idi. Odur ki, çağırışdan imtina edə bilmədi. O, atdanıb dağa getdi. Oğlu  Camal ilə gürüşdü. Ata oğlu ilə bir dağda kənd salmağ qərarına gəlir. İş başdandı. Kənddə bir neçə bina tikildi. Xan oğlu ilə qunşu tərəfdən bir neçə ayilə bura küçürdülər. Kəndə  öz-özünə gələnnər də oldu. Hətta çuxları bu mənzərəni gürəndə əvlərinə qayıtmayıb. Gəlin burda duraq, yaxşı mənzərədir, deyib, öz işlərini bura küçürdülər.

Hələ ondan da, bu kəndin adı Gəlduraq kəndi  qoyuldu. Bir neçə il ərzində kənd  böyük bir mahala çevrildi.

Camal isə kəndin xanı oldu. Gələnnər arasında Əhməd adında bir  quca kişi var idi. Onun bir oğlu, bir də qızı Zərnişan, arvadı Səlimə var idi. Kənddə divanxana xan sarayı yanındaydı. Sarayda xan Camal, onun quhum-aqrabalarınnan bir neçə cavan oğlan, qəşəng qızdar yaşayırdı.

Təcüblü burdadır ki, Xan Camalın iki arvadı var idi, onnar bir-birini gürmək isdəmirdilər.

Camal xan bir gün kəndin bir səfalı yerində, güy çəmənnikdə məclis qurub kef çəkirdi. Sizə kimnən deyim, kasıb kişi Əhməddən. Əhməd qızı Zərnişanı da alıb meşəyə ağac yığmağa çıxmışdı. Əhmədin yulu hələ bu məclis mənzərəsinin yanınnan keçirdi.

Od parçası kimi, yanaxları al rəngə çalan, uzun saçlı, qara, xumar güzlü, incə belli, durna tək yaraşıqlı, sul yanağınıda quşa xalı olan Zərnişan necə diqqətsiz ola bilərdi? O, yulla keçərkən, xana ikiqat bükülüb salam verdi. Camal qızı gürcək,

özünü  itirdi. Mən mahalın xanı olum, belə bir qızı gürməyim? Yox, gərək onu  alım. Onsuz da arvadlarımla yula getmirik. Onnarın hər ikisini buşayıb təkcə bu qızı alacağam, – dedi. Xan özünə bir Mirzə tapmışdı Mirzə Qaragüzün kəndində yaşayırdı. Onun adı Fərhad idi. Fərhad, gürkəmli, qarasaçlı, qaragüzlü, qısa bığlı, qəşəng bir uğlan idi. O, hər həftədə bir gün Gəlduraq kəndinə gəlir, divanxanada işdəri səhmana salıb qayıdırdı. Fərhad bir dəfə kənddən qayıdanda bulax başında su dulduran Zərnişanı gürüb, bir künüldən min künülə ona vurulur. Ancax xan Camal onu qabağladı, qızla evləndi.

Zülqayda ayının bazar günü idi. Cinayət üsdündə dustaq edilən bir nəfəri divana çəkmişdirlər. Divanxana meydanı adam ilə dulu idi. Fərhad divanxana sədrinin əmrlərini bir-bir yazır, güzü isə əyvanda əyləşən xanın arvadında idi. O, arvaddan güzünü çəkmirdi. Sarayda Fərhadı güzü gütürməyən az deyildi. Odur ki, firsəti əldən buraxmayan xanın nükəri Əlburi əhvalatı xana pıçıldayır. Xan Fərhadı diqqətlə izdiyir. Nükərin süzü həqiqət olur. Xan isə Fərhaddan qisas almağa bir yul axtarır.

Divan qurtarannan sonra hamı dağılır. Fərhad isə öz kəndinə gedir.

Camal xan Fərhaddan intiqam almax üçün çox gütür-qüy edir. Fərhadı qonax çağırmağı, məclisdə onu zəhərrəməyi özlüyündə məsləhət gürür.

Zərnişan xanım xanın yırtıcı fikirini duymuşdu, onsuz da xana bir qədər sədaqəti yux idi. O, bir bəhanə ilə Fərhada xəbər çatdırdı ki, əhtiyyatdı ulsun. Xan una tələ qurub, tələyə düşməsin.

Xan məclis qurur, qunağları da çağırır. Fərhadı da dəvət edir, guya büyük arvadınnan ulan uğlunun ad gününü bayram edir. Fərhad lazımınca geyinir. Çərkəzi paltar isə una başqa güzəllik verir. İti xəncəl, qazunnu tapanca bağlayır, sonra kiçik qardaşı Eldara deyir ki, özü ilə beş nəfər iyid oğlan gütürüb xan Camalnan sarayın arasında pusquda dursun. İş pis

getirərsə, özdərini tez meydana atsınnar. Eldar çox iyid oğlan idi. Güləşmələrdə hamını yıxırdı.

Fərhad xan sarayına çatanda, nükərrər onun atını tutdu, özünü isə şaddıx məclisinə apardılar. Xanın bu işdən çux xuşu gəldi.

Yemək-içmək başdadı, qədəhlər dulub-buşaldı. Bir azdan xan özü öz əli ilə bir qədəhə şarab tüküb ayağa qalxıb nitq süylədi:

– Əziz qunaxlar! Bu gün mənim şadlıq məclisimdə uğlumun üç yaşı tamam olur. Mənim ən sevimli bir mirzəm olan Fərhadı mən xüsusi təbrik edirəm. Ona bu qədəhi oğlumun sağlığına buşaltmağı xahiş edirəm – deyərək qədəhi Fərhada uzadır. Fərhad ayağa qalxıb qədəhi alır, bir balaca nitq süyləyir. O deyir:

– Həzərat, mənim sevimli xanımın uğlunun üç yaşı tamam olur. Mən bu qədəhdəki şərabı unun sağlığına içməliyəm. Ancax bizdə bir adət var, isdəkli adamlar qədəhləri deyişib içirlər. İndi mən xanna qədəhimi dəyişmək, onunla daha sədaqətli olmaq üçün içmək istəyirəm – deyib öz qədəhini xana uzadır, xanın qədəhin özü alır. Hamı bir səslə sağ ol, sağ ol, – deyə ucadan səslənir. Hamı qədəhləri buşaldır. Xan isə qədəhi yerə quyur. Bu işdən qunaxlar narazı qalır, hamı xana qədəhi buşaltmağı təklif edir. Camal xan hiylənin üsdü açılacağını bilir, ancax biruzə vermir. Qədəhi bir tərəfə quyub başqa bir qədəhi buşaldır.

Məclis dağılır, qunaxlar qayıdır. Camal Fərhada bir az dayammağı, vacib bir məsələni həll etməyi təklif edir. Camal xan ikinci hiyləyə əl atır. Beş nəfər atlı gündərib Fərhadın yulunu kəsməyi təklif edir.

Fərhadın güzətçiləri bunu izləyillər. Xan Fərhadla sağollaşıb yula salır. Yul da bir qayılıxdan keçirdi. Xanın güzətçiləri burda pusquda idilər. Fərhad bu yerə çatanda atlı dəsdə ona yetişdi, irəlidə Fərhadın qardaşı Eldar gedirdi. Xanın atlıları bunnara hücum etmək isdədi, ancax macal tapa bilmə-

dilər. Onnarın hamısı qılıncdan keçirildi. Eldar beş atlı ilə xanın sarayına yullandı. Xanı  çülə çağırıb dedi:

– Əyər kişi olsaydın, özün üzbəüz vuruşardın, qurxaxlar sənin kimi tələ qurur, ancax məğlub ulur. Al bu da sənin payın – deyə xana bir qılınc vurur, xan da iki yerə bülünür.

– Özgəyə telə quran, özü düşər, – deyib ordan geri qayıdır. Yuldaşlarınnan birinə təklif edir ki, xanın Zərnişan addı arvadını gütürüb gəlsin. Zərnişanı kəndə gətirib Fərhada kəbinin kəsillər. Qaragüz xan vəfat edir. Kəndin xanı Fərhad olur. Gəlduraq kəndinə isə öz qardaşını gündərir. O da orda xannıx edir.

## QIZDIRMA BULAĞI

Nələr qaldı insan çəkməsin? İnsanı insan edən insandır, insanı alicənab insan insan edər - yəni alicənablıx acizin qulunnan tutub onu əzabdan qurtarar. İnsanı aciz edən də insandır, yəni ona ağalıx edər, hükm edər, qurxudar.

İnsan şüuru onu xəsdə edənədək ruhu əzablara düçar edər. Bir zaman insan od tutub yanır, çərxi pozulur, yemək isdəmir. Həkimlər o qədər dərman verir, ancax çuxu hələ sağalmır. Zirdən kəndində, Şax-Şax bulağın yuxarısında bir bulax var idi. Nuvurçadan nazik su gələr, huvuzu şəfaf su ilə dulardı. Bir nəfər qızdırmadan yanır, atılıb həmən huvuza girir. Axırıncı titrətmə tutur çıxıb, əvə gəlir. Qızdırma tamam kəsilir. Bundan sonra xalq ora axışdı, hamı qızdırmalı insannar yaxşı oldu. Bu bulağın adını "Qızdırma bulağı" deyə quydular.

## FAĞIRIN AHI

Keçmiş zamannarda bir devr var idi. İnsannar xuş rəftar ilə yaşardılar. Amma bir zalım başına quhum-qardaşlarının yığılıb xalqla pis rəftar edib, bu gün birinə, sabah birinə hücum edib əlinnən malın-qarasın alır. İnsannar bunnarın əlinnən

təngə gəlüb yurdunu tərk edib başqa bir yurtda qul işlədilər və gecə-gündüz zalımlara ah edərdilər.

Axırda fağırların ahı yerdə qalmadı. Kəndi zəbt edən zalımlar turpax və bağlar üzərində tamahı çux olub bir-birləriylə acıxlanıb kəndi iki yerə parçalamax isdədilər. Bir-birinə hücuma keçən zalımların qanı su kimi axdı. Bu yurdu bunlar da tərk etdi. Yurd bütün yeyəsiz qaldı.

Kühnədən bunnarın əlindən çıxıb gedən fağır bir insan on ildən sonra yurdu yada düşüb gizlidən isdədi yurda səyahət etsin. Lakin yurdun daşı daş üstə qalmadığını gürən fağır diz çüküb ağladı və üzün Allaha çevirib dedi: "Zülm ilə abad ulan ah ilə bərbad ular".

Sunra kişi ağlayıb bu süzdəri oxudu:

Vaxt var idi burda bağım var idi,
Məskənim, el-obam, dağım var idi.
Zalım onu yerə vurdu, tamam dağıtdı,
Ahım yerdə qalmadı ki, qalmadı.

Atam-anam ruhu yatıb bu yerdə,
Zalımlar bizi salmışdı kəməndə.
Leşkərlər yatıb qaldı çəməndə,
Ahım yerdə qalmadı ki, qalmadı.

Sevgilimi arar idim bu yerdə,
Güzləyərdim, durar idim bu yerdə.
Cananımı qucar idim bu yerdə,
Ahım yerdə qalmadı ki, qalmadı.

Bir cüt narın almış idim əlimə,
Düdağını sürtmüş idim dilimə.
Heyran idim sünbülünə, gülünə,
Ahım yerdə qalmadı ki, qalmadı.

## FƏSAD VƏ QƏÇƏLƏ

Kəndimizin ucarına bir nəfər kişi daxil oldu. Salam-ehtiram etdi. Suruşdum haralısan? Didi – yuxarıdan. Bu anda qarın üsdə bir qəçələ quş uçub oturdu. Bu nəfər suruşdu ki, bu quşun adına sizdə nə diyəllər? Mən süylədim: Qəçələ.

O didi:

– Bu quşun ağı çuxdur, ya qarası, diqqətlə baxın. Camahat quşa baxdı ki, qəçələ atılıb-düşür.

Birdən qəçələ qabağın, sonra quyruğun güstərir. Quyruğunda qara da var, ağ da var. Qarası və ağı gah bərabər, gah da ağı çux, gah da qarası çux gürünür. Camahat 20-25 nəfər olardı. Biri bərkdən didi:

– Qəçələnin ağı çuxdur, o biri: nə danışırsan, qarası daha çuxdur.

– Yox, ağı çuxdur.

– Olmaz, qarası çuxdur.

– Ay kişi, gürürsən ki, ağı çuxdur.

– Sən özün kursan, qarası çuxdur.

– Adə, güzün çıxsın - ağı çuxdur.

– Özünün güzü çıxsın, qarası çuxdur.

– Mənə diyirsən?

– Hə, sənə diyirəm.

Bu dəmdə qunax kişi çıxdı getdi. Mübahisə davam edirdi:

– Sənin güzlərin duğurdan kurdur, ağı çuxdur.

– Ay sənin güzlərin kur olsun, qarası çuxdur.

– Ala, sənə qara deyirəm.

Ağı çuxdur deyən kişi yumruğunu çəkdi ağ çuxdu deyənin güzünə, o biri də onun güzdərinin altını qaraltdı. Burada camahat iki yerə ayrıldı. O vur, bu vur ağızdardan qan axır. Kəndin mullası olan alim quca ora daxil oldu və dedi:

– Dayanın!

Hamı dayandı

– Sizə nə olub?

– Mulla əmi, məni nahaxdan vurub bu.
– Sən özün məni nahax vurdun.
– Mulla əmi, özü nahax danışır, məni özü vurdu.
– Ay Mulla əmi, qara qiymətdə gəlsin. O kişi gəlib çıxdı və dedi ki, qəçələnin ağı çuxdur, yoxsa qarası ?

Ara qızışdı. Biri ağı çuxdur dedi, o biri qarası çuxdur – diyib dalaşdılar.

Mulla:

– Ay balam, Allah yaradan quşdur da, o gələn bəlkə şeytan idi, sizi qarışdırıb özü gitdi.

– Vallah düzdür, Mulla əmi.

Hamı məçidə girdi. Mulla: iki küsülü olsa, namaz qılmax olmaz, gərək barışasınız, sonra namaz qılax didi. Möminnər hamı əl tutdu və namaz qılıb fitnəni Allah alsın – deyib sülh etdilər.

## YEDDİ QARDAŞ VƏ BİR BACI QALASI

Xunça kəndinə çatmamış dağların başında bir qala yerləşir. Bu qalanı "Yeddi qardaş və bir bacı" qalası adlandırıllar. Bu qalanı gürmək üçün dünyanın hər yerinnən buraya adamlar gəlillər. Buraya turistlər gəldiklərini onnarın qalanın iç divar-rarına yazdıqları yazıları da təsdiqləiyir (Fransa, Almaniya və s.). Əfsanəyə gürə, bu qalanı özlərini müdafiə məqsədi ilə yeddi qardaş tikmişdir. Onnarın bir bacısı da ulmuşdur. Qala Rubas çayı sahilində yerrəşir. Hər dürd divarın dürdündə də kiçik pənçərələri xatırladan yeddi oyux vardır. Qardaşlar öz düşmənnərini bu oyuxlarda qurulmuş silahlarla məhv edirdi-lər. Bacıları onnara su gətirər, yemək hazırlayarlardı. O, sə-həngi hürüklərinə bağlayaraq, çaya sallayardı. Beləliklə də, qaladan çıxmayarax su ehtiyatını gürürdü. Onnar beləcə ümür sürüdülər. Amma, ailədə bu sakitçiliyi bacı puzdu. O, düş-mənnərə inanıb qardaşlarının silahına duzdu  suyu duldurur ki, daha da yaxşı atsınnar. Nəticədə silahlar sıradan çıxır və

düşmən qardaşları əsir alaraq məhv edir. Xalq isə bacını daş-qalax edərək öldürür. Onu düz yulda dəfn edirlər. Bütün yuldan keçənnər bu qəbirə daş atırlar. İndi bu qəbir daşqalağını xatırladır. Belə bir mahnı da var:

Yeddi qardaş qalasından süz açaq;
Qardaşları bacı satdı, o alçax.
Özü üldu, aralarda daş-qalax,
Belə bacılara dünya dar ulsun.

## QULÇOMAX VƏ MÜZDÜR

Keçmişdə biriləri varrı, biriləri yuxsul olurdu. Varrılara qulçomax, yuxsullara müzdür deyirdilər. Belə bir müzdürlardan biri də Lahan kəndində olan İsa idi. İsanın ailəsi yux idi, özü tek bir uğlan idi. O, əlinə bir ağac aldı, qunşudan bir çürək alıb çantasına quyub, yula düzəldi. O, bir kəndə çatdı. Küçədə ulannardan suruşur ki, belkə müzdur isdiyən var. Bir nəfər ələ-belə bir adam axtarırdı. Oğlum, gəl mənimlə gedək, - deyə onu əvinə apardı. Qunağı yedirənnən sunra una dedi:

– Mənim yüz iki quyunum var, unnarı hər gün utararax yedirərsən. Haqqını belə məsləhət edək: – Bir il işləyərsən. Quyunnarı bir dərəyə salarıx, neçə qoyunu dərənin cığırından kənara atsan, onnar sənin olsun, ata bilməyənlər isə mənim – deyə müzdürə təklif etdi. Müzdür razı uldu. O günnən müzdür hər gün quyunnarı otarmağa aparırdı. Əv sahibi una yeməyə bir çürək və bir-iki baş suğan və bir büyük qab su da quyurdu. Beləliklə, aylar keçirdi, il başa çatmax üzrə idi. Müzdürün hələ də suğandan, çürəkdən başqa yeməyi yux idi.

Xülasə, il başa çatdı. Müzdür qulçomaxdan zəhmət haqqı verməyi xahiş etdi. Onnar sürünü bərəyə saldılar. Müzdüra təklif etdi ki, quyunnarı dərədən atsın. Neçə quyun atsa, o, onun haqqı olacaq. Müzdür işə başladı. Hansı quyunu aldı, ancax bərədən o taya ata bilmədi. Beləliklə, qərar başa gəldi, müzdürə bir dənə də quyun düşmədi. Nə etməli, qərar var qə-

rardır, başqa süz ola bilməz. Müzdür sağollaşıb başqa iş axdarmağa getdi.

O, yulda bərk yurulmuşdu, yaxında bir çəmənnik yanında ağac külgəsində əyləşdi. Bu zaman bir nəfər atlı da bu yerə gəldi. Onnar əhvallaşdılar. Atlı müzdürdən hardan gəlib, hara getməsini suruşdu. Müzdür başına gələn əhvalatı atlıya süylədi.

Atlı müzdürə dedi:

– Sən qayıt get həmin qulçomağın yanına, de ki, iş tapmadım, hələ həmin keçən ilqarla razılaşax. Onda o razı olacax. Sənsə belə et:

– Hər gün sənə verilən suğanı bir ağacın buşluğuna at, əvəzində gündə bir baş sarımsax ye, sunra gürərsən, necə ular. Müzdür məsləhətə razı ulub geri qayıtdı. Ağası ilə razılaşıb işə başladı. Onun yemək üçün aldığı pay hələ keçən ilki suğan idi.

Müzdür atlının dediyi kimi hər gün bir baş sarımsaq yeyir, suğannarı isə bir ağacın kuğuşuna salırdı. Beləliklə, il başa çatdı. Quyunnarı bərəyə saldılar. Ağa müzdürə təklif etdi ki, işə başlasın.

Güzünə dündüyüm müzdür hələbil bu təklifi güzləyirdi. İş başlandı, müzdür quyunnarı bir-bir bərənin hasarınnan o tərəfə tulladı. Qolçomax üçün bir dənə quzu belə qalmadı. İşi belə gürən, qolçomax fikrə getdi. Sunra bir neçə quyun özü üçün quymağı müzdürdən xahiş etdi. İlqar var, ilqardan başqa süz ola bilməz! – deyə müzdür qulçamağın qulunnan tutub suğannar atılan ağacın altına apardı. Ağacın yarpağı saralıb, güvdəsi isə quvrulmuşdu.

Bura bax, bu sənin hiyləndir, sən məni bir il bu ağac kimi qurutdun, indi isə kefindir çək – deyib sürünü əvlərinə tərəf sürməyə başdadı. Beləliklə, müzdür varrı bir adam uldu. Siz də varrı ulasız!

## OVÇU PİRİM

Deyir, ovçu Pirim yarax-yasax gütürüb ova getsə də, ilk vaxtdar hələ nə quşdarın, nə də heyvannarın dilini bilirmiş. Bunun Xan Kəlbi adında qardaşı varıymış ki, isdəyəndə tütəyi quş kimi dilləndirə, ceyran-cüyür təki mələdə bililrmiş. Ovçu Pirim hər dəfə ov dalınca gedəndə qardaşını da özüynən aparармış ki, onun çaldığı tütəyin səsinə quşdar, heyvannar cəm olsun o səmtə. Ovçu Pirim də bacardığınnan ovlayıb yükünü tutsun.

Bu minvalnan xeyli dulanıllar: ov ovlamaxda, quş quşlamaxda ad çıxarıllar. Hə... deyir, sən saydığını say, gür fələk nə sayır. Qəza gəlməyə, gələnnən sunra heç səmənd at da qaçıb qurtara bilmir. Bir günnəri genə də Ovçu Pirim qardaşıynan ov güzarına çıxır. Xan Kəlbi deyir ki, qardaş, sən asda-asda gəl, mən gedim tütək çalım – quşdan, əlikdən endirim. Bəli, bu aralanıb güzdən itir. Ovçu Pirim də həmin səmtin qarasınca dinşək kəsilə-kəsilə başdayır getməyə.

Xan Kəlbi bir az gedənnən sunra səmtini dəyişib dünür ayrı tərəfə. Ağlına gəlmir ki, qardaşı çaşa bilər. Dündüyü bu ayrı səmtdə bir daldalığa çəkilib tütəyin çıxardır, başdayır keyik səsi çıxartmağa. Ovçu Pirim gürür qardaşı gedən səmtdə hələ bir xəbər yuxdu: amma başqa bir yannan keyik səsi gəldi. Öz-özünə fikirrəşir ki, Xan Kəlbi yer tapıb keyik çağırana kimi hazırca ovdu, dünüm ovluyum. Aralıxlardan ötə-ötə, xəlvət-xəlvət özünü yetirir keyik səsi gələn yerə. Səsi nişan alıb atır. Sunra durub yüyürür ki, keyik özünü qaya-qapçaxdan tullamasın. Gəlib gürür nə? Qardaşı Xan Kəlbini vurub üldürüb. Dünya başına fırranır, güzünə qarannıx çükür. Hannan-hana ayılıb başına gələn qəziyəni süzə düzür:

Çaxgınan-çaxmağı od düşsün quva,
Çalxaşıb buluddar tutulsun hava.
Dağılsın bu gün ki, mən çıxdım ova,
Keyik bilib Xan Kəlbini üldürüm.

Yarax, səni zərgərrərə düyürdüm,
Əziz tutub zər-zibaya quyurdum,
Bu günnəri öz güzümü oydurdum,
Keyik bilib Xan Kəlbini üldürdüm.

Yarax, səni açılmayıb qalasan,
Nə nişan gütürə, nə ov alasan.
Canıma yağısan, başa balasan,
Keyik bilib Xan Kəlbini üldürdüm.

Yarax, gürüm sənin xəznən buş olsun,
Tətiyin pas tutsun, quvun yaş olsun.
Barmağım qurusun, əlim daş olsun,
Keyik bilib Xan Kəlbini üldürdüm.

Ovçu Pirim deyər: işim gürubdu,
Öz fəhmim özümə tələ qurubdu.
Yazım tərs yazılıb, qəza vurubdu,
Keyik bilib Xan Kəlbini üldürüm.

Deyilənə gürə, bu qəziyədən sunra Ovçu Pirim xeyli zaman əlinə yarax almayıb. Ta o vaxtacan ki, quşdarın, heyvannarın dilini üyrənə bilib.

## NƏNƏVAY DƏRƏSİ

Çalğan dağınnan üzü Sabnava kəndinə sarı enəndə göz qaraldıb, bağır yaran bir dərəyə tuş gəlirsən – Nənəvay dərəsinə. Deyir, bir qızla bir oğlan bir-birinə künül verib əhd-peyman eləyiblərmiş. Hərdən vədələşib dağ düşündə gürüşürləmiş. Həmən bu dərənin yeri allı-güllü bir talaymış. Oğlanna qız buranı özdərinə seyrəngah eləyibləmiş. Günnərin bir günü yenə də seyrə çıxıblarmış. Birdən dağ tərpənir, yer yarılır, qızla oğlanın gəzdiyi tala uçurum bir dərəyə dünür. İş elə gətirir ki, oğlan qıraqda bir qaya parçasının üsdündə qalır,

qız dərə aşağı yuvarranır. Oğlan yanınnan yuxa çıxan qızın səsinicə eşidə bilir:

– Nənə vay, nənə vay!!!

Sevən künüldə tab-tavana hardanıydı? Bayax ha oğlan da özünü isdəklisinin dalınca atır... Deyilənə gürə, qızın "nənə vay" harayının əks-sədası obada da eşidilib. Çux suraxlayıb axtarıblar, di gəl oğlannan qızdan bir nəm-nişana tapmayıblar. O vaxdan da bu güz qaraldan dərəni Nənəvay dərəsi adıynan çağırmağa başlayıblar.

## ŞIXHEYDƏR DAĞI

Bizim bu Şıxheydər dağı var ha, mübarək olmuşun adı uzun bir hekayətə bağlıdı. Belə nağıl eləyillər ki, ötənnərdə Şeyx Heydər adında gürüb-götürmüş, başdı-bilikli dərvişmisal bir mürşid bu tərəflərə güzar eləyibmiş. Düvrəsinə də özü kamalda, özü tutarda adamlar yığıbmış. Gəzib dulaşdığı oymaxlarda dünyanın gəliş-gedişinnən, olub-olmuşlarınnan sühbət açar, o yerrərin adamlarına haxdan-divannan dərs verib onnarı öz tərəfinə çəkərmiş. Şeyx Heydərin əsas qəsdi-niyyəti elin əlbirliyinə-dilbirliyinə çatmağıymış. El-camahat da bir ucdan ona inanıb iman gətirirmiş. Hə, bu burda qalsın, eşit sühbətin o biri ucunnan. Kafir ülməmişdi ha! Baxıb gürdü ki, belə getsə, hamı şeyxin başına cəm olasıdı. O səbəbdən də özü imanda olannarnan oturub tədbir tükür ki, fitnə-fəsadlı bir fəndinən şeyxi aradan gütürsünnər. Tədbirrəri də bu olur ki, bir gün sübhün güzü açılar-açılmaz yuxunun şirin çağında xəlvətcə şeyxin çadırına basqın düzəldillər. Onu ülümcül yaralayıb aradan çıxıllar, hay-haray düşür. Nə qədər dava-dərman, təbib-luğman tükürlərsə, bir şey çıxmır. Şeyx Heydər sun nəfəsdə yerdən bir uvuc qannı turpax gütürüb üpənnən sunra üz tutub düvrəsindəkilərə belə deyir:

– Məni elə buradaca basdırın. Özünüz də bu mən üpən turpağa and-qəsəm eləyin ki, inamnan-imannan dünməyəcəksiniz.

Düvrəsindəkilər qannı torpağı üpüb and-qəsəm eləyillər. Şeyxi də öz vəsiyətincə orada basdırıllar. Sunra güc toplayıb niyyətlərinə çatır. Şeyxin oğlunu da taxda çıxardıllar. O da atasının qəbrini burdan küçürdüb dədə-baba yurduna. Amma qəbrin yeri, bir də üsdündəki başdaşı indi də durur. Özü də o yer pirdi, kimin nəzir-niyazı varsa, uraya aparır. O vaxdan bəri şeyxin qanı tükülən bu dağ Şıxheydər dağı adıynan tanınır. Dağın ətəyindən keçən yula "Şıxheydər yulu", dürd tərəfdə qaynayan bulaxlara da Şıxheydər bulaxları deyillər.

**QEYD:** *"Şıxheydər dağı" adına bağlı bu rəvayətin səs-sorağı tarix qaynaqları ilə çarpazlaşır. Qaynaqlardan bəllidir ki, Şeyx Heydər 1488-ci ildə bu ətraflarda qətlə yetirilib. Səfəvilər nəslindən olan Şeyx Heydər Şah İsmayıl Xətainin doğma atasıdı. Xətainin babası, Şeyx Heydərin də atası olan Şeyx Cüneyd də XV əsrin əvvəllərində Qubada Ələvilik təbliğatı apararkən öldürülüb. Qubanın nə bu məqbərəsində, nə də Şıxheydər dağının ətəyindəki türbədə cənazə yoxdur. Şah İsmayıl Xətai öz hakimiyyəti illərində atasının da, babasının da sandüqəsini Ərdəbilə – Şeyx Səfi məqbərəsinə apartdırıb.*

## QANNI DƏRƏ

Vaxt o vaxtıymış ki, yurdun başını qara bulut alıbmış. Qulunda tutar, dizində təpər olan nə qədər cavan-cumrul varıymışsa, yaraxlanıb-yasaxlanıb çıxır qarı düşmən qənşərinə. Yağı quşunu da o vaxdacan basılıb eləmə nə olduğunu bilməyibmiş. Qərəz, bərk vuruş başdanır. El igiddərinnən də qırılan az ulmur. Amma qannan qurxmayıb yağıya doy gələ bilillər. Düşmən quşunun bir parası gücnən qaçıb canını qurtara bilir. Süyləndiyinə gürə, düyüşdə o qədər adam qırılıb, o qədər qan tükülüb ki, Çalğan dağının ətəyindəki büyük dərəynən elə biləsən çay axırmış. O vaxdan həmən dərənin adı qalır Qannı dərə.

## MULLA DURSUNALI

Dursunalı adlanan bir nəfəri oğurrux üsdündə həbs edib, ona on il cəza kəsillər. Onunla bir yerdə, Ziya adında bir nəfər ulur. Onun vaxdı qutarmaq üzrə idi. Bu iki nəfər bir biri ilə dust ulur. Hər ikisi də üzdərinin yaşadığı kəndin ünvanını bir-birinə verir. Bir ildən sunra Ziya azad olub öz kəndinə gəlir. Vaxt başa çatır, Dursunalı də öz cəzasını bitirib azad ədilir. Onun kəndi dağılmışdı, heç kəs urda yaşamırdı. Odur ki, öz-özlüyündə dosdunun kəndinə getməyi məsləhət gürdü. Onun sakqalı ağarıb artıx asa ilə gəzirdi. O, Ziyanın kəndinə gəldi, onu tapdı, bir-iki gün burda qaldı. Dursunalı Ziyaya dedi: -

– Bizim kənd dağılıb, yaşamax üçün yerim yoxdur. Mənə bir tədbir qıl. Ziya çox fikirrəşdi. Kənddə mulla yox idi. Qunşu kənddərdən mulla gətirirdilər. Ziya Dursunalıdan suruşur:

– Sən az-maz əlhəm və başqa dualar bilirsənmi? - Bəli, – deyə o cavab verdi. Onda mən səni camahata alim rütbəsində bir mulla kimi təqdim edərəm. Səni burda bir kəs tanımır, ancax özünü mühkəm saxla, suruşan olsa, bir uzaq kəndin adını ver, de ki, orda mulla çux olduğu üçün mullalıx etməyə bu kəndə gəldim. Dalısını mən bilirəm.

Ziya bütün kəndlərə xəbər verir ki, kəndə bir nurani mulla gəlib, onu mulla təyin edək. Xalq bu işə razı olur. Dursunalı işə başlayır. O, özü ilə on dua oxuya bilən kiçik mullardan da alıb məsciddə işləməyə başlayır. Ziya isə bu mullanın tərifini qunşu kəndlərə də yayır. Beləliklə, Dursunalı lap büyük alim adını alır. Bir neçə vaxt belə keçir. Onu ölü məclislərində oxudullar, dua yazdırıllar və başqa dini işlərə aparmağa başdayırllar.

Kəndə Qazan şəhərində dini elm almış bir nəfər gəlir. O, kəndin mullasının tərifini eşidəndə bir qədər kiriyir. O, öz-özlüyündə bir neçə dəfə onunla məsçidə getmək, onun hünərini bilmək isdəyir. Cümə namazında Dursunalı uca səslə "Allahu-Əkbər" süzünnən başqa bir süz demir. Qalan duaları kiçik mullalara oxumağı tapşırır.

Qazandan gələn adam (onun adı Rizə idi) bu mullanı sınamağı məsləhət gürür. Bir gün o arvadına tapşırır ki, on tuyux kəsdirsin, plov hazırlasın, ancax dalısını özü deyən kimi eləsin.

Cümə namazında Riza Dursunalıya üz tutub deyir:

– Bu gecə atamı yuxuda gürmüşəm, ona gürə balaca əhsan məclisi qurmax isdəyirəm, qunax gələn mullardan da alıb on nəfər mulla ilə bizə gəlin. Dursunalı Rizanın xahişini qəbul edir. Cümə namazınnan sunra Dursunalı on nəfər mulla ilə Rizanın əvinə yullanır. Riza yul güstərmək üçün irəlidə, Dursunalı ilə cüt gedirdi. Bir az yul gedənnən sonra Dursunalı ayax saxladı, üzünü dağ tərəfə tutub:

– Əssalam əleyküm, əy Məhəmməd, hara belə gedirsən? - deyə suruşdu. Digər mullalar mətəl qaldı, onnar suruşdu: - Mulla əmi, nə gürdün?

Dursunalı dedi:

– Şah dağınnan Məhəmməd Kəbə tərəfə gedirdi. Mən onunla danışırdım.

Mullalar buna inandılar. Rizanın əvinə çatmağa bir iyirmi-otuz addım qalanda Dursunalı yenə ayax saxladı:

– Vay ələyküm salam, Süleyman, hara belə? – deyə sual etdı. Sunra o, mullalara süylədi ki, guya Süleyman ona salam verdi, onun salamını aldım. Mullalar əvə yetişdi. Riza arvada tapşırdı ki, duqquz buşqaba plov çekib, tuyuxları aşın üsdünə quysun, onuncu buşqaba altda tuyux, üsdə plov tüksün. Arvad elə də elədi. Mullalar cərgə ilə uturmuşdu. Dursunalı ən yuxarı başda uturduğunnan, axırıncı buşqab da Dursunalının qabağına quyuldu. Ancax aşın üsdə toyux yux idi. Bu işi gürən Dursunalı acıxlanıb buşqabı itələdi:

– Mən ac deyiləm, bir az qabax yemişəm, - dedi.

Riza dedi:

– Mulla əmi, incinmə, toyuxların birini pişik alıb qaçıb və arvadım əlinnən ala bilməmişdi.

Dursunalı işi başa düşüb dedi:

– Əybi yoxdur, məni təhqir etməyin bəsdi - dedi.

# IV. N A Ğ I L L A R

## AŞBAZ OĞLU PADŞAHIN NAĞILI

Belə deyillər ki, Ərəb vilayətində bir rəhimdar padşah var imiş. Şahın adı Qiyas şah idi. Qiyas şahın üç oğlu var idi. Oğlannar hər üçü buy-buxunlu, güzəl, səxavətli və qüvvətli oğlannar idi. Böyük oğlun adı Cavad, ortancılın adı Təraz, kiçiyin adı isə Altay idi.

Qiyas şah artıx qucalıb, haldan-olandan düşmüş idi, şahlığı idarə etməyə taqəti qalmamışdı. Bir gün şah oğlannarını yanına çağırıb, onnardan şahlığı idarə etmək üçün razılıx istədi. Cavad razı olmadı. Təraz bəhanə etdi ki, büyük qardaş qalıb, mən bu işə sahib ola bilmərəm. Nüvbə kiçik oğlu Altayın üsdündə dayandı. Altay fikirrəşib dedi:

– Mən sizin hamınızdan kiçiyəm, atam sağ qala-qala mən bu işə sahiblik etməyimi özüm üçün əyib sayıram. Mən razı olmaram ki, şah olum, böyük qardaşdar mənə səcdə etsinnər – dedikdən sunra hürmətlə baş əyib otağdan çıxdı.

Padşahın qəzəbi tutdu, o hirsləndi, vəzir-vəkili çağırıb oğlanların şahlıxdan çıxarılmasını əmr etdi.

Oğlannarın hər üçü atası ilə vidalaşıb şahlığı tərk etdilər.

Onnar bir neçə vaxt yul gedib bir şəhərə çatdılar. Şəhərin kənarında bir malikanənin qabağında, şam ağacının altında uturdular. Bu malikanə demə, Tərvaz şahın malikanəsi idi. Xəbər şaha çatdı ki, ağacın altında üç nəfər qunax var, gecələmək üçün daldalaçıx axdarıllar. Padşah əmr etdi ki, qunaqları evə dəvət etsinnər. Axşam naharı yetişirdi. Bir çux sühbətdən sunra qunaxları yemək otağına apardılar. Onlara pilov aş, üsdündə quyun quvurması, al şərab hazırrandı. Şah adəti üzrə qunaxları xəlvət quyub, qapı dalınnan onnarın sühbətlərinə qulax asardı.

Yemək başlandı, büyük qardaş aşın üsdən bir qızaran ət tikəsini alıb ağzına apardı və tez geri qaytarıb yerinə quydu.

– Bu ki it ətidir, şah, bizi it ətinə qunax edib, - dedi.

Şah hirsləndi: İstədi içəri girsin, birdən dayandı. Bu zaman qunaxlar şərab badələrini qaldırdılar.

Ortancıl qardaş:

– Adə, bu şərab deyil, insan qanıdır, – dedi:

– Şah daha da hirsləndi, ancax səbr etdi, gürsün üçüncü nə deyir.

Üçüncü qardaş bu zaman "aşbazdan əmələ gələn şahdan bundan artıx nə güzləmək olar?" - dedi.

Şahın qanı elə qaraldı ki, özünü qoymağa yer tapmadı. O, tez çubanı çağırtdı.

– Quyun hardadır?

– Sürüdən, şah sağ olsun.

– O quyun nə quyundur ki, sən kəsmisən?

– Şah sağ ulsun! Bir südsüz quyunumuz var idi, o duğdu, ancax südü yox idi. Həmin vaxtda, bizim yatax itdərindən bir kar it balalamışdı. Quzunu həmin kar itin südü ilə saxladıx, o quyun ki unlara kəsilmişdi, həmin quyundur. Şah dərinnən ah çəkdi. Tez şərabçını çağırdı.

– Şərab hardan olan şərabdır?

– Şah sağ olsun, gül bağınnan, - dedi.

– O bağ əvvəlcə necə yer olub?

– Şah sağ olsun. Ora kühnə qəbirstannıq idi. Rəhmətlik atan onu sökdürüb yerində üzüm bağı saldırdı. Şərab da həmin bağın üzümüdən hazırlanan şərabdır, – deyə bağban dilləndi.

Şah daha bir dərin fikirə getdi, sonra dedi:

– Bunnar düz, bəs mənim atam-anam belli, o oğlan niyə elə dedi? Onun buynunu vuracağam - deyə qapıya yaxınlaşdı.

Birdən dayanıb: "Yux, gərək onu da yuxlayım" - dedi.

Şah anasının yanına getdi.

– Ana, mənim atam kimdir?

– Necə yəni kimdir, atan rəhmətlik şah Sənardır.

– Yux ana, düzünü de, mənim atam kimdir? Yuxsa işlər başqa təhər olacax. Şahın anası gürdü ki, işlər başqa cür

ulacax, unda düzünü demək məcburiyyətində qaldı. Oğul, otur qulax as, düzünü deyim:

– Mənim həmişə qızım olurdu, rəhmətlik atan, onnarı itirirdi. Son vaxtdar sən mənə həmli olanda, atan səfərə getməli oldu. O, mənə tapşırdı ki, əyər qızın olsa, səni də onunla bir qəbirə salacam.

Gün yetişdi. Mənim yenə qızım oldu. Həmin gecə qunşumuz aşbazın arvadı isə uğlan doğdu. Mən şah arvadı olduğum üçün hiylə ilə uşaqları deyişdirdim. Sən həmin aşbazın oğlusan - deyə arvad süzün bitirdi. Şah işə çox mətəl qaldı. "Bu oğlannar bu sirri hardan bilirlər?" – deyə fikir dəryasında qunaxların otağına girdi. Qunaxlar tez ayağa durdular qapandı, ədəblə  baş eydilər. Şah eyləşdi.

– Hə, de gürüm sən nə bildin ki, bu ət it ətidir? – deyə büyük qardaşdan soruşdu.

Oğlan özünü itirdi, demək, şah bunların dediklərini eşidib, – deyə sözün düzünü süyləməyi fikirrəşdi.

– Şah sağ ulsun, mən əti ağzıma alanda ətdən iy gəldi. Fikirləşdim ki, sürüdə ulsa, it ulacax yəqin ki, it ətidir, deyə öz-özümə – dedim.

– Hə, bəs sən nə bildin ki, bu şərab  insan qanınnan əmələ gəlib? – deyə şah ortancıl oğlana üz tutdu.

– Belə bu şərab mənə insan qanının dadını verdi. Canıma lərzə  saldı, bu isə insan qanını vəhiməsi idi.

Şah üzünü kiçik oğlana tutdu:

– Bəs sən necə cürət edib, mənim aşbaz oğlu olmağımı süylədin? – deyə ən kiçik oğlana müraciət etdi.

Kiçik oğlan dedi:

– Şah sağ olsun, biz axşamnan sizə yoxsul kişinin oğlanları olduğumuzu söylədik, bu yalandı. Biz Ərəb vilayətində adlı-sanlı Qiyas şahın oğlanlarıyıx. Atamız bizi öz şahlığına  sahib ulmağı təklif etdi. Biz üç qardaş ulduğumuz üçün aramızda inciklik olar deyə, bu işi buynumuza gütürmədik. Atamızın qəzəbi tutub, bizi öz vilayətinnən çıxardı. Bu gecə sizdə qu-

nax uldux. Bizə hər zaman çuxlu şahlardan, xanlardan qunax gəlirdi. Onnarın söhbətlərinə biz maraqla qulax asırdıx. Onnarın hərəsi bir tərəfdə "filan şaha belə zərbə vurdum", "filan xanın mülkünü belə dağıtdım", "quşuna belə əmr verdim" və sairə kimi söhbətlər edirdilər. Siz isə axşamdan halva belə bişər, kabab belə olar, plovun quvurması belə bişər, dulma neçə cür olur və s. kimi aşbaz söhbətləri etməyə başladınız, onda mən bildim ki, siz aşbazdan əmələ gəlmisiniz. İndi buyun bizim, qılınc sizin, nə isdəsəniz buyurun, – deyə kiçik oğlan süzünü bitirdi.

– Narahat olmayın, dediklərinizin hamısı duğrudur, – deyə şah otağınnan çıxdı.

Səhər tezdən şah oğlannarı çağırıb ən kiçik oğlanı şah, büyük və ortancıl oğlannarın birini vəzir, o birini vəkil təyin etdi. Özü isə isdirahətə çıxıb yaşamağa başdadı.

Onnar orda qaldı, mən isə bura gəldim ki, söhbəti sizə söyləyim.

## DƏVƏ İLƏ DƏVƏÇİNİN NAĞILI

Yuxsul bir kişi, düvlətə çatmax üçün bir dəvə alıb, bəzirgannığa başdamağı qərara aldı. O, Həmədan bazarınnan cavan bir dəvə aldı. Tanış bəzirgannara quşulub bir neçə şəhərdən mal alıb satmağa başdadı. Dəvəçi bəzirganın varı günü-gündən artmağa başladı. İş o dərəcəyə çatdı ki, o, şəhər qurmağı, orda nükər, qulluxçu, kəniz saxlamağı qərara aldı.

Vaxt çatdı, bəzirgan öz niyətinə çatdı. Bir düzlük sahədə, sakit axan bir çayın kənarında bir şəhər saldı. Şəhəri bir çux bəzirganlara tanıtdı. Şəhər bir az müddətə iri alver mərkəzinə çevrildi. Bəzirgan həm şəhərə gələn bəzirgannardan xərac alırdı, həm də özü başqa şəhərrərdə alver edirdi.

Bir dəfə bəzirgan səfərə çıxmışdı. Qumlu səhradan keçib ərəb ölkələrinə getmək isdəyirdi. Günün bir isti çağında bir tufan qupur, yulları qum suvurtusu basır, bəzirgannar yulu

itirir. Bəzirganın  ümidi qoca dəvədə idi. O, birdən fikirrəşdi ki, dəvəni ulağın quyruğuna bağlasın, ikisi birgə olsa, külək onnarı tərpədə bilməz. Bəzirgan o cür də élədi, dəvəni bərk-bərk ulağın quyruğuna bağladı, yula davam etdilər. Axşam vədələrində hava sakitdəşdi, karvan yula düşdü. Ərəbistan şəhərində alverdən sunra bəzirgan nükərrəri ilə öz şəhərinə qayıtdı. Bu dəfə işdər daha yaxşı düzəlmişdi. Bəzirgan şadlığınnan sətəlcəm olub xəsdələndi. Ancax ölüm-itim olmadı.

Günnər bir-birinin arxasınca keçirdi. Bəzirgan da qucalıb haldan düşmüşdü. Bir neçə vaxt keçdi. Bəzirgan yurğan-düşəyə düşdü. Əcəl onun əl-ayağını bağladı, quhum-qardaşı tuplayıb halallıx almağa başdadı. Hamıdan halallıx alıb sonra, o xahiş etdi ki, o quca dəvəni də çağırıb halallıx alsın. Dəvəni bəzirganın hüzuruna gətirdilər. Bəzirgan dəvəyə üz tutub dedi:

– Qucaman dəvə! Mən bu malı-mülkü sənin hünərinnə qazanmışam. Ancax səni çux incitmişəm, ac quymuşam, susuz qalmısan, qısa deyim, çux əziyyətdər çəkmisən. İndi mənim ölüm məqamımdır. İsdəyirəm, sənnən halallıx alım, buna nə deyirsən? - deyə bəzirgan, qırıltılı səslərlə süzünü tam etdi. Dəvə dedi:

– Mehriban ağam! Sən deyənnər hamısı həqiqətdir. Biz birgə əziyyətdər çəhmişik, nə qədər ulsa da, biz bir yerdə yaşamışıx, odur ki, mən hər əzabımı sənə halal edirəm, amma bir şey var ki, onu sənə bağışlamaram. Sən bir on-on beş il bunnan qabax, Ərəbistanın qumlux səhrasında tufan qupanda mən buyda dəvənin nuxtasını ulağın quyruğuna bağladın, məni ulaxdan da aşağı tutdun. Bu hərəkətin məni çux təhqir etdi. Odur ki, bunu sənə bağışlamaram. Sağ ol! - deyə dəvə qayıtdı.

Bu süzdər bəzirgana ağır zərbə olub ölümünü yaxınnaşdırdı və o, Allah rəhmətinə getdi.

## ZÜMRÜD QUŞU

Həbəşistan şəhərində addı-sannı bir şah var idi. Onun malı-düvləti başınnan aşırdı. Şahın uğlu yox idi, ancax qəşəng bir qızı var idi. Qızın adı Hüristan idi. Qızın uzun saçdarı, Aya bənzər sifəti, qara qaşdarı, sul yanağındakı qara xalı ona daha güzəllik verirdi. Qızın on iki kənizi var idi. Adəti üzrə hər cümə günü qızdar dənizdə gəmi ilə seyr edirdilər. Bir gün qızdar gül bağında gəzəndə, bağlıx yaxınnığında seyr edən Səddar addı bir uğlan bunnarı gürdü. Ürəyi gedib, yerə sərildi. Demə bu vaxt qızlardan biri bunu gürmüşdü. O, Hüristana dedi:

– Xanım, o uğlana bax, bizə baxıb birdən yerə sərildi. Rəhm et, gedib una kümək edək. Hüristan qızın sözünü yerə salmadı. Uğlana yaxınnaşdılar. Uğlan nə uğlan... Sərv buylu, ənli güvdəli, qara saçlı, təzəcə bığ yeri qaralan bir uğlan idi. Qızdar tez uğlanın üzünə su çilədilər, o, güzdərini açdı və dedi:

– Məni bağışlayın.

Hüristanın ürəyi titrəməyə başladı. O, uğlana bir künüldən min künülə vuruldu. Qızların hərəsi bir tərəfə bəhanə ilə dağılıb, uğlanın kim ulduğunu üyrəndi. Qızlar əvlərinə, Səddar isə öz əvinə getdi. Hər iki aşiqin sonrakı ürəy düyüntüsü sizə bellidir. Sevişənlər necə olur? Məncə sizlərdən sevişən olub. Qız artıx günü-günnən saralırdı, əşqin bəlası onu sarsıdırdı.

Qızın bu əhvalı şaha çatdırıldı. Şah "rəm" vurub bütün həkimləri tupladı. Qızının xəsdəliyini hərə bir süzlə izah etdi. Ancax əslini bilən ulmadı. Şəhərdə bir biləndər arvad yaşayırdı. Şah onu yanına çağırtdı. Qızın xəsdəliyini ona süylədi.

– Əh, bunda nə var ki? Qız həddinə çatıb, yəqin ki, aşiq olub, əşqdən xəsdələnib; - deyə, arvad dilləndi. Siz qıza, ayax deyməz dağın başında, uca çinarın altında olan züm-züm suyunnan su gətirib verin. Qız dərhal sağalacax.

Şah əmr etdi ki, kim gedib su getirsə, qızı ona verəcəm. Bu

xəbər Səddara çatdı. O, tez özünü şahın sarayına yetirdi.

– Şah sağ ulsun! Mən suyu gətirməyə süz verirəm, ancax ilqar bağla ki, qızı mənə verəcəhsən.

Şah dedi:

– Sənə bir həfdə vaxt verirəm, əyər suyu gətirsən, qız sənindir, yox, əliboş gəlsən, buynunu vuracağam.

Səddar, qılınc-qalxanı gütürüb yüla düzəldi. O, əli-qulu qüvvətdi qəşəng bir oğlan idi. Bir neçə gün yul gedib dağın ətəyinə çatdı. Dağın başındakı uca sərv buylu çinarı gürdü. Su çəşməsi bu çinarın altında idi. O, yavaşca özünü ağacın altına çatdırdı. Əl-üzünü sərin suda yuyub, bir qədər dincini almax üçün ağacın altında uzandı. Şirin yuxuda o, quş balalarının cib-cib səsdərini eşitdi. Tez qalxıb, gürdü ki, ağacda quş yuvası var. Yuvaya bir yekə ilan yaxınnaşır, balaları yemək niyyətindədir.

Səddar tez qılıncı gütürüb ağaca qalxdı. İlanı fal-fal doğrayıb quş balalarına verdi. Balalar əti yeyib rahat uldular. Səddar isə yenə külgədə uzanıb yuxuya getdi. Bu zaman Zümrüd quşu balaların yedirmək üçün yuvaya qundu. O, birdən Səddarı gürüb, tez geri uçdu. Qanadı üsdə yekə bir daş gətirib Səddarın üsdünə atanda balalardan biri:

– Ana, dayan! Bu insan bizi ölümnən xilas etdi. Bir yekə ilan bizi yaxalayanda, o, ilanı öldürüb bizə də ətini payladı. Bax mən qəsdən sənə güstərmək üçün dilimin altda bu tikəni saxladım - deyə diləndi.

Demə, ilan hər il bu quşun balalarını yeyən ilan imiş. Zümrüd quşu Səddarın üstünə gün düşməsin deyə, qanaddarını yayıb dayandı. Səddarın vəd verdiyi vaxta bir gün qalmışdı. O, birdən uyandı. Zümrüd quşu dilə gəlib dedi:

– Oğlan! Sən mənim balalarımı ölümnən xilas etmisən, indi de gürüm nə mətləbin var? Mən sənin qulluğunda hazıram.

Uğlan əhvalatı una süylədi. Sonra çəşmədən bir qab su gütürüb Zümrüd quşuna dedi:

– Məni öz vilayətimə çatdır. Artıx sənə qulluğum yuxdur.

Zumrud quşu uğlanı qanaddarı arasına alıb səmayə qalxdı. Deyillər, nağıllarda vaxt tez yetişir. Odur ki, Zümrüd quşu bir neçə sahatda Səddarı öz vilayətinə çatdırdı. Sağollaşıb ayrılanda, o, uğlana bir qanad teli verdi və dedi:

– Hər vaxt çətinniyə düşsən, bu teli yandır. Mən hazır olacağam.

Səddarın gəlişi xəbəri şaha çatdı. Onu tez şahın sarayına apardılar. Səddar şahdan xahiş etdi ki, onu qız olan utağa aparsınnar. Şah tez əmr verdi. Uğlanı qızın otağına apardılar. Şərt ilə otağda qızdan başqa heç kes olmamalı idi.

Hüristan uğlanı görcək tez unun buynuna sarıldı. İki aşiqməşuqə bir-birinə, avandlı tənək payaya sarmaşan kimi sarmaşdılar. Sonra qız dərhal paltarın geyinib, otağdan əyvana çıxdı. Əhvalatı gürən şah sevincindən nə edəcəyini bilmirdi.

O, saray əhlinə əmr etdi ki, tuy tədarükü görsünnər. Şah toyu bazar gününə təyin etdi. Tuy başdandı, Həbəşistan şəhri ömründə belə tuy görməmişdi. Yeddi gün, yeddi gecə tuy çalındı, iki cavan muradlarına çatdılar. Səddar Zümrüd quşunu yaddan çıxarmadı, teli yandırıb onu gətirdi. Tuy mərasimində Zümrüd quşuna xüsusi yer ayırdı. O, quşu öz yuvası ilə bura küçürməyi quşdan razılıx aldı. Quş semimiyyetlə razı olub, balalarını da şahın sarayı qarşısında uca bir ağacın başında yuvada yerləşdirdi. Səddar, Hürüstan və Zümrüd quşu xoşbəxt yaşamağa başladı.

Bir gün şah Səddarı yanına çağırıb şahlığı ona tapşırdı. Özü isə Allah rəhmətinə getdi. Səddar da şahlığı daha ədalətlə idarə etməyə başdadı.

## ŞAHZADƏ YUSİF VƏ CEYRAN QIZIN NAĞILI

Adı hər yanda məşhur olan Şərkəni şəhərində bir şah şahlıx edirdi. Onun Nəvaziş adında bir arvadı var idi. Arvadın daim qızı olurdu, oğlana möhdac idi. Şahın arvadı yenə həmli oldu, vaxt yetişirdi. Şah yığışıb nükərrəri ilə bir həfdəlik ova

çıxmağı qərara aldı. Arvadına tapşırdı ki, bu dəfə də qızın olsa, buynunu vuracağam. Şah yula düşür. Şahın arvadı ağrı keçirdi. Mamaçaya tapşırdı ki, qızı olsa gizlətsin, onun ölü olduğunu şaha xəbər versinnər.  Arvadın qızı oldu. Macal çəhmədən şah ovdan qayıtdı. Arvadın qızı olmasını bildi. İsdədi arvadın  və qızın buynunu vursun, arvad yalvardı ki, onu qızı ilə çülə atsın, üldürməsin. Şah bu xayişə razı oldu. Nükərə tapşırdı ki, onnarı, Taras çülünə atsın, quy  qurdlara-quşlara yem olsunnar. Nükər bir qədər rəhmdar idi. Şahın arvadı üçün bir xurcun çörəh, ət və başqa sursat alıb, onnarı Taras çülündə bir qayanın daldalacağına qoydu. Arvad sursat qurtarana qədər bu yerdə qaldı, sonra bir meşə cığırı ilə yula düzəldi. Bir neçə vaxt getdihdən sunra uca bir qalaçaya çatdı. Qalaçanın qapıları açıx idi. Amma içəridə  heç kəs yux idi. Arvad, nə olursa olsun, burda  qalacağam, fikirləşib kürpəsi ilə bir əvdə yerləşdi. Günnər keçirdi, ancax qalaçaya gələn yux idi. Beləliklə, arvad qala sahibi olub orada yaşamağa başdadı.

Deyillər, nağılda illər tez-tez keçir. Bizim də söhbətimiz on-on beş ilə çatdı. Şahın qızı boy-buxun atdı. Bir dəfə o, qalaçanın ən kiçik utağına girdi. Gürdü nə gürdü: burda bir qız daşa dünüb yatır, yanında isə bir ceyran **liqabı*** var. Qız bir qədər fikirrəşənnən sonra liqabı anasına güsdərdi. Anasının məsləhətilə liqabı eyninə taxdı, qız qəşəng bir ceyrana dündü, atılıb-düşməyə başdadı. Liqabı alan kimi yenə həmişəki qız oldu.  Şahın qızı o qədər güzəl qız oldu ki, heç bir mahalda ona tay olmamışdı. Qız həftədə bir dəfə ceyran liqabını geyib çülə çıxır, sıldırım qayaların, yaşıl çəmənnərin içində seyr edərdi. Axşam isə qalaçaya dünərdi.

Beləliklə, ana-bala şən və xuşbəxt yaşamağa, qalada, quyun-quzu, tuyuq-cücə, qaz-ürdək saxlamağa başdadı. Mal-dövlət günü-günnən artırdı. İndi sizə kimdən deyim, qala sahibinnən. Demə bu qala sahibi bir quca meymun imiş. O, öz

---------------

*liqab – niqab, libas.

qəbiləsinin yanına gedib on-on beş il idi ki, qayıtmamışdı. Qəbiləyə çuma xəstəliyi düşdüyü üçün o, öz qalasına qayıtmağı qərara almışdı. Bir axşam arvad gürdü ki, qalaya, insan şəklində bir meymun gəldi. O, bir tərəfdə gizdəndi. İşin axırını yuxlamax üçün qızını da xəbərdar etdi. Meymun darvazadan girib:

– Ey yerim-yurdum, səndən ötrü çux darıxmışdım. Yaxşı ki, hər şey öz yerindədir, - dedi. O, tez daş qız ulan utağa girdi. Vay çekib ağlamağa başdadı. Mənə sənsiz həyat nə lazım! – deyə ağlamağa başladı. Daha mən bu diyarda yaşayası deyiləm; - deyib qalanın damına çıxdı. Qala çux hündür idi. Damdan meymun özünü hələ bir sıçrayışla yerə atdı ki, sümükləri dərinin içində xurd-xəşil uldu. Arvad qızı ilə meymunu dəfn etdilər. İndi onlarda qala sahibliyi üçün heç bir şübhə qalmadı. Anası qızının yanında oturub, ona əqil-nəsihət verdi, çüldə çux gec qalmamağı tapşırdı. Təhlükədən tez başını qurtar, - dedi.

İlin bahar fəsli idi. Hər tərəf gül-çiçək içində ulub bahara başqa bir gözəllih verirdi. Ananın qızı seyrə çıxmax fikirinə düşdü. Səhər öz liqabını geyinib çülə çıxdı. Xeyli seyr etdi. O, dağın başınnan axan şəffaf bir çayın gülməçəsindən xuşu gəldi. Gülməçə Məleykəyə o qədər xuş gəldi ki, suyunub çimməyə başdadı. Demə bu gün Şəmaxı şahının uğlu at belində dağlar seyrinə çıxmışdı. O, çayın axarında durub, atı bir ağaca bağladı, hər tərəfə güz gəzdirdi. Birdən gözü gülməçədə çıplaq çimən qıza sataşdı. O, özünü itirmədi, bir kulun dalında gizlənib işin axırını gözləməyə başladı.

Zalımın qızı Məleykə gülməçəyə işıq salmışdı, qızın zahiri güzəlliyi uğlanı valeh etmişdi. Onun səbri tükənməz uldu isdədi gülməçəyə yaxınlaşsın, birdən:

– Yux, bu kişilikdən deyil kimsəsiz, qızı xəflətmək olmaz. Quy çimib geyinsin, sunra baxax görək nə olacax? - dedi.

Məleykə çimib qurtardı. Bir qədər güy otlar üzərində uzanıb yatdı. Oğlanın əl-ayağı titrəyirdi. Çülün bu mənzərəsində

tək qız, bu nə işdir? – deyə fikir dəryasına qərq oldu.

Birdən şah oğlunun atı kişnədi, qız ürkək kəklih kimi paltarrarına yaxınnaşdı. Liqabı başına atan kimi dünüb ceyran uldu. Yay kimi dartınıb, ox kimi süzdü. Birbaş qalaya üz qoydu. Oğlan firsəti əldən vermədi. Tez ata minib ceyranın dalınca çappağa başdadı. Qız qalaya çatanacan, uğlan onu izdədi, özünü qalıya yetirdi. Onu Mələykənin anası qarşıladı. Oğlan atdan yerə endi. Arvaddan ceyranın hara getdiyini suruşdu. Arvad dedi:

– Oğlum! Nə ceyran, nə ov, sən nə danışırsan? Burda ceyran nə gəzir? - dedi.

Oğlan yalvarmağa başladı. Ceyranım bura gəldi, gəl unu mənnən ayırma. Anacan, bütün dünyaları sənə qurban edərəm, ancax o qızcığaz ceyranı mənnən ayırma. Məleykənin anası işi başa düşmüşdü, ancax özünü biruzə vermirdi. İş o yerə çatdı ki, oğlan özünnən gedib yerə sərildi. Ana Mələykəyə tez su gətirməyi tapşırdı. Mələykə əlində su bardağı ilə uğlanın başı üstə dayandı, anası oğlanın üzünə su çiləməyə başdadı. Oğlan yavaşca güzdərini açdı, başının üsdündə duran qızı dərhal tanıdı. Onun göldə çimən qız ulduğuna şübhə etmədi. Güzdərin yenidən yumub, güz altdan qızı seyr etməyə başladı. Atın kişnəməsi onu oyatdı, tez ayağa qalxdı. Qız dərhal evə qaçdı. Oğlan anaya bu Tanrı payı ulan qızı una verməyi xahiş etdi:

– Mən Şəmaxı şahının oğlu Yusifəm. Allah mənə bu qızı qismət elədi. Sabah sizə elçi gündərərəm, ancax etiraz etmə, anacan - deyə oğlan sun süzünü süylədi.

Arvad Mələykəni çağırdı. Qızım, bu oğlan səni gülməçədə çiməndə gürüb, artıx aşiğin olub, indi məsləhət sənindir. Şahzadə oğlanı sevirsənmi? - deyə qızdan suruşdu.

Ana, məsləhət sahibi sənsən, özün necə layiq bilsən, elə də elə dedi.

Oğlan ata minib, yula düzəldi. Əhvalatı ata-anasına süylədi. Ərtəsi gün şah, arvadı, vəzir-vəkil oğlan ilə qalaya qunax

gəldilər. Ana ilə məsləhətdən sonra, qızı, ananı qalada olan mal-düvlət ilə öz şahlığına gətirdilər. Yeddi gün-yeddi gecə tuy düyüldü. Mələykə xanımla Şəmaxı şahın uğlu Yusifə kəbin kəsildi.

Məleykə ceyran liqabını sandığa salıb gizlin saxlayırdı. Günnər bir-birinin ardınca su kimi axıb keçirdi. Vaxt yetişdi, Mələykə həmli oldu. Onun qəşəng bir uğlu uldu. Şahlıxda tarixdə belə şaddıx olmamışdı. Şah bütün kasıb-kusuba pul payladı. Şahlıx məclisinə yaxşı şahlıxlardan qunaxlar gəlmişdi. Qunaxlar arasında Şərkəni şəhərinin şahı Məsum da var idi (bu həmin qızın atası idi). Arvaddar məclisi kişilərdən aralı idi. Məsum birdən arvad məclisinə güz gəzdirdi. O, Nəvaziş xanımı tanıdı. Ayağa qalxıb şahdan xahiş etdi ki, o arvadla danışmağa ona icazə versin. Şah razı oldu. O, arvadla Məsumu bir utağa saldı. Məsum arvadın ayağına yıxılıb, əhvalatla onu tanış etməyi xahiş etdi. Arvad bütün başına gələn əhvalatı ona süylədi. Məsum öz günahlarını boynuna aldı. Qızı ilə də gürüşdü, onu da bağrına basdı. İki şahlığın quhumluğu meydana çıxdı. Məsum öz arvadını alıb evlərinə gəldi. Mələykə xanım şahzadə Yusiflə oğlu Məhərrəmlə xuş düvran sürməyə başdadılar. Allah sizi də xoş günə çıxarsın, daim xuşbəxt olasız.

Toy məclisinnən bir kəllə qənd pay vermişdilər, yulda əlimnən aldılar. Heyif ki, əlibuş gəldim.

## ZƏRNİŞAN XANIMIN NAĞILI

Zərnişan qələm qaşdı, al yanaxlı, xumar güzdü, incə belli bir arvad idi. Onun uzun, daban dügər saçdarı, sul yanağındakı quşa qara xalları, gülümsər baxışdarı, bütün kişiləri valəh edirdi. Onda belə bir şücaət var idi ki, hər hansı bir kişi ulursa ulsun, onu dərhal bir güz qırpımında aldadırdı. Beləliklə, Zərnişan mahalda yux, bütün şəhərdə ad qazammışdı. Zərnişan gecə yuxuda bir çox mal-düvlət sahibi ulmuşdu. O, yuxunu çinədmək niyyətinə düşdü. Şəhərin addı-sannı düvlətlilərinin

siyahısın aldı. On iki nəfər düvlətlinin ipini əlinə almağı vəd etdi. İş başlandı. O, əvvəlcə cavan bir uğlana rəm atdı. Oğlanın ata-anası ülüb yetim idi, ancax mal-düvlətinin sayı-hesabı yux idi. Zərnişan uğlana ərə getdi. O, ürəyində tuturdu ki, bu un iki nəfəri bir il ərzində ələ almağı, mal-düvlətinə sahib olmalıdır. Birinci müştəri, bütün mal-düvlətin sahibliyini arvadı Zərnişana təhvil verdi. İkinci müştərini bir gecə əvə dəvət etdi. Bu gecə əri əvdə yux idi. Onunla məsləhətləşdi ki, sabah gecə yenə gəlsin. Qəflətən əri səfərdən qayıdanda qunşusu Dursun gecə əhvalatını ona süylədi. Zərnişanın əri bir məlumsuz yerdə gizdənib pusquda oturdu. Axşam qaş qaralanda müştəri əlində bir yekə sürtüklə əvə daxil olur. Güzünə dündüyüm Zərnişan onun buynundan ələ sarıldı ki, əri onnarı ayıra bilmədi. Bu həngəməni görən ər səhər qazını çağırıb orada üç süzünü verdi. Zərnişana elə bu lazım idi. O, oğlanın malınnan çux payını özünə aldı. Malı əvində yerləşib, ikinci müştəriyə xəbər etdi ki, onunla əvlənmək isdəyir. Bu arvad ikinci müştərini də valəh etmişdi, odur ki, məsələ tez həll olundu.

Bir dəfə o, daha **bicəlp*** oldu. Oğlanın malın öz kəbin kağızın yazdırıb, qazıya kəbin kəsdirdi. Zərnişan şirin ayilə qurdu, amma ürəyi başqa niyətdə idi. O, gərək bu un iki nəfərin arvadı ulsun, axırnı isə gözləmirdi.

İkinci ay başa çatdı, Zərnişan işə başladı. Üçüncü müştərini dilə tutdu. Demə bütün müştərilərin güzü arvadda imiş.

– Ay Zərnişan, gör hansı bəxtəvərin malı olursan!... deyirdilər. Üçüncü müştəri gündüz onun əvinə gəldi. Əşq-məhəbbətin qızğın vaxtında əri utağa daxil oldu. Vəziyyəti belə gürən ər isdədi bunnarın hər ikisini üldürsün, birdən fikirləşdi, yux, yaxşısı budur arvadı buşayım. Hələ o gün üçüncü müştərini əli bağlı əvdə quyub şəhərin qazısını çağırdı və arvadı buşadı. Qazı kəbin kağızında yazılan bütün malı arvada verdi. Bu da belə qurtardı.

---------------

*Biçəlp – fərasətli, cəld.

Şəhərdə güzəllikdə, görkəm və səxavətdə durna bulağının suyu tək işıqlanan bir uğlan var idi. Zərnişanla cüt duranda, hər ikisi bir-birinə güzəllik verirdi. O, Zərnişana evlənməyi qərara aldı. Ancax Zərnişanın qabaxkı hərəkətləri onu sarsıdırdı. Dili şirin, əməli bəd Zərnişan bu uğlanı da aldatdı. Tuy tədarükü başdandı. Qazı gəlib kəbin kəsdi. Oğlan bu işə də firsəti əldən vermədi. Kəbin kağızında yazdırdı ki, hər ikisinin mal-düvləti birgədir. İşdə puzqunlux olub, ayilə ayrılıpsa, mal-düvlətdən təxsirkar əl çəkəcək. Birgə həyat başdandı, günnər bir-bir keçirdi. Zərnişanın ürəyi qaynıyırdı. Nə etsin, nə həngamə çıxarsın ki, ərini təxsirkar edib, onnan buşansın, mal-düvlətə sahib olsun. Öyrənən durmaz, deyiblər. O da dura bilmirdi.

Şəhərin kənarında yetim bir qız yaşıyırdı, güzəllikdə Zərnişandan iki qat artıq idi. Zərnişan qızı dilə tutdu. Ona dedi ki, sən bu gecə bizə gəl, mən evdən çıxıb gedəcəyəm, səni ərimlə quyaram razılıx edib ona ərə gəlsən, hər ikimiz bacı kimi yaşayarıx, ərimizin də iki arvadı olar. Qız aldandı. Axşam qarannıxda Zərnişanın əvinə gəldi. Zərnişan ərinnən, bu gecə rəfiqəsinə qunaxlığa getməyin bəhanəsilə rüsxət aldı. Özü isə mətbəxdə gizdəndi. Ələki yetim qız evə girdi, o tez gedib qazını özü ilə evə gətirdi. Qız ilə ərini qazıya güstərib dedi:

– Sən Tanrı şahidi. Ərim məni buşayıb bu qızla evlənmək isdəyir. İndi buna təklif et ki, məni buşasın, mən çıxıb gedim. Quy bunnar yaşasınnar. Qazının əslində bu işdən xəbəri yux idi. Odur ki, kəbini tərs oxudu, ər-arvad buşandı.

Ərtəsi gün Zərnişan furqunlar gətirib, malı daşımax isdədi. Kəndin qazı və kovxası da gəldilər. Ər-arvadın kəbin kağızını isdədilər. Oğlan kağızı tezdən gizlədib saxlıyırdı. Zərnişanın bundan xəbəri yux idi. Oğlan dedi:

– Kəbin kağızı Zərnişandadır, mənim onnan xəbərim yuxdur.

Zərnişan o qədər kağızı axtardı ki, tapa bilmədi. Şəhərin

kövxası ilə qazı bütün mal-düvlət sahibi əri təsdiq etdilər. Zərnişansa yanan od içində tüsdüsüz quvruldu. Əli mal-düvlətdən çıxıb tək-tənha qalmışdı. O, çux gütür-qoy ələdi, ancax qəti bir məqsədə nail ola bilmədi. Çünkü hamı onu tanıyırdı, hiyləsi ilə tanış idi, udur ki, daha heş kesi aldada bilməzdi.

Bir gün Zərnişan şəhərin yuxarı tərəfində olan seyrangaha dərd-qəmini buşaltmax məqsədilə seyrə getdi. Seyrangah çux səfalı bir yer idi, unun cənub tərəfində, yaşı yüzdən artıx olan quca bir çinar ağacı var idi. Çinarın altında sərin sulu bir çeşmə həmini valəh edirdi. Zərnişan bu çeşməyə yetişəndə külgədə dincin almax üçün yatan bir oğlanı gürdü. Oğlan şirin yuxuda idi. Odur ki, Zərnişanın onun yanında əyləşməsinnən xəbəri yux idi. Bu uğlan Zərnişana tanış deyildi. O, bunu Allah vergisi hesab etdi. Oğlan ayılana qədər unun yanında oturdu. Günəş dağın ətəyinə ənirdi. Artıx çeşmə başı sərinnənirdi. Sərin külək oğlanı yuxudan ayıltdı. Oğlan arvadı gürcək tez ayağa qalxdı. Zərnişan hiyləyə əl atdı. O dedi:

– Oğlan, anan namaz üsdə idi. Səni ölümnən xilas ələdim. Burda bir şahmar ilan az qala səni sancıb, zəhərləyirdi. Mən unu üldürə bilmədim, o, bu çinarın kükləri arasında gizləndi. Mənsə səni ayıltmağa qıymadım, quy dincin alsın dedim. İndi de gürüm, sən kimsən, haralısan? Burada niyə yatmısan? Məyər şəhrdə tanışın yuxdur? Onda buyur gəl mənimlə, səni qunax aparım. Zərnişanın bu süzləri uğlanın ürəyinə yatdı. Duğrudan da, unun bu şəhərdə tanışı yox idi. Odur ki, arvadın təkliflərinə razı uldu. Onnar şəhərə –Zərnişanın əvinə gəldilər. Zərnişan qunağı o ki var, lazımilə qarşıladı. Axşam yeməyi qutardı. Yatmax muğamına çatdılar. Qunax Zərnişannan bu evdə kişi xeylağı ulub-ulmamasını da suruşdu. Ürəyi arxayın yataxda uzandı, ancax güzünə yuxu getmirdi. Birdən qunax otağının qapısı açıldı. Zərnişan utağa daxil uldu. O, alt paltarında idi. Qunax fikirrəşdi. Aha, dərə xəlvət, tülkü bey! – deyə Zərnişanı qartal kimi caynağlarına aldı. Gecəni belə keçirdilər. Oğlan getməyə izn isdəyəndə: ”Mən səni güydə ax-

tarırdım, ancax yerdə tapmışam, hara gedirsən, səni buraxan deyiləm” - dedi.

Qız qazını çağırıb “nikah qılmalıyıx, qoy namərdlər bizim xuşbəxtliyimizə paxıllıq etsinnər”, – deyə oğlanın başını qulları arasına aldı. Onnar kəbin kəsdirib, rəfah yaşamağa başdadılar. İndi sizə kimnən deyək, kəndin qazısınnan. Qazı Zərnişana, bir künüldən min künülə vurulmuşdu. Demə, özü ona sahib olmax isdəyirdi. Bir gecə xəlvətcə qazı Zərnişanın qapısına gəlir, sakitcə qapını düyür. Zərnişan qapını açır, qazını gürüb karıxır. Qazı, gecənin bu vaxtında sən burda nə axtarırsan? - deyir.

Qazı titrək səslə: “Maralım”... – deyə Zərnişanı qucaxladı. Qapıdan içəri girdi. Zərnişan nə edəcəyini bilmirdi. Səs salsa, əri uyanar, bu işin təxsirini mənim üsdümə atar – deyə səsini çıxarmadı. Zərnişan qazını rahat etdi ki, bu utax xəlvətdir, bura gir, mən bu sahat gələrəm. Arvadın süzünə inanan qazı otağa girdi, uzanıb yatdı. Zərnişan əlində bir yekə balta utağa girdi. Baltanı qazının başına elə endirdi ki, qazıdan heç səs belə çıxmadı. Onu sürüyüb küçəyə atdı. Ancax bu sirri bir qunşu arvad gürüb tez kövxaya xəbər verdi.

İşin üsdü açıldı. Zərnişan məhkəməyə çekildi. Şəhərin qazısını üldürdüyü üçün ona ülüm cəzası kesildi. Cəlladdar hükmü yerinə yetirilər. Zərnişanın var-düvlətə çatmax niyəti belə qurtardı.

Mən hükmün yerinə yetirilməsini bilib, geri qayıtdım. Onnar orda qaldılar, mən öz mənzilimə gəldim.

## PAXIL QARDAŞDAR

Belə nağıl edillər ki, bir kənddə varrı, düvlətdi, İslam adında bir kişi yaşayırmış. İslamın malı-düvləti başınnan aşırdı. Onun üç oğlu, bir qızı var idi. Büyük oğlanın adı Sərdar, ortancılının adı Mərdan, kiçiyinin adı isə Mustafa idi. Bacısının adını qaradaşları Zümrüd deyə çağırdılar.

Kiçik qardaş Mustafa çux ağıllı bir uğlan idi. İslam kişi hər üç uğlunu evli-eşikli eləmişdi. Onu qucalıx haldan salmışdı. Bir gün o, uğlanlarını yanına çağırıb mal-düvlətini onların arasında bülür. Bülgü zamanı Mustafaya bir qədər artıx mal düşür. Mustafanın arvadı o qədər güzəl idi ki, qardaşların paxıllıxdan ürəyləri partdıyırdı. Malın çuxu, səfalı yerrər, güzəl arvad, hamısı Mustafaya düşüb bizə nə? - deyə iki qardaş dilə gəlmişdilər. Mustafa isə bunnara çux hürmət eləyir, xətirlərini əziz saxlayırdı. Onun ürəyində pislik, paxıllıq yux idi.

Çox keçmədi İslam kişi Allah rəhmətinə getdi. Onu kiçik oğlu öz xərci ilə dəfn etdi. O, vaxdan artıq bir il keçmişdi. Onnar qardaşını üldürmək, unun malına və arvadına sahib ulmax niyətində idilər.

Bir gün büyük qardaş o biri qardaşları da çağırıb, səhərisi günü qartal ovuna çıxmağı təklif etdi. Onnar dağ zirvələrindən, qartal yuvasınnan quşları tutub evdə üyrətməli, sonra ova aparmalı, qırqovul, kəklik tutmalı idilər.

Səhər açılanda qardaşlar, ox-yaylarını, **kəməndlərini*** götürüb uva çıxdılar. Yüksək uçurumlu bir qayanın üsdündə durdular. Bu qayalar arasında qartal yuvaları ulmalı idi. Qardaşlar kimin düşməsi barədə məsləhət etdilər. O biri qardaşların niyyətindən bixəbər ulan Mustafa, "mən düşəyəcəm" deyib, kəməndi belinə bağladı. Qardaşdar bir-birinə işarə edə-edə onu qayanın təpəsinnən uçuruma uzatdılar.

Mustafa uçurumu yuxladı. Burada bir dənə də ulsun qartal yuvası yux idi. O, ipi çəkməyi qardaşdarına işarə etdi. Qardaşdarı isə imtina etdilər. İpi çəkmək üçün şərt quydular:

– Əyər atam sənə verən mülkü bizə verməyə and içsən, səni yuxarı çıxararıx.

– Mən sizə and içirəm, bütün əmlakı sizə verəcəyəm.

– Hələ bu azdır. Ata sənə verən quyun sürüsünü bizə verməyə and içsən, səni çıxaracağıq.

---------------

*Kəmənd – hündür dağlara çıxmaq üçün uzun iplər.

– Beli, razıyam, and içirəm, quyun sürüsünü sizə verəcəyəm. İndi məni çıxardın.

– Yox, hələ üçüncü şərt qalıb, una da əməl etsən səni çıxaracağıq.

– Sən and iç ki, arvadın Sürmayəni bizə verəcəksən, onda səni bu uçurumdan çıxaracağıq.

– Hələ bu süzü eşidən kimi Mustafanın başı hərləndi. Paxıl qardaşlar gür nə yerə əl atırlar, - dedi.

– Yux, mən sağ qalıb bu şərtə razı ula bilmərəm, nə isdəsəniz, edin. Mən arvadımı sizə verəsi deyiləm.

Qardaşdar bu süzdəri eşitcək ipi kəsdilər. Mustafa bir daş kimi uçux qayanın bucağında oturdu.

Axşam düşdü. Qardaşdar uvdan evə qayıtdılar. Bacıları Zümrüd gürdü ki, Mustafa yuxdur. O, qardaşlarınnan Mustafanın hara getdiyini suruşdu. Qardaşları isə sirri gizlətdilər.

Zümrüd, qardaşının arvadı Sürmayəni də alıb dağa yullandı. Onnar çağıra-çağıra Mustafa olan uçurumun təpəsinə çatdılar:

– Qardaş, səni bu hala kim saldı? - deyə undan suruşdular.

Kəməndi aşağı atdılar ki, onu çekib yuxaxı çıxartsınnar. Qardaşı bunu rədd edib, özünü qayadan atdı. Onun sümüyləri dərənin içinə tüküldü, qanı isə uçurumun altından axan çaya qarışıb, güz gürünənə qədər çayı al-qırmızı rəngə buyatdı.

Zümrüd ilə Sürməmayə uçurumun ətəyinə düşür, mərhumun leşini çeşmə ilə yuyub evə gətirdilər. Bu zaman qardaşlar evdə Mustafanın malını bülüşdürürdülər. Onnar qışqıra-qışqıra dedilər:

– Alın! Alın! Xayin qardaşlar, əyər mal azdırsa, bu sümükləri, ət parçalarını paylayın, qanını su kimi için - deyə arxalarındakı leşi onnarın qabağına atdılar. Hünkür-hünkür ağlamağa başdadılar. Ərtəsi gün meyidi dəfn etdilər. Bu əhvalat bütün kəndə yayıldı. Bütün kənd əhli bu iki qardaşa lənətlər oxuyub, kəndən çıxarıb quvdular.

## MAHMUD XAN VƏ QUCA

Bəzdaran şəhərində Mahmud adda bir xan var imiş. Mahmud uca buylu, qucalmış palıd ağacının kütüyünə bənzəyirdi. Qura saqqallı, iri güzdü, qaşlarının tükləri qılpıqlarını basmış bir adam idi. Onu bir dəfə gürənnər, bir daha gürməyi isdəməzdi. Odur ki, bəzi məclisdərdə daim onun əksinə sührbətlər gedirdi.

Şəhərdə Mirbaba adında hürmətli bir quca yaşayırdı. Qucanın Murad adlı bir oğlundan bir də arvadından qeyri bir kesi yux idi. Bir gün qucalar kəndin uçarında sühbət edəndə Mirbaba, Mahmudun pis adam ulduğunu süylədi. Casus tez xana xəbər çatdırdı ki, Uçarda qucalar onun əksinə sühbət edillər.

Xan bu işin üsdünü açmax üçün bir neçə qucanı sühbətə çağırdı. Ancax qucalar bir-birini satmadılar. Sunra xan hiyləyə əl atdı. Hər gün  bir qucanın başını meydançada kesdirmeye başladı. Murad atasını bir xəlvət sarayda gizlədib saxladı. Şəhərin qucaları azalıb heçə çıxdı. Ancax bircə Mirbaba qaldı. Bu sirri heç kəs bilmirdi. Günnər, aylar, illər keçdi. Şəhərə bir aclıx düşdü.

Murad atasına az-az yemək tapıb verirdi. İş o yerə çatdı ki, adamlar heyvan dərilərini yeməyə başdadılar. Murad atası üçün bir parça camış dərisi bişirib getdi.

– Oğul, bu nə işdir? Niyə məni belə hürmətsiz edirsən? Onda məni üldür, birdəfəlik rahat olum: - deyə Mirbaba uğluna etirazını bildirdi.

Mirbaba dedi:

– Ata, şəhərdə ələ aclıx var ki, insannar az qala bir-birinin ətini yesin. Daha elac yuxdur, hələ bu dəri düşməyinə Allahına şükür elə: - dedi.

Oğlum, qulax as, sən get xana de ki, Kələmşə quruğunda ulan qarışqa təpələrini eşsin, o təpələrdə buğda ulacax, yığıb əkdirsin. Bir də əkin sahələrini yanında keçən yullarının kənarrarında sahələri əkdirsin. Orada yaxşı buğda bitəcək.

Murad əhvalatı xana süylədi. O, əvvəlcə bu işə fikir vermədi. Sunra isə xan əmr verdi ki, qarışqa təpələrini eşsinnər. Təpələrin içindən bir qədər buğda çıxardılar. Zəmiləri əkdilər, yulların da kənarlarındakı sahələri sürdürdü. Yeni ildə zəmilərdə elə məhsul düzəldi ki, ümründə belə bul məhsul almamışdı. Xan Muradı yanına çağırıb suruşdu:

– Bu tədbiri sən haradan bildin? - deyə undan sual ələdi.

Murad qorxa-qorxa xana dedi:

– Xan sağ olsun, bunu mənə atam təklif etdi. Mən atamı gizdədib saxlamışam, indi qılınc sənin, buyun mənim, ixtiyar sahibisən, boynumu vur.

Xan əmr edir ki, qucanı unun sarayına getirsinnər. Murad cəlladla birgə atasını xanın hüzuruna getirdi. Xan ayağa qalxıb, ədəblə qucanı qucaqlayıb eyləşdi. Xan Muradı saraya baş cəllad, Mirbabanı isə özünün baş vəziri təyin etdi. Şəhər əhalisi aclıxdan xilas oldu, bu iş üçün bütün xannıx Mirbabaya əhtiram edir, onun hürməti birə-un artır.

Qucaların məsləhəti o günnən xalq arasında ən yüksək bir qüvvə kimi nüfuz qazammağa başdadı.

## BAĞBANLA ÜÇ OĞLU

Uzundərə adlanan bir kənddə qucaman bir bağban yaşayırdı. Bağbanın üç oğlu var idi. Ancax hər üçü də işsevən deyildi. Bağban artıx taqətdən düşmüş, iş bacara bilmirdi.

Fikri onda idi ki, gürəsən mən ülənnən sonra bu bağın halı necə olacax? - deyə öz-özünə fikirrəşirdi.

Bir gün bağban yuxu gürür. Ona Azreil deyir ki, sabah sənin canını alacam, quhum-qardaşlarla vidalaş, oğlannarına vəsiyyət elə. Bağban səhər yuxudan ayıldı. Bu nə yuxudur mən gürdüm? - dedi. Bağban oğlannarını yanına çağırıb onnara vəsiyyət etdi. Ancax ürəyində bağ idi.

O vəsiyyətdən sunra oğlanların təkbətək özünün yanına dəvət etdi. Böyük oğlu Mərdana dedi:

– Oğlum, gürürəm qardaşlarınnan sən bir qədər zəhməti sevənsən, sənə bir sirr açım. Bağın xəlvət yerində mən xəzinə basdırmışam. Mən ülənnən sonra onu axtarıb taparsan, ancax qardaşdarına pay verməyi unutma. Sonra urtancıl oğlunu çağırıb həmin süzdəri ona da dedi.

Axırda kiçik uğluna bu əhvalatı süylədi. Hə, indi rahat ülə bilərəm – dedi. Doğrudan da Azreil öz vaxtını güzləyirdi o yetişib, bağbanın canını aldı. Bağban Allah rəhmətinə getdi. Oğlannar hər üçü də onu layiqincə dəfn etdilər. Ancax ata vəsiyyətini hər üç uğul ürəyində gizli saxlayırdı.

Bir gün büyük oğlan tab gətirməyib bağı **təpləməyə*** başladı. O biri uğlannar işi belə gürüb ona quşulur. Oğlannar, "xəzinə əhvalatı"na görə bağı o baş bu başa ələ təpdilər ki, daha torpaxda amin qalmadı. Ancax xəzinədən bir iz tapılmadı. Oğlannar belə məsləhətə gəlillər ki, təpilmiş sahəyə buğda əksinnər. Onnar sahəni əkib bir yerə tupladılar. Atanın gizli sühbətini aşkar etdilər. Onnar bildilər ki, atası bağı becərsinnər deyə bu sühbəti onnara təkbətək deyib. Məhsul yığımında, oğlannar başa düşürlər ki, bu hələ ata deyən xəzinə imiş. Odur ki, hər il turpağı becərib bu xəzinəyə sahib ulmağa başdadılar. "Əsil xəzinə turpaqdır" deyə işə can-başla işə girişdilər.

## ƏDALƏTLİ VƏZİR

Bir şah öz malekanəsində ona xayin çıxan bir şəxsi tutub zindana salır. Müqəssir bir neçə gün zindanda yatır, nə edəcəyini bilmirdi. Şaha nə desin, nə üçün ona xəyanət edib, yoxsa ki, bu bir bəhanədir. Günnərin bir günü şah əmr edir ki, müqəssiri meydançaya gətirib dar ağacınnan assınlar.

Budur, müqəssir gətirilir, onu dar ağacına yetirib, ona sun süz verillər. Müqəssir, demə yerri adam deyilmiş, ona sun süz

---------------

* təpləmək-belləmək.

süyləməyi əmr edirlər. Müqəssir öz dilində başlayır danışmağa, ancax onun dilini və dediklərini heç kəs başa düşmürdü. Şah üzünü vəzirə tutub müqəssirin nə süylədiyini suruşdu. Vəzi:

– Şah sağ ulsun, müqəssir deyir ki, mən çux şahlıqlar gəzmişəm, çux şahlar gürmüşəm, ancaq sənin kimi mərhəmətli şaha rast gəlməmişəm, əhsən şəninə, ədalətinə, hürmətinə sənin nüfuzun xalq  içində çux yüksəkdədir. Ancaq bir şey var, bilmirəm necə deyim? Əyər məni bu cəzadan xilas etsən, hər yerdə səni tərifləyərəm, nüfuzun birə-min  artar. Şah bu süzlərdən şad oldu, müqəssiri bağışdamağı qərara aldı.

Demə tuplaşannarın içərisində müqəssirin dilini bilən nəfər varıymış. O irəli çıxıb şaha süylədi:

- Şah sağ olsun vəzir tamailə yalan deyir, müqəssir səni tərifləmir əksinə, sənin ədalətsiz, ən qəddar bir şah ulmağını süyləyir. Şah yerindən qalxıb deyir:

– Səsini kəs! Mən ədalətsiz, qəddar şah deyiləm. Vəzir düz tərcümə edib, siz yalançısınız.

Cəlladdara əmr edir ki, müqəssirin əvəzinə həmin şəxsi dar ağacınnan assınlar. Müqəssir isə azad edilir. Vəzirə isə mükafat verir.

## KAFİRİN MÜSƏLMAN OLMASI

Dini İslamın künlünnən yapışan şah Əlarah, bütün saray əhlinə əmr edir ki, harda onnara kafir rast gəlsə, tutub gətirsinnər.

Bir gün şahın nükərrəri küçə ilə keçən bir yulçudan suruşur.

- Sən müsəlmansan ya kafir?

- Mən müsəlmanam, - deyə cavab verən yulçunu eşidən nükər, onun kafir ulmasını təsdiq edir.

Şah əmr edir ki, onu, “mən müsəlman deyiləm” – deyənə qədər düyün. Nükərrər əmri yerinə yetirirlər. Yulçunu düyən-

nən sunra şahın hüzuruna gətirillər.

Şah: - Hə, de gürüm indi düzünü deyirsənmi?

Beli, şah sağ olsun, sizdə bir qayda var: kafir müsəlman ulan da zurla una xələt verirsiz. Bəs mən müsəlma nə üçün zurla kafir edirsiz?

Beləliklə, yulçu yaxasını şahın əlindən qutardı.

## ATA VƏSİYYƏTİ

Addı-sannı bir kənddə bir tanımmış kişi yaşayırdı. Onun adına quşpərəs Sultan deyillər.

Sultan kişini, nəinki mahalda, bütün qunşu kəndlərdə tanımayan yux idi. Onun əvi bir karvansara kimi idi. Qunaqsız bir günü keçmirdi. Sultanın Nesür addı bir oğlu var idi. Nesür atasının cumərddiyinə həsrət edirdi. O da atası kimi ulmaq isdəyirdi.

İllər keçdi. Sultan kişinin saçı-saqqalı ağardı, beli büküldü. Artıq ülüm onun başının üsdünü kesdi.

Ölümünü hiss edən Sultan kişi uğlunu yanına çağırıb una vəsiyyət etdi:

– Oğul, sən cumərd bir uğul ul, məni əvəz et. Ancaq unu da deyim ki, - hər kənddə bir ev tik, hansı kəndə qunaq getsən, quy evin ulsun.

Nesür atasının vəsiyyətin eşitdi, ancaq əsli mənasını bilmədi. Sultan Nesür üçün çuxluca mal-düvlət quyub getdi. Oğul heç bir şeyə möhdac deyildi.

Atası ülənnən sunra Nesür işə başdadı. O, hər kənddə bir ev tikməli uldu. Bir-iki kənddə ev tikəndən sunra Sərin dağ kəndinə ev tikmağa getdi. Şavrat atıb, evin binəsını quranda yulla bir sinli kişi keçirdi. Bu kişi Nesüru o biri kənddərdə ev tikəndə gürmüşdü, ancaq fikir verməmişdi. Bu dəfə o, su içmək üçün Nesürun şavratı üsdə gəldi. Bir qədər sərinləşdikdən sunra, o Nesürdan suruşdu: - Oğlum, bu nə işdir sən hər kənddə ev tikirsən?

Nesürdedi:

- Bu mənim rəhmətlik atamın vəsiyyətidir. O, mənə vəsiyyət etdi ki, hər kənddə bir ev tikim; - deyə Nesür qucaya cavab verdi.

Quca bir qədər gülümsədi, sonra dedi:

- Oğlum! O, sənə savrat atıb ev tik deməyib, hər kənddə bir qunaq dust tut, hər zaman kəndə gələndə o, sənin üçün evdir. Sən atanın vəsiyyətini başa düşməmisən, uğlum. İndi sən hər kənddə bir qunaq bir dust tut, unda sənin atanın vəsiyyəti yerinə yetirilmiş olacaq. Nesür həmən qucanın məsləhəti ilə hər kəndə bir qunaq, bir dust tutdu bu da ev oldu. Nesür qucanın dediyi süzlərdən çux razı ulub una xuşbəxtlik arzu etdi. Nesür ununla da qunaq, dust oldu.

## XUDAYARIN QIZI

Adı hər yerdə məşhur olan bir mahalda Xudayar addı, bir nurani kişi yaşayırmış. Onun bir bir xüsusiyyəti var imiş. Nə dilək diləsə, Allah onun diləyini qəbul ədərmiş. Xudayarın bir güzəl-güyçək bir qızı var idi. Qız həddinə çatanda, una elçilər gəlməyə başlayır.

Birinci elçi kəndin qazısının uğlundan gəlir. Xudayar qızı una verməyə razı olur.

İkinci gün elçi Mulla Xəlilin uğlundan gəlir. Xudayar:

- Razıyam, verərəm - deyib elçiləri yula salır.

Üçüncü gün elçi şahzadəTurandan gəlir. Xudayar qızı una da verməyə süz verir.

Bir cümə günü elçilər qızı aparmaq üçün məsləhətə gəlillər. Gərək gələn bazar tuy ulsun - deyə razılıq alan quhumlar əvlərinə qayıdıllar. Xudayar arvadı Məmləkətlə məsləhətləşir ki, indi mən qızı hansı elçiyə verim? Arvad deyir:

- A kişi, niyə fikir çəkirsən? Bizim bir ulağımız, bir də kar itimiz var. Allaha yalvarırsan, unnarı da qız eləsin. Onda hər üç əlçidə razı qalar.

Arvadın bu cur məsləhətinə Xudayar razı olur. O əşşəyi bayıra çıxarıb, başına əl çəkir, Allah unu Xudayarın diləyinə gürə qıza dündərir. Sonra xan iti də bu cür ədir. Xudayarın üç qızı ulur. Ələ bil bunnar hər üçü bir almaya bənzəyir. Onnarı bir-birindən ayırmaq olmurdu.

Qızdardan birincisinin adı Suna ulduğu üçün unnarın üçünün də adı Suna oldu. Qızlar hər üçü ərə getdi. Öz ayilə-silə yaşamağa başdadılar.

Bir gün Xudayar arvadına dedi:

- Arvad, mən darıxıram, bir gedib qızdara baş çəkim. Arvad razı oldu. Amma unutma ha, əsil qızımızı tanımağa qəsd elə. Xudayar asasını əlinə alıb yula düzəldi. Yulu hələ birinci geyavı Mulla Xəlilin uğlunun evinə düşdü. Mulla Xəlilin oğlu Sərdar qeynatasını hürmətlə qarşıladı. Yemək-içməkdən sonra Sərdar arvadına dedi:

- Get saraydan bir qarpız gətir yeyək! Arvad həmli idi. O, yavaşca düşüb, bir qarpız gətirdi.

- Onu yux, get başqasın gətir - deyə əri səsləndi.

Arvad səs çıxarmadan qayıdıb, yenə həmin qarpızı gətirdi. (demə əvdə olan tək bir qarpız idi)

- Onu yux, o birini gətir! - deyə əri səslənəndə, Xudayar: - Quy hələ bu bəsdir! - deyə səsləndi. O, fikirrəşdi ki, əsil qızım budur.

Səhəri gün o, kəndin qazısının uğlunun evinə qunaq düşdü.

Yemək-isмətdən sunra, giyov arvadına: - Get bir qarpız gətir; - dedi arvad gedib evində ulan bir qarpızı gətirdi.

- Onu yux, başqasını gətir. Arvad getmədi. Arvad, sənə o biri qarpızı gətir dedim - deyə əri təkrar etdi. Arvad yenə də səssiz durdu.

Xudayar bildi ki, bu qız əşşəkdən ulan qızdır.

Üçüncü gün Xudayar üçüncü qiyavı Şahzadənin evinə getdi.

Şahzadə Turan qaynatasını hürmətlə qarşıladı. Şahyana xürəkələr hazırlatdı. Yemək-içmək başa çatannan sunra Turan

arvadını çağırıb bir qarpız gətirməyi tapşırdı. Arvad bir qarpız gətirib ərinə verdi. “Bunu yux, başqasın gətir” – deyəndə, arvad mühkəm qışqırdı: - olan bir zəhərin var, başqasını hardan gətirim? - deyə əlindən qarpızı yerə quydu.

Xudayar o sahat başa düşdü ki, bu, itdən olan qızıdır.

Beləliklə, Xudayar hər üç qızın hansı insan, hansı əşşək, hansı it cinsi olmağını bildi. Odur ki qunaq gedərkən, əsil öz qızının əvinə gedirdi. İt, əşşək cinsindən olan qızlarına isə heç fikir belə vermirdi.

O günnən sunra Xudayar qadınnarın cinsini düzgün təyin etməyə hazır uldu.

## QİSMƏTİN QOYRUĞU KƏSİLDİ

Bir kiçik kənddə iki nəfər qunşu yaşayırdı. Onların evləri bir küçədə üzbəüz idi. Qunşuların biri Fatı, o biri isə Sadi idi. Mehriban qunşular uzun illər bir-birindən inciməmişdilər. Fatinin bir küpəyi var idi. Hər gün Fatinin ayiləsi günorta yeməyini başlayanda, küpək pəncərənin altında dayanıb qoyruğunu bulayırdı. Sadi də tez özünü Fatının evinə çatdırırdı. Fatı qunşunu - gəl-gəllə qarşılayırdı. Sadi isə bu mənim qismətimdir; - deyirdi. Bu cür qismət çux uzandı. Hər yemək vaxtı Sadi küpəyi izdəyirdi. Hələ ki küpək qoyruq buladı, bilirdi ki, yemək başlanır. Tez Fatıgilə gedib süfrə qırağında ururdu - Doğrusu, məni qismət gətirir - deyirdi.

Bir gün Sadi evdə yatmşdı. Arvadına tapşırmışdı ki, küpək qoyruğunu bulayanda una xəbər eləsin. Arvad da uturub küpəyin qoyruq bulamasını güzləyirdi. Arvad evdə günorta xürəyini qablara tükür. Küpək qoyruğunu bulamağa başdadı. Sadinin arvadı: - A kişi, küpək qoyruğun buladı, tez get; - dedi. Bu süzdəri Fatı eşidib evə girdi. Dalınca Sadi də evə daxil oldu.

- A kişi, yenə məni qismətim gətirdi, - dedi. Ertəsi gün Fatı bir balta alıb küpəyin qoyruğunu dibindən çatdı. Vadə günortu oldu, az keçdi, bir qədər yenə keçdi, ancaq küpək qoyru-

ğun bulamırdı. Sadi durub qunşuya getdi, ələ bu zaman xürək yeyilib, qab-qacağ yuyurdu. Fatı dedi:

- Gəl qunşu, amma gecikdin.

Hə qismət olmadı, nə olsun, - deyə Sadi dinmədi.

Daha o qisməti  gürməzsən, qunşu, çünkü qismətin quyruğunu lap dibindən kəsmişəm; - deyə Fatı dinləndi. O günnən Sadinin qisməti Fatının əvindən kəsildi.

## "PƏHLƏVAN" NƏZƏRİN NAĞILI

Ərəb vilayətinin Ucqar kəndində Nəzər addı bir təmbəl kişi yaşayırdı. Onun Səlimə addı bir arvadı var idi. Nəzər gecə-gündüz evdə, yatıb, "Ver yeyim, ürt yatım, güzlə canım çıxmasın", - deyə yaşayırdı. Səlimə onun əlinnən lap təngə gəlmişdi, bilmirdi ki, nə etsin.

Bir gün Nəzər arvadını çağırıb, onnan çürək istədi. Arvad, çürək həyətdə süfrədədir, dur al: - dedi. Nəzər çux dedi, arvad eşitmədi. O, çarasız qalıb həyətə çıxdı, hələ bu zaman arvad qapını bağladı: - Hara istəsən get! - dedi. Nəzər gürdü ki, iş xarabdır, arvad ona qulaq asmır, xahiş etdi ki, atasınnan qalan qılıncı una versin. Arvad qılıncı una tərəf tulladı. Ancaq qapını bərk-bərk bağladı. Naəlac qalan Nəzər, üzüdə bilmədən bir yula düzəldi.

Aclıq unu əldən salmışdı. Yulda bir alma ağacının altında əyləşib, alma yeməyə başladı. Birdən unun güzü kiçik bir qarışqa təpəsinə daraşdı. Qarışqalar karvan kimi düzülüb təpəyə sürsət daşıyırdılar. Bunnan Nəzərin acığı tutdu. O, qılıncı çekib qarışqa təpəsinə elə vurdu ki, qarışqalar qırılıb töküldülər. O, ülən qarışqaları hesabladı. Düz  qırx qarışqa üldürmüşdü.

O, bir qədər dincələnnən sunra, yenə yula düzəldi. Bir azdan o bir dəstə dəvəçiyə rast gəldi. Onnara salam verdi, sunra özünü onnarla aparmağını xahiş etdi. Dəvəçilər onnan kim ulduğunu suruşanda o, "pəhləvan Nəzərəm, bir qılıncla, qır-

xın əzərəm" - dedi. Onda gəl qüvvətini sınayaq - deyə dəvəçilər dilləndi.

Nəzər razı oldu. Yulda çuxlu quldur olur, əyər onnardan bizi xilas etsən, sənin qüvvətinə inanarıq - deyə bir dəvəçi süz atdı. Dəvə karvanı arasında bir fil də var idi. Dəvəçi Nəzərə dedi:

- Əyər sən bir tülüq su içə bilsən, sənin qüvvətinə inanarıq. Nəzər dedi:

- Buyurun tuluğu bura verin, su duldurum. Nəzər tuluğu alıb çeşməyə gedir. Tuluğa bir az su tüküb, sunra küpdürür ki, guya tuluq su ilə duludur. Nəzər tuluğu çiyninə alıb gəlir:

- İndi icazə verin, içim, - deyir.

Dəvəçilər ona tuluğdakı suyu içməyə icazə verillər. O, yavaşca bir ağır yük kimi tuluğu başına çəkir və yavaşca buşaltmağa başlayır. Tuluğ buşalannan sunra hamı onun hünərinə təcüb edir. Sunra o filin dalına minib, yula düzəlirlər. Fil birdən dillənir. - Axı sən lap yüngülsən, pəhləvan ağırlığın yuxdur - deyir. Nəzər bir az gülüb, una deyir:

- Mənim sənə yazığım gəlib, ağırlığımı vermirəm, əyər ağırlıq versəm, sən dərhal yerə yatarsan, deyir.

Fil ondan xahiş edir ki, hələ bir ağırlığını ver, baxım nə qədər ağırsan. Nəzərin cibində çarıq tikən biz var idi. O, əlini cibinə salıb bizi çıxardır. Heç kəs gürmədən filin gicgahına ələ basır ki, fil bir nalə çekib yerə oturur. Dəvəçilər bunnan sunra Nəzərin qüvvəsinə inanıllar. Bir qədər yul gedənnən sunra, karvanın qabağına bir dəsdə quldur çıxır. Dəvəçilər Nəzərə deyillər ki, əyər bunnardan bizi qurtarsan, sənə hərəmiz bir dəvə yükü ilə bəxşiş edəcəyik. Nəzər heç kefini pozmayıb quldur başısının yanına gedir. Ona deyir ki, karvan Şah Abbasındır, üzü də yüz nəfər atlı ilə karvanın dalınca gəlir, cəhd edin başınızı qutarın, yuxsa hamınızı qıracaq. Quldur başçısı Nəzərin süzünə inanıb, dəstə ilə qaçmağa üz quydu. Karvan isə öz yuluna davam etdi.

Bəzirgannar Həbəşistan şəhərində dəvələrini mallarla

duldurub geri qayıdıllar. Onnar Nəzərin yaşadığı Ucqar kəndinə yetişəndə, Nəzər öz dəvələrinə sahib ulmaq üçün, dəvəçi bəzirganlara müraciət edir. Bəzirganlardan biri dinlənir: - Adə, biz səni neçə həfdə yedirib içirmişik bu sənə bəs deyilmi? - deyir.

Bəs **icral*** - deyə Nəzər dillənir və deyir ki, əyər icrala gürə hərəniz bir dəvə yükü ilə verməsəniz, hamınızı qırıb, bütün malınıza sahib olacağam. Yaxşıdır ki, kişi tək icralınıza əməl edin. Bu zaman o, qırx qarışqanı bir vurmaqla əzən qılıncı qınından çıxarır.

Hə, nə deyirsiz? Başlayımmı? Yux, yux dayan, əl saxla, hansı dəvəni istəyirsən seç ayır, - deyə karvanın başçısı dilləndi. Bəzirgannar altı nəfər idi, o, hərəsinnən bir dəvəni ayırdı, indi gedə bilərsiniz, - dedi. Karvan yula düzəlir. Nəzər isə altı dəvə ilə üç həftəlik yuldan sunra öz Ucqar kəndinə arvadının yanına çatır. Arvadı həyətdə altı yüklü dəvəni gürəndə mətəl qalır. Bunun sirrini Nəzərdən suruşur. Nəzər bütün başına gələn əhvalatı una süyləyir. O günnən ər-arvad, altı dəvə yükü ilə varranıb, xuşbəxt yaşamağa başdayıllar. Siz də xuşbəxt olasız.

Nəzər mənə üç qızıl alma vermışdı, yulda quldurlar əlimdən aldılar, mənsə əlibuş gəldim.

## YUXSUL KƏNDLİ VƏ XUDAYAR BƏY

Xudayar bəy bir gün nükərrərlə maral ovuna çıxmışdı. Çux yerrəri ovladıxdan sunra, qalınnıq bir məşədə bir ərkək maral vurdu. Nükərrər tez maralı suyub ciyərrərinnən bəyçün kabab bişirillər. Kabab bəyin xuşuna gəldi. O, ikinci bir maralı vurmağı və təzə kabab bişirməyi nükərrərə tapşırır. Ancax iş baş tutmadı. Daha maral rastına gəlmədi. Axşam yaxınnaşdı. Bəy nükərrər əvə qayıtmağı məsləhət gürdü. Onnar bir məşə-

----------------

*icral - söz, vəd.

nin yulu ilə əvə qayıdıllar. Demə bu zaman meşəyə quru udun yığmaq üçün bir yuxsul kəndli gəlmişdi. O, çiynində udun şələsi yul ilə gedirdi. Birdən at ayağının səsinə geri baxdı, gürdü ki, Xudayar bəy nükərrərlə yul ilə gəlir. Yuxsul kəndli, bəyin güzünə gürümməmək üçün yuldan çıxıb bir kulun dalında gizlənir. Bəy onu uzaxdan gürmüşdü. O, kəndliylə tənləşəndə, ona baxıb:

Ey axmaq, niyə qaçıb çıxdın yuldan,
Nə baxırsan dunuz kimi kuldan.

- deyə səsləndi, sunra isə ona fikir verməyib yuluna davam etdi.

Yuxsul kəndli urdan udun şələsi ilə əvə gəldi. O, şadlığınnan nə edəcəyini bilmirdi. Arvadı unnan suruşdu:

- Xeyir ula, bu nə şaddıqdır?

- Arvad! Məni məşədə bəy dindirdi.

- O sənə nə dedi?

- Dedi ki, əy axmaq, niyə qaçıb çıxdın yuldan, nə baxırsan dunuz kimi kuldan?

- Afərin kişi! Bəyin süyüşü də bir məlhəmdir - deyə arvad kişi ilə birgə sevimməyə başlayır.

## SELİM VƏ SULTAN

Atası Allah rəhmətinə gedənnən sunra Selim ilə Sultan anaları Huri ilə yaşayırdılar. Selim büyük qardaş idi. Anası unu bir kəndçi qızı ilə əvləndirdi. Bir neçə ildən sunra onun iki uşağı uldu. Selimin arvadı xayin bir qadın idi. Qardaşdar arasında hürməti qırmaq istəyirdi. Ancaq qardaşdar una qulaq asmırdılar. İki qardaş təsərfatlarını ayırmışdılar, hərə ayrı bir əv sahibi ulub yaşamağa başdamışdılar. Onnar, atadan qalan turpaqlarda taxıl əkib, məhsulu iki yerə bülürdülər.

Bir il məhsul ili idi. Qardaşdarın məhsulu birə-beş artıq idi. Əkin zəmiləri dərya tək ləpə vururdu. Qardaşdarın sevinci də hələ bundan artmışdı. Məhsul yığımı başdandı, zəmilərin dər-

ci biçilib tayalara quyuldu. Qardaşdar xırman açıb taxıl düyməyə başdadılar. Bir neçə xırman düyülüb paylandı. Bir gün onnar xırmanda buğda paylayırdılar. Buğdanı hərəsi xırmanın bir tərəfinə yığıb quydular. Büyük qardaş evə getdi. Kiçik qardaş Sultan fikirrəşdi: - Axı mən təkəm, qardaşımın ayləsi çuxdur, quy mənim payımnan una verim, yükü bir qədər yüngül ular: - deyə öz payının yarısını unun payına tərəf itələdi. Belə versəm qardaşım almaz, yaxşıdır ki, özü ulmayanda unun payının üsdünə tüküm.

Bir az keçənnən sonra Selim gəldi. Qardaş sen əvə get, indi mən nüvbə çəkim. Axşam taxılı əvlərə daşıyarıq - dedi. Sultan əvə gedənnən sunra Selim fikirrəşdi. - Axı mən əvlənmişəm, uğul-uşaqğım da var. Sultan isə əvləmməyib, una tuy üçün xərc lazımdır, quy mənim payımın yarısını, özü bilmədən una verim. Beləliklə, Selim buğdanı yarı bülüb, Sultanın payına qarışdırdı.

Belə meriban qardaşlara nə ad verməк olar? Onnar hər ikisi öz fikirini özlüyündə bildilər. Bu işi ancaq bir Allah bildi, bir də ayrılıqda, iki qardaş. Allah insanın ürəyinə baxıb, düvlət verər. Allah bu iki qardaşın taxılını o qədər artırdı ki, gecə yarıya qədər taxılı daşıdılar, yenə qutara bilmədilər. Qardaşdar bu işə mat qaldılar. Sultan Selimdən suruşdu, Selim Sultandan, ancaq heç biri bu suala cavab verə bilmədi.

Qardaşdar sirri bir-birinə deyənnən sunra başa düşdülər ki, Allah taxıla yux, düzgün insana tərəfdir.

## İKİ QUNŞU

Bir kənddə iki nəfər qunşuluğla yaşayırdı. Birinin cütü, arabası, taxıl zəmiləri var idi. O birinin isə bir ulağı, bir az əkin yeri vardı. Yayda, hər iki qunşu məhsulu yığıb əvlərdə ambarrara tükdülər. Qış hazırrığı üçün onnar deyirmana un öyüdməyə gedirdilər. Varrı qunşu arabaya on müşük buğda yükləyir; o biri qunşu isə ulağa iki yük quyur, ya ulsa-ulsa cə-

mi bir müşük yarım buğda olardı. Onnarın hər ikisi də bir deyirmana düşüllər. Deyirman xəlvət idi. Deyirmançı məsləhət gürdü ki, əvvəlcə ulağı çeksin, sunra arabanı. Axşam yaxınnaşırdı. Deyirmançı, deyirmanı nabatçılara tapşırıb, əvə getdi. Ulaqçı unu üyüdüb yukləri, bir tərəfə quydu. Gecə ulduğu üçün yula düşmədi. O, dəyirmançının yatağı üsdə uzanıb yuxuya gedir. Bu zaman arabaçı un üyüdürdü. Gürdü ki, ulaqçı qunşu şirin yuxudadır, tez yüklərin ağzını açıb hər yükdən iki **sah*** un öz müşüklərinə tüküb, yükləri əvvəlki kimi bağlayır.

- Bunu ancaq bir Allah bilir, bir də mən, - deyir.

Səhər ulaqçı yükləri ulağa yükləyib əvə gəlir. Arabacı da öz əvinə.

Bu uzunəllilikdən xəbər tutan Allah arabaçının on çuvalının bərəkətini ulaqçının yükləri üsdünə quyur. Bunu bilən olmur. Ulaqçının iki uşağı, bir arvadı, bir də quca anası, cəmi beş nəfər ayiləsi olur. Arabaçının isə bir oğlu, bir arvadı, bir də anası, cəmi dörd nəfər ayləsi ulur. Qışın hələ bir ayı başa çatınca arabaçının arvadı unnarı qurtarar. Ulaqçının arvadı nə qədər çürək bişirir, ancax gürür ki, un müşükləri belə doldurur ki, dulu.

Arabaçı "Qışda un üyüdməyə necə gedim", – deyə fikirrəşir. Ulaqçı işə mətəl qalır. Nə üçün arabaçının on müşük buğda unu, mənim iki yükümnən tez qutardı? Axı mənim ayləm onunkundan bir nəfər də çuxdur.

Bir gecə ulaqçı yuxu gürür. Allah yuxuda ona deyir ki, arabaçı sənin yükünnən oğurrayıb, öz müşüklərinə tükdü, sənin yükün dörd sah əksik oldu. Mən isə onun müşüklərinin bütün bərəkətini çekib sənin yüklərinə verdim. Halal mal dayim çux ular.

-----------------

*Şah - çəki vahidi; 2,5kq.

## ÇAQQAL PADŞAHIN NAĞILI

Meşə padşahı şir bir gün qəflətən vəfat etdi. Bütün heyvannar onu çux təmtəraxla basdırdılar. Meşə padşahsız qaldı. Ayıya təklif etdilər ki, sən padşahın taxtına sahib ul, o razı ulmadı. Çünkü, ilin çux ayını o mağarada keçirirdi. Ona gürə bu iş una fayda verməzdi.

Bir gün meşə xavarçısı bütün heyvannara xabar verdi ki, sabah şahın meydançasına tuplansınnar. Padşah seçkisi ulacax. Ərtəsi gün bütün heyvannar meydançaya tuplaşdılar. Yerbəyerdən şahlığa namizəd verirdilər, ancax əksər səslə qəbul olummurdu. İşin bu çağında bir çaqqal yul ilə keçirdi. Onun bədəni cürbəcür rəngə çalırdı. Demə, gecə tuyux oğurruğuna gedəndə tuyux hini əvəzinə, buyaqçı küplərinə girmiş və bir neçə küpədə buyammışdır. Duğrudan da çux güzəl gürünürdü. Bütün heyvannardan gürkəmli gürünürdü. Meydanda tuplaşannardan biri çakqalı gürcək, tez özünü una yetişdirib, meydançaya dəvət etdi. Hamı heyrətlə una baxırdı. Ayı süz alıb dedi:

– Hürmətli meşə əhli, mən bu yaşa çatmışam, meşədə belə güzəl heyvan gürməmişəm. Bunu bizə Allah yetirdi. Bizə padşah ulsa, bu heyvan ulacax, - dedi.

Ayının təklifini hamı bəyəndi. Çakqalı padşah, canavarı baş vəzir, vaşağı isə kiçik vəkil seçdilər. O günnən çakqal padşahlığa başdadı. Ancax gecə tuyux oğurluğuna getmək yadına düşəndə çux darıxırdı.

Bir gecə çakqal padşah, vəzir, vəkil ilə səfərə çıxdı. Səfərdə saray əhlinnən, ayı, pələng, tülkü, duvşan və başqaları da var idi. Bunnar üzüm bağlarının yaxınnığında məclis qurub oturmuşdular. Qızardılan qaz, tuyux, quyun ətdəri süfrəni bəzəmişdi. Padşah xımır-xımır xürəklərdən yeyirdi. Qalannarı şaddıq məclisinə ruh verirdilər.

Vaxdın bu şən çağında üzüm bağlarında qara şanı üzümünü yeyən çakqallar tek-tek "ay" - deyə qışqırırdılar. Birdən çak-

qal padşah həvəsə gəldi. Özü də qışqırmax isdədi, ancax özünü bir təhər saxladı. Birdən bağdan xurla çakqaların ulayan sesi gəldi. Auuuu! Padşah bir qədər içib kefli olduğu üçün özünü saxlaya bilməyib bərkdən "Auuuuuu" deyə uladı. Məclis əhliləri gürdülər ki, bunnarın padşahı tuyux hinlərində daim uğurruxda ulan çakqaldır. Tez hərə əlinə bir ağac alıb una girişdilər. Yazıx padşah güclə özünü bunnarın əlinnən qurtardı. Bir xəlvət yerə özünü yetişdirib: "Heç çaqqaldan padşah ularmı?" deyə öz-özünə sual verdi. Ancax cavab ala bilmədi.

## OVÇU PİRİMLƏ ARVADI

Keçmiş zamannarın birində Pirim adlı bir ovçu var imiş. Bu ovçu bütün quşdarın, heyvannarın, ilannarın dilini bilirmiş.

Bir gün Pirim qapını açıb çülə çıxır. Bu vaxt tuyux hinindəki bir tuyux qakqıldayıb azbara atılır. Xoruz qanaddarını çalıb ona səs verir: "Quqquluqu" Ovçu Pirim gülməyə başdayır. Demə, arvad bu hadisədən xəbərdar imiş. O, ovçu Pirimə yalvarır ki, desin niyə bu tuyuxla, xuruza güldü? Ovçu Pirim sirri gizlətmək isdədi, ancax arvad əl çəkmədi. Ovçu Pirim dedi:

– Arvad bu sirri sənə desəm bir il məni evdə tapmazsan, gəl bunu məndən suruşma! Arvad əl çəkmədi ki, çəkmədi.

– Yaxşı, qulax as, bu tuyux hinnən duğub düşdü, çığırmağa başdadı. "Əlsiz, ayaxsız uşax duğmuşam". Bunu eşidən çil xuruz ona təsəlli vermək üçün bannadı: "Allahuva şükür eyləginən".

Mən də bu sühbətə güldüm, - deyif azar-yarağını gütürüb, arvad ilə sağollaşdı və yula düşdi. Axı o, arvada demişdi ki, bir il onu gürə bilməyəcək. Odur ki, bir illik ova çıxdı. Büyük bir qayalığın dibindən keçəndə, o gürdü ki, od kimi parıldayan, güzəl, güyçək bir ilanı başqa bir qara ilan qovur, incidir, qucaxlayır, dişləyir. Ovçu Pirimin bu haqsızlığa düzümü ol-

madı. Tüfəngini əlinə alıb bu qara ilana bir güllə atdı. Ələ tüfəng açılınca ilannar bir birinə sarılmış uldular. Güllə qara ilanın əvəzinə, qızıl ilanın quyruğuna dəydi. Atəş səsinə ilannarın hər ikisi qaçmağa başdadılar. Qızıl ilan mağaraya girdi, o biri isə baş alıb qaçmağa davam etdi. Qızıl ilan evə gedir, əhvalatı atasına süyləyir ki, bir ovçu unu yaraladı. Demə, bu ilannar padşahının qızı imiş. Padşah tez cəlladdara əmr etdi ki, ovçunu harda var, tapıb unun yanına gətirsinnər. Az vaxt keçmişdi ki, cəlladdar ovçu Pirimi ilannar padşahının hüzuruna gətirdilər. Ovçu Pirim qapını açıb şahın yanına girəndə, məqbərənin yerinə xalça kimi sarışan ilanları gürüb kiridi. Padşah bunu gürcək:

– Buyur gəl, qurxma, taptala keç, heç biri sənə deyməz, - dedi.

Ovçu Pirim şahın yanına keçib, baş əydi.

– De gürüm, bu qızı niyə yaralamısan? - deyə padşah dilləndi.

– Şah sağ ulsun, mən yulla keçəndə gürdüm ki, bu qızıl ilanı bir başqa, qaba ilan incidir, onda namusum qəbul etməyib tüfəng atdım, qəflətən güllə qıza dəydi. Qızıl ilan başını sallayıb uturmuşdu. İlannar padşahı: “İndi de gürüm, o ilanı gürsən, tanıyarsanmı?” – deyə suruşdu. “Bəli, tanıyaram” – deyə ovçu cavab verdi. Padşah cəlladdara tapşırdı ki, bütün ilannarı yığsınnar. İlannar yığıldı. Ovçu Pirim onnarı güzdən keçirdi. “Burada o ilan yuxdu” – dedi. Demə o qaba ilan tüfəng atılannan sonra qaçmaxda davam edirmiş. Padşah calladdara əmr etdi ki, harda olursa olsun, ilanı tapın. Cəlladlar hər tərəfə yayıldı, biri qaçan ilanın yulğun kulunun dibində gizdəndiyini gürüb, o biri cəlladları da səsdədi. Onnar ilanı tutub şahın hüzuruna apardılar. İlan ovçu Pirimi gürüb, dərhal işi başa düşdü, şahın qabağına uzandı. Şah əmr etdi ki, bu ilanı yüz tikə duğrayıb atsınnar. Ovçu Pirimə isə bir turba qızıl verib yula saldı.

Ovçu Pirim ilannar padşahının yanından çıxıb, bir dağın

yamacı ilə gedirdi. Birdən o, bir palıd ağacının altında olan sərin su çeşməsini gürdü. Səhərdən acımışdı. Bu ağacın külgəsində uturub, çantasını açdı. Dağın ətəyində, lap yaxında, çubannarın binası gürünürdü. O, çürək yeyib, dincini almax üçün güy utdar üzərində uzanıb yatdı. Bu zaman çeşmədən su içmək üçün üç güyərçin ağaca qundu. Çubannar, sürünü binayə sağmağa gətirirdilər. Sürünün dalınca, bir axsax quzu, bir də bir qara arıq küpək gəlirdi. Güyərçinnərdən biri gülməyə başdadı: “Bacı, olara bax, mən də necə sürünün dalınca gəlirəm” dedi. Büyük bacı dedi:

– Bacı can gülmə, o axsax quzunu gürürsən? - o bir yekə sürünün başçısı olacax, onun ayağıyla yiyəsinə düvlət gələcək, o ki, qaldı qara küpəyə, onun qanı yer üzündə olan bütün xəstəliklərə dərmandı, – diyib, çeşmədən su içib, uçub getdilər.

Ovçu Pirim güyərçinlərin sühbətinin hamısını eşitmişdi. O, tez durub çubanların yatax binasına getdi. Çubannar onu quyun südünə qunaq etdilər. Ovçu Pirim baş çubannan xahiş etdi ki, ona bir quyun satsınnar. Baş çuban dedi:

– Ovçu Pirim, gir sürüyə, hansı quyunu isdəyirsən tut. Ovçu Pirimə də elə bu süz lazım idi. O, sürüdən axsax tuğlunu tutdu. Sunra qara küpəyi də alıb yula düzəldi. Bir az yul gedənnən sunra o qara küpəyi kəsib, qanını bir şüşəyə tükdü. Axsax toğulunu evə apardı. Arvadına tapşırdı ki, quyuna yaxşı baxsın.

Yaxın şəhərdə bir padşahın tekcə bir qızı olur. O xəsdələnir. Həkimlər onun xəsdəliyinə “sağalmaz xəsdəlikdir”, demişdilər. Qız dəli-divanə halında imiş, kim yanına girsə, üsdbaşını cırıb tükürmüş. Qurxudan heç kəs onun yanına girə bilmirdi. Çuxlu həkimləri şikəst eyləmişdi. Padşah bütün şəhər əhlinə elan etdi ki, kim qızı sağaltsa, şahlığımın yarısını və qızımı ona verəcəyəm. Ovçu Pirim bir dəfə şəhərə getdi. O, qara küpəyin qanını bir qaba tüküb cibinə quymuşdu. Ovçu Pirim, şahın qapısında tuplanan adamları gürüb, bir nəfərdən

suruşdu. Oğlan əhvalatı Ovçu Pirimə süylədi. Ovçu Pirim özünü padşahın qapısına yetirdi. Qapıçılara dedi ki, padşaha desinnər ki, həkim gəlib qızı sağaltmax istəyir. Qapıçılar xavarı şaha verdilər. Şah o sahat həkimi yanına çağırmağı əmr etdi. Həkim gəldi. Padşah qızın xəsdəliyini və şərtini Ovçu Pirimə dedi. Şərtin ikinci hissəsi belə idi ki, qızı sağaltmasa, həkimin buynu vurulmalıdır. Qız eyninə paltar giymiyib çılpax halda utaxda dulanırdı. Həkimlər onu bu halda gürəndə, hər nə gəldi danışa bilərdilər, deyə şah fikirrəşib, bu qərarı qəbul etmişdi. Qızı sağalda bilməyən həkim dərhal başsızlanmalıdır.

Ovçu Pirim şərtləri qəbul etdi. O dedi ki, mən qızın yanına girəndə qapının dalında, hətda otağın həndəvərində belə bir kəs ulmasın. Qızın çıplax ulduğunu bildiyi üçün o tapşırdı ki, bir dəs paltar buxçaya quyub, qapının ağzında quysunnar.

Həkimin tələbləri üdənildi. O, yavaşca utağın qapısını aralı quydu. Qız bu zaman evin tən urtasında, xalça üzərində uzammışdı. O, tez otağa girib qapını bərk bağladı. Qız səsə cəld ayağa qalxıb isdədi həkimin üsdünə atılsın, həkim özünü itirməyib, şüşədəki qanı onun üzünə çırpdı. Qız tez geri çəkildi və bir küncə sığıldı. Mülayim bir səslə: “Xahiş edirəm mənə paltar verin, üzünüzü geri çevirin, mən utanıram”, - dedi. Həkim tez paltarları qıza verdi. Qız geyindi. Onnar hər ikisi bir qədər sühbət etdilər. Şahın şərtini Ovçu Pirim qıza süylədi. Qız ona: “Nə ulsun, mənim eybimi sən gürdün, mən səndən başqasına ərə getmərəm” - dedi.

Ovçu Pirim qızın əlinnən tutub, şahın hüzuruna apardı. Şahın sarayında elə bir şaddıx mərasimi quruldu ki, dünya belə bir mərasim gürməmişdi. Yeddi gün-yeyddi gecə tuy düyüldü. Şah öz qızını Ovçu Pirimə verib kəbin kəsdirdi. Şahlığın yarısını onun üçün ayırdı.

Ovçu Pirim axsax quyunu yaddan çıxarmamışdı. O padşahdan icazə alıb bir neçə günnüyə evə gəldi. Bu zaman axsax quyun iki bala duğmuşdu. Ovçu Pirim kəndə bənnalar çağırıb

elə güzəl bir ev tikdirdi ki, şahın evləri onun yanında heç nə idi. O, şahın qızını alıb bu evlərdə yaşamağa başdadı. Onun axsax quyunu sürü başçısı oldu. Pirim bir çuban tutub sürünü ona tapşırdı. Az vaxt keçmədi ki, Ovçu Pirimin qaynatası olan şah Allah rəhmətinə getdi. Onun üvladı olmadığı üçün şahlığı giyavına* verməyi vəsiyət etmişdi. Ovçu Pirim şah taxtına sahib oldu. Onnar belə xuşbəxt yaşamaqda ulsun, biz də söhbəti qurtarax. Həm süyləyənnər, həm də eşidənnər sağ ulsunnar.

## VƏFALI ARVAD

Dərbənd xanı Sərdar xan çux ədalətli bir xan idi. O, öz şəhərində hədə-qurxuya, zinalığa yul verməzdi. O, bir gecə qəribə əhvalata rast gəlir. Xanın beş arvadı varmış. Şah ən çux sevdiyi arvadını özünə ən yaxın otaxda saxlayırmış. Arvadın adı Güləndam imiş. Xan adəti üzrə arvaddarının və özünün yatax utaxlarının qapısını açıx quyardı. Hələ bu gecə də utaxların qapısı açıx idi. Xan çarpayıda yanüstü yatmışdı. Bir də gürdü ki, arvadı Güləndam qapıdan baxır, xanın yatıb, yatmadığını yuxlayır. Xan özünü yuxuluğa vurub xuruldayır. Arvad elə bilir ki, xan bərk yuxuya gedib, tez geyinib yavaşca evdən çıxır. Xan da geyinib arvadın dalınca yula düzəlir. Arvad kühnə bir qəbirstannığa çatır, u tərəfə bu tərəfə baxıb, bir yasdı daşı qaldırır, sunra daşı qaldırdığı yerə düşür. Xan da həmin yerə yaxın gəlib baxır, gürür ki, burada pilləkanlar var, içəridən danışıx səsləri və şam işığ gəlir. Xan bir güncdə yerə sıxılıb güzləyir. Gürsün, nə gürsün, arvadı Güləndam və qırx haramı burada kef məclisindədir. Xanın canına vəlvələ düşür. Bilmir nə etsin? Qırx nəfərə bir nəfər nə edə bilər? İşin axırını güzləmək lazım idi. Arvad əldən-ələ keçir, qırx haramlarla qucaxlaşır, üpüşür, rəqs edirdi. Gecə keçməkdə idi.

----------------------

*Giyov - kürəkən

Quçuların biri: “Artıq vaxt keçir, dağlışmaq vaxdıdır”, deyəndə, xan tez burdan çıxır, düz evinə gəlir və əvvəlki vəziyyətdə çarpayıda yatır. Bir az sunra arvad barmax ücü ilə yavaşca qapıya yaxınnaşıb baxır, gürür ki, əri şirin yuxudadır. O, öz utağına keçib, çarpayısında uzanır.

Səhər açılan kimi xan arvadını yanına çağırır. “Gecə yarı hara getmişdin?” – deyə suruşur. Arvad nəm-nüm edir. Xan cəllada əmr edir ki, onun buynunu vursun. Cəllad əmri yerinə yetirir. Sunra əmr edir ki, bütün xanlıqda olan arvadların buynu vurulsun. Cəlladlar nüvbə ilə əmri yerinə yetirməyə başdayıllar.

Şəhərdə duxsan-yüz yaşlarında belə heç kəs qalmır. Nüvbə quca bir arvada çatır. Quca kişi oğlunu çağırıb dedi:

– Get xana de ki, səninlə atam sühbət eləmək isdəyir, icazə versin”.

– Oğlan xana xəbəri verir, xan razı ulur və qucanı qəbul edir. Salam-etiramnan sunra xan mətləbi qucadan suruşur. Quca isə süzə başdayır. O deyir:

– Xan sağ ulsun! Mənim 19-20 yaşım ulardı. Hələ subay idim. Şəhərdən hər gecə bir nəfər itirdi. Bir gecə qapımız düyüldü. Mən alt paltarımla çıxmax isdəyəndə anam məni saxladı və dedi:

– Sən kişisən! Kişi çağırışa alt paltarıyla çıxmaz. Geyin yar-yarağınla çıx, xəbər tut, səni cağıran kimdir, nə isdəyir? Mən anamın dediyi kimi geyinib, yarağımı, qılınqc-qalxanımı alıb eşiyə çıxdım. Eşiyin küçə qapısında bir nəfər atlı, yedəyində bir atla durub məni güzləyirdi. “Ata min, mənimlə gedəcəksən” - dedi. Mən tez ata mindim, yula düşdük. Bir qədər yul gedənnən sunra mən una bir nizə atdım. O, oğlan, yulunu düz gəl! - dedi. Biz dağın ətəyində bir qalaya çatdıq. O mənə: “Bunnarı gürürsən?” - deyə ağ tuman-küynəkli yan-yana düzülən 39 meyidi güstərdi. “Əyər sən də bu cür evdən çıxsa idin, sənin də meyidin burada olacaq idi”. İndi mənə qulaq as:

– Bu qalada bir div yaşayır. Mən ununla savaşmağa gedirəm. Mən qalaya çatanda bir nərə çəkəcəm, bil ki, çatmışam, divi tapıb savaşa başlayanda, ikinci nərəni çəkəcəyəm. Bil ki, vuruşuram, əyər üçüncü nərəm çıxmasa, bil ki, məğlub olmuşam, atları da alıb evinə get. Bu xurçun dulu qızıl puldur. O sənin bu gecəki zəhmətindir, - deyib yula düşdü. Bir neçə dəqiqə keçmədi ki, onun bir nərəsini eşitdim, sunra bir azdan ikinci nərə çıxdı. Bir az güzlədim, üçüncü nərəni eşitdim, bir neçə dəqiqədən sunra o mənim yanıma gəldi. Mənə dedi: “Al bu xurcun pulu, bu atı da sənə peşkəş verirəm, get evinə rahat ul!

Mən işin axırını güzləmək isdəyirdim. Bəhanə ilə ata minib, yulu getməyə başdadım, o, yerindəcə dayanmışdı. Mən gürünməz yerə keçib, atı bağladım, yavaşca onun hara getdiyini güzlədim. O, bir qədər gedib bir gərin üsdünə yıxıldı, başındakı papax yerə düşdü. Gürdüm ki, bu qızdır. O, ağlamağa başdadı və dedi:

– Əmi oğlu! Sən indi rahat yat, mən sənin qanını aldım, divi də cəhənnəmə vasil etdim - deyə ağladı. Mən yavaşca onun qulunnan tutub qaldırdım. O, mənə acıxlandı, sunra dedi:

– Madam ki, sən sirri bildin, qulax as. Mən əmim oğluna ərə getmişdim. Div məni almax üçün onu üldürdü. Mən onnan qisas almax üçün bir şahid tutmax məqsədilə hər gecə bir nəfərin qapısını düydüm, hamı alt paltarıyla çıxdı. Onnar xuşuma gəlmədiyi üçün hamısının başını kəsdim. Sən isə qıryatli bir uğlan çıxdın, həm də mənim sirrimi bildin, mən səninəm, indi öyümüzə gedə bilərik.

Biz evə qayıdıb evləndik, düz həşdad il ümür sürdük. Xan sağ ulsun, arvaddarın belə iyidləri də var. Dediyim budur.

“Bəs o arvad nə oldu?” – deyə xan soruşdu:

– Onun sabah sizin əmrinizlə buynunu vuracaxlar.

Xan dedi:

– Mən səhv etdim, bütün arvaddarı qırmağı əmr etdim, məni bağışla, əmri geri alıram.

O günnən arvaddar cəzadan xilas oldular. Quca öz iyid arvadı ilə yaşamağa başdadı. Xan da tutduğu işdən peşiman olub, haqq-ədalətə başladı.

## DƏVƏSİ İTƏN KİŞİNİN NAĞILI

Bir kənddə yuxsul bir dəvəçi yaşayırdı. Onun bir ağllı-kamallı arvadı var idi. Arvad nə qədər xeyir iş gürürdü, kişinin xuşuna gəlmirdi. Ümrü buyu arvadı pisləyir, düyür, süyür, narazılıx edirdi. Bu hal arvadı lap təngə gətirmişdi. Bir gün kişi arvada deyir:

– Sabah tezdən şəhərə gedib, bir az yimək-içmək üçün lazımı şeylər alax. Arvad razı oldu, firsətdən isdifadə edib, kişinin əlinnən başını qaçırmağa bir yul axdardı. Kəndin şəhərə gedən yulu büyük meşəlikdən keçirdi. Arvad fikirrəşdi: “Bu meşədə mən unun əlinnən qaçaram”.

Səhər yul tədarükü gürüb, ər-arvad yula düzəldi, meşəyə çatmağa bir az qalmış dəvəni yedirmək üçün əyləşdilər. Dəvəçi yuxuya getdi. Bu zaman arvad dəvəni minib meşə yulu ilə qaçmağa başdadı. Bir qədər gedənnən sunra, o,ı bir nəfər yolovçiyə rast gəldi. Bir süz demədən keçib yuluna davam etdi.

Bir qədər keçmişdi ki, dəvəçi dündü gürdü ki, nə arvad var, nə dəvə. Onnarı axtarmax üçün yula düzəlib getdi. O yulda bir yolovçiyə rast gəlib soruşdu: – Bu yulda dəvə minən bir arvad rastınıza gəldimi?

Yulçu dedi:

– Yux, gürmədim.

Dəvəçi getmək isdəyirdi ki, yolovçu onu saxladı:

– Dayan, de gürüm sənin, dəvənin bir güzü, kurdumu?

– Bəli, - deyə dəvəçi dilləndi.

– Dəvəni sürən arvad həmliydimi?

– Bəli.

– Dəvənin dalındakı yük bal idimi?

– Bəli! - deyə dəvəçi yenə dilləndi.

– Gürməmişəm - deyə yolovçu yula düzəldi. Dəvəçi onnan əl çəkmədi.

Gedib şəhərə çatdılar. Dəvəçi kişini qazıya çəkdi, dedi ki, bu kişi mənim arvadımı və dəvəmi oğurrayıb. Bütün nişannarı ulduğu kimi deyir, ancax dəvəni oğurradığını inkar edir.

Qazı yolovçudan soruşdu:

– Sən nə bildin ki, dəvənin bir güzü kur idi?

– Qazı sağ olsun, mən yul ilə gələndə gürdüm ki, yulun bir tərəfinin utdarı tam yeyilib, o biri tərəfdə ulan yaşıl utdara dəyilməyib, unda bildim ki, dəvənin bir güzü kurdu.

– Yaxşı, bəs dəvənin yükünün bal küpləri ulmağını nədən bildin?

– Yulun kənarında dəvə yəhəri çatan ağac şaxlarında bal arısı tuplaşmışdı. Ora baxanda, bildim ki, dəvədəki yükdən şaxlara dəyən bal imiş.

Bəs arvadın həmli olmasını nədən bildin?

– Qazı sağ olsun, - yulun kənarında su çəşməsi var idi, su içməyə əyildim, gürdüm ki, çəşmənin qırağında palçıx batan insan qarının şəkili və gübək izi var. Nə qədər çalışdım, gübəyimi ora çatıra bilmədim, onnan bildim ki, bu, arvad qarınının izidir, özü də həmli arvad, - deyə yalovçu süzünü bitirdi.

Qazı üzünü dəvəçiyə tutub dedi:

– Get arvadını, həm dəvəni axtar, bu kişi sənin dəvənin, nə də arvadının uğrusu deyil.

Dəvəçi naəlac qalıb buradan qayıdır. Yalovçu da yuluna davam edir. Dəvəçinin arvadınnan dəvəsini tapmağı mən də hələ bu günə qədər bilmirəm.

## AĞILLI YOLOVçU

Bir nəfər qərib kişi yul ilə atda gedirdi. O, qunşu kəndə dusduna qunax getmək üçün yula çıxmışdı. Yul uzaq idi. Yolovçunun yulu bir şahlığın torpağınnan keçməli idi. At uzax

yul gəldiyi üçün acımışdı. Atlı şahlığın yağı quruğunnan keçəndə, atı bir qədər yedirməyi qərara aldı. Odur ki, atı quruğa saldı. At iştaha ilə güy otdardan xamırramağa başdadı. Atçı isə uzanıb otdarın üsdündə yatdi.

Bu zaman şahın nükəri gəlib, atı atçı ilə birlikdə tutub aparır birbaşa şahın hüzuruna. Şah qəzəblənib atçını dama basdırır. Əhvalatdan bir neçə gün keçir. Atçını məhkəməyə çekillər. Carçılar hər tərəfə xəbər verib, şəhər əhalisini məhkəmə meydanına tuplayıllar. Meydanda mizlər quyulur, şah, baş vəzir, urta vəzir, bir də tədbirçi vəzir urada əyləşir. Müqəssiri meydana gətirillər. Şah undan əsəbi bir səslə suruşur:

– Sən hansı şücaətlə şahın yağı quruğunda at yedirirdin?

– Şah sağ olsun, mən qərib bir atçıyam, atım çux acımışdı, bu quruq saxlandığını, yəni bir şaha aid ulduğunu bilmirdim. Məni bağışla, daha bunnan sunra bu işi eləmərəm.

Şahın divan məclisi gedəndə yuxsul bir kəndli yulla keçirdi. Divan məclisini gürüb, ayax saxladı, tuplanannarın arasına girib tənbihin nəticəsini güzdəməyə başdadı. Şah baş vəzirə üzün tutub suruşdu:

– Vəzir! De gürüm, buna nə tənbih edilməlidir?

Vəzir dedi:

– Şah sağ ulsun! Mən una belə tənbeh etmək istəyirəm: “Dərisini suyub yerinə düz tıxmax”.

Bu zaman yuxsul yolovçu kişi xi-xi-xi edib güldü. Şah urta vəzirə müraciət etdi:

– Sənin fikrin nədir?

Urta vəzir dedi:

– Şah sağ ulsun! Mən istəyirəm ki, onu büyük bir tunqalın urtasına quyub yandırax.

Yuxsul yolovçu yenə xi-xi-xi ilə güldü. Şah sun süzü tədbirçi vəzirə verdi. Vəzir:

– Şah sağ ulsun! Bu kişi bizə bütün əhvalatı süylədi. Yolçudur, səhv edib, daha bu işi gürməz, məncə bunu bağışlayax, quy yulunu getsin.

Yuxsul yolovçu yenə xi-xi-xi edib güldü. Bu zaman unun yanında dayanan bir adam, şaha xəbər verir ki, siz hər zaman tənbih qəbul edəndə, bir nəfər xi-xi-xi ilə gülürdü. Əlbətdə, bu səbəbsiz deyil, səbəbini bilmək lazımdır. Şah əmr edir ki, yuxsul yolovçunu hüzuruna gətirsinnər. Onnan suruşur:

– Hər vəzir cəza tədbirini süyləyəndə sən nə üçün gülürdün, bunun səbəbi nədir?

Yolovçu çux xahiş edir ki, bunun səbəbini surmayın, şah üz əmrində durur. Yuxsul yolçu:

– Madam ki, siz bunu bilmək isdəyirsiniz, quy deyim:

– Baş vəzir təklif verir ki, müqəsirin dərisini yarıb duz tıxmax lazımdır. Mən ona gürə güldüm ki, şah qəssabın dəri aşılayan uğlunu vəzir quyub, özü də baş vəzir.

İkinci, urta vəzir, kümürçü oğlu ula-ula vəzir quymusan. Üçüncü tədbirçi vəzirin əsil insandır. O, rəhmdil bir kişinin uğludur. Una daha çux inanmax ular. Şah:

– De gürüm, bunnarı sən nə ilə sübut edirsən?

Yuxsul yolovçu: “Şah sağ olsun!” – deyə süzə başdadı:

– Dərini aşlayıb duz tıxmax, qəssabın dəri aşlılayanının vəzifəsidir, bu irslə, nəsildən-nəsilə keçir. Mən unun bu süzdərindən başa düşdüm. Başqa bir adam bu tədbir sahibi olmaz. O ki, qaldı urta vəzirə: Bunun nəslinin əzəldən peşəsi kümür hazırramax ulub, həmişə tunqal qalamax, yaxşı udunnarı yandırmax ulub. Odur ki, bu tədbiri o verdi, üzün fikirləş, insanı diri-diri odda yandırmaq olarmı? Urta vəzirin süzlərinnən mən bildim ki, bu, kümürçü uğludur. Gəlsək üçüncü tədbirli vəzirə, o, rəhmdar aylədəndir. Ona gürə onun xahişi hamının xuşuna gəldi. Bunnarı deyib yuxsul yulçu yula düzəlib getmək isdəyəndə şah onu saxladı. Sunra şah şəhərin ən sinni, ən yaşdı adamlarınnan suruşub bildi ki, bu yuxsul kişinin dedikləri düzdür. Şah hər iki vəziri vəzifədən azad edir, atçını azad edir, yuxsul yolovçunu özünə baş vəzir təyin edir. Beləliklə, yuxsul yulçu vəzir uldu, özü də xeyirxah vəzir.

## ODUNÇU ALİ

Ədaləti ulmayan bir kənddə Ali adlı bir yuxsul kişi yaşayırdı. Onun bir arvadınnan başqa bir kəsi yux idi. Hər səhər Ali baltanı, ipi gütürüb meşəyə gədər, odun kəsib birbaş şəhərə yullanırdı, odunnarı satıb yemək üçün lazımı ərzaq alıb gələrdi.

Alinin Vəli adında büyük qardaşı həmin kənddə yaşayırdı. Onun mal-düvləti başınnan aşır, ancax yuxsul qardaşına kümək etmirdi. Onun adını Mizçi Vəli quymuşdular. Beləliklə, iki qardaş arasında heç bir əlaqə yux idi.

Günnərin bir günü Ali səhər meşəyə yullandı. Onun yulu sərin sulu bir çəşmənin yanınnan keçirdi. Ali çəşməyə çatanda, çəşmənin başında saçı-sakqalı qar kimi ağ bir quca kişinin durduğunu gürdü. O, quca kişiyə əhtiramla salam verib keçmək isdəyəndə, kişi unu saxladı:

– Oğlum, hara gedirsən? – deyə unnan suruşdu.

Ali udun qırmax üçün getdiyini una süylədi. Quca cavabında:

– Oğlum, bu çəşməni gürürsən? Bəli, deyə odunçu Ali cavab verdi.

İndi qulaq as! Bu çəşmənin dibində qızıl sanduğu var, gedib, ən inanılmış bir adamı da gütürüb, qazıb sandığı çıxarın, ikiniz də bülüşüb meşədən əl çək!

Odunçu Ali qucanın süzünə qulax asıb geri qayıtdı. Arvadı onu əlibuş gürüb səbəbini suruşdu. Ancax Ali una bir süz demədi, çux fikirrəşdi, ən inamlı bir adam qardaşı Vəlini seçdi. O, qardaşı ilə çəmənniyə yaxınnaşdı, qucanı urda gürdülər. Quca belinnən bir qılınc çəkib Alinin qardaşına uzatdı. Al bu qılıncı, qardaşının başına vur, bu çeşmənin dibində qızıl sandıx var, üzün yalnız apar, sənə ülənə qədər bəsdir - dedi.

Vəli qılıncı əlinə alıb isdədi qardaşının buynunu vursun, qılınc parçalanıb yerə səpələndi. Quca Aliyə üz tutub dedi:

– Get bir inamlı adam gətir, sandığı çıxarıb aparın, - dedi.

Ali kur-peşman evə qayıtdı. Arvad unu fikir içində ulduğunu gürüb suruşdu:

– A kişi, sənə nə ulub, bir məcazını mənə açsana. Ali sühbəti arvadına süylədi. Arvad işə hazır uldu.

– Mənnən inanılmalı adam sən tapmazsan, gedək, deyə una müraciət etdi. Onnar çəşməyə çatanda həmin quca urda idi. Quca yenə qılıncı siyirib arvadı vurdu və dedi:

– Sən bu kişinin buynunu vur, çəşmənin dibindəki qızıl sandığı apar!

Arvad birdən qışqırıb dedi:

– Mənə sənin qızıl sandığın lazım deyil, al bu qılıncı, biz gedirik, - deyə Alının qulunnan tutub geri qayıtmax isdəyəndə, quca onnarı saxladı:

– Ali, sən qardaşını inamlı saydın, ancax arvadın sənin üçün hamıdan inamlıdır, sağ ul qızım, sən əsl insansan, qayıdın evinizə, qızıl sandıq, mal-düvlət hazırdır, xüşbəxt yaşayın, - deyə quca güzdən itdi.

Ali arvadı ilə evə qayıdanda, nə gürdülər?

Evin urtasında qızıl sandığı, evlər dulu mal-düvləti gürüb mətəl qaldılar. O günnən ər-arvad xuşbəxt yaşamağa başdadılar. Vəli isə bütün düvlətdən əli üzülüb yuxsul bir həyat sürməyə başladı. O adam gürdüyü qusurunun peşmannığını bu günə qədər çəkir, qardaşının paxıllığı içində yaşıyır.

## CÜTÇÜ ƏHMƏD

Əhməd kənddə ən tanımmış cütçülərdən biri idi. O, hər gün işə hamıdan qabax çıxar, başqaları iş üsdə gəlincə o işi yarıya çatdırardı. Odur ki, unun işi həmişə xeyir gətirərdi.

Bir axşam Əhməd arvadına dedi: – Arvad, səhər işə tez gedəcəyəm. Qulam kişi mənimlə hücətdəşib, mənnən qabax işə çıxmaq niyətindədir.

Arvad dedi:

– Ay kişi, axı evdə çürəy yuxdur, unda səhər tezdən lavaş-

lar ataram, isdi çürəylə işə gedərsən.

Onnar gecəni başa vurdular. Səhər açılan kimi durub işə hazırraşmağa başdadı, arvad da peçin üsdündə bişir-düşürə başdadı. Əhməd gürdü ki, Qulam da tez durub. O, arvadı səsdədi:

– Arvad, tez ul, fətirrəri xurcuna sal, gedim.

Arvad bir qədər gecikdi. Acığı tutan Əhməd evə girdi, gürdü hələ fətir bişməyib, unda tez fətir yayan nimcavanı əlinə alıb isdədi arvadın başına əndirsin, bu zaman gürdü ki, peçin üsdə fətir var. Əhmədin qurxusunnan arvad başını aşağı salıb durdu. Əhməd fikirə getdi, "Əyər bu nimçavanı arvadın başına vursa, o ülləcək".

Birdən arvad titrək səslə:

– Ay kişi! Vururasan, vur qurtar, üldürürsən, üldür qurtar, axı fətir yandı.

Əhməd bir ucadan güldü: "Ay nanəcip arvad, mən uduzdum, sənsə uddun". Əhməd belə deyib, peçin üsdəki fətiri gütürüb, xurcuna quydu və Qulamdan qabax işə yullandı.

## HƏZRƏTİ QABİL VƏ MULLA ƏKBƏR

Həzrəti Qabil minarədə əzən verib, evə qayıdırdı. Bu zaman qunaxlıxdan qayıdan Molla Əkbər ununla rastdaşır. Xeyli sühbətdən sunra, unnar Qabilgilə gedir. Mulla Əkbər deyir:

– Axı mən qonaqlıqda idim, niyə suruşmursan, xalq arasında nə kimi sühbətdər gedir, kim bizdən deyir, əhalinin yaşamı necədir? Allah-talanın tapşırıqlarını bizə yetirən Qabil qardaş!

Həzrət Qabil dedi:

– Mən sizə xalq arasında ulan narazılıqdan xəbər verməк isdərdim. Hələ bəzi hallarda özüm də narazıyam.

– Əkbər, sən dur ayağa, kəndin sul tərəfinnən tarlaya gedən yulla get, yulda sənə nə rasd gəlsə, mənə sühbət edərsən, sunra bu günü həyatını gələcəklə müqayisə edib bir nəticə çıxararıx.

Mulla Əkbər Həzrəti Qabilin dediyi kimi yula düzəldi. O, kəndin kənarında büyük bir peyinniy gürdü. Gürdü ki, peyinin bir başında bir ala qarğa uturub gələn qarğaları quvur, özü isə peyinniydə tam axtarıb yeyir.

Mulla Əkbər yula davam etdi. Yul meşəlikdən keçirdi. Əkbər gürdü ki bir nəfər şalaya udun quyur, çalışır qaldırsın, qaldıra bilmir, ancax şalaya yenə udun quyur.

Əkbər bu işə mat qalır, ancax yulu davam edir. Azmı, çuxmu yul gedir, yulda bir ağlayan ağsakqal kişiyə rast gəlir. Kişi o qədər yanıxlı ağlayır ki, salam belə ala bilmir. Mulla Əkbər bir süz demədən yula düzəlir. Həzrəti Qabilin dediyi mənzərəyə yetişir. Bu zaman yulun urtasında uturan bir it ayağa qalxır. Onun qarnında olan küçüklər hürməyə başdayır. İt isə evdə sahibin ulub-ulmamasını xəbər verə bilmir.

Mulla Əkbər burdan birbaş Həzrəti Qabilin yanına gəlir. Əhvalatı və gürdüklərini birər-birər una süyləyir. Həzrət Qabil Mulla Əkbərə izahat verməyə başlayır:

- Əkbər kişi, sən birinci dəfə peyinlikdə bir qarqa gürdün, o ki var, gələcəyin mullalarıdır, üzü yiyən qədər duymur, xalqa isə pay çıxarmır. Sunra sən odun şalası qaldıran kişiyə rast gəldin, o ki var gələcəyin həkimləridir. Onlar nə qədər pul alsalar da, doymur, yenə isdəyillər. Sənə bir ağlayan kişi rast gəldi. O isə ev-eşiyində pis evladların əlindən qaçıb yaxa qurtaran bir nurlu kişidir, yulda uturub dərdini buşaldır, Allahdan kümək isdəyir. Axırda sənə bir it rast gəldi. İt özü yux, qarnındakı balalar sənə hürməyə başdadılar, bu artıx kəramətdir. Gələcəkdə elə bir düvran gələcək, ata-anadan qabax gələn adama uşaqlar üzləri cavab verəcək. Bu isə dünyanın axırıdır...

Sən Mulla Əkbər, əhalini başa sal, quy rahat ulsunlar, bu günkü hala şükür çəksinnər. “Bunnan betərin Allah saxlasın”, – desinnər. Əkbər uzun sühbətdən sunra dərd-fikir içində evə dünür, qələmini rəngə batırıb əhvalatı yazıb, bizə çatdırmax üçün dəftərxanəyə quyur.

# DAĞLAR QIZI SEVDA

Biri vardı, biri yuxdu, keçmiş zamannarda Əlcan kişi və Pərizat xanımnan ibarət mehriban bir aylə var idi. Ancax bu ər-arvadın uşaqları yux idi.

İllər keçdi, aylar ütdü, mehriban ayilə ulan Pərizat xanımla, Əlcan kişinin bir üvladı ulmadı ki, ulmadı. Bir dəfə Pərizat xanım yuxu gürür. Una bir nuri adam məsləhət verir ki, Şah dağının ətəyində bir pir var, unun suyunnan içsə, üvladın ulacax.

Pərizat xanım səksənib yuxudan qalxır, yuxunu Əlcana süyləyir. Əlcan bu işə əməl etməyi ühdəsinə alır. Ərtəsi gün yul tədarükü gürüb, bir şüşə qab da alıb Şahdağın ətəyindəki pirə gedir. Neçə gün gedənnən sonra, yerli əhalidən pirin yerini üyrənir, ura çatır. Əvvəlcə dualar oxuyub piri salamlayır. Sunra niyyətini una süyləyir. Duyunca pirin çəşməsinnən su içir, şüşə qabı su ilə duldurur, pirin nəzirin də verib, geri qayıdır. Həfdə başa gəlincə özünü Pərizat xanıma yetirir. Hər ikisi təmizlik hamamında çimib, nəzir tutub, sudan duyunca içillər. Pərizat günnəri bir-bir hesablayır. Əlcan isə arvadını həmli gürüb yerə-güyə sığışmırdı. Allah bunnarı muradına çatdırmışdı və bu xuşbəxt ayiləyə bir üvlad verməli ulmuşdu. Duqquz ay, duqquz gün, duqquz sahat vədələrində Pərizat xanıma bir nəfər qız övladı qismət oldu.

Əlcan şaddıx məclisi qurub qıza mulladan ad istədi. Mulla kitaba baxıb qıza Sevda adı verdi. Sevda hələ kürpə ikən u qədər qəşəng idi ki, on uşağı ulan da unu özünə isdəyirdi. Nağıllarda vaxt tez başa gəlir. Artıx Sevdanın on beş yaşı tamam ulmuşdu. Sizə bir az unun güzəlliyinnən deyim, siz də qulax asın:

– O, ucabuylu, qələmqaşlı, nazik bədənni bir qız idi. Qaşdarı durna telinə, güzdəri mayda yetişən gilasa, yanaxları un beş günnük bədirrənmiş aya bənzəyirdi. Onun sul yanağındakı qara xal una güzəllik verirdi. Onu gürən uğlannar divanə

kimi yerində dura bilmirdi.

Belə bir qıza kim aşıq olmazdı? Ona neçə yerdən elçi gəldi, o, birini də bəyəmmədi. Bir dəfə qız bağçada yaşıl otdar üzərində yatıb şirin yuxuya getmişdi. Qız yuxuda gürür ki, bir nəfər şahzadə uğlan sərçəşmə başında uturub dərin fikirə gedib. Qız una yaxınnaşıb, diqqətlə baxır. Oğlanın güzəlliyi unu valeh edir. Danışmağa süz tapmır. Oğlan isə qıza güz altdan baxır, fikir dəryasına qərq olan kimi başını qaldıra bilmirdi. Bu zaman ayax səsdərinə o yuxudan uyanır, güzdərini silə-silə bu qəribə yuxuya mətəl qalır. Nəhayət, qız geri dünüb evə gəlir. Əhvalatı anasına süyləyir: "Anacan, əyər mən ərə getsəm, ancaq o yuxuda gürdüyüm oğlana gedəcəyəm" – dedi.

– Qızım, yuxun çin ulsun, sən o oğlanı hardan taparsan? – deyə anası dilləndi.

– Mən bütün dağları gəzib, gərək o oğlanı tapım. Onun kim ulduğunu bilim, əyər mənə layıqlı bir uğlan ulsa, una da ərə gedəcəyəm.

Ata-ana bu işə razı uldu, çünkü yeganə bir qız ulduğu üçün unun xatirini sındıra bilməzdilər. Ərtəsi gün Sevda, ildırım yerişdi, qartal uçuşdu kəhəri yəhərrədi. Xurcunnarı azuqəynən duldurdu. Ox-yayı əlinə alıb ata mindi. Sağollaşıb atı dağ tərəfə məhmizlədi. Neçə kəndi keçdi, neçə çeşmədən su içdi, neçə dərədən aşdı, neçə dağa qalxdı, ancax yuxuda gürdüyü oğlannan bir nişanə tapmadı.

Sevda bir həfdə dağlarda qaldı. Neçə-neçə ceyran uvladı, ətinnən kabab bişirdi. İşdaha ilə yedi, üsdünnən dağların sərin suyunu içib, məst oldu. Səyahətin yeddinci günü, o, axşamüsdü dağın ətəyindəki bir mağaraya rast gəldi. Mağara çux büyük idi, hətda ura at salmax, gecə gecələmək üçün əlverişli yerrər də var idi. O, burada qalıb gecələməyi qərara aldı. Mağaranın sulunda şəffaf sulu bir çəşmə axırdı. Axşam yeməyinnən sunra, o, atın yəhərini başının altına quyub, şirin yuxuya getdi. At belində çux gəzdiyi üçün bərk yurulmuşdu, udur ki,

dərin yuxuya getmişdi. Gecə yarıdan keçmiş ulardı, Sevda atın kişnəməsini eşitdi. Diksinib yuxudan ayıldı. Gürdü, at ayaxla yeri eşir, kişnəyir. Ancax ətrafda kimsə belə yux idi. O, atı rahatdayıb yenə yatdı. Birdən o gürdü ki, mağaranın dərinniyinnən işıx gəlir, özü də lampa işığı. Qız bu işə mətəl qaldı, daha güzünə yuxu getməyib səhərədək uyax qaldı. Səhər açılanda o durub çeşmədə əl-üzünü yudu, geri dünəndə o, qarşıda bir ağsakqal quca dayandığını gürdü. Quca dillənib, “Ay dağlar qızı Sevda! Sizin aylənizə səni bəxş edən pir mənəm. Bu çeşmə suyu sizindir, ancaq mənim dərdimə sən çarə et, mənim yeganə uğlumu xəsdəlikdən azad elə. Bu mağara mənim evimdir. Oğlum sevda azarına düşüb, bir qıza aşiq ulub, ancax unu tapa bilmir. Bəlkə sən unun qismətisən, gəl səni mağaraya aparım, oğlana bax, bəlkə unun çeşmə başında güdüyü qız sənsən?”

Sevda bir fikirdən min fikirə getdi, necə ulsa da oğlanı gürməyi qərara aldı. O, qucanın ətəyinnən tutub mağaranın lap sununa getdi. Mağarada şamlar yanırdı. Buranın bəzəydüzəyi qızı valeh etdi. Qızıl-imperial, almaz, gümüş qablar, xalı-xalça, daha sizə nə deyim? Axır ki, mətləbə gələk, qız oğlana yaxınnaşanda huşunu itirib yerə sərildi. Quca tez çeşmənin sərin suyunnan onun üzünə çilədi, qız özünə gəldi. O, oğlana diqqətlə baxıb tanıdı. Axtardığı oğlan bu imiş, oğlan dərdə düzə bilməyib xəsdələnmişdi. Quca tez hər iki bəndəyə üzüm suyu verdi, onnar hər ikisi sühbətə başladı. Quca isə gənclərə mane ularam - deyə mağaradan çıxıb atlara yem verməyə başdadı. O, şaddığınnan yerə-güyə sığışmırdı. Dağlar qızı Sevda onun evində qaldı. Axı nə üçün quca oğlu ilə mağarada yaşayırdı?

Bunu o, bizə belə sühbət eləmişdi:

– Mən çux cavan ikən sevdiyim qızla evlənmişdim, çux mehriban həyat keçirirdik, ancax üvladımız yox idi. Bir gecə bir ruhani quca mənə dedi ki, sən Şah dağı ətəyindəki dərviş pirində mağara var, urda, bir il yaşa, üvladın olacax. Mən də

elə etdim, gəlib bu mağarada yaşamağa başdadım. Bu çeşmənin suyu üvladsızdara üvlad verir. Mən bu mal-düvləti gələn üvladsızlardan qazanıb onnara isə üvlad bəxş ələmişəm. Bir vaxt keçdi, mənim də bir uğlum uldu. Adını Sührab quydum, bu uğlan həmin uğlandır. Onun üç yaşı ulanda anası Allah rəhmətinə getdi. Odur ki, biz burda yaşamağı qərara aldıx. Sührab isə ana dərdi çekir, udur ki həmişə peşman dulanır.

Bir nəfər mulla kitaba baxıb deyib ki, onu ancaq çeşmə suyunnan əmələ gələn dağlar qızı qəm-qüssədən ayıra bilər. Sevda xanımı gürən günnən o, sevdaya düşüb, qıza aşiq olub. Quca sühbəti belə bitirdi. İndi biz bu iki cavannan sühbət açax.

Qız ayılan kimi uğlanı tanıdı. Uğlanın adını surdu:

– Mənim adım Sührabdır.

– Mənim adım Sevdadır: - deyə qız da oğlana işarə elədi. Hər iki aşiq şaddıq məclisi keçirdi. O gün nə zaman axşam yetişdiyini hiss etmədilər. Mağaranın bəzək-düzəkli yerində qıza yer salındı. Onnar səhəri güzləməli, qızın ata-anasına əhvalatı süyləməli idilər.

Budur, səhər açıldı. Oğlanla qız sərin çeşmə suyunda əl-üzünü yudular. Səhər yeməyi yedilər. Atanın razılığı ilə uğlan yula düşməli idi. Atası onnarın hər ikisinə xeyir-dua oxuyub onnarı yula saldı. Qız bir düzəndə yerləşən Savalan kəndində yaşayırdı. Kəndə gedən yul qalın meşəlikdən, xırda dağlardan, kullux çəmənniklərdən keçirdi. Bu yul ov uvlamax üçün, hünər güsdərmək üçün əlverişli yul idi. Meşədə maral-ceyran, dağlıxda turac-kəklik, çəmənniklərdə isə xırda ovlar var idi.

Hər iki yulçu ox-yay əlində keçirdilər. Budur, sınax vaxtı çatırdı. Qız oğlana dedi:

– Sən sağdan qaçanı, mənsə suldakını vuracağam, şərtimiz belədir. Oxlar gərək ceyrannarın qulağının dibinnən dəysin. Onnar hər ikisi ox-yay atdı. Necə ki, şərtləşmişdilər, elə də uldu. Ceyrannar hər ikisi yerə sərildi ayağı da qulağının dibini qaşıdığı halda. Oğlan qızdakı hünəri gürüb, daha sevindi. Yul

uzunu bir neçə turac, kəklik də vurub kəndə yetişdilər. Kəndin kənarında onnar atdan düşdülər. Qız oğlanla məsləhətləşdi. Oğlanı urda quyub, ata-anasınnan məsləhət gürməli, sunra oğlanna birgə evlərinə getməli idilər. Onnar elə də etdilər. Ata-ananın sevincini mən sizə nə cür sühbət edim, özüm də bilmirəm. Ana oğlana baxmaxdan doymurdu. Oğlan, nə oğlan qarasaç, qaragüz, ənli kürəkli, ucabuylu, yenicə bığ yeri qaralmış qəşəng bir oğlan idi. Gəl sizə unun ağıl-kamalınnan deyim: "Bu oğlan dindirməsə, bir cavab verməzdi, hər süzü dərin məna ilə ifadə edirdi. Oğlan belə oğlan idi".

Bəli, gürək qunaxlıq necə keçdi. Bütün qunşuları, quhum-əqrabaları qunax məclisinə tuplandı. Səhərə qədər yemək-içmək, çalmax-uxumax, rəqs etmək davam etdi. Ərtəsi gün oğlan ata-anaya baş eyib, atasının yanına məsləhətə getməyə icazə isdədi. Razılıxdan sunra oğlan yula düzəldi, gəlib əhvalatı atasına sühbət etdi. Ata da bir künüldən min künülə ona vuruldu.

İndi məsələ qıza elçiliyə getmək, qızı nişannamax qaldı.

Pirəhməd kişi quhumlarını çağırıb, qıza elçi gündərdi. İş heç bir maneə ulmadan düzəldi. Ancax Əlcan kişinin qucadan xayişi mağaradan kəndə gəlmək və tuyu urda eləmək uldu. Hamı bu işə razı oldu. Tuy tədarüki başlandı. Əlcan kişinin quhumu Sührabın atası Pirəhməd kişi bütün mal-düvləti mağaradan Əlcanın evinə gətirdi.

Əlcan kişi kənddə ən tanımmış bir adam idi. Onun hürməti xalq arasında büyük idi. Ona gürə gürkəmli yer tuturdu ki, bu şənniyə təkcə Əlcan yox, bütün kəndin əhalisi qarışmışdı. Meclisdə əl-ayax edən bir Fatimə adında arvad var idi. Arvad dul idi. Pirəhməd bu arvadın davranışına güz quyurdu. "Tuydan sunra, bu arvadla evlənə bilseydim" – deyirdi.

Fatimə arvad da demə elə bunu düşünürmüş. Nə olsun, sən dul, mən dul, gəl mənə bənd ul! - deyiblər, quy bizimki də elə ulsun. Məclis quruldu, qazannar yan-yana düzüldü, quyun və quş kababının iyi xalqı məst elədi. Cavan oğlannar, qəşəng

qızdar məclisə ruh verirdi. Bey ilə xanım məclisin başında eyləşdilər. Sazandalar deyim-deyim muğamlar çalır, qız-oğlannar rəqs edillər. Mulla kəbini kəsib, bu iki cavana xeyir-dua uxudu. Hamı bir səslə beylə-xanımı alqışdadı. Axırda nüvbə qucalara çatdı. Əlcan  Pərizatı, Pirəhməd isə Fatmanı rəqsə dəvət edib uynamağa başdadılar. Şənlik məclisi xeyir-dua ilə başa çatdı. Xalq, hər kəsən üz evinə getdilər. Bəs Pirəhməd? O, hara getsin? Uzun illərin arvadsızıdır. O, ürəy sühbətini Əlcana  açdı. Əlcan sabahı gün bu işi düzəltməyi ühdəsinə aldı. Pirəhməd səhərin açılmasını güzdəyirdi. Fatimə isə Pirəhmədlə rəqsdən sunra rahatlıx edə bilmirdi.

Səhər, bazar ərtəsi idi. Mulla Dürsünəlini çağırıb, Fatiməni Pirəhmədə kəbin kəsdilər. Hər iki quca aylə bir cavan ayləyə dayax ulub xuşbəxt həyat keçirməyə başladılar.

Allah hamını dağlar qızı Sevda kimi xuşbəxt eləsin. Tuydan qayıdanda, mənə də bir xələt düşmüşdü yulda, bir dələdüz əlimdən aldı. Heyif ki, evə əlibuş qayıtdım. Sağ ulun, salamat qalın.

## ŞAH ABBAS VƏ QUCA

Şah Abbas yuldan bir qədər kənarda dayanmışdı. Burada o, bir qucaya rastdaşır. Şah undan soruşur:

– Sən camahatla necə yula gedirsən?

– Belə də, onnarla çox az görüşürəm.

– Bəs necə gəzirsən?

– Üç ayaxlı.

– Əgər qaz versəm, yularsanmı?

– Qayıdanda gürərsən.

Şahın yanında iki vəziri də var idi. Şah unnardan soruşdu:

– Başa düşdüz, o mənə nə dedi?

Vəzirrər  dedilər:

– Yox.

Şah Abbas vəzirlərə dedi:

- Xurcunnarı qızılla duldurun, unun yanına yullanın. Vəzirrər dulu xurcunnarla qucanın yanına yullandılar və onnan xahiş etdilər ki, dediyini onnara açıxlasın.

– Suyunun! – diyə quca unnara üz tutdu.

Vəzirrər suyundular.

Sunra quca Şah Abbas dediklərini izah etməyə başladı:

– Camahat mənim dişlərim idi. Üç ayax isə öz ayaxlarım və əsam idi. Qazdarı yulmax isə sizdəri suyundurmax idi - diyə quca cavab verdi.

## ÜÇ BACI

Musa kişi ilə Səbirə xanımın üç qızı var idi. Bunnar mehriban yaşayırdılar. Büyük bacı Rüxsarənin un iki, urtancıl bacı Rəfiqənin un bir, kiçik bacı Cahanın isə dukquz yaşı var idi. Nədənsə, Musa kişiyə dərin bir dərd verildi. Onun arvadı Səbirə xala bərk xəsdələndi, on günnən sunra Allah rəhmətinə getdi. Bu dərd Musa kişini çux daraltdı. Musa kişi çux mülayim bir adam idi. Heç kəsi özünnən incitmirdi, qunşularla mehriban dulanardı. Odur ki, hamı una hürmət edərdi. Qunşuda bir **özgürüş*** arvad yaşayırdı. O, Musa kişiyə təklif etdi ki, özünə evlənsin.

Musa kişi bu təklifi qəbul edib, o arvadnan evləndi. Arvad, nə arvad, gündə bir qutu pudra, ənnik-kirşan una çatmırdı. Onun adını Ətir xanum quymuşdular. Duğrudanda, o elə Ətir xanum idi. Onun yanınnan keçəndə ətir iyi adamı məst edirdi. Ətir xanumun qızlardan zəhləsi gedirdi. Bir bəhanə tapıb o qızdarı evdən quvmax niyətinə düşdü. Axşam Musa kişi işdən gələndə o, ağlamağa başdadı. Arvadın ağlamasına Musa kişi təəccüb edib, suruşdu:

– Arvad nə ulub, belə ağlayırdın?

---------------

*Özgürüş -düşük, səy.

– Daha nə ulsun, bu üç qız sən evdən çıxan kimi, məni düyür, süyür, biyabır edirlər. Buna mən düzə bilmirəm, gərək qızdarı evdən quvasan.

– Ey arvad, belə ulmaz axı, mənə əyib edəllər. – Unda mən gedərəm deyə - arvad ayağa duranda Musa kişi qızdarı evdən quvmağa razı uldu. Arvada elə bu lazım idi.

Səhər Musa kişi qızdarı özü ilə gütürüb meşəyə udun qırmax bəhanəsi ilə yula düşür. Onnar bir dərinnik meşədə udun qırırdı. Musa kişi axşam ulmasını güzləyirdi. Budur, axşam yaxınnaşdı. Musa kişi qızdara dedi ki, siz burda uturun, mən o tayda bir az udun hazırlayım. O, yaxınlıxda bir ağaca ağac tağalaxlar asıb evə yullandı. Külək əsəndə tağalar tiq-tiq səs verirdi. Qızdar elə bilirdilər ki, atası udun hazırrayır. Axşam uldu, hər tərəf qaraldı, qızdar tağ-tağ səsi gələn yerə getdilər. Gürdülər ağac tağalaxlarını külək tərpədir, balta səsi kimi səs verir. Qızdarın canlarına qurxu düşdü. "Ata! Ata!" – deyə qışqırırdılar, heç bir səs ulmadı. Büyük bacı işi başa düşmüşdü. Bacılara məsləhət elədi ki, bir ağaca çıxıb, səhərin açılmasını güzləsinnər. Onnar gecəni ağacda uturub səhərlədilər. Səhər açıldı, qızdar bir kühnə cığırla getməyə başdadılar. Az getdilər, çux getdilər, bir alaçıx yerə çıxdılar. Alaçığın sağ tərəfində bir malikanə var idi. Onnar malikanəyə yaxınnaşdılar. Orda heç kəs yux idi. Qızdar evlərə girib heç kəsi tapa bilmədilər. Otağları səliqə ilə təmizləyib işin dalını güzləmək üçün bir utağın bucağında gizdənib uturdular. **Əkindi*** vaxtı idi. Üç nəfər atlı malikanəyə girdi. Atdarı rahatdayıb utağa girdilər. "Aha, bu nə işdir, bu təmizliyi kim edib?" – deyə bir-birinə üz vurdular. Ancax heç birinin bu işdən xəbəri olmadığı aydınnaşdı. Büyük qardaş utaxları gezməyə başdadı. Bir otaxda bucağa sıxılıb uturan üç qıza rast gəldi. O, qızdardan kim ulduğunu suruşdu. Qızdar başına gələn əhvalatı oğlana sühbət edib, ağlamağa başdadılar. Qardaşdar hamısı bir

---------------------

*Əkindi - günorta

yerə tuplandılar. Qızdara şam yeməyi hazırlamağı tapşırdılar. Axşam yeməyinnən sunra qızdar üçün bir utax ayırdılar, urda yaşamağı unlara tapşırdılar. Hər gün qızdar evləri təmizləyir, oğlannar uvdan qayıdınca unnara xürək hazırrayırdılar. Qızdarın hər üçü də yetginlik vədəsinə çatmışdılar. Ərə getmək vaxdları idi. Odur ki, üç qardaş bunnara sahib olmax niyətinə düşdülər.

Bir gecə, axşam yeməyindən sunra büyük qardaş məsələni qızdara aydın etdi. Qızdar bu təklifə razı uldular. Büyük bacı, büyük qardaşa, urtancıl bacı urtancıl qardaşa, kiçik bacı kiçik qardaşa evləndi. Bunnar şad-şadiyana yaşamağa başdadılar. Bir gün maral ətinnən kabab bişirib yeyirdilər. Hər kəs öz arvadınnan suruşdu: "Sən nə iş gürə bilərsən?"

Büyük bacı: – Mən bir yumurta ilə qırx qunağı yula salaram.

Ortancıl bacı: – Mən bir gecədə bir xalı tuxuyaram.

Kiçik bacı: – Mən qızıl kəkilli oğlan duğaram, dedilər.

Məsələ sınağdan çıxmalı idi.

Büyük bacı, urtancıl bacı çiməndə uturdular. Kiçik bacı həmli idi. Bacıların canına təşviş düşmüşdü.

Arvadın vaxtı yetişdi. Bacılar xəyanətə əl atdılar. Kiçik bacını dama çıxardılar, dedilər ki, adət belədir, arvad gərək yuxarıda duğmalı, uşağı isə aşağıdan almalıdır. Onnar bir küçük tapıb gətirdilər. Kiçik bacının qızıl kəkilli oğlu uldu. Bacılar uşağı küçüklə dəyişdilər, oğlana xəbər verdilər ki, arvadın küçük duğub! Oğlanın acığı tutub arvadı itin yerinə bağlıyır, küçüyü də onun yanına quyur. Bacılar uşağı bir xarabalığa atıllar.

Bir neçə vaxt keçir, bir quca arvad xarabadan uşağı tapır, evə gətirir. Oğlanın başında qızıl kəkil var idi. Qarı bu uşağı gizli saxlayır. Uşağın bir neçə yaşı ulanda o, uşaxlarla uynamağa çıxır, qarının bunnan xəbəri olmur. Uşaxlarla uynayanda oğlanın papağı başınnan düşür. İt komasında yaşıyan arvadın güzü una sataşır. Bilir ki, bu qızıl kəkil uğlan özünündür.

Qarıyla məsləhətdəşib, oğlanı gütürüb burdan qaçıllar. Bir çayın kənarında bir qələçədə yaşamağa başdayıllar. Qələçə

çay aparan meymunun qələçəsi idi. Burda heç kəs yaşamırdı. Vaxt tez başa gəldi. Oğlanın on yaşı uldu. Bir gün arvad oğluna dedi ki, atangil ova çıxacaq. Arvad bunnarın qayıtmasını güzləyirdi. Əkindi namazı çatanda qardaşdar geri qayıtdılar. Ana oğlana tapşırdı ki, gələn atlıların qabağını kəsib evə dəvət etsin, özü isə məzəli plov bişirib hazırlamışdı. Oğlana işarə verdi:

– O qabağa gələn atlı büyük əmin, ortada gələn kiçik əmindir. Dalda gələn atandır.

Sən əvəlcə əmilərivin atdarın tut bağla, atan atı özü bağlar.

Mən xürək verəcəyəm, qızıl qabları əmilərivin qabağına quy, bu adi qabı atavın qabağına, quy. Sonra ağacdan bir quş düzəlt.

Xürək yeyiləndə sənə deyəcəklər: "Oğlan, aş ye!" Sən də düzəltdiyin ağac quşa de ki, aş ye!

Atan deyəcək: "Ey oğlan, ağac quş aş yeməz!" Sunra sən de ki, bəs arvad küçük duğarmı? Sənin kinayəli süzünnən o, hər şeyi başa düşər. Oğlan anası deyən kimi etdi. Atasına və əmilərinə bu kələk aydın uldu. Onnar gecəni burda qalıb səhər malikanəyə yula düşdülər. Arvadı və uşağı özləri ilə apardılar. Evə çatanda büyük və urtancıl bacıları çağırıb suruşullar: "Uşaq hanı?" Bacıların canına qurxu düşdü. Heç bir süz deyə bilmədilər. Onnarın hər ikisini xam atın quyruğuna bağlayıb buraxdılar. Qızıl kəkilli oğlan əmiləri və atası ilə yaşamağa başdadı. Xayın bacıların isə axırı puç oldu. Xayın adam xuşbəxt ula bilməz, həyatda hürmət qazana bilməz.

## İYİD ELDAR

Sıldırım dağların ətəyində Səlbasar adında bir kənd var idi. Bu kənddə bir varlı kişi yaşayırdı. Onun üç oğlu, bir qəşəng qızı var idi. Qız nə qız, oxşarı dan ulduzu idi. Uzun saçları daban düyürdü. Ucabuy, incəbel, al yanaxlar, xoş baxışlı güzlər una ayrı güzəllik verirdi. Qızın adı Ulduz idi. Varlı kişinin

qızı güvhər dənəsinə bənzəyirdi. Onun on beş yaşı tamam ulmuşdu. Bir gecə qəflətən onnarın atası Allah rəhmətinə getdi. Üç qardaş atasını lazımınca dəfn etdilər. Qırx saxlayıb el adəti üzrə xeyrat verdilər. Onnarın minnən artıx quyun-quzusu var idi. Kəndin yuxsullarına sürüdən yüzə qədər quyun-keçi payladılar. İl tamam uldu. Qıza elçilər gəlməyə başdadı. Qardaşdarın ikisi dağda sürülərə baxırdı. Büyük qardaş kənddə mülkə sahibkarlıx edirdi. İndi sizə kimnən deyim, qunşu kəndin bəyi Səlim bəydən. O, bir neçə atlı ilə ova çıxmışdı. Ulduz dağda ulan qardaşdarına sürsət aparıb qayıdırdı. O, birdən atlı dəsdəsini gürüb diksindi. Ancax biruzə vermədən atı **mehladı***. Bəyin güzü qıza sataşdı, qızı gürcək hüşü başınnan getdi. Suyux su tüküb unu uyandırdılar. Bəy uyanıb dedi:

– Nə ulursa ulsun, gərək bu qızı alım - dedi. O, atlardan birini qızın qabağına çıxarıb, kimin qızı olduğunu, kəndin adını sordu. Qız ünvanını, adını başqa cür verdi. Özü kəndə gəlib əhvalatı büyük qardaşı  Eldara süylədi. Eldar gülüb dudax büzdü: “Axmax bəy əlli yaşında un səkkiz yaşlı qıza evlənmək isdəyir. Büyük qələt eyləyir” – dedi.

Bəy firsəti əldən verməyib qızın yerini üyrəndi. Əlçi gündərdi. Ancax Eldar elçiləri pifləyib geri qaytardı. Beyin acığı tutudu. Gücə əl atıb qızı almax məsləhətini gürdü. O, iki nəfəri Ağkar dağına gündərdi. Onnara tapşırdı ki, qızın iki qardaşını əli-qulu bağlı yanına gətirsinnər. Sürünü də vurub öz yatağına səpsinnər. Nükərrər beyin əmrinə gürə dağ ətəyindəki yatağa gəldilər. Əhvalatdan xəbərsiz qardaşdar onnarı hürmətlə qarşıladılar. Onnar gecəni yatağda keçirməli, gecə yarısı qardaşlar yuxarıya gedəndə onnarın əl-qulunu bağlayıb beyin hüzuruna aparmalı idilər. Hamı yatmışdı. Kiçik qardaşın güzünə yuxu getmirdi. O, xəncəli yapıncının altına salıb, özünü yuxuluğa vurmuşdu. Nükərrər vaxtı itirməyib gecə yarı ayağa durdular. Ortancıl qardaşın əl-qulunu bağlayıb, kiçik

-----------------

*Mehladı - məhmizlədi

qardaşa yaxınnaşdılar. Güzünə dündüyüm quçax oğlan cəld ayağa qalxıb, xəncəli işə saldı. Nükərrərin birini üldürdü, o biri isə yaralı halda atına minib, qaçdı. Ortancıl qardaşının əl-ayağını açıb dedi:

– Tez kəndə yetiş, xəbəri Eldara çatdır ki, beyin nökərrəri yatağı aparmax isdəyiblər. Bu işdə beyin əli var, agah olsun. Ortancıl qardaş atı mehmizləyib, beşaçılan qarabini əlinə alıb yula düşür. Kəndə yetişəndə hava açılmağa başlayır. Eldarı yuxudan uyadıb əhvalatı ona süylədi. Eldar hazırlıx gürüb özü ilə bir neçə cavan oğlan da alıb yatağa yula düşdü. Bu taydan bey beş nükərlə yatağa yetişmişdi. Onnar kiçik qardaşı yaralayıb, halsız halda yerə salmışdılar. Eldarın dəsdəsi beyin nükərrərinin hamısını atdan yerə saldı. Bey isə yaralı halda yerə uzammışdı. Eldar əvvəlcə beyin yarağını alıb, unu silahsız quydu. Bir nəfər iyid oğlan ona güzətçi idi.

Eldar qardaşını qucağına aldı. O, artıx ölüm təşvişində idi. Onu yerə uzadıb “Yasin” uxumağa başdadı. Yasın bitən kimi qardaşının canı çıxdı. O, qəzəb içində beyə yaxınnaşdı:

– Bəy, niyətin nə idi, nə üçün bu cavanı üldürdün? - deyə xəncəli qınınnan çıxarıb, beyin buğazına quydu.

– Bizim əldə qana-qan, cana-can deyiblər! Al, bu da sənin canın! - deyib xəncəli beyin buğazına çəkdi. Bey cəhənnəmə vasil uldu. Eldar isə qardaşının meyidini ata quyub kəndə qayıtdı. Onu qəbirstannıqda dəfn etdilər. Əhvalatdan bir il keçdi. Eldar özü ilə yatağa vurmağa gələn oğlannardan birini yanına çağırdı. Oğlan bir qəşəng oğlan idi. O, Ulduzun da xuşuna gəlirdi. Eldar oğlana təklif etdi ki, Ulduzla əvlənsin. Oğlan təklifi qəbul edib, tuy tədarükü gürməyə başladı. Ulduz ilə Batırın tuyu başdandı. Kənd ümründə belə tuy gürməmişdi. İki cavan muradına çatır. O, günnən əhali bu qəddar beyin əlinnən azad uldu.

Bütün kənd əhali beyə "lənət", Eldara "uzun ömür, can sağlığı" dedilər.

Sühbət belə bitdi. Sağ olun! Qəsd edin həmişə rəhmdar olmağa, onda Allah sizə kümək ulacax, muradınıza çatacaxsınız.

# MAHMUD ŞAHLA VƏZİR

Biri var idi, biri yux idi. Gündəlan kəndində Mahmud adlı bir şah yaşayırdı. Çətin işlərdə hamı ununla məsləhətləşirdi. Gündəlanda qunşu kənddə və yaxın Həmədan şəhərində hamı onun hürmətini çux saxlayırdı. O vaxt Həmədanda qəddar bir şah var idi. Xalq heç də şahdan razı deyildi. Odur ki, camahat bir gün unu şahlıxdan quvur. Burda qayda belə idi: Bütün əhali tuplaşıb şah meydanında quş uçurdurdular. Quş kimin başına qundu (bu, üç dəfə təkrar edilirdi ki, bəlkə quş səhv ələyir) unu da şah seçərdilər. Bütün kənd və şəhər əhalisi meydana tuplanıb quşun uçurulmasını güzləyirdi. Mahmud da bir çux Gündalan əhalisi ilə bu məclisdə iştirak edirdi.

Budur, şahlıx nümayəndələri quşla meydana daxil uldular. Əhalini sakit edib düvlət quşunu uçurdular. Düvlət quşu əvvəlcə səmaya qalxıb bir neçə dəfə aşağı endi. Sunra meydançaya bir düvr aldı. Əhalinin sıx yerində olan Mahmud kişinin çiyninə uturdu. Nümayəndə başçısı adət üzrə quşu yenə uçurdu. Quş bu dəfə də Mahmudun çiyninə uturdu. Üçüncü uçuş yenə belə keçdi. O gün nümayəndələri və xalq Mahmudun şahlığını qeyd etdilər. Şaha yeni vəzir-vəkil təyin etdilər. Vəzirrərin biri Oruc adında bir yaşlı kişi idi.

Şah Mahmudun yaxşı dusdarı var idi. Onnar şahın yanına gəlir, əhvali-ruhiyyəsini soruşurdular. Bir dəfə şahın lap köhnə dustu Selim şahın yanına gəlir. Hər iki dust xeyli söhbət edib bir-biri ilə gülüb şaddıx etdilər. Bu zaman vəzir Oruc şahın otağına daxil uldu. O da onlarla söhbətə quşuldu. Şah Mahmud Selimə belə suallar verdi:

– Səlim, ikidəsən, üçdə?
– Üçdəyəm, dustum.
– Oğul-uşaxdan nəyin var?
– Bir o yanda, bir də bu yanda.
– Öküz versəm, sağa bilərsən?
– İnəkdən yaxşı- deyə Səlim cavab verdi.

Söhbət belə bitdi. Ancax Oruc vəzir bu sualların mənasını bilmədi. Selim sağollaşıb kəndinə qayıtdı. Vəzir şahdan suruşdu:

– Şah sağ olsun, siz Selimə verdiyiniz sualların cavabı nədir? Mənə deyə bilərsən?

Şah mətəl qaldı:

– Bəs sən bu sualların cavabın bilmirsən? Onda sənə üç gün vədə verəcəm, əgər suallara cavab tapmasan, səni vəzirrikdən quvacam – deyə şah ayağa qalxıb təxtinə oturdu.

Oruc vəzir çələng-fələyə düşüb şahın dustunu axdarmağa başdadı. Onu öz kəndində tapıb, sualları üyrənmək isdədi.

Selim kişi dedi:

– Birinci sualın cavabın qiyməti un qızıldır. Oruc vəzir tez kisəyə əl atıb Selimə un qızıl verdi.

Selim dedi:

– Şah mənnən surdu ki, ikidəsən, üçdə? Mən dedim üçdə, yəni iki ayaxnan gəzirsən yuxsa əsa da alırsan? Mən də una gürə dedim üçdə.

– Bəs ikinci sual? İkinci sual? Bunun qiyməti iyirmi qızıldı.

Oruc vəzir iyirmi qızılı da verir. Şah mənnən suruşdu ki, oğul-uşaxdan nəyin var? O, bilmək isdədi ki, mənim ağzımda dişlərim qalıbmı? Mən dedim bir oyanda, bir bu yanda, yəni iki dişim qalıb.

– Bəs üçüncü sual? Hə bu sualın qiyməti utuz qızıldı.

Oruc vəzir otuz qızıl Selimə verib narahatlıqla cavab güzləyirdi.

Selim dedi:

– Şah mənnən surdu ki, üküz versəm sağarsanmı? Mən dedim: “İnəydən yaxşı. Hələ bu üküz sənsən, səni mən inəydən də yaxşı sağdım. Xudafiz” – deyib Səlim altmış qızılı alıb əvə getdi. Vəzir saraya qayıtdı. Şah una dedi:

– Mənə sənin kimi üküz vəzir lazım deyil, yığış sarayımnan çıx! - deyib vəziri vəzifədən çıxardı. Dusdu Selimi isə özünə baş vəzir etdi.

## ŞAH VƏ BÜLBÜL

Quca şahın bir bülbülü var idi. Günnərin bir günündə bu şaha başqa bir şah qunax gəlir. Bir neçə gün qərib şah burada qunax qalannan sunra öz ülkesinə qayıdır. Qayıdınca o, quca şaha bir hədiyə quyur – qızıl bülbül.

Quca şah qızıl bülbülü gütürür və öz başı üsdə quyur. Bir az vaxtdan sunra şah əmr edir ki, əsl bülbülü quvsunnar. Mənə deyir, bu qızıl bülbül də bəsdi. Əsl bülbülü quvullar. İndi şaha qızıl bülbül oxuyur.

Şah gürür ki, qızıl bülbül iki mahnıdan başqa bir şey oxumur. Nə elədisə də, qızıl bülbül bu iki mahnıdan başqa heç şey oxuya bilmir. Onda şahın ürəyi sınır. Əvvəlki əsl bülbül yadına düşür. Onun xuş, incə səsi şahun yadınnan çıxmır. Şah azarrayıb qüssəyə batır. Əmr edir ki, qızıl bülbülün səsin kəssinnər. Şahın güzdəri pəncərədən çəkilmir. Birdən uzaxdan əvvəlki bülbülün səsin eşidir. Şahın güzdəri dulur. Mahnı qutarannan sunra qayıdıb öz düşəyinə girir. Şahın ömrü qurtarmağa çux az qalır. Birdən gürür ki, əvvəlki, özü quvan bülbül gelib başı üsdündə oturub uxumağa başdayır. Axırıncı nəfəsdə olan şah güzdərini açır və unu diqqətlə dinləyir, güzdəri genə də yaşnan dulur.

Birdən şah üzünü bülbülə tutub suruşur:

– Ey bülbül, bu nə işdü, sən qayıdıb mənim çarpayuma gəlmisən? Mən sənə nə cəzalar verməmişəm? Bu nə işdir, şən genə qayıdıb gəldin. Mənim axırıncı dəqiqələrimi sən mahnıynan keçirirsən.

Əsl bülbül dedi:

– Əy büyük şah, sən pəncərədən baxanda, mən hələ bu bağda oxuyurdum. Mənim mahnım sənin güzdərini yaşlandırırdı. Bəzən isə güz yaşı ən büyük məlhəm olur.

# İKİ XAL

Bir kasıbın ulan-ulmaz bir dəvəsi vardı. Kasıb bu dəvəni özünə işlətər ve öz qazancını onuynən bülərdi.

Günnərin bir günündə onnarın kəndinnən bir sürü dəvə keçir. Elə bu vaxt kasıbın dəvəsi də yaxında imiş. Onnarı gürüb dəvə sürüyə quşulur. Kasıb çux gezir, az dulaşır, ancax dəvəni tapa bilmir.

Günnərin bir günündə kasıb gelib padşahın məmləkətində dulaşır. Birdən güzü dəvələrə sataşır. Onnarın arasında öz dəvəsini də gürür. Yaxınnaşır dəvəçiyə sarı və deyir:

– Əy insan, bu dəvə mənimdi, bayırımızdan qaçıb gedib. Çux dulandım. Budur, məni qismet buraya gətirdi. Qaytar mənə dəvəni, hürmət elə çıxıb gedim. Dəvəçi qəh-qəh ilə gülməyə başdadı:

– Ay, axmaq, bu nə süzdü? Sənə bir şey ulmayan yerde dəvə verim? İndidən sunra yalanı qısaca deginən. Bil ki, bu sürü bizim padşahımızın sürüsüdü. Get gelən yuluva!

Kasıb çux dedi, dəvəçi az eşitdi. Axırda yazığ kasıb derdinə əlac ede bilməyib düz gelir padışahın yanına. Yalvarıb, dil tükənnən iki gün sunra kasıb padşahı gürə bilir. Kasıb una öz dəvəsinin padşahın sürüsündə ulduğunu bildirir. Padşah diqqətlə una qulax asıb deyir:

– Deyirsən ki, dəvə sənindi, indi necə bizə unu bildirərsən? Bunu sübut eylədin, al apar dəvəni sənin evinə. Subut ulmasa, buynuvu vurduracağam.

– Ay padşah, mənim dəvəmin üreyində iki xal var. İnanmırsansa, baxıb gürək.

Padşah üzünü kasıba tutub dedi:

– Bax, əgər bu dəvənin ürəyində xallar olmasa, sənün buynuvu vurduracam. Əgər ulsa, onun əvəzinə sən özün seçib isdədiyin dəvəni apara bilərsən.

Bunu deyib cellada əmr eyləyir ki, dəvəni kəssin və hamısının güzünün qabağında unu suysun. Cellad dəvəni suyur və

üreyi çıxartıb padşaha güsterir. Padşah, duğrudan da, bu dəvənün üreyində iki xal gürür.

Padşah mat-məhtəl halda üzünü kasıba tutub deyir:

– Hindi ki belədü, süzün duğru çıxdı, duğrusunu de gürek, sən necə bildün ki, bu dəvənün üreyində iki dənə xal var?

– Ey padşah, bu dəvənün iki balası var idi. İkisi də ülübdür. Onun üçün bu iki xal unun üreyinə düşüb.

## DANAY BEHLUL VƏ ŞAH ABBAS

Biri vardı, biri yuxdu, bir kişinin bir xatunı vardı. Günnərin bir günündə bu xatunun kişisi ülür. O, çux güzəl bir arvad idi: garasaç, garagüz, incəbel, elə bil un beş-un altı, yaşdı qızdı.

Bu güzəl arvadı almax isdiyənnər çux idi, həmən bu adamların içində tükançı da olur. Bir axşam tükançı gəlir həmən bu arvadın yanına, xeyli sühbət etdikdən sunra tükançı una bildirir ki, çuxdan onu sevir və almax isdəyir. Bu xatun razılaşır, amma yüz tümən pul istəyir. O zamannı pul ilə yüz tümən pula ev almax ulardı, lakin tükançı qurxmadı, razı uldu.

O, yavaş-yavaş pul hazırramağda ulsun, sənə kimnən deyim, dul arvaddan. Heç demə, arvad yuxuda gürübmüş ki, həmən bu tükançı unun yanında yatıb. Sabahı gün o tükançını çağırıb deyir:

– Sən mənim yanıma dünən gecə yatmısan, ver yüz tümənimi.

Tükançı məhtəl qalır, and içir ki, dünən oların evi gürünən tərəfə də gəlməyib. Necəki onun yanında yatub?

Bular çux hücət çəkillər, axırda Şah Abbasun yanına getməli olullar. Onnar gelib Şah Abbasın evinə çatıllar. Arvad deyir:

– Ay qürbanun olduğum ədalətli şah, dünən gecə həmən bu sizin qabağınızda duran tükançı kişi yuxuda mənim yanımda yatıb. Bizim ilrarumuz var idi ki, o məni alsa, yüz tümən qızıl pul verməli idi. O, məni yuxuda alıb, indi pulu vermir.

Tükançı nə qədər yalvardı, yaxardısa da, şah una inammadı və əmr etdi:

– Üç günnən sunra bu arvada yüz tümən verməsən, buynuvu vurduracağam.

Tükançı başını aşağı salıb, dərdli-qəmli evinə getdi. Nə çara etməlü, bu qədər pulu üç gündə bu haradan yığsun? Kim bu yazığı baladan xilas edər?!

Bu tükançının bir ağsakqal qunşusu var idi. Tükançı unun yanına getdi və una öz əhvalatını danışdı.

Quca ona belə dedi:

– Balam, sənə ancax bir adam kümək edə bilər, o da Danay Behluldu. İndi o dağlardadı, ora get, nicat kürpün undadı.

Tükançı ata minib düz Danay Behlul ov ovlayan dağlara gedir, urda çux gəzdikdən sunra unu tapır, öz dərdini una deyir. Danay Behlul qardaşı Şah Abbasın düz iş gürməməsini tez annadı və tükançıya dedi:

– Get, sən azadsan. Ancax pulu tapıb ver, mən sənə bu pulu qaytarıb verdirəcağam.

Tükançı şad uldu, evinə qayıtdı. Quhum-qunşulardan pul borc aldı, yüz tümən düzəltdi və dul arvada verdi.

Bu burda qalsın, sənə kimnən deyim, Danay Behluldan.

Danay Behlul düz gelir qardaşı Şah Abbasun qalasına, çuxlu adam gütürüb onnara bel, kürək verib başladır qalanın küncünü dağıtmağa. Bu xəbər Şah Abbasa çatdı. Şah Abbas düz gelir qardaşının yanına və deyir:

– Danay Behlul, bu nə diməkdi, niyə qalanı sükdürürsən?

Danay Behlul şaha yaxın gelir və una belə deyir:

– Ay qardaş, bu gecə yuxuda atamızı gürmüşəm. O mənə dedi ki, qalanın altında iki küp salmışam. Olardan biri sənindi, evləri ha almırsan, qızıl payını barı al. İndi mən də öz qızılımı burdan çıxartmax isdəyirəm.

– Bu şeytan işidir, – deyə Şah Abbas qışqırır, – yuxuya inammax olmaz.

Danay Behlula da elə bu lazım idi. Tükançını allatan dul

arvadın yuxusu bəs niyə şeytan işi degildi? – deyib Danay Behlul qardaşınnan suruşdı. Şah Abbas öz səhvini başa düşür, tükançını və dul arvadı yanına çağırır. Tükançının pullarını arvaddan alıb tükançıya qaytarıb verir. Olar uyana getdi, mən bu yana geldim.

## PADŞAHLA RƏSSAM

Bir vilayətdə bir şah yaşayırdı. Onun büyük dövləti vardı. Ancax bu şahun sul güzü yux idi. O əmr edir ki, xabar yaysınnar bütün əhaliyə: "Onun şəkili elə çəkülsün ki, heç kəs şəkilə baxub bilməsün ki, şah kurdu".

Çux addu-sannu rəssamlar gelir, ancax birisi də şah dediyi kimi unun şeklini çəkə bilmir. Bir güni şah pencərədən gürür ki, nükərrər bir adamı dügə-dügə bayırdan quvmax isdəyillər. Şah onun səsini eşidir, buyurur ki buraxsınnar fəğiri içəri. Şahun utağına bir cındır paltar, arux, üzi tük basmış bir adam daxil ulur. Şah suruşur:

– De gürüm, sənə nə lazımdü ki, gelmisən yanuma?

Fəqir deyir:

– Şah sağ ulsun, mən gelmişəm ki, sənün şəklilüvi çəkim.

Şah şərti ona dedi:

– Əgər mən isdəyən kimi çəkməsən, başuvı cəmdəgüvdən qupardaracağam. Əgər ki bacardun, unda de, nə isdəyəsən məndən al apar.

Özünü rəssam addandıran başdadı şahun şəkilini çəkmağa. Şah çox uturdu, yerinnən tərpəmmədü. Davam gətürə bilməyub durmağ isdədi. Rəssam bir az da uturmağı xahiş etdi. Bir az vaxtdan sunra rəssam şəkili çəkülb qurtardı və dedi:

– Buyurun, şah surətün hazurdu, her şey öz yerindədi.

Şah durub tez şəkilə baxdı və mat-məhtəl halda yerinnnən terpənə bilmədi. Şəkildə meşe, meşədə də şah əlində yay və ox ilə ceyranı nişan alıb vurmağ isdeyirdi. Şah sul güzünü də yumub ceyranı nişan alan halda rəssam bu şəkili çəhmişdi.

Şah çux razı qaldı və dedi:

– Al, rəssam, apar isdəyən qədər düvlət, qızıl, mal. Sən menim arzumu yerinə yetirdün. Mən sənə burcduyam.

Rəssam qələmləri yığıb şaha cavab verdi:

– Şah sağ ulsun. Mənə bir şey lazım degül, ancax ulsa, bir çəllək çaxır gətirmağa əmr elə.

Şah çuxlu çaxır getirmağa əmr etdi. Yimağa yaxşı xürəklərdən də buyurdu. Ancax rəssam xürəklərə degmədi. İçüb çaxırı getdikcə, şaha belə süylədi:

– Rəssam təməhkar ulsa, eli açux olmasa, onun qələminnən bir şey çıxmaz.

Bunu deyib rəssam yula düşdü.

## FATMA XANIM

Olutdu, olmayutdu, bir xatun, da bir kişi. Buların bir qızı vardı – Fatma xanım. O qızın anası ülür. Bir az vaxdan sunra qızın atası başqa xatun alır, xatunun dalıynan də bir keçəl qız da gelir. Fatma xanumun işi bu idi: dananı yedirsin, cəhrə əgirsin. Bir gün Fatma xanım zənbildə piltələri aparır. Piltələr düşür. Xəlbiri quyub, Fatma xanım piltələrin dalınca gedir. O, danaçıya rast olur.

– Danaçı qardaş, mənim piltələrimi gürmədin?

– Gürdüm, Fatma xanım, sənin piltələrin acdahanın deşiginə girdi. Oraya getmə, mən sənə bir quyun da verəcəyəm.

– Yox, mən gedecəyəm. Dala qayıtanda quyunu verərsən.

Danaçı ona belə dedi:

– Dana da verərəm.

Qız una qulax asmayıb getdi. Sunra nəhirçini gürdü və onnan suruşdu:

– Nəhirçi qardaş, mənim piltəmi gürmədinmi?

Nəhirçi də danaçı deyəni dedi:

– Ora getmə, Fatma xanım, mən sənə bir inək də verəcəyəm.

– Dala qayıtanda verərsən, – deyib Fatma xanım yuluna

davam etdi.

Xeyli yul gedir, atçıya rasd gelir.

– Atçi dayı, mənim piltəmi gürmədin?

– Gürdüm, acdahanın deşiginə girdi. Qayıt, mən sənə at da verərəm.

– Bu yana gələndə atı verərsən, – deyib getdi.

Sonra qızıl xırmanına çatır. Qızılülçən una deyir:

– Bir **görək*** də verərəm, getmə, acdaha səni yiyər!

Fatma xanım una dedi:

– Bu yana gələndə verərsən, indi mən öz piltəmin dalınca gedirəm.

Az gedir, düz gedir, acdahanın yanına gelib çıxır.

– Gəl başıma bax, – deyir acdaha.

Fatma xanım unun başına baxır. Orada ilannar var idi.

– Lap bizim babanın başına uxşayır.

– Helə deməsəydin, ətivi bir tikə, sümüğüvü bir tikə edərdim.

Dur mallara ut-ələf tük.

– Lap bizim atanın öküzdəri kimidü, – deyir qız.

– Helə deməsəydin, ətivi bir tikə, qanıvı bir qaşıq edərdim.

Sunra acdaha una deyir:

– Al baltanı, ucağı qala.

Fatma ocağı qalayır. Acdahanın yeddi evi var idi. Hər evində də qızıl, ləl-cəvahir var idi.

– Keç evlərə gir – acdaha qıza deyir.

Qız oradan heç nə almır. Burada iki su ulur, yuyunur, güzəl ulur. Piltəsini alıb gedəndə, acdaha deyir:

– Dayan, sənə ata payı verim.

Dala qayıtanda Fatmaya qızıl, inək, at, quyun, verillər. O, öz cəhrəsini, danasını öz yerində tapır.

Şeyləri atasına verir. Məhlədə bir xatın xəbər verir ki, Fatma xanım mal gətirib. Xatun öz qızını da ura gündərir. O, ağ

---------------------

*görək - teşt, qab.

daşa çatanda, onun piltəsini də külək aparır. Qız gedir, rasd gelir danaçiya.

– Küpək oğlu danaçı, mənim piltəmi gürmədimmi?

– Küpəgün qızı, mən sənin piltəyə garavul degiləm ki – deyib. Una bir çumaq vurur.

Bir az getdikdən sunra keçəl qız qoyunçuyə rast gəlir.

– Dunuz oğlu quyunçu, mənim piltəmi gürmədinmi?

– Mürtəd qızı, mən sənin piltəvə qaravul çəkim, yuxsa, üz quyunnarıma, – deyib qıza bir çumax vurur.

Sonra keçəl qız naxirçiyə rast gəlir. Onu da süyur. Axırda gəlib gızıl xırmanına çatır və qışqırır:

– Küpək oğlanları, mənim piltəm hanı?

Burada da onu dügüllər.

Axırda gelib acdahanın mağarasına çatır. Gedib acdahanın evinə girir. Acdaha deyir:

– Al baltanı ağacı yıxıb tük.

Qız ağacı yıxıb tükür.

Sunra acdaha una ikinci qullux buyurur:

– Mallara ot-ələf tük.

– Mən onnardan qurxuram, divlər - acdahalardu, – deyir qız.

Acdaha onu evlərə salır. Qız urada ulan şeylərdən qızıllardan, mirvarilərdən, lal-cəvahirlərdən, ipək parçalardan qulun-qultuğlarını duldurur. Acdaha qıza belə deyir:

– İndi min həmcaflıya. Qız həmcaflıya minir, bunun balağlarınnan qızıllar, cəvahirlər, qiymətli daşdar tükülür. Keçəl qız uradan yıxılır. Acdaha una deyir:

– İndi bu sudan üzünə vur.

Qız birinci küpdən üzünə su vurur. Onun üzü qap-qara ulur.

– İndi isə bu qabdan üzünə su sürt.

Keçəl qız acdaha deyən kimi edir. Qızın qabağında ətdən buynuz bitir. Acdaha bərkdən gülür:

– Ha-ha-ha!!! Sənə ələ bu lazımdır. Al sənə bu qayçını, her gün o buynuzunnan kəsib ye.

Keçəl qız evinə qayıdıb gəlir. Yolda ona rast gələnlər, onu

tanımır və heç bir şey vermir, onun danasını, çəhrəsini də oğurrayıllar.

Anası una deyir:

– Baxtlı gedər mal tapar,

Baxtsızdarı it qapar.

Ügey anası Fatma xanımı dəyirmana göndərir. Qız yalquz idi, onun yanına şeytanlar gelir, urada çalıb-uynayıllar. Onnar Fatmaya deyillər:

– Oyna, cırtdan.

Siz geyinibsiz, mən isə yux, – deyə Fatma cavab verir.

Şeytannar Xilidən gəlinin paltarı gətirillər. Qız deyir:

– Mən bayıra gedirəm, ulmasa təmiz paltarlar batar.

Bayırda talvarın üsdündə qışqırır:

– Quq-qulu-qu!

Şeytanlar qaçıllar. Fatma paltarrarı da alıb evə gəlir.

Qunşu xatun genə unu çuğullayır. Sabahı anası üz qızını göndərir. Keçəl qızın da yanına şeytannar gəlir, unu uynadıllar, dügüllər və şələsini oğurrayırlar. Fatma xanım başmaxları geyib bulağa gəlir. Orada başmağını itirir, sunra nə qədər axtardısa, onu tapmır. Oraya padşahın atlıları gəlir. Başmağı padşahın oğlu tapır və başmağ yiyəsini axtarmağa başlayır, tapmır. Axırda evbəev gəzib Fatma xanımı tapıllar. Qızı padşahın oğluna diləyillər. Sunra Fatma xanımı aparmağa gəlillər. Bu zaman ügəy anası Fatma xanımın üzünə şey atıb təndirə salır. Ügey ana keçəl qızını arabaya mindirir.

Bu zaman Fatma xanımın xuruzu çığırır:

Quq-qulu-qu-u!
Fatma xanım təndirdə,
Başmağı bəylər cibi.
Keçəl qız araba içində.

Bu işi başa düşüllər. Şahzadənin qardaşı deyir ki, bu Fatma xanım deyil. O zaman xuruzun dediyinə qulax asıllar.

Keçəl qızı və anasını atın quyruğuna bağlayıllar. Fatma xanım öz muradına çatır.

# MƏHƏMMƏDİN NAĞILI

İxtilat edillər ki, bir kənddə Məhəmməd adlı bir quca yaşayırdı. Quca gecə bir yuxu gürür.

Səhər tez durub salıb xurcuna bir tikə darı çüreyini düşür yula. Arvadı ne qeder suruşssa da, ona heç nə demir. Çux gedir, az gedir gəlib bir dağ başına çıxır. Dağda çuban bir büyük sürü quyun saxlayır. Məhəmməd salam verir çubana. Çuban Məhəmmədə özü ilə birgə nahar etməyi təklif edir. Quca razı ulur. Söhbət eyləyə-eyləyə çuban suruşur qucadan hara getdigini. Məhəmməd çubana bildirir ki, yuxu gürüb və onu axdarır. Çuban qucaya yuxunu satmağı xahiş edir və əvəzinə bütün sürünün verdiyini bildirir. Quca razı ulur və yuxunu una söhbət edir. Onnar adlarını da deyişir.

Çubanın adı Məhəmməd ulur, qucanın adı isə Əhməd. Quca Əhməd sürünü sürüb evinə qayıdır. Arvad isə bu işdən çux razı qalır. Məhəmməd yuxunu axdara-axdara yula düşür. Çux gedir, az gedir, axşam qarannığda çatır bir qəbiristannığa. Yurulmuş halda urda uturur. Amma eşit bu şəhərdə yaşayan əmi oğlunnan və əmi qızınnan. Günnərin bir günü əmiqızı əmioğluna deyir ki, axşam mən səni qəbiristannığda güzləyəcəm, ura gel qaçax. Qızın əmisi oğlunun adı Məhəmməd imiş. Qız əmisi oğlunnan qabağ qəbiristannığa gəlir və Məhəmmədi çağırır. Çuban Məhəmməd durub çağıran tərəfə gedir. Qarannıx zülmətdə qız onu əmisi oğlu hesab edib, Məhəmmədi alır tərkinə. Birbaş şəhərdən çıxıllar. Səhərə yaxın bir başqa şəhərə çatıllar. Səhər qız gürür ki, tərkində olan əmi oğlu deyil. Üreyində deyir ki: "Nə ulsun, bu çıxıbdır bəxtimə".

Şəhərin bir qırağında qız atı saxlayıb bir qədər pul Məhəmmədə verir və deyir ki, get bizim üçün ev al, qulluxçu tut və özün üçün paltar al. Məhəmməd şəhərə girib yaxşı bir ev alır, qulluxçu tutur və özün üçün bir desd tacır paltarı alır. Gətirib qıza evi güstərir. Qız gürür ki, Məhəmməd güzəl bir uğlandır və özünün xuşuna gəlir. Onda söhbət edir ki, özü filan şəhərin

padşahının qızı Perixanım ulduğunu.

Perixanımla Məhəmməd xuşbəxt bir halda yaşayıllar. Bir gün Məhəmməd çağırır dəlləyi başını qırxtırmağa.

Delləyçi birdən gürür Perixanımın üzünü. O, az qalır ki, üzünü itirsin. Tez-tez Məhəmmədin başın qırxıb qaçır padşahın yanına və deyir:

– Ey zamanənin padşahı! Niyə yatmısan?

Padşax qalxır:

– Nə var, süylə gürüm!

Dəlləyçi elə ki Perixanımın güzəlliyinnən danışdı, padşah gürməyə-gürməyə Perixanıma aşiq uldu. Padşah tez vezirdən məsləhət isdeyir. Vezir deyir ki, gərək Məhəmmədi tərq edək. Deyir ki, çağır unu, gündər gedib getirsin cənnət almalarını. Məhəmmədi padşah hüzuruna çağırıllar. Padşah una deyir:

– Məhəmməd, mən azarlıyam, həkim cənnət almasi buyurub. Gerek gedib getiresen!

Məhəmməd cavabında:

– Padşah sağ ulsun! Mən hardan tapım o almaları?

– Gerek tapasan! Yuxsa başını vurduracağam – deyir qəzəblə padşah.

Kur-peşman Məhəmməd evə qayıdır. Perixanım unu bu halda gürüb səbəbini suruşur. Məhəmməd padşahın buyurduğunu sühbət edir. Perixanım padşahın hiyləsini başa düşür, Məhəmmədə deyir:

– Heç fikir çəkmə. Səhər yula düşərsən, qırx gün yul gedərsən, gelib çıxarsan divlər padşahlığına. Div padişahının arvadı mənim bacımdır. Ona bu məktubu verərsən. Onnar sənə kümək edər. Ancax səninlə bura arvad-şey getirmə.

Səhər tezdən Məhəmməd yula düşür. Qırx günnən sunra o, divlər padşahlığına çatır. Məktubu balduzuna verir. Divlər padişahı belə məsləhət gürür. Səhər o dağın dibinə gedərsən. Orda çinar ağacının altında gizlənərsən. Səhər oraya üç peri gelib öz paltarlarını çıxarıb yanındakı bulağda çimeceklər. Sən isə təz birinin paltarını alarsan. Paltarı vermezsən, qullu-

ğunu bitirməsə. Məhəmməd səhər tezdən oranı tapıb gizdənir. Birdən üç peri gelir, çıxarıb partallarını, bulağda çimillər. Məhəmməd təz birinin paltarını özü tərəfə çekir. Qızdar çimib partallarını geyir, ancağ kiçik bacısı paltarını tapmır. Çux axtarır, paltarrar tapılmır. Axırda unnar deyillər:

– Əy, partal oğurrayan! Qaytar bacımızın paltarını! Süleyman peyqəmbərin adiylə and içirik ki, sənin qulluğunu bitirerik. Bu süzdəri eşidən Məhəmməd gizdəndiyi yerdən çıxır və qıza paltarlarını verir və öz qulluğunu deyir.

Büyük bacısı uçub üç dənə cənnət bağınnan alma getirir. Məhəmməd yuluna davam edir, gürür ki, paltarını aldığı qız unun dalınca gelir.

O deyir:

– Ey qız, sən hara gedirsən?

Peri deyir:

– Məhəmməd, mənə beni-insanın eli deyibdir, perilər vilayətinə məni daha quymazlar.

Məhəmməd deyir:

– Ne edek, gel mənimlə.

Qız bir dua uxuyub özünü güyerçin və Məhəmmədi bir çirpi edib uçub və gelib Məhəmmdin evində uturur. Genə bir dua oxuyur özü də, Məhəmməd də insan şeklinə gelib eve girillər. Perixanım onnarı gürüb deyir:

– Məhəmməd, dimədim ki, sənə üzünlə arvad getirmə?

Məhəmməd cavabında:

– Perixanım, mən unu getirməmişəm, özü gelibdir.

Perixanımun gülə-gülə:

– Ne ulsun, gelibdir, çux geşeng. Mənim yuldaşım ular, – deyir.

Bu qızın adı olur Hurixanum. Səhər tezdən Məhəmməd isdədi ki, almaları aparsın padşaha. Hurixanım onu saxlayıb deyir:

– Kimə aparırsan almaları? Bu almaları yeyən un beş illik cahıl ulur. Yux, padşaha başqalarını apar. Bunnarı quy bizə qalsın. Bir dua oxuyub üç alma getirir. Aparıb onnarın birini

padşaha, birini vəzirə və birini də vəkilə verir. Onnar almaları yeyən kimi kifir, oxşarsız, vehşi heyvanlara bənzər olullar. Hamı xalq tez-tez onnarı meşeye qavır. Düvlət quşu buraxıb padşah seçillər. Düvlət quşu Məhəmmədin başında oturur. Məhəmməd bir neçə illər padşahlıx edir. Xalq ondan çux razı qalır. Bir dəfə gec gelib evinə Məhəmməd gürür ki, arvadları yatıb. Onnarı incitməyərək Məhəmməd evin yerində yatır. Arvaddar oyanıb gürüllər ki, ərləri quru yerdə yatıb. Onnar gəlib biri sağ tərəfdə, biri sul tərəfdə oturullar. Balaca oğlannar isə atanın başı üsdündə durullar. Güzdərini açıb bunu gürən Məhəmməd ucadan qeh-qehə çekib gülür. Arvaddar bu işdə bir sirr melum edir, ne üçün güldüyünü suruşullar.

Məhəmməd deyir: – Mən satın aldığım yuxunu indi tapdım, onun üçün gülürdüm. Mənə yuxunı satdığı quca belə yuxu gürmüşdü: sul yanınnan gün çıxır, sağ yanınnan ay, başının üsdündə də ulduzlar parıldayır. İndi sən Hürixanım gün, sən Perixanım ay, bizim oğlannar da ulduzlardır. Mənim adım Əhməddir, mən o qucanın adına deyişmişdim.

## AĞIL VƏ BƏXT

Bir gün ağılnan bəxt gezmeye çıxıllar. Gürüllər bir ekinçini. Bəxt ağıla ekinçini kamala və düvlətə çatdırmağ üçün bu ekinçinin bədəninə girmağı teklif edir. Ağıl bu adamnan bir şey çıxmayacağını deyib razı olmur. Amma bəxt gelib ekinçinin bədəninə girir. Ekinçi ekib-biçərkən par-par işıldayan büyük bir daş tapır.

Onu elinə alıb bir qədər baxır, ağlı olmadığınnan adi daşdu – diyə atır. Bu vaxt onun yanınnan bir atlı keçirmiş. O, hələ uzaxdan daşın parıltısını gürüb atınnan yere düşür. Yaxın gelib daşı yerdən alır, onun çux qiymətdi daş ulduğunu gürüb ekinçiye satmasını isteyir. Ekinçi cavab verir:

– Sənə xuş gelirsə, al. O daş mənə neyə lazımdır?

Atlı iri lel daşını alıb gedir. Bir padşahın xəznəsində o daşı

deyişib, onun yerinə çux qızıl alır.

Bir gün özünü belə düvlətli edən atlı ekinçiyə yaxşılıx etməy isdeyir. Bir ikimertebəli güzəl ev tikdirir. Evin içerisini lazım olan bütün avadanlığla duldurur.

Ekinçini tapıb uraya getirir və öz qızını una vermağa razı ulduğunu una deyir. Ekinçi gelib baxır. Girib evin utağlarını bir-bir gezir. Xureg hazırlayan evdən keçerkən bir parça çürəklə bir tikə pendir gütürüb çuxanın altında gizlətir. Xəlvət yerdə yemək isdəyərək həyetə çıxır.

Qızın atası onu axdarmağa başlayır. Ekinçi ələ bilir ki, o pendir-çürək oğurradığınnan onu tapmax isteyillər. Buna gürə o, bərk hərəkətlə qaçır. Qurxusunnan özdərinin kendinə yux, başqa bir kenddə gedir.

Ekinçinin bu axmax işdərini gürən bəxt acığlanıb deyir:

– Düzdür, deyillər adamın gərək bəxti ulsun, amma mən nə qədər çalışsam da, ağılın küməyi ulmadan bir iş də eyləyə bilmədim.

Bələ iş gürəndə bəxt de ekinçini  tərk edib gedir.

## "QABAX QIZ"IN NAĞILI

Biri var idi, biri yux idi. Bir kişi var idi. Bu kişinin üvladı yox idi. Bir gün arvad hamilə oldu. Dukquz ay, dukquz gün dukquz saat, dukquz dəqiqə keçəndə, bu arvad bir **qabax*** duğdu. Arvad kişidən bu sirri gizlətmək isdədi, ancax qabax qız birdən qabağı yarıb içinnən çixdı, bunu gürən anası mat qaldı. Qız dedi:

– Anacan, bu sirri bir kəsə də deməzsən. Amma desən, mən yux olaram. Bunu bir sən, bir atam bilməlidir. Ay keçdi, il dulandı.

Qabax qız gəlib un səkgiz yaşına çatdı. Adamlar gürəndə qabağın içinə girirdi, gizlində qabaxdan çixıb anasına kümək

-----------------

*Qabax - boranı.

eləyərdi. Onun əlinnən hər iş gəlirdi. O, anasına çuxlu xalı-xalça tuxumuşdu. Bir gecədə  o, pərilərnən, hüriləri də yığıb bir xalça qutarardı. O, qabaxdan çıxanda aləmə işıx saçardı. Elə güzəl idi, elə bil deyirdi:

– Gəl məni gür, dərdimnən ül. Ancax bir kimsə onu gürə bilmirdi. Adamı gürəndə o yux ulub qabağın içinə gürirdi. Bir gün qabax qız damda uturmuşdu, bir də gürdü ki, qunşu qızlar yığılıb sübürkəyə gedir, tez qabağa girib düşdü qızdarın dalıncan. "Ay qızdar, mən də siziynən sübürkəyə gedirəm". Qızlar dünüb geri baxıb gürdülər ki, dallarınca bir qabax yombalana-yombalana gəlir. Onnar unu danışan gürüb mat-məətəl qaldılar. Qızdar dedilər:

– Bəs sən kimsən?

Qabaq qız dedi:

– Mən də sizin kimi qızam, quyun mən də siziylə gəlim! Qızlar qurxa-qurxa razı uldular: “Yaxşı, gəl” dedilər. Qızlar qabaxda, qabax qız dalda, az getdilər, çux getdilər, gəlib bir çəmənə çıxdılar. Qızdar qabax qızdan suruşdular:

– Sən necə sübürkə dərəcəksən?

O dedi:

– Siz bir az içəri girin, mən dərərəm.

Qızdar düşdülər çəmən buyunca. Qabaq qız bir qədər onnardan uzağa düşüb, qabaxdan çıxıb tez sübürkəsini yığıb düzəltdi. Şələsini bir dəqiqədə tupladı. Uzaxdan qızdarın mahnı oxuyan səsi gəlirdi. Qabax qız bir az meşəyə sarı gəlib gördü ki, bir huvuz var, dam dulu suyux suyu. Qabax qız əynindəki ala-bəzəyi, ləli-cavahiri çıxarıb atıldı hovuza. Onu quyax çimməkdə, sizə xəbər verim padşahın oğlunnan. Bu gün bu oğlan da uva çıxmışdı. Ov gəzə-gəzə atıylə bu da həmin meşənin qırağına çatdı. Birdən bu oğlan uzaxda, huvuz tərəfdən bələ bərk iti işıx gəlməsini gürüb, qurxdu bu fikrə gəldi: "Bu nə ula? Oğlan atdan düşüb huvuza tərəf getməyə başdadı, bir də o huvuzda çimən güzəl, gün kimi işıx saçan qızı gürdü. Az qaldı bağrı partlasın. Birdən qabax qız səsi eşidib başını qal-

dırdı, gürdü bir uğlandı, huvuza yaxınnaşıb tez sudan çıxıb paltarını geyinib qabağa girmək isdəyəndə barmğındakı üzük düşdü huvuza. Ancax oğlan yaxınnaşırdı. Üzüyünü ala bilməyib qabağa  girdi, meşəyə girdi və gizdəndi ki, gürsün uğlan neynəyəcək. Bu sirri gürüb uğlanın huşu başınnan yıxıldı.

Bir qədər güzləyib qabax qız şələsini də gütürüb üz quydu evə duğru. Qız bu sirri anasına demədi ki, gürək, dalı necə ulacax? Qız qalsın evdə, sizə xəbər verim uğlannan. Bir qədərdən sunra oğlan üzünə gəlib qalxdı ayağa və huvuzun üsdə gəlib gürdü ki, bir üzük var. Bunun heç dünyada bərabəri ula bilməz. O, tez hovuza girib üzüyü çıxartdı. Barmağına taxıb atını da minib evlərinə yula düşdü. Az gəldi, çux gəldi gəlib evinə çatdı. Yaman bərk azarradı. Padşahın da ulan-ulmazı bir oğlu var idi. O bilmirdi neynəsin, lap deli olurdu. Çux loğman, həkim gətirdi. Heç biri sağalda bilmədi ki, bilmədi. Bütün kənddərdən uğlana baxmağa gəlirdilər. Ancax heç kəs bunun dərdinə çarə edə bilmirdi. Bir gün qabax qızın anası da padşahın oğluna baxmağa getməli oldu. O səhərdən xürəklər bişirib hazırlıx etdi. Axşam yula düşəndə qabax qız anasına dedi:

– Anacan, nə ular mən də o oğlana baxmağa gedirəm. Anası isdədi razı ulmasın, axı qabağın içində səni necə aparım? Ancaq ana qızının da xətrinə dəymək isdəmirdi, dedi:

– Di gəl.

Anası bir büyük şələ eləyib qabağını turbaya salıb yula düşdü. Bir vaxt gəlib padşahın qapısına çatdı. Vəzirrər arvadı içəri saldı. Arvad uğlanın yanına girib gürdü ki, uğlan nə, uğlan. Elə uğlandı ki, aya, günə bənzər, zəifliyinnən bir az saralıb, nə yemir, nə içmir, nə danışmır, bir kəsi gürmək isdəmir. Bircə barmağındaki üzüyə baxıb ununla yavaş-yava danışır. Arvad qabağı da yanına quyub uturmuşdu. Birdən qabax qız harda ulduğunu unudub dilləndi:

– Anacan, budur üzüyüm. Bu, mənim üzüyümdü. Bu güzəl, incə, zərif səs elə bil uğlanı həmişəlik yuxudan uyatdı. Uğlan tez qalxıb yerinnən dikəldi:

– Kimdi bunu süyləyən?

Uğlan az qaldı şaddığınnan özünü itirsin. Elə onun azarı bu imiş. Qabax qız irəli yeriyib dedi:

– Bu üzük mənim üzüyümdü, mən unu itirmişdim.

Uğlan üzüyü çıxarıb dedi:

– Al üzüyünü. Şaha xəbər çatdı ki, uğlun sağalıb. Qabax qız qabaxdan çıxdı və evi gün kimi işıxlandırdı. Uğlan üzüyü qızın barmağına taxdı, onun nazik barmaqlarından üpdü və dedi ki, mən səni isdəyirəm, güzümün işığı. Bu gün tuy ulacax. Sabahısı gün, qabax qızı gətirdilər padşahın uğluna. 40 gün, 40 gecə tuy çalındı. Uğlanla qabax qız evləndilər. Uğlan axşam qabax qız qabaxdan çıxanda qabağı alıb uda atıb yandırdı. Qabax yanıb qurtaran kimi qiz da can verdi. Uğlan qızın yanına gəlib gürdü ki, sevgilisi bayaxdan can verib, gürdüyü işdən çux peşman uldu və 40 gün, 40 gecə yas saxladı. Unnar urda qaldı, mən qayıdıb gəldim. Güydən üç alma düşdi, biri sənə, biri mənə, biri də nağıl diyənə.

## ŞAH ABBASIN EVLƏNMƏSİ

Şah Abbas evlənmək isdəyirdi. O, Danabəyliyə müraciət etdi:

– Dul bir qadınla evlənmək isdəyirəm. "Özün bilərsən" – Danabəyli dedi. İki günnən sonra şah yenidən Danabəyliyə üz tutdu:

– Hansısa kənddə kasıb, amma çux güzəl bir qadın yaşayır, get onu mənə gətir. "Onu mən bilərəm" deyib, Danabəyli yula düşdü. Yulda o bir qucaya rast gəldi. Onu salamlayıb dedi:

– Gəlin meşəyə gedib ayaxlarımızı otla sarıyax ki, sürüşək olmasın. Bir qədər getdikdən sunra qabaxlarına çay çıxır. Danabəyli deyir:

– Gəl çayın üsdündə kürpü tikək ki, ayaxlarımız batmasın.

Quca cavab verdi:

– Kürpü nə üçündür? Çayı elə belə də keçərəm.

Danabəyli qucanı belinə almax isdədi, amma quca buna

etiraz etdi. Axşamüstünə bir kənddə gəlib çatdılar. Danabəyli dedi:

– Burdakıların kimin ki, evi var, evinə tələsir, evi olmayannar hara gedəcəklər?

Quca cavab verdi:

– Güy məscidə getsin.

Şah Abbasın dediyi həmin qız da sən demə, bu kənddə yaşayırmış və həmin qucanın qızı imiş.

Quca evinə gəldi. Qızı unnan suruşdu:

– Yulda kimi gürdün? Quca cavab verdi:

– Səfeh birini və başına gələnnəri qızına danışdı.

Qız dedi:

– Ata, səfeh o deyil, sənsən. Bəs o hara getdi?

Quca dedi:

– Məscidə.

Qız on iki dənə quğal bişirib, dukquz yumurta qaynatdı, bir balaca uşax çağırıb bunnarı məscidə, Danabəyliyə çatdırmağı tapşırdı.

Yulda uğlan quğallardan və yumurtanın birini yedi. Danabəyli bağlamanı aldı və uşağa dedi:

– Sizin yerlərdə qadınnar səkkiz aylıq duğur, il isə, deyəsən, on bir aydan ibarətdir.

Oğlan qayıtdı və bütün bunnarı qıza danışdı. Qız başa düşdü ki, uşax quğalın və yumurtanın birini yeyib.

Səhər qızın anası bir evə duğuş qəbul etməyə getdi. Atası isə qunşuya burc pul almağa getdi. Qız başını yumağa başdadı. Bu vaxt qapı açıldı və asdanada bir kişi güründü.

– Lənətə gələsən, ata, iki qulaxlını qapıda saxlamadığınçün – deyə qız dilləndi.

– Bəs bu ikiqulaxlı dediyin nədir? – gələn suruşdu.

Qız dedi:

– İki qulaxlı məxlux, itdir. Əgər itimiz ulsaydı, sən indi mənim başımı gürməzdin.

– Anan haradadır?

– Gedib bir dənədən iki eləməyə.
– Bəs atan hanı?
– Getdi ki, dusdan düşmən qazansın.
– Deyəsən, sizin bacanız əyridir axı?
– Hər halda tüsdümüz düz çıxır.
– Bəs bu bir dənədən iki eləmək nə deməkdir?
– Bu duğuş qəbul eləmək deməkdir. Dusdan düşmən qazanmaq isə burclu qalmax deməkdir.
– Dünyada ən güclü nədir?
– At.
– Necə bildin?
– Bizim evimiz yul kənarındadır. Yuldan atdar keçəndə evimiz titrəyir.
– Bəs həyatda ən şirin nədir?
– Ərlə arvad.
– Bəs bunu haradan bilirsən?
– Balaca ulanda atamla anamın urtasında yatardım. Atam anama tərəf çəkiləndə mənim qulumu əzdi. O vaxdan hələ də izi qalıb.
– Sən elə mənə lazım olan adamsan – kişi dedi. Mən Şah Abbasın adamıyam. O mənə beş manat pul verib deyib ki, mən həmin beşdiklə ona bir quyun, at üçün xalı və bir şiş də kabab alım.
Qız bu beşdiyə bir quyun alır, unun yununu qırxıb xalı tuxuyur. Bir sapand gütürüb sürü olan tərəfə daş atmağa başlayır. Çubannar suruşullar:
– Ay qız, o əlində tutduğun nədir?
Qız cavab verdi:
– Bununla canavarları qorxutmax olar.
– Bunu neçəyə satarsan?
– Beş manata.
Çobannar qıza beş manat verib yula salıllar. Qız quyunu axdalayıb onnan bir şiş kabab hazırradı və bütün bunnarı Danabəyliyə verib dedi:

– Quy sənin dustun özü belə bir xalı toxuyub, künçünə də mənim adımı qeyd etsin. Danabəyli qayıdıb bunnarı Şah Abbasa deyir:

Şah Abbasın qızın dediklərinə tabe ulmaxdan başqa əlacı qalmır. O, belə bir xalı tuxudub qıza göndərdi. Şah qızla nişannanıb bir müddətdən sunra tuy çaldırdı. Onunla bir neçə il yaşayannan sunra bir gün ona deyir:

– Mən yeddi illik uva çıxıram. Sən bu müddətə mənə bir uğlan duğ. Sənnən uşax, madyannan qulan, itdən isə küçük isdəyirəm. Qız cavab verdi:

– Yaxşı yul, get. Qız ərinə yul tədarükü gürdü.

Şah Abbas yula çıxan kimi, arvadı da kişi paltarı geyib onların ardınca getməyə başdadı. O, vəziri şahın yanına göndərdi:

– Şaha de ki, axşamı ununla kart uynamağa gələcəm. Amma nəbadə, məni satasan.

Axşam o, şahla kart uynamağa gəldi. Uzun müddət uynadılar. Şah öz arvadını tanımadı. Qız uradan həyətə çıxdı. Öz madyanını şahın atı ilə, itini isə onunkuilə bir yerdə quydu. Özü isə bilavasitə paltarını dəyişib şahı yuldan çıxartmağa başdadı. Şah Abbas əlbətdə öz arvadını tanımadı.

Xülasə, bir müddət sunra qız şaha bir uğlan duğdu. Həmin müddətə madıyan da, it də bala verdi. Yeddi il keçdi.

Cavan xanım bu müddətdə öz ərini güzləyərək yaşayırdı. Bir dəfə onun yanına bir çapar gəlib ərinin kəmərini una verdi. Xanım başa düşdü ki, əri təhlükədədir. Çapar una bir namə də verdi. Xanım naməni oxudu: "Mən təhlükədəyəm, bir dərin dərədə oturmuşam".

Şahı tura onun bir əleyhdarı qunax çağırarax salmışdı.

Xanım yenə kişi libası geyinib, ərinə küməyə gəldi. Şah Abbası tura salannarı tapdı. Şahın arvadına insan əti yedirtmək isdədilər, amma o yeməyə əlini də vurmadı. Onu da dərəyə atmax isdədilər, amma o, hamını üldürüb, ərini xilas etdi.

Şah Abbas evinə qayıtdı. Gürdü ki, evində hər şey onun

isdədiyi kimdir. Həm bir uğlu, həm də atı və iti duğulub.

Şah onun üç arzusunun da necə yerinə yetdiyini yuxlamax qərarına gəldi. Arvadı hər şeyi danışmağa başladı:

– O igid ki var idi, səninlə kart uynamağa gəlmişdi, o mən idim. Sunra da əynimi dəyişib səninlə geçələdim. O, madyan da, it də səninkilərlə qalmışdılar.

Şah çux razı qaldı və arvadını tərifl ədi.

Bir neçə günnən sunra Şah Abbas yenə uva çıxdı. Bu müddət ərzində unun arvadı xəsdələnir. Heç kim şaha bu xəbəri çatdırmağa cürət etmir. Şah səyahətqabağı demişdi ki, kim onun arvadının xəsdə və ya ülüm xəbərini una desə, unun buynunu vurduracağam. Bu xəbəri yalnız onun qardaşı Danabəyli una çatdırmağa getdi. Şah Abbası gürüb uxumağa başladı:

– Bir qəfəsdə bir canlı zəifləyir. Kəfəni nədən tikək? Qəbir üçün lüvhəni nədən edək?

Şah Abbas dedi:

– Kəfəni ən qiymətli parçadan tikmək, lüvhəni isə ən bərk ağacdan düzəltmək lazımdır.

Beləliklə də Şah Abbasın ağıllı və quçax arvadını heç cür xilas edə bilməlidər. Şah uzun müddət yas tutdu və evlənmədi.

## SEHİRLİ SANDIX

Biri var idi, biri yox idi. Yəmən şəhərində Aslan padşah adında bir ədalətli padşah var idi. Bu padşahın dünyada bir dərdi var idi, o da uşax dərdi idi.

Bir gün padşah yenə qəm dəryasına qərq olub fikir içində oturmuşdu. Vəzir ondan xəbər aldı:

– Qibleyi-aləm, yenə nəyin fikrini çəkirsən. Səndə olan var-düvlət, quşun kimdə var. Dünyanın padşahları sənin adın gələndə zağ-zağ əsirlər. Ədalətin də dillər əzbəridir.

Aslan padşah vəzirin süzünnən daha da tutuldu. Dərinnən küks ütürüb dedi:

– Neçə illərdi mənə vəzirrik edirsən. Sənnən pünhan bir

sirrim yoxdur. İndi də nə gizlədim, üvlad dərdi məni əldən salıb, geniş dünyanı başıma dar edib.

Vəzir padşahın dərdini bilib dedi:

– Qibleyi-aləm, hər şey Allahın əlindədi. Allah səni də pəjmürdə etməz, bir üvlad verər.

Padşah vəzirin süzünnən bir qədər sakitləşdi. Gecə yuxuda gürdü ki, qeybdən bir səs una deyir:

– Ey Aslan padşah, sabah günorta namazınnan sunra sarayın həyətindəki arxnan bir qırmızı alma üzəcək. O almanı gütürüb hərəminlə tən bülüb yeyərsən. Sənin bir qız üvladın olacax. Bunu deyib pirani qoca qeybə çəkildi. Aslan padşah yuxudan hüvlnak uyanıb yan-yürəsinə baxdı. Gürdü heç kim yoxdu. Öz-özünə dedi: "Allah-taala axır dualarımı eşitdi". Daha yatmayıb günortanı güzlədi.

Günorta namazınnan sonra Aslan padşah sarayın həyətinə düşüb arxın yanına gəldi. Bir qədər keçmiş gürdü, arxnan bir qırmızı alma gəldi. "Ya Allah" deyib almanı gütürdü.

Axşam Aslan padşah gəldi hərəmxanaya arvadının yanına. Almanı tən yarı bülüb yeyib yatdılar.

Nağıl dili yüyrək olar, dukquz aydan sunra padşah arvadının bir güzəl-güyçək qızı uldu. Qızın adını Mələk xanım quydular. Qız güzzəlikdə duğrudan da mələk idi.

Aylar, illər keçdi. Mələk xanım büyük qız oldu. Güzəllikdə unun tayı-bərabəri yox idi, aya deyirdi, sən çıxma, mən çıxım, günə deyirdi, sən çıxma, mən çıxım. Günnərin bir günü Mələk xanım bağda gəzirdi. Birdən Yeddibaşlı div onu gütürüb qaçırtdı. Bu hadisədən xəbər tutan ulmadı.

Hər yanı ələk-vələk elədilər, amma tapa bilmədilər, qız elə bil yağlı əppək olub güyə çıxmışdı. Kimdən xəbər aldılar, gürdüm deyən olmadı. Padşahın dedikcə deyən bir münnəcimi var idi. Padşah əmr elədi ki, onu çağırsınlar. Elə ki, münnəcim padşahın hüzüründa əmrə müntəzir oldu, üzünü ona tutub dedi:

– Ey münnəcimbaşı, mənə qızımdan bir xəbər.

Münəccimbaşı dedi:

– Qibleyi-aləm mənə mühlət ver, qızın yerini tapım.

Aslan padşah dedi:

– Mühlət verdim.

Münəccim bir küncə çəkilib qultuğundakı kitabları uxumağa başladı. Elə ki, kitabları uxuyub qurtardı, padşahın qabağına gəlib dedi:

– Qibleyi-aləm, qızı divlər padşahının uğlu yeddibaşlı div aparıb, üvladın sağ-salamatdı, özü də indi Qaf dağındadı.

Biçarə Aslan padşah əllərini dizinə döyə-döyə qaldı.

Aslan padşah burda qalmaxda ulsun, gürək Mələk xanım necə uldu. Qaf dağı ta qədimnən divlərin məskəni olub. Dağın günduğanında bəni adəmlər, günbatanında da divlər yaşayıblar. Divlər padşahının güzünün ağı-qarası bir uğlu var idi. Yeddi başı ulduğundan una Yeddibaşlı div deyərdilər. Yeddibaşlı divin bir azarı var idi. O da dünya səyahəti idi. O, hər gün bulud ulub dünya səyahətinə çıxırdı. O günü də guzarı Yəmən şəhərinə düşəndə enib Aslan padşahın qızını gürüb ona vuruldu. Bulud kimi yerə enib həyətdən qızı gütürüb qaçdı.

Yeddibaşlı div Mələk xanımı gətirdi Qaf dağına, yerə enib əvvəlki gürkəmin aldı. Mələk xanım baxıb gürdü qabağında bədheybət, eybəcər bir div dayanıb. Yazıx qız qurxudan başdadı ağlamağa. Yeddibaşlı div onnan xəbər aldı:

– Ey Mələk xanım, ağlama, mən səni özümə arvad gətirmişəm.

Mələk xanım bir söz deməyib daha da ürəkdən ağladı. Yeddibaşlı div qaldı məəttəl nə etsin. Atasının zəhmi unun yanında büyük idi. Bilirdi ki, atası heç vaxt razı ulmaz ki, o, bəni-adəm qızı alsın. Yeddibaşlı div çox gütür-quy edəndən sunra qızı atasınnan gizlətmək fikrinə düşdü. Onu bir Daş sandığın yanına gətirib dedi:

– Mələk xanım, sən gəl bu sandıqda gizlən, mən də gedim atamnan danışım. Sunra gəlib səni apararam.

Mələk xanım ürəyində dedi: "Sənə arvad olmaxdansa, elə bu sandıqda qalıb ülmək əfzəldi". Dedi:

– Quy sən deyən ulsun.

Yeddibaşlı div güc verib sandığın qapağını bir tərəfə çəkdi. Mələk xanım sandığa girib uzandı. Yeddibaşlı div də sandığın qapağını yerinə çəkib atasının sarayına getdi.

Divlərin padşahı uğlunu gürüb qəzəblə xəbər aldı:

– Bu vaxdacan harda idin.

Yeddibaşlı div dedi:

– Yəmən şəhərinə səyahətə çıxmışdım, udur ki, yulda bir az gecikdim.

Atası undan xəbər aldı:

– Mənə bir süzün var.

Yeddibaşlı div çəkinə-çəkinə atasına dedi:

– Qibleyi-aləm, icazə versən, Yəmən padşahının qızı Mələk xanıma evlənərdim.

Bunu eşidən divlər padşahı qeyzindən dik atıldı. Dedi:

– Bəni-adəm qızınnan bizə arvad olmaz. Rədd ol burdan!

Yeddibaşlı div atasının qurxusunnan bir süz deməyib öz utağına çəkildi.

Gecə Yeddibaşlı div qərara aldı ki, atasından xəlvət Mələk xanımın yanına getsin. Elə də etdi. Bir qədər getmişdi ki, baxdı gürdü hava qarışdı. Bir çuvğun qupdu daha nə deyim. Əlqərəz, Yeddibaşlı div çuvğuna düzməyib həlak oldu, Mələk xanım sandıqda qaldı.

Mələk xanım sandıqda qalmaxda ulsun, sizə kimnən deyim, çuban Baxışdan. Baxış Qaf dağının günduğanında quyun-quzu utarıb çubannıx edirdi.

Bir gün çuban Baxış qoyun-quzu otara-otara Allahın əmriynən gəlib divlərin məkanına çıxdı. Çuban Baxış qoyun-quzunu buraxıb bir ağacın altında dincini alırdı. Birdən qulağına səs gəldi: "Ey bəni-adəm, məni burdan qurtar". Çuban bu səsə yerindən ayıldı. Qaldı məəttəl bu nə səsdi. O tərəfə bu tərəfə baxdı, bir şey gürmədi. Bu dəmdə qulağına yenə səs gəldi: "Ey bəni-adəm, məni burdan qurtar". Çuban Baxış bu dəfə başladı səs gələn tərəfə getməyə. Gedə-gedə gəlib həmin Daş

sandığın yanına çatdı. Gürdü səs sandığın içinnən gəlir. Çuban Baxış bir də gördü sandığın qapağı öz-özünə bir az açıldı. O sahat çumağını sandıxla qapağın arasına quydu. Çoban Baxış cavan olsa da çox güclü-qüvvətli idi. Güc verib sandığın qapağını itələyib yerə saldı. Gördü sandığın içində dünya gözəli bir qız uzanıb. Çuban qızı gürüb bir künüldən min künülə una vuruldu. Xəbər aldı:

– Ay qız sən kimsən, bu sandıqda nə qayırırsan?

Mələk xanım unun səsinə baş qaldıranda gördü boylu-buxunlu güzəl bir oğlan qabağında durub. Yazıx qız fərəhinnən bilmədi nə etsin. Birtəhər ayağa qalxıb dedi:

– Ey cavan, bil və agah ul, mən Yəmən padşahının qızı Mələk xanımamam. Düz qırx ildi Yeddibaşlı div məni bu gürdüyün sandıqda dustax edib. Hər un ildən bir sandığın qapısı özü-özünə açılanda mən də bəni-adəmləri küməyə çağırıram, gəlib məni burdan qurtarsınnar. Di gəl, tez burdan çıxıb gedək, yuxsa Yeddibaşlı div gələr.

Çuban Baxış qızı sakitləşdirib dedi:

– Mələk xanım, heç ürəyini sıxıb eləmə, Yeddibaşlı div deyirlər elə qırx il bundan əvvəl qarlı çuvğuna düşüb cəhənnəmə vasil olub. İndii səni öz adamlarımın yanına aparacam.

Çuban Baxış Mələk xanımı atasının hüzuruna gətirdi. Şah qızının sağ-salamat gəlib çıxmasına çux sevindi. Bütün saray əhli onnarın başına yığıldı. Mələk xanım başına gələnnəri mən sizə süylədiyim kimi atasına nəql elədi. Aslan şah çuban Baxışın igidliyinə, mərdliyinə afərin dedi. Tacını gütürüb çuban Baxışın başına quydu. Çuban Baxış da ədalətli bir şah uldu, məmləkəti ədalətlə idarə elədi.

## SULEYMAN PEYĞƏMBƏRİN QIZI

Biri varmış, biri yoxmuş. İskəndər adında bir kişi varmış. Bu kişinin üç oğlu, bir qızı da varmış. Günnərin bir günü İskəndər kişi xəsdələndi, gürdü bu xəsdəlikdən ayağa

durmayacax. Oğlannarını yanına çağırıb dedi:

– Oğullarım, sizə bir vəsiyyətim var. Gürdüyünüz o Ərzurum dağının dalına heç vaxt keçməyin, bir xeyir gürməzsiniz. İşdi, əgər getsəniz, çux bəlalara düçar ularsınız.

Bir neçə gün keçənnən sunra İskəndər kişi ümrünü bağışdadı onnara. Oğlannarı el adətincə atalarını dəfn elədilər.

İskəndər kişinin büyük oğlu İsmayıl uvçu idi. Günnərin bir günü İsmayıl ov ovlaya-ovlaya Ərzurum dağına gəlib çıxdı. Dağı aşıb keçdi. Baxıb gürdü burda gül gülü, çiçək çiçəyi çağırır. Gözəl seyrəngah bir yerdi. Ora-bura baxdı, gürdü burda bir imarət də var. Öz-özünə dedi: "Görəsən atam bu gözəl yeri niyə bizə qadağan edib?" İsmayıl elə imarətin qabağınnan keçmək isdəyəndə birdən hardasa bir at kişnədi. Bu dəm imarətin qapısınnan bir qız çıxıb xəncərlə İsmayılın buynunu vurdu. Yazığın başı bir tərəfə, bədəni o biri tərəfə düşdü.

Bu işin üsdünnən bir neçə gün keçdi. Qardaşdar fikirrəşdilər ki, gürəsən İsmayıl niyə gəlib çıxmadı? Ortancıl qardaş Cantiq dedi:

– Gedim İsmayılı axtarıb, tapım. Bəlkə başına bir iş-zad gəlib?

Bəli, Cantiq İsmayılı axtarmağa getdi. Cantiq ora-buranı ələk-vələk elədi. İsmayılı gürdüm deyən ulmadı. O da qardaşını axdara-axdara gəlib Ərzurum dağına çatdı. Cantiq öz-özünə fikirrəşdi: "Qardaşımın başına nə gəlibsə, elə burada gəlib". Cantiq da həmin imarətin qabağından keçəndə yenə at kişnədi. İmarətin qapısından bir qız çıxdı. Xəncərin çəkib unun da buynunu vurdu.

Cantiq gedən günün ertəsi kiçik qardaş Məhəmməd bir də baxdı gürdü palazqulax yekəpər bir div qapıda dayanıb. Məhəmməd özünü itirməyib xəbər aldı:

– Div qardaş, xeyir ola? Mənə gürə bir qullux?

Div dedi:

– Məhəmməd, Allahdan gizlin deyil, sənnən niyə gizlədim. Ver bacını aparıb özümə arvad eləyim. Gəlmişəm sən-

nən onun razılığını alım. Bilirəm indi evin büyüyü sənsən.

Biçarə Məhəmməd qaldı nə etsin. Bir az fikrə gedənnən sunra dedi:

– Div qardaş, bir süzüm yuxdu. Apar bacımı özünə arvad elə!

Div sevincinnən gəlib onu qucaxlayıb üpdü. Məhəmməd bacısını divə quşub onnarı yula saldı. Bir neçə gün də güzlədi, gürdü Cantiqdən də bir xəbər çıxmadı. Getdi bacısının yanına. Bacısıyla gürüşüb əhvalatı una danışdı. Bacısı dedi:

– Qardaş, div indi uvdan gələcək. Bəlkə bu işdə bizə kömək elədi.

Bir azdan div gəlib çıxdı. Məhəmmədlə gürüşəndən sunra xəbər aldı:

– Məhəmməd, sənnən çıxmayan iş, bizi yad eləmisən?

Məhəmməd qardaşdarının əhvalatını una da danışdı. Div una qulax asıb dedi:

– Ərzurum dağında Süleyman peyğəmbərin qızı yaşayır. Sənin qardaşdarını da o qız üldürüb.

Məhəmməd dedi:

– Bəs mən necə edim qardaşdarımın qanını onnan alım?

Div dedi:

– Süleyman peyğəmbərin qızının nəfəsi pəyədəki atdadır. Sən həmin ata bir qədər kişmiş al. Bir də çəkic, mismar alıb özünlə apar. Həmin kişmişi yavaşca axura tük. Quy at sənə üyrənsin, hənirini alsın. Sonra külfəni aç, içəri gir. Qırx gündür atın çulu alınıb, özü də tumarrammır. Atın məxmər çulunu al, yavaş-yavaş tumarla. Sunra isə atı apar sula. Sunra da gətirib həmən yerinə bağla.

Sunra da div dedi:

– Bir süzü də yaddan çıxarma.

Məhəmməd xəbər aldı:

– O süz nədir?

Div dedi:

– Atı bağladıxdan sunra həmin imarətə get. Otuz duqquz utağı aç, qırxıncı otaqda həmin qız taxtın üsdündə yatıb. Mis-

marla qızın yurğanının hər tərəfindən mıxla. Sunra isə xəncəri çək qızın buynuna. Qız nə qədər yalvarsa da, buşlama. Qıza de ki, nə vaxt atının yalmanına And içsən, o zaman buşlayacağam.

Div Məhəmmədi başa salannan sunra Məhəmməd Ərzurum dağına yula düşdü. Məhəmməd gedib div dediyi kimi elədi. Külfədən axura kişmiş tükdü. At Məhəmmədin hənirin aldı. Məhəmməd içəri girib atın məxmər çulunu alıb, atı tumarramağa başdadı. Atı aparıb sulayıb yenə də həmin yerinə bağladı. Sunra da xəncərin çəkib utuz duqquzuncu utağın qapısını açıb, qırxıncı utağa girdi. Gürdü ki, qız taxtın üsdündə yatıb. Qız o qədər güzəl idi ki, Məhəmməd qızın üzünə baxmağa cürət də etmədi. Məhəmməd qızın yorğanını hər tərəfindən mismarradı. Həmin güzəlin qırx hürüyü vardı. Məhəmməd onun hürüklərini taxda bağladı. Sonra xəncəri qızın buğazına diriyib dedi:

– Ay mənim qardaşlarımın düşməni, qalx ayağa.

Bu zaman qız güzlərini açdı. Nə qədər etdisə, ayağa qalxa bilmədi. Sunra yalvarmağa başladı. Nə qədər yalvardısa, yenə də Məhəmməd buşlamadı. Axırda dedi:

– Nə vaxt atının yalmanına and içsən, o vaxt səni buşdayacağam.

Axırda qız naəlac atının yalmanına and içdi. Məhəmməd mismarrarını çıxartdı. Qız ayağa qalxan kimi Məhəmmədin ürəyi getdi. Qız tez su gətirib, Məhəmmədin əl-üzünə çırpıb, unu ayağa qaldırdı. Qız Məhəmmədə dedi:

– Ey uğlan, əhd-peyman etmişdim ki, əgər məni kim tutsa, una gedəcəm.

Qızla Məhəmməd o günnən ər-arvad ulub bir yerdə yaşamağa başdadılar. Bir gün Məhəmməd tüvlədən atları suvarmağa aparanda yulun yarısınnan qayıtdı. Qız suruşdu:

– Niyə yuldan qayıtdın?

Məhəmməd dedi:

– Sənsiz gedə bilmirəm. Şəklini ver baxa-baxa gedim.

Qız dedi:
– Şəklimi aparsan, ziyan çəkəcəksən.
Məhəmməd dedi:
– Olmaz, gərək şəklini verəsən, baxa-baxa atdarı aparıb sulayıb gətirim.
Qız daha bir süz deməyib şəklini verdi. Məhəmməd qızın şəklinə baxa-baxa bulağa çatdı. Atdarı suvardı. Sunra isə şəkli yerə quyub su içdi. Birdən külək əsib şəkli apardı. Məhəmməd nə qədər etdisə, şəkli tapa bilmədi. Külək şəkli aparıb Mirpaşa padşahın çəpərinə saldı. Padşahın nükərrərinnən biri şəkli tapdı. Nökər şəkli gütürüb padşahın yanına yüyürdü. Dedi:
– Padşah, sağ olsun, muşduluğumu ver. Sənin xeyrin üçün sənə bir şey güstərəcəm.
Padşah dedi:
– Mənim xeyrimdisə, sənə nə desən, verəcəm.
Onda nükər şəkli padşaha güstərdi. Padşah dedi:
– Gürəsən bu qənirsiz güzəl harada yaşayır?
Padşahın vəziri, vəkili gəldi. Vəzir dedi:
– Bu güzəl Süleyman peyğəmbərin qızıdı. Özü də Ərzurum dağında yaşayır.
Padşah dedi:
– Bu qız harada ulursa ulsun, unu gərək alım.
Padşah otuz-qırx atlı gündərdi qızı gətirsinnər.
Məhəmməd geri qayıdıb qıza dedi:
– Atdılar qapını kəsiblər.
Qız Məhəmmədə dedi:
– Sənə dedimmi şəkli aparma, ziyanlıx çəkəcəksən? Daha ulan ulub. İndi get atdarı yəhərrə. Atın birini mən minəcəm, u birini sən. Mən atı hara sürsəm, sən də ura sür! Qabax tərəfi mən üldürəcəm, arxa tərəfi at özü üldürəcək. Sən də büyür tərəfə qılınc çalarsan.
Atın birini qız, o birini də Məhəmməd mindi. Qız qabaxda, uğlan da arxada atı sürdü. Padşahın atlılarının hamısını üldürdülər. Bir-iki atlı qaçıb padşaha xəbər verdi:

– Padşah sağ olsun, atlıların hamısını üldürdülər.

Sabahısı gün padşah qızın qapısına quşun gündərdi. Məhəmməd gürdü imarətin qabağını quşun kəsib. Qıza dedi:

– Padşah indi də quşun gündərib.

Qız dedi:

– Get atdarı gətir. Mən atı hara sürsəm, sən də atı ora sür. Atın başını heç bir tərəfə dündərmə!

Bunnar yenə də ata mindilər. Qız qabaxdan, uğlan isə büyürdən quşunu qırdılar. Yenə də bir-iki nəfər qaçıb padşaha xəbər verdi, bəs bir o qədər quşundan bir adam da qalmadı, hamısını qırdılar.

Yenə də padşah büyük bir quşun gündərdi. Səhər Məhəmməd yuxudan durdu ki, imarətin qabağında barmax basmağa yer yuxdu. Qız yenə də atdarı gətirtdi. Məhəmmədə tapşırdı:

– Məhəmməd, nəbadə atın başını bir yerə dündərəsən ha. Mən atı hara sürsəm, sən də mənim arxamca sür.

Bunnar qılınclarını siyirib üzlərini vurdular quşuna. Bu quşunun da hamısını qırıb çatdılar. Qoşundan beş-altı nəfər ancax qalmışdı. Birdən arxa tərəfdən bir keçəl "vurdum buynunu" deyəndə Məhəmməd atın buynunu u biri tərəfə burdu. Elə o sahat qızın atı eşşək, Məhəmmədin atı da qatır uldu. Məhəmmədin əl-qulunu bağladılar, qızı da tutub apardılar.

Qız padşaha dedi:

– Əgər mənim atdarımı tumarratmasan, suvarıb gətirməsən, mənnən sənə arvad ulmayacaq. Nə vaxt mənim atdarım tumarrandı, suvarıldı, o vaxt mən özüm kəbinimi kəsib sənə arvad ulacağam.

Padşah dedi:

– Nə ular. Mən atdarını tumarradacağam, suvartdıracağam. Sunra da kəbinimizi kəsərsən, yaşayarıx.

Padşahla qız bu cür şərtdəşdilər. Padşah atları tumarratmağa bir nəfər adam gündərdi. Atdar bu adamın başını bir tərəfə, bədənini o biri tərəfə tulladı. Padşah belə-belə yüz nəfərə yaxın adamı atdarı tumarratmağa gündərdi. Atdar da onnarı həlak etdi.

Qız burada qalsın, gürək Məhəmməd necə uldu. Məhəmməd birtəhər əl-qulunu sarığını açıb qız gedən kəndə üz tutdu. Məhəmməd qaranlıx quvuşan zaman kəndə çatdı, gəlib bir qarının evinə tuş oldu. Dedi:

– Ay qarı nənə, bu gecəliyə məni Allah qunağı eləyərsən?

Qarı dedi:

– Niyə eləmirəm, ay uğul.

Məhəmməd evə girdi. Quca qarı üzrxahlıx edib dedi:

– Ay uğul, kasıbçılığın üzü qara ulsun, yeməyə bir şeyim yuxdu.

– Eybi yux, ay nənə, al pulu bir az yeməkdən-zaddan al, - deyib Məhəmməd una bir qızıl verdi.

Qarı bazara gedib çürək alıb gətirdi. Bunnar yeyib-içdikdən sunra Məhəmməd dedi:

– Nənə, buralarda məni nükər götürə bilərsənmi?

Qarı dedi:

– Ay uğul, padşah özünə bir gözəl qız gətirdib. Amma qız deyir ki, gərək mənim atlarımı tumarladasan, suvartdırasan, sunra mən sənə arvad ulum. İşdi atdarı tumarratmayıb, suvartmayıb yanıma gəlsən, sənin buynunu elə vuracağam ki, bədənin bir tərəfə, başın da bir tərəfə düşsün. İndi sənə atdarı tumarlamağa nükər verə bilərəm. Başqa bir iş yuxdur. Padşah da deyib ki, u atdarı kim tumarrasa, una özü ağırrığında qızıl verəcəm. Məhəmməd dedi:

– Nənə, məni ura apar, uğlun adı ilə nükər ver. Mənim ağırrığım nə qədərdisə, bir o qədər də qızılını al!

Qarı dedi:

– Ay oğul, qurxuram. Kim o atdarın yanına gedirsə, onu məhv edir. Qurxuram, cavansan.

Məhəmməd dedi:

– Qurxma, nənə, sən get padşahın yanına, de bir uğlum var. Mən həmin oğlumu sənə özü ağırrığında qızıla satıram.

Səhəp qarı gedib padşahın darvazasının yanındakı daşın üsdündə uturdu. Padşah unu gürüb nükərrərinnən suruşdu:

– O kimdir urada uturub. Gedin, o adamı bura gətirin.

Nükərrərdən biri gedib qarını gətirdi. Padşah qarıdan suruşdu:

– Orada niyə uturmuşdun?

Qarı dedi:

– Mənim bir oğlum var. Oğlumu özü ağırrığında qızıla satıram. Sən qızıl ver, mən də uğlumu verim, sənin dediyin atdarı tumarrasın.

Padşah dedi:

– Get uğlunu gətir.

Qarı gedib Məhəmmədi gətirdi. Padşah qarıya Məhəmmədin ağırrığında qızıl verdi. Quca qarı qızılı gütürüb evinə apardı. Məhəmməd də o sahat tüvləyə girib atdarı tumarradı, aparıb suladı. Atlar Məhəmmədi gürən kimi kişnədi. Padşah qızın yanına gedib dedi:

– Atlarını tumarratdım, suvarıb yerinə bağlatdım.

Qız o dəqiqə bildi ki, Məhəmməd özünü yetirib, dedi:

– Bu axşam kəbinimizi kəsəcəm. Onda sən get turac uvuna. Get qayıt xürək hazırrayaq. Yeyib-içənnən sunra kəbinimizi kəsim. Padşah razılaşıb başının adamları ilə turac uvuna çıxdılar. Padşah uva çıxan kimi qız Məhəmmədin yanına gəldi. Dedi:

– Məhəmməd, tez ol! Atın birini sən min, birini də mən minim. Qaçax canımızı qurtarax.

Atın birini Məhəmməd mindi, o birini də qız mindi. Məhəmmədlə Süleyman peyğəmbərin qızı yula düşüb getdilər. Birdən kənarda atdılar gürdülər. Qız dedi:

– Məhəmməd, gürürsənmi o atdıları? Padşahın atdılarıdı. İndi biz o atdılarla qarşılaşacağıx. Sən qurxma, mən o atdıların hamısının buynunu vuracağam.

Atdılar bunnara yaxınnaşanda qız hamısının buynunu vurdu. Bir az yul getmişdilər ki, Məhəmməd qıza dedi:

– Gəl gedək mənim atamın vilayətinə.

Qız razı uldu. Məhəmmədgil öz vilayətdərinə gedib urada xuşbəxt yaşamağa başdadılar.

## YÜZ TİKƏDƏN BİR TİKƏ

Biri var imiş, biri yux imiş, keçmiş zamannarda üç dust var imiş. Bu dustdar uzax bir kənddə firavan yaşayırmışdar. Günnərin bir günü bunnarın yaşadıxları kənddə xəsdəlik yayılır. Kənd camahatının çuxu xəsdəlikdən qırılır, bir çuxu isə baş gütürüb qaçır. Üç dost da belə məsləhətləşillər ki, başqa yerə küçsünlər, ta ki xəstəlik kənddən təmizlənəcən. Dostlar belə də edirlər. Onnar sabahısı yola düzəlib az gedillər, üz gedillər, dağlar keçillər, dərələr aşıllar, gəlib bir qucaya rasd olullar. Quca dustdarı saxlayıb suruşur:

– Ey cavannar, hayana belə gedirsiniz?

Dustlardan büyüyü deyir:

– Əmican, biz ulduğumuz kənddə xəsdəlik var. Həmin xəsdəlikdən hamı qırılır. Biz də bu xəstəliyin əlinnən baş gütürüb qaçırıx. Xəsdəlik qurtarannan sunra kəndə qayıdacağıx.

Qoca bunların halına gülüb deyir:

– Sizin birinizin ülümünə yeddi gün, o birinizin ülümünə iki gün qalıb.

Sunra quca üzünü üçüncü uğlana tutub deyir:

– Sən isə evlənsən, üləcəksən, evlənməsən, ülməyəcəksən.

Qucanın süzlərinə dustdar mat qalırlar. Öz-özlərinə düşünüllər ki, gürəsən bu kimdi bizim ülməyimizin vaxdını bilir.

Qucadan suruşullar:

– Ey quca, sən kimsən, bizim ülümümüzü hardan bilirsən?

Quca deyir:

– Bilin və agah olun, mən Əzrailəm, bu sahat da gedirəm kəndinizdəki iki qucanın canını almağa.

Əzrailin adını eşidən kimi dustdar daha bir süz demillər. Əzrail deyir:

– İndi gəlin mənimlə gedək, gürün onnarın canını necə alıram.

Dustdar bir-birinin üzünə baxıb deyirlər:

– İndi ki, üləcəyik, gəlin öz kəndimizə qayıdax. Onsuz da

qaçmağın mənası yuxdur.

Onnar Əzraillə birlikdə kənddə qayıdırlar. Əzrail bunnara yulda tapşırır:

– Onnarın canını alanda təkcə sizə gürünəcəm, başqalarının güzünə gürümməyəcəm. Nəbadə səsinizi çıxarasınız.

Dostdar razılaşıllar. Onlar birlikdə kəndə qayıdıllar. Sən demə, canı alınacax adamlardan biri mula, biri də aşıq imiş. Əzrail əvvəlcə mullanın canını almağa başdayır. Dustlar gürüllər ki, Əzrail mullanın canını elə əzabla, elə işgəncə ilə alır ki, mullanın anadan əmdiyi süd burnunnan gəlir. Bunnan sunra Əzrail aşığın canını almağa başdayır. Dustdar gürüllər ki, Əzrail aşığın canını elə rahatlıqla aldı ki, sanki aşıq bir dəsdə qızılgül iyləyib yuxuya dalıb.

Dustdar Əzrailin bu işinnən baş aça bilmillər. Təəccüblənillər ki, nə üçün mullanı əzabla, aşığı isə rahatlıxla üldürdü.

Əzraili yaxalayıb suruşullar:

– Ey Əzrail, nə üçün Allaha dua oxuyan, uruc tutub, namaz qılan mullanı əzabla üldürdün? Heç bir şeyə inammayan, namaz qılıb, oruc tutmayan aşığı isə rahatlıxla üldürdün.

Əzrail deyir:

– Ey uğlannar, una gürə mən elə elədim ki, günnərin bir günündə həmin mulla uğluna tuy eləyirdi. Tuyun lap qızğın vaxtında bir Allah bəndəsi dərviş tuya gəldi. O gəlib tuy ağsakqalına dedi:

– Ay qardaş, mən dərviş babayam, özüm də bərk acam. Mənə bir az yemək verin yeyim, sunra canınıza dua edə-edə çıxım gedim öz işimə.

Tuy ağsaqqalı dedi:

– Dərviş baba, tuyun yiyəsi o mulladı, gedin unnan izn alın sunra.

Dərviş mullanın yanına gəlib öz aclığını ona süylədi. Mulla dərvişin süzünnən hirsdənib qışqırdı:

– Yulçusan, get yulçuluğu elə, başım qarışıqdı.

Dərviş kur-peşman qayıdıb, gedəndə aşıq bunu gürdü. Dər-

vişi yanına çağırıb dedi:

– Dərviş baba, niyə belə bikefsən?

Dərviş başına gələn əhvalatı ulduğu kimi una danışdı. Aşıx öz yeməyini gütürüb dərvişə verdi. Dərviş yeyib razı halda çıxıb getdi.

Əzrail deyir:

– Bax, o günnən də aşığın bu vaxta qədər elədiyi günahı Allah yıxdı mullanın buynuna, mullanın da savab işi vardısa, quydu aşığın buynuna. Allah-taala mənə belə buyurdu, mən də elə elədim.

Bəli, günnər gəlib keçir. Dustdardan ikisi deyilmiş vaxtda cannarını tapşırıllar. Qalır biri. O oğlan öz-özünə fikirrəşir ki, indi mənim ülməyim evlənməkdədi. Mən evləmməyəcəm.

Vaxt ulur uğlanın atası uğlunu evləndirmək haqqında düşünür. Sühbət eləyir, tədarük gürür. O vaxtı da belə bir adət varıymış ki, oğul evləndirənnər gərək gedib peyğəmbərdən razılıx alaydılar. Ata da uğlunu evləndirməzdən əvvəl gedib Məhəmməd peyğəmbərdən izn almax isdəyir. Peyğəmbər kişiyə deyir:

– Ey quca, get bir müddət güzdə!

Nağıl dili yüyrək ular, peyğəmbərin dediyi vaxt tamam ulur. Ata yenə peyğəmbərin yanına gəlir. Peyğəmbər deyir:

– İndi vaxtdır, uğlunu evləndir. Amma, nəbadə bəyin üzə çıxdığı vaxt yeri mənsiz yığışdırasız, gəlib yeri üzüm yığışdıracağam.

Kişi qayıdır peyğəmbərin tapşırığını evdə süyləyir. Başdayıllar tuy tədarükünə. Bəli, tuy başdayır. Qunum-qunşu yığılır, gəlini gətirirlər. Tuyun axırıncı axşamı qucanın süzdəri uğlanın yadına düşür. O, halalının yanına girərkən deyir:

– Nəbadə məni danışdırasan, mənə tuxunasan.

Axı vaxdilə quca uğlana demişdi ki, evlənsən üləcəksən.

Bunnar bir müddət güzdəyillər. Bir azdan qapı düyülür. Uğlan öz ülümünün yaxınnığını duyur. İki aşiq-məşuqə başdayıllar ağlamağa. Qurxudan az qalır uğlanın dili tutulsun. Elə

bilir, gələn Əzraildi, canını almağa gəlib. Qıza əli ilə işarə edir ki, qapını açsın. Qız qapını açır. Gürüllər bir qadın, yanında da bir uşax yarımçılpax dayanıblar. Saçlarını üzlərinə pünhan edib gecə dərviş libasında pay yığıllar. Qız gürdüklərini uğlana süyləyir. Oğlan özünə gəlib qıza deyir:

– Dur, öz gəlinnik paltarını ən yaxşısını ver o qadına, turbalarını da duldurub yula sal.

Gəlin tez qalxıb deyilənnəri yerinə yetirir. Qadınna uşağı razı salıb geri qayıdır. O günnən bunnarın nə günahı var idisə, buyunlarınnan gütürülür.

Aradan bir az keçir, uğlan gürür ülmədi. Deyir yəqin Əzrailin yadınnan çıxmışam.

Vaxt tamam ulur, bəyin üzə çıxma zamanı yaxınnaşır. Ata gedib Məhəmməd peyğəmbərə deyir:

– Ey peyğəmbər, siz mənə demişdiniz ki, yeri mənsiz yığışdırmayın, gəlib özüm yığışdıracam. İndi dediyiniz vaxtdır.

Peyğəmbər deyir:

– Gedin, indi mən də gəlirəm.

Hamı yığışır. Peyğəmbər gəlib əlini yerə uzadanda deyir:

– Heç kim qurxmasın.

O, yasdığı qaldıranda baxıllar ki, yasdığın altında bir nəhəng gürzə yatıb. Peyğəmbər suruşur:

– Ey Allahın heyvanı, bura niyə gəlmisən?

Allahdan ilana dil verilir, ilan deyir:

– Ey peyğəmbər, mən gəlmişdim bu cavanı vurub üldürəm, quymayam əli halalaının əlinə dəysin.

Peyğəmbər suruşur:

– Niyə belə eləmək isdəyirdin?

İlan cavab verir:

– Bir zaman mən öz sevgilimlə bir çəmənnikdə deyib-gülürdük. Bu uğlan məni vurub yaraladı, o günnən mən öz sevgilimdən aralanmışam. Mən də and içmişdim ki, gərək quymayam bu uğlan murada yetsin.

Peyğəmbər deyir:

– Ey heyvan, get, yenə həmin çəmənnikdə səni sevgilin güzləyir.

İlan bu süzdəri eşidib çıxıb gedir. Oğlanna qız o günnən başdayıllar düvrannarını sürməyə. Onnar yeyib-içib düvrə keçillər ki, siz də yeyib-içib muradınıza yetəsiniz.

## ÜÇ QARDAŞ

Biri var idi, biri yux idi, Allahdan başqa heç kim yux idi. Bir tacir var idi. Bu tacirin üç arvadı vardı, ancax heç bir üvladı yux idi. Var-düvləti başınnan aşmışdı, ancax uşax dərdi unu qucaltmışdı.

Bir gün tacir kühnə bir qəbirstannığın yanınnan keçəndə yuruldu. O, bir daşın üsdündə uturub dərin fikrə daldı. Birdən tacirin qarşısında bir dərviş peyda olub suruşdu:

– A kişi, niyə fikrə qərq ulmusan?

Tacir dedi:

– Niyə də qərq olmuyam? Bu yaşa gəlmişəm, üç xatunnan hələ bir uşağım ulmuyub.

Dərviş bir alma çıxarıb tacirə uzatdı:

- Bu almanı dürd yerə bülüb arvaddarınnan yeyərsən, sənin uşağın ular.

Tacir dərvişin dediyi kimi də elədi. Həmin almanı dürd yerə bülüb arvaddarı ilə yedi. Vaxt tamam olanda tacirin hər arvaddan bir güzəl, güyçək uğlu uldu. Tacir almanı yeyəndə qabığını keçisinə vermişdi. Keçi həmin vaxt bir bala duğdu. Tacirin uşaxları gəlib yeddi yaşa çatdı. Onu deyək ki, dərviş tacirlə şərt kəsmişdi ki, uşaxlardan biri mənim ulmalıdır. Bir gün dərviş gəlib tacirə şərtlərini söylədi və uşaxlardan birini istədi. Tacir dərvişə çux yalvardı-yaxardı, dərviş dediyindən dünmədi ki, dünmədi.

Tacir dedi:

– Canımı al, uşaxlarımı əlimnən alma.

Bunu eşidən kimi dərviş taciri gütürüb yula düzəldi. Gün-

nər keçdi, tacirdən bir xəbər çıxmadı. Ona qırx gün yas saxladılar. Aylar, illər keçdi. Tacirin oğlannarı yaşa dulub büyük uğlan uldular.

Bir gün büyük qardaş dedi:

– Gərək gedib atamı tapım.

Tacirin arvaddarı, kiçik qardaşlar una nə qədər yalvarıb yaxardılarsa, uğlan dediyinnən dümmədi. O, ucaxdan bir yanan udun gütürüb dedi:

– Əgər bu yanan udun qul-budax atıb yaşıl bir ağac ulub meyvə versə, bilin sağam, atamla qayıdıram. Yux, kül uldu, unda bilin ki, sağ deyiləm.

Bunu deyib büyük qardaş yula düzəldi. Az getdi, üz getdi, dərə, təpə düz getdi, bir çubana rast gəldi. Çoban dedi:

– Oğul, hara gedirsən?

Oğlan dedi:

– Atamı axtarıram.

Çuban dedi:

– Otur çürək ye, atanın yerini deyərəm.

Çuban oğlanın qabağına bir badya quydu. Oğlan bir-iki qaşıx yeyib dayandı. Çuban əlini uzadıb dedi:

– Sənin atan o gürünən üzüm bağındadı. Həmin bağın sahibi bir dərvişdi.

Oğlan atını minib çuban deyən bağa sarı yula düzəldi. Gəlib gürdü ki, bu büyük bir bağdı, hər tərəfi hündür hasardı. Axtarıb qapını tapdı. Bağa girdi. Gürdü ki, bağın bir tərəfində bir kuma var, kumadan tüsdü gəlir. Oğlan kumaya sarı getməyə başdadı.

Onu da deyim ki, dərviş bir şah qızını da gətirib özünə arvad eləmişdi. Qız gürdü ki, onnara sarı bir uğlan gəlir. Dərvişə xəbər verdi. Dərviş suruşdu:

– Oğlan necə gəlir?

Qız dedi:

– Bir üzüm salxımı quparıb yavaş-yavaş yeyə-yeyə gəlir.

Dərviş dedi:

– Quy gəlsin.

Elə ki, uğlan gəlib kumaya girdi, dərviş o dəqiqə unu da uddu.

Aradan bir xeyli vaxt keçdi. Anaları, qardaşları çux güzdədi. Büyük qardaşdan bir xəbər çıxmadı. Büyük qardaşın bağın bir tərəfində basdırdığı yanan ağac külə dündü. Bildilər ki, uğlan sağ deyil. Ona qırx gün yas saxladılar, aradan xeyli vaxt keçdi. İndi də ortancıl qardaş dedi:

– Gərək gedəm atamnan, qardaşımnan bir xəbər biləm.

Analar kiçik qardaşa nə qədər yalvardısa, urtancıl qardaş dediyinnən dümmədi. Atına minib yula düzəldi. Az getdi, üz getdi, gəlib həmin çubana rast gəldi. Çuban dedi:

– Otur yemək ye, atanın, böyük qardaşının harada ulduğunu deyərəm.

Bunu deyib çuban urtancıl qardaşın da qabağına büyük bir badyada yemək quydu. Oğlan bir-iki qaşıx alıb geri çəkildi. Çuban gürdü ki, bu qardaşdan da bir şey çıxmadı, dedi:

– Atanı, qardaşını dərviş aparıb. O gürünən üzüm bağındadı.

Ortancıl qardaş atdanıb çuban güstərən səmtə sarı getməyə başdadı. Gəlib bir üzüm bağına çıxdı. Gürdü ki, üzüm bağı hər tərəfdən hündür hasara alınıb. Axtarıb qapını tapdı. Bağa girdi. Bir salxım üzüm quparıb yeyə-yeyə tüsdülənən kumaya duğru getməyə başdadı. Qız unun gəldiyini dərvişə bildirdi. Dərviş dedi:

– Necə gəlir?

Qız dedi:

– Yavaş-yavaş, üzüm yeyə-yeyə.

Dərviş dedi:

– Quy gəlsin.

Oğlan gəlib kumaya girən kimi dərviş unu da uddu. Aradan xeyli keçdi. Tacirin arvaddarı, kiçik qardaş urtancıl qardaşın da gəlmədiyini bildilər. Urtancıl qardaşın bağın bir tərəfində basdırdığı ağacın yanıb külə dündüyünü gürəndə bildilər ki, urtancıl qardaş salamat deyil. Urtancıl qardaşa da qırx gün yas

saxladılar.

Bir qədər keçdi. Kiçik qardaş analarına dedi:

– Gərək gedib atamnan, qardaşlarımnan bir xəbər üyrənəm.

Tacirin arvaddarının üçü də una nə qədər yalvardısa, kiçik qardaşı fikrinnən dündərə bilmədi. O da qardaşdarı kimi ucaxdan yanan bir ağac gütürüb bağın bir tərəfinnən turpağa sancıb dedi:

– Bu ağac büyüyüb yarpaq açıb meyvə versə, bilin, sağam, qardaşlarımı da gətirirəm. Yox, əgər ağac kül olsa, bilin sağ deyiləm.

Bunu deyib kiçik qardaş silahlanıb, yaraqlanıb atına mindi, yula düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib həmin çubana rast gəldi. Çuban dedi:

– Oğul, hara gedirsən?

Kiçik qardaş dedi:

– Atamı, qardaşdarımı axdarmağa.

Çuban dedi:

– Oğul, yemək ye, atanın, qardaşdarının harada ulduğunu sənə deyərəm.

Bunu deyib çuban badyada uğlana yemək gətirdi. Kiçik qardaş bir-iki qaşıx ağzına alıb, gürdü bunnan bir şey çıxmaz. Tez qaşığı bir kənara atdı:

– Bu nədi, mənə çümçə ver.

Çuban gürdü yux, kiçik qardaş o biri qardaşdarına uxşamır. Tez una bir çümçə verdi. Oğlan bir dəqiqənin içində badyanı buşaltdı. Çuban dedi:

– Sənin atan, qardaşdarın dərvişin üzüm bağındadı.

Çoban bağın səmtini də oğlana güsdərdi. Kiçik qardaş dərvişin üzüm bağına duğru üz quydu. Gəlib bağa çatdı. Gürdü ki, hasar çox hündürdü. O, bunnan qurxmayıb daha qapını axdarmadı. Hasarın lap hündür yerindən atdandı. Gürdü ki, bura bir bağdı ki, gəl görəsən. Gül gülü, bülbül bülbülü çağırır.

Kiçik qardaş bir hay-haray saldı ki, gəl gürəsən. Dərviş dedi:

– Gələn kimdi?

Şah qızı cavab verdi:
– Gələn kiçik qardaşdı, bağı dağıda-dağıda gəlir.
Dərviş dedi:
– Mən təndirə girib gizlənirəm. Sən təndirin ağzını ürt.
Bunu deyib, dərviş tez təndirə girdi. Qız onun ağzını ürtdü. Özü isə getdi ət qızartmağa. Kiçik qardaş içəri girib gürdü ki, burada bir qız var ki, aya deyir, sən çıxma, mən çıxım, günə deyir, sən çıxma, mən çıxım. Gəl məni gür, dərdimnən ül. Kiçik qardaş qızdan suruşdu:
– Dərviş hardadı?
Qız dedi:
– Səfərə gedib.
Kiçik qardaş dedi:
– Bu sahat səni təndirə atıb yandıraram. Dərviş hardadı?
Qız qurxusunnan dedi:
– Təndirə girib gizdənib.
Kiçik qardaş tez təndirin ağzını açdı. Gürdü ki, dərviş təndirdədi. Onun buğazınnan tutub kənara tulladı. Cəld qılıncını çıxarıb dərvişin başını bədənindən ayırdı, qarnını yardı. Qardaşdarının meyidi dərvişin qarnınnan çıxdı. Atasının isə bədəni artıx ərimişdi, onun təkcə başı qalmışdı. Kiçik qardaş onnarın meyiddərini və qızı gütürüb evlərinə yula düşdü.
Onu görüb tacirin arvaddarı çux sevindi. Kiçik qardaş qardaşdarını, atasını basdırıb qırx gün onnara yas saxladı.
Bir gün baxıb gürdülər ki, kiçik qardaşın ucaxdan gütürüb bağın bir tərəfinə sancdığı yanan ağac qollu-budaqlı, meyvəli büyük bir ağac ulub.
Bir qədər keçənnən sunra kiçik qardaş qırx gün, qırx gecə tuy eləyib şah qızını aldı. Onnar ümür sürüb xuşbəxt yaşamağa başdadılar.

## ŞAH OĞLU İLƏ VƏZİR OĞLU

Biri vardı, biri yuxdu, keçmiş zamannarda bir padşah vardı. Bu padşahın da ağıllı, tədbirri bir vəziri vardı.

Günnərin bir günü padşahın bir uğlu uldu, bunnan iki il sunra vəzirin bir uğlu uldu. Uşaxlar bir yerdə büyüyüb başa çatdılar. Elə uldu, padşahla vəzir uşaxlarını aparıb başqa bir məmləkətdə məktəbə quydular ki, elm üyrənsinnər.

Aradan aylar, illər keçdi, uşaxlar yeriyib-yetişdi, vəzirin uğlu un səkkiz yaşına, padşahın uğlu gəlib iyirmi yaşına çatdı. Padşahın oğlu bir şey üyrəmməmişdi, amma vəzirin uğlu bütün elmləri üyrənib açarını quymuşdu cibinə. O qədər elmli idi ki, dünyanın o üzündə bir teşt həlim ulsaydı, unun da içində bir-iki düyü ulsaydı, unu tapardı. Vaxt tamam oldu. Padşah vəzirə dedi:

– Vəzir, gedək oğlannarımızın yanına, gürək nə uxuyublar, nə üyrəniblər.

Vəzir dedi:

– Şah sağ ulsun, gedək.

Gəlib çıxdılar oğlannarının yanına. Dedilər:

– Uşaxlar bazara gedib indilərdə gələllər.

Şahla vəzir dedilər bir oğlannarımızı sınayax, gürək nə bilirlər. İki düşəkçə gütürüb hərəsini altına bir üzük quydular. Üzükləri də bir kağıza bükdülər. Əvvəlcə padşahın uğlu gəldi. Ədəb-ərkanla salam verib gürüşdü. Keçdi uturdu düşəkçələrdən birinin üsdündə. Padşah xəbər aldı:

– Uğlum, düşəkçənin altında nə var?

Oğlu dedi:

– Hər nə varsa, məni yuxarı qaldırır, yəqin dəyirman daşıdı.

Padşah bir süz deмədi. Bu vaxt vəzirin uğlu da gəlib çıxdı. O da ədəblə salam verib gürüşdü, gedib uturdu ikinci düşəkçənin üsdündə. Padşah xəbər aldı:

– Uğlum, uturduğun düşəkçənin altında nə var?

Vəzirin oğlu dedi:

– Düşəkçənin altında nə varsa, məni qaldırır. Hər nədisə, vəzndə yüngül, qiymətdə ağırdı, deyəsən üzükdü.

Padşah hirsdənib uğlunu dannadı. Padşahın oğlu baş götürüb yula düzəldi ki, gedib üzünü dəryaya atsın. Vəzirin uğlu da unun dalınca getməyə başladı. Gəlib o vaxt çatdı ki, padşahın uğlu, az qalır özünü dəryaya atsın. Unun qulunnan tutub dedi:

– Qardaş, dayan, səbr elə, atadı, hirsdənib, onnan incimə.

Elə bu vaxt gürdülər bir gəmi onnara tərəf yaxınnaşdı. Bir əl gəmidən çıxıb yelləmməyə başdadı. Vəzirin uğlu dedi:

– İrəli get, əl səni çağırır.

Padşah uğlu dedi:

– Yox, səni çağırır.

Vəzir uğlu dedi:

– Sağ əldi, səni çağırır, məni çağırsaydı, sul əlini irəli uzadardı.

Padşah uğlu irəli yeridi, bu vaxt gəmidən una bir qara bağlama tulladılar. Bağlamanı açdılar. Bağlamadan bir cam, bir almaz, bir də bir üzük çıxdı. Vəzirin uğlu dedi:

– Cam Cam şəhəri deməkdi, almaz o deməkdi ki, mənim atam qəssabdı, üzük isə o deməkdi ki, mən qızam, üzük də onun nişanəsidir, səni güzdəyirəm, gəl.

Bəli, şah uğlu ilə vəzir uğlu az getdilər, çux getdilər, dərə-təpə düz getdilər, gəlib Cam şəhərinə çatdılar. Dedilər, bu şəhərdə bizə kümək eləsə bir qarı eləyə bilər. Arayıb-axtarıb quca bir qarı tapdılar. Unun qapısını düydülər.

Qarı dilləndi:

– Kimdi?

Dedilər:

– Qarı nənə, Allah qunağı isdəyirsəmmi?

Qarı qapını açıb dedi:

– Allaha da qurban ulum, unun qunağında da, keçin içəri.

Padşah uğlu ilə vəzir uğlu içəri keçdilər. Gürdülər ki, bu bir qarıdı ki, unun başınnan bir batman darı tüksələr, biri də yerə düşməz.

Dedilər:

– Qarı nənə, biz qərib adamıx. Qalmağa yerimiz yuxdu, bizə yer verərsəmmi?

Qarı dedi:

– Qarı nənəniz sizə qurban ulsun, nə yeməyə çürəyim var, nə də qalmağa yerim.

Vəzir uğlu una bir az pul verib dedi:

– Qarı nənə, get bir az yemək al gətir, acıx.

Qarı getdi ayından-uyundan aldı gətirdi, bişirdi-düşürdü, yedilər-içdilər.

Qarı dedi:

– Uğlannarım, indi deyin görüm hardan gəlib hara gedirsiz?

Vəzirin uğlu dedi:

– Qarı nənə, mənim bu qardaşım hansı xanın, hansı bəyin qızını deyirik bəyəmmir, indi gəlmişik sizin şəhərə.

Qarı dedi:

– Bıy, elə mən deyəndi, qəssab Həmzənin qızı buna yaraşırdı, onu da nişannadılar vəzirin oğlu Kür pəhləvana, elə indi urdan gəlirəm.

Dedilər:

– Qarı nənə, bir də nə vaxt gedəcəksən?

Qarı dedi:

– Oğlannarım, biz qız gürməyə cümədən cüməyə gedirik.

Cümə günü gəldi. Qarıya yalvardılar-yaxardılar. Camı da bir bağlamaya quyub qarını yula saldılar qızın yanına. Dedilər:

– Qarı nənə, camı qızın özünə ver, başqa adama vermə.

Qarı gəldi qızın yanına. Bağlamanı açıb verdi qıza. Qız camı gürən kimi barmağını dişdədi: "Aha, gəlib çıxdılar". Bir kağız yazıb qarıya verdi. Sunra altı qız saxladı, hərəsinə də bir heyva çubuğu verdi. Qızdar heyva çubuğu ilə qarını ülüncə düydülər, sunra da aparıb kənddən kənarda bir yerə atdılar.

Şah uğlu ilə vəzir uğlu qarını çux güzlədilər, qarı gəlib çıxmadı. Axırda dedilər, gedək qarını axtarax. Gəlib qarını şəhərdən qıraqda bir çükəkdə tapdılar. Gürdülər ki, qarını o

qədər düyüblər ki, daha nə deyim.

Amma ülməyib, ülhaüldədi, başı güydə, ayaxları çüldədi. Qarını götürdülər gətirdilər evə. Yağladılar-duzladılar, yavaş-yavaş üzünə gəldi. Dedilər:

– Qarı nənə, bu nə işdi?

Qarı başına gələnnəri onnara danışdı. Qəssab qızının yazdığı kağızı da padşah uğluna verdi. Padşah uğlu gürdü ki, kağızda yazılıb: "Bu axşam səni heyva bağında güzdəyirəm".

Axşam uldu. Padşah uğlu ilə vəzirin uğlu gəldilər heyva bağına. Vəzirin uğlu dedi:

– Qardaş, bax yatma ha, yatsan, qız səni üldürəcək.

Padşah uğlu qız dediyi yerdə gözləməyə başladı. Bir saat, iki saat, padşah uğlu daha güzləyə bilməyib yatdı. Gecənin bir aləmi qız gəlib gürdü uğlan çuxdan yatıb. Sakitcə unun sinəsinin üsdünə bir çilig, bir də bir ağac quyub çıxıb getdi.

Səhər uldu. Vəzirin uğlu gəlib gürdü ki, padşahın uğlu yatır. Sinəsinin üsdündə də çilig-ağac. Tez unu qaldırdı. Padşah oğlu tutduğu işdən peşman oldu. Vəzirin uğlu dedi:

– Qız demək isdəyir ki, sən hələ uşaxsan, get çilingağacını uyna.

Kur-peşman gəldilər qarının evinə. Aradan bir neçə gün keçdi. Başdadılar qarını dilə tutmağa ki, qızın yanına yenə getsin, amma qarı daş atıb başını tutdu ki, mən bir də ura gedə bilmərəm. Getsəm, qız bu dəfə məni üldürəcək. Nəhayət, çux yalvarıb qarını yula gətirdilər. Dedilər:

– Keçən dəfə sakqız, xına quymamışdıx, yəqin una gürə qız səni düydürüb.

Bu dəfə də qız qarını düydürür. Məktub da gündərir ki, üzüm bağına gəl. Yenə uğlan yatır.

Üçüncü dəfə qız uğlanı nar bağına çağırdı. Padşah uğlu bu dəfə barmağını yarıb duz basdı. Qız gəlib gürdü ki, uğlan o tərəfə bu tərəfə var-gəl eləyir. Uğlan baxıd, bir qız gəlir, qız nə qız, gəl məni gür, dərdimdən ül, yemə-içmə xətti xalına, məleykə camalına tamaşa elə. Onnar bir az sühbət elədilər, sunra

qucaxlaşıb elə yatdılar ki, üsdlərinə bir səhəng su da tüksən ayılmazdılar. Qarovulçular gəlib gürdülər Kür pəhləvanının nişannısı bir uğlanla qucaxlaşıb yatıb. Tez bir palaz gətirib unnarı bükdülər palaza, kəndirlə də bərk-bərk sarıdılar.

Padşah uğlu ilə qəssab qızı burda qalmaxda ulsun, gürək vəzirin uğlu nə elədi. Elə ki, vəzirin uğlu bu xəbəri eşitdi, gəlib qarıya dedi:

– Qarı nənə, sənin ayrı paltarın varmı?

Qarı dedi:

– Niyə yuxdu, qadan alım, gəlinnik paltarım udu ey, sandıxdadı.

Qarı tez sandığı açıb gəlinnik paltarını verdi. Vəzirin uğlu dedi:

– Qarı nənə, mən hər il atama halva xeyratı verirəm.

Bəli, halva bişirib hazırradılar. Vəzirin uğlu qarının gəlinnik paltarını geyindi. Halvanın içinə də bihuşdarı tükdülər. Gəldilər qızla uğlanın yanına. Gürdülər ki, onnarı palaza büküb sarıyıblar. Halvadan qarovulçulara verdilər, onnar halvadan yeyib bihuş uldular. Vəzirin uğlu tez palazı açıb qızı çıxartdı, qarını unun yerinə palaza büküb sarıdı.

Bu yannan da meydan sulandı, təbil vuruldu, dar ağacı quruldu. Palazı gətirib meydanda açdılar, nə gürdülər? Palazın arasında iyirmi yaşlı bir uğlan, bir də bir qarı. Padşah suruşdu:

– Siz kimsiniz, buraya nəyə gəlmisiniz?

Uğlan dedi:

– Padşah sağ ulsun, nənəmlə şəhərə gəlmişdik. Gecə idi, yurulub burda yatmışdıx, gəlib bizi zurla palaza sarıdılar.

Padşah əmr elədi unnarı açıb buraxdılar. Keşikçilərin buynunu vurdular. Qəssab qızı dedi:

– İndi ki, belə uldu, daha mən Kür pəhləvana getmərəm, bu uğlannan adım çıxıb, elə una da gedəcəm.

Padşah uğlu, vəzirin uğlu qarı ilə gürüşüb qızı da gütürüb öz məmləkətdərinə yula düşdülər. Padşah onnarın gəldiyinə çux sevindi.

Yeddi gün tuy vurdurdu. Qəssab qızı gülərək dedi:

– Kür qırağı sarımsax, kətan küynək canım sağ, cəfamı çəkdi Kür pəhləvan, məni gətirdi bir qurumsax.

Göydən üç alma düşdü, biri mənim, biri üzümün, biri də nağıl söyləyənin.

## SÜLEYMAN PEYĞƏMBƏRNƏN SİMURQ QUŞU

Belə deyillər, bir gün Süleyman peyğəmbər taxtında uturub məclisindəki quşdarla, heyvannarla ulub keçənnən, urdan-burdan söhbət edirmiş. Simurq quşu da məclisdə imiş. Söhbət gəlib qəzavü-qədərdən düşəndə Simurq quşu üzünü saxlamayıb dedi:

– Məncə, qəzavü-qədər yuxdu.

Süleyman peyğəmbər dedi:

– Xeyr, var.

Simurq quşu inad edib dedi:

– Yuxdu.

Süleyman peyğəmbərlə Simurq quşu çux mübahisə edib deyişməli uldular. Axırda Süleyman peyğəmbər dedi:

– Ey Simurq quşu, bil və agah ul, bu gün günduğan padşahının bir qızı, günbatan padşahının isə bir uğlu ulub. Bu uşaqlar un beş yaşına çatıb evlənəcəklər. İşdi əgər evləmməsələr, sən deyəndi.

Simurq quşu razılaşdı. Süleyman padşahın məclisinnən mürəxxəs olub düz günduğana uçdu. Günduğan padşahının qızını uğurlayıb dənizin urtasındakı bir kimsəsiz adaya gətirdi. Başı güylərə çatan bir ağacın başında yuva tikdi. Sunra da qızı gətirib yuvaya quydu. Qız burda qalıb Simurq quşunnan quş dili üyrəmməyə başdadı.

Günduğan padşahının qızı burda qalmaxda ulsun, gürək günbatan padşahının uğlu necə uldu? Aylar dulandı, illər ütdü, uğlan gəlib un beş yaşına qədəm quydu. Bir gün u, atasının yanına gəlib dedi:

– Ata, mən uvçulux eləmək isdəyirəm.

Padşah dedi:
– Uğul, çux yaxşı, mən razı.
Padşah uğlunu addı-sannı bir uvçuya quşub tapşırdı ki, una uvçuluğu üyrətsin. O günnən uvçu padşahın uğlunu özüylə gütürüb uva çıxmağa başdadı. Bir gün padşahın uğlu uvçuya dedi:
– Gəl sabah da dəniz uvuna gedək.
Səhər hər ikisi bir gəmiyə minib dənizə çıxdılar. Bir neçə gün yul gedənnən sunra dənizin lap urtasında tufana düşdülər. Tufan gəmini aşırıb batırdı. Padşahın uğlu bir taxta parçasınnan tutub üzə-üzə bir adaya çıxdı. Başdadı uranı-buranı gəzməyə. Gəzə-gəzə gəlib bir meşəyə rasd uldu. Baxıb gürdü burda ins-cins yuxdu. Birdən qulağına bir səs gəldi. Başını qaldırıb baxanda gürdü bir hündür ağacın başınnan bir qız una baxır. Qızı səsdəyib xəbər aldı:
– Ay qız, kimsən, nəçisən, urda nə qayırırsan?
Qız una cavab vermədi. Axı bəni-adəm dilini başa düşmürdü. Elə ki, uğlan qızla quş dilində danışdı u dedi:
– Mən Simurq quşunun qızıyam, özü də bu yuvada yaşayıram.
Uğlan xəbər aldı:
– Bəs heç yerə düşmürsən?
Qız dedi:
– Yux, atam icazə vermir, özüm də düşə bilmərəm.
Unda uğlan dedi:
– Bax, bu ağacın altında at leşi var. Mən girəcəyəm unun içinə. Atan gələndə de ki, at leşini yuvaya qaldırsın.
Elə də razılaşdılar. Uğlan at leşinin içinə girib güzdəməyə başdadı. Şər qarışanda Simurq quşu uçub gəldi. Qız uğlanın dediyi kimi elədi. Simurq quşu uçub at leşini gətirdi.
Səhər Simurq quşu uçub gedən kimi uğlan gizdəndiyi yerdən çıxdı. Bu minvalla uğlan da qızla yuvada qalıb yaşamağa başdadı.
Axır gəlib un beş il tamam uldu. Süleyman peyğəmbər Simurq quşunu yanına çağırıb dedi:
– Ey Simurq quşu, dənizin urtasında filan adada ağacın

başında bir yuva var. O yuvanı bura gətir.

Simurq quşu o sahat uçub yuvanı gətirdi. Süleyman peyğəmbər baxıb gürdü uğlan da qızın yanındadı. Qızın da qucağında bir uşax var. Süleyman peyğəmbər uğlannan xəbər aldı:

– Bala, sən kimsən?

– Qibleyi-aləm, mən günbatan padşahının uğluyam, başına gələnnəri una nəql elədi.

Süleyman peyğəmbər una qulax asıb Simurq quşuna dedi:

– Simurq quşu, gürdünmü qəzavü-qədəri? İndi siftə onnarı apar gunduğan tərəfə, qızın atasının yanına, sunra da uçarsınız günbatana.

Simurq quşu başını yerə dikib bir süz demədi. Sunra qızla uğlanı belinə mindirib uçub getdi.

# V. QARAVƏLLİLƏR

## ÜZÜ AĞ ULAN ÇUBAN

Kəndçi Həmzənin bir qədər quyun-keçisi var idi. Həmzə deyilən bir müddətdən sunra varrandı, üzünə xüsusi çubannar tutub sürüsünü həm aranda, həm düzdə, həm də dağlarda saxlamağa başdadı. Bir müddət keçmədi ki, Həmzə "qulçomaq" adını aldı. Quyun sürüsü gündən-günə artırdı. Bir dəfə necə uldusa, sürü dağdan arana küçüncə, dağlara elə bir qar yağdı ki, Həmzənin quyun sürüsü yağışın, qarın altında qaldı. Gediş-gəliş mümkün ulmadığı üçün, çuban Həmzəyə xəbər çatdıra bilmədi. Beləliklə, quyun sürüsü qırılmağa başdadı. Çuban ağlayır, nə edəcəyini bilmirdi. Axır-axırda çubanın bir ulağı, bir iti qaldı. Halı bir qədər sakitdəşdi. Çuban ulağı, iti üzü ilə alıb, bir qədəh qatığı çantaya quyub, yula düzəldi. Bir-iki günnən sunra, o Həmzənin mənzilinə yetişdi. Nükər çubanın tez gəlməsini Həmzəyə xəbər verdi. Həmzə çubanı yanına çağırdı və dedi:

– Hə, de gürüm quyun-quzu necədir, dağlarda nə xəbər var? – deyə çubannan suruşdu.

Çuban ağlamağa başdadı. Həmzə isə una sürüdən xəbər verməyi təklif etdi. Çuban dedi:

Ağam! Dağlarda qar yağdı, qupdu bir tufan,
Sürünün yeməyi ulmuşdu tamam.
Mələdi quyunnar, kürpə quzular,
Qar altda tapmadı ana balanı.
Qırıldı, qalmadı sürüdən əsər,
Yatağım dağıldı, uldu dərbədər.
Bir ulağı, bir küpəyi gətirdim.
Sürüdən suvqat qalan bir qədəh qatıx,
Sənə pay gətirib gəlmişəm, ağam.

Belə deyib çuban qatıx qədəhini ağaya verir. Ağa Həmzə hirsinnən bağırıb, qədəhi çubanın başına çaxır. Qədəh sınır,

qatıx çubanın üsdünə dağılır. Çubanın üzü ağappax ağarır.

Çuban üzünü itirmir. Sürü qırılsa da, inşallah, ağanın yanında üz ağardan uldum – deyə bayıra çıxar. Həmzə də bir az gülür, sunra isə: "Ulduya nə çarə!" – deyib ürəyinnən yammağa başdayır.

Üzü ağ çuban isə əvlərinə qayıdır.

## ACI DİL, BAŞA BƏLADIR

Şamaxı şəhərində bir yuxsul kişi yaşayırdı. Onun güzəl sənəti var idi. Ancax o, bu sənətdən istifadə edə bilmirdi. O, güzəl xalça tuxuyurdu. Oğrular xalçaları onun əlinnən alırdılar.

Bir dəfə xalçaçı yuxsul kişi güzəl bir xalça tuxuyub, şaha pay aparmağı fikirrəşir.

Axı bu xalçaçı nə cür adam idi? Onnan da sizə bir balaca məlumat verim. O, çux acı dilli bir kişi idi. Onun heç də xeyir süz ağzınnan çıxmazdı çünki o, bunu bacarmırdı. Yaxşı əvəzinə həmişə pis süz xərclərdi. Düzünü desək, xeyir süyləməz bir adam idi.

Beləliklə o, işə başdadı. Birinci günnən unun dalınca düşən uğru xalçanın nə vaxt tuxuyub qutaracağını güzdəyirdi ki, xalçanı oğurrasın. Hər vaxt o kişinin işini yuxlayanda, onnan bu süzdəri eşidirdi:

– Ey dil, Allah rizasına məni şahın yanında şərməndə eləmə, acı süzlər süyləmə. Oğru bu işin axırını bilmək isdəyirdi, odur ki, xalçanın tuxunub qutarmasını güzləyirdi, gürsün ki, şaha yuxsul xalçaçı nə deyəcək?

Bəli, xalça tuxunub qutardı. Sizə nə deyim, vilayətdə belə güzəl xalça gürümməmişdi. Oğrunun güzü hələ də bu xalçada idi. Səhər tezdən yuxsul xalçanı alıb şahın malikanəsinə getdi. Oğru da onun dalınca unu izdəyirdi. Qapıçılar şaha xəbər verdilər, bir nəfər sənə suvqat gətirib, sizə təqdim etməyi xahiş edir. Şah yuxsulu qəbul etdi.

Vəzir-vəkil, saray əhliləri xalçaya tamaşaya toplandı. Şah

tuplanannardan, şəxsən vəzir-vəkildən soruşdu ki, bu xalçanı hansı yerə quysunnar ki, hamının güzünə dəysin. Hərə bir təklif verdi.

Onda şah dedi:

– Hələ bu xalçanı tuxuyan kişidən suruşax, bu xalça hara lazım ulacax?

Yuxsul iki-üç dəfə yerə əyilib, ayağa durdu:

– Şah sağ ulsun, bu xalça ancax sənin tabutunun altına atmax üçün yaxşıdır, başqa cür ula bilməz. Bu süzü eşidən şah qəzəblənib yuxsulu dama salmağı təklif etdi. Bu zaman uğru meydana girdi. O dedi:

– Şah sağ ulsun, mən bu şəhərin ən büyük uğrularınnanam. Mən hələ bu xalçanın tuxuyub qurtarmağını güzdəyirdim ki, unu uğurrayım. Ancax hər dəfə mən işin sununu bilmək üçün bu kişinin əvinə gedəndə, o, Allaha yalvarıb deyirdi:

– Allah, sən məni şahın qabağında rüsvay eləmə, dilimə nəsihət ver, o, hərzə danışmasın. Hələ mən də bu işin axırını güzdəyirdim. Duğrudan da, kişidə təxsir yuxdur. Onu rüsvay edən unun acı dilidir. Gəl bu kişinin günahınnan keç. Şah baxtı ki, oğru düz deyir, udur ki, yuxsulu bağışdadı. Ona bir az xərclik pul verib yula saldı.

## MƏNASIZ SÜZ

Bir şəhərin padşahı car çəkdirir ki, kim bir mənasız süz mənə desə, una xəzinədən isdədiyi qədər qızıl verəcəyəm, yox deyə bilməsə, buynunu vuracağam. Bunu eşidən çuxları özdərini sınaxdan çıxarır, ancax xeyli bilicilərin buynu vurulur.

Bir gün Danəndəyi Bəhli addı ağıldankəm hesab edilən biri şahın hüzuruna gəlib, əlçi daşının üsdündə uturur. Cəlladdar tez şaha xəbər verillər ki, bəs elçi daşının üsdə bir nəfər uturub. Şah əmr edir ki, unu şahın hüzurna getirsinnər.

Elçini şahın hüzuruna gətirillər. Danəndəyi Bəhli ədəblə şaha baş əyir, salam verir. Sunra şahdan sual edir:

– Şah sağ ulsun, de gürüm, zurna çala bilirsən?
– Yux! – deyə şah dilləndi.
– Mənim bir sarsax qardaşım var, o da zurna çala bilmir. Sağ ul! – deyib utağdan çıxır.
Şah mətəl qalır. Bu nə süzdür? – deyə acığlanıb cəlladdara əmr edir ki, unu tutub bura gətirsinnər. Danəndəyi Bəhlini şahın hüzuruna gətirdilər.
Şah deyir:
– De gürüm, bu nə sualdı mənə verdin?
Danəndəyi Bəhli cavab verir:
– Şah sağ ulsun, de gürüm bu mənim süzümnən sən bir məna çıxardın?
– Yux.
– Onda, de xəzinədarın mənə isdədiyim qədər qızıl versin.
– Axı nə üçün, cəza əvəzinə, mənnən qızıl isdəyirsən?
Danəndəyi Bəhli, bir az gülür, sunra isə şaha deyir:
– Bəs sənin ilqarın? Sən car çəkdirmisən ki, kim bir mənasız süz desə, una isdədiyi qədər qızıl verəcəksən. Odur ki mən də bu mənasız sualı sənə verdim. Şah süzündən dönməyib, Danəndəyi Bəhliyə bir xurcun qızıl verib yula saldı. Mənasız süzün bəhəri belə uldu. Ancax hər yerdə mənasız süz xərcləməyin, onun da yeri var.

## DƏLƏDÜZLA AĞILLI KİŞİ

Bir mahalın Yanqılınc addanan kəndində dələdüz, üzünü tərifləyən bir nəfər vardı. O, həmişə quçuluxdan, savaşmaxdan sühbət edərdi. Həmin kəndə bir ağıllı kişi də gəlir, heç bir süz demədən, danışannara diqqətlə qulax asırdı. Dələdüzün onnan zəhləsi gedirdi. O, özünün dusduna dedi:
– Mən bu axmağı bir yaxşı qapazdayacam, bu bizdən süz yığır, özü isə heç nə deyib-danışmır.
Dusdu una dedi:
– Sabah eşidərsən! Mən una bir kələk gəlim ki, babasına da

bəs ulsun.

Uçar dağılır, hər kəsən öz əvinə qayıdır. Səhər açılanda dələdüz ağıllı kişinin, nə vaxt əkin suyuna getməyini güzləyir. Ağıllı kişi lapatkanı gütürüb, əkin suyuna gedir. Onun dalınca dələdüz də gedir, unu güzdəyir. O, ürəyində tutur ki, mən unun suyunu kəsib, qaratikannığa buraxacağam. Onda o, gəlib mənə deyəcək:

– Nə üçün suyumu kəsmisən?

Mən deyərəm:

– Çox yaşı ələmişəm. Əlinnən gələni əsirgəmə.

Bu zaman o, mənimlə savaşar, unda mən unu elə qapazdıyaram ki, keçmişinə də bəs ulsun. Dusdum da bilsin ki, unun başına qapaz vuran var, ya yux! Dələdüz elə də edir. Kişinin əkin suyunu kəsib, qaratikannığı suvarmağa başdayır. Ağıllı kişinin adı Sərdar, dələdüzün adı Camil idi.

Sərdar baxır ki, su kəsildi, arxın üsdü ilə gəlmağa başdayır. Gürür ki, Camil suyu qaratikannığa buraxıb. Ona yaxınnaşıb:

– Salam ələyküm, qunşu Camal, nə edirsən? – deyir.

Camal cavabında:

– Qaratikannığı sulayıram – dedi.

Sərdar:

– İncimə qunşu, sən qurtarannan sunra, suyu burax mənim arxıma, buş yerə getməsin, mən getdim evə: – deyib lapatkasını çiyninə quyub, yula düzəldi. Bunu gürən dələdüz Camal fikirə getdi:

– Duğru dedi, mənim dusdum, bu kişinin iyidliyi unun ağılındadır, ona gürə də unun başına qapaz vuran ulmayıb, ya da heç vaxt ulmaz.

Ona gürə Camal dedi:

– Sərdar! Sərdar! Qayıt geri, gəl əkinini suvar, mən səhv etmişəm – dedi.

Ağıllı kişinin başına heç vaxt qapaz dəyməz. Hər şeyin başı ağıldır. Ağılınızı cəm edib əhvalatdan nəticə çıxardın!

## ŞAH ABBAS İKİ QƏPİK TAPA BİLMİR

Şah Abbasun Danay Behli addı bir qardaşı var idi. Danay Behli çux ağıllu, kamallu, səxavətli bir uğlan idi. O, heç kəsün ürəyinə dəgməmişdi. Şah Abbas isə xalqa çux zülm verirdi, özünə tabe ulmayannarı dardan asdırırdı.

Danay Bəhli çux düşünür ki, necə öz xalqını bu zülümnən xilas etsin. O, qardaşı Şah Abbasdan ayrılmax qərarına gəlir. Axşam Danay Behli qardaşınün şah salonuna girdi və belə dedi:

– Qardaş, mən ayrı yaşamağ isdeyirəm, evimizin yarısı sənindü, yarusu mənüm, mən öz payımı sənnən ancax pulnan isdəyirəm, özümə başga yerdə ev tiküb, urada yaşayacağam.

Şah əvvəl razı ulmur, axır-axırda Danay Bəhliynən razılaşır. Danay Bəhli qardaşına deyir:

– Mən yüz min manat isdəyirəm.

Şah Abbas xəzinədarı çağırtır və unnan suruşur:

– Xəzinədə hal-hazırda nə qədər pul var?

Xəzinədar deyir:

– Yüz kq qızıl, əlli kq ləli-cəvahir.

– Mən sənnən qızıl, lali-cəvahir suruşmuram. Pul nə qədər var?

– Əziz hükmdar, süz mənüm süzümi ağzımda quydunuz. Acuğuvuz gəlməsin. İndi dəyərəm. Halı-hazırda xəzinədə duxsan duqquz min manat duxsan səkkiz qəpik var.

– Qardaş, iki qəpik çatışmır, onu axşam tapub verərəm, dedi Şah Abbas Danay Behliyə.

– Mən o iki qəpiyi axşam yux, özüm isdəyəndə sənnən alacağam, – diyə Danay Behli qardaşına cavab verdi. Şah razı uldu.

Xəyli vaxt keçdi. Şəmbə güni idi. Bu gün şah hamamda çimərdi. Danay Behliyə də elə bu lazım idi. O, şah hamama girənnən sunra qapını açır və içəri girir:

– Şah, mən geldüm ki, iki qəpik burcumı sənnən alım,

deyir Şah Abbasa!

– Hamamda mən sənə pul haradan tapım?

– Haradan isdəsən tap, ancax pulımı hamamnan qırağa çıxıncan ver.

– Məndə pul yuxdur.

Bu belə deyən kimi Danay Behli öziynən gətirdiyi ağacla qardaşı Şah Abbası elə dügdü ki, onun ağ yeri qalmadı. Şah aman isdəyir. Danay Behli əlindəki bir arşınlıx udunı şaha verir və deyir:

– Al, bu udunna hamamın yerini ülç.

Şah alıb qurxa-qurxa ülçür və deyir: – 15 **qarış***.

– Yaxşi, şah, sən bu 15 qarış yerdə mənüm burcumı verə bilməyəndə, bəs iki qarış qəbirdə bu adamlara etdiyin zülümün **bahalını**** haradan tapub verəcəksən?

Şah qardaşını yaxşı başa düşdü və dedi:

– Bu günnən sunra, qardaş, heç kəsə zülüm etməyəcağam.

Duğurdan də, Şah Abbas o günnən sunra heç kəsə zülüm etmirdi. Adamlarun yaşayışı də yaxşı keçmağa başdadı.

## ÜZLÜ QUNAX

Bəhmən kişi üz arvadı Nisa ilə bir xoş həyat keçirirdi. Onnarın arasında bir-birinə deynən süz demək ulmamışdı. Bir gün Bəhmən şəhərə gedəndə, yulda bir özü yaşında uğlanla tanış ulur. Sunra isə bunnar bir-birinə qunax ulmağı isdiyillər. Beləliklə, yul şəhərə çatanda unnar bir-birinnən ayrılır, ancax bir-birinə qunax gəlmək üçün ünvanlarını verillər.

Aradan bir neçə vaxt keçənnən sonra Bəhmən qunağının əvinə gedir. Qunağı həyətdən adı ilə səsləyir:

– Mürşüd, Mürşüd, ay Mürşüd, çıx qunağı qarşıla.

Mürşüd tez həyətə çıxır, qunağı o ki lazımınca qarşılayır.

-----------------

*Qarış – ölçü vahidi

**Bahalı – haqq

Bəhmən bir gün qunaxlıxda qalıb əvlərinə qayıdır.

Mürşüddən xahiş edir ki, özü də qunax gəlsin. Qunaxlar xudahafizdəşib ayrılıllar. Aradan bir-iki həfdə keçir, Mürşüd qunağlığa gedir. Arvadına tapşırır ki, mən bir həfdəliyə gəli-rəm. Əv-eşikdən müqayət ulsun.

Mürşüd Bəhmənin qapısına çatır, unu səsdəyir. Bəhmən də adət üzrə qunağı şirin dillə qarşılayır. Günnər keçir. Mürşüd qayıtmır. Bəhmənin arvadı lap təngə gəlir: "Axı bu qunax niyə qayıtmır? Bir həfdə bəs deyilmi?" – deyir.

Bir gecə, axşam yeməyinnən sunra, qunaxlar yatır. Mürşüd üzünü yuxuluğa vurub bərkdən xuruldayır. Nisa baxır, qunax şirin yuxudadır. Ərinə deyir:

– Bu qunaq qayıtsaydı, bir yaxşı plov bişirib, çil xuruzun ətini üsdünə quyub xəlvətcə yeyərdik.

Bu sühbəti Mürşüd əşidir. "Baxax gürək o plovu siz xəlvət yeyə bilərsinizmi"? – deyir.

Səhər açılır. Mürşüd səhər yeməyinnən sunra, onnardan əvlərinə qayıtmax üçün izn isdəyir. Bəhmən və arvadı bu işə tezdən razı idi. Onnar durub qunağı yula saldılar. Qunax kəndin kənarında, bir palıd ağacının külgəsində yatıb günü axşam elədi. Bəhmən isə arvadına dedi:

– Hə, süzünün üsdündə dur, plovu axşam yeməyinə hazır elə. Plov hazır uldu, çil xuruzun qızarılan cəmdəyi aşın üsdü-nə quyuldu. Sunra Bəhmən Nisaya dedi ki, gəlinnik paltarını geyinsin, mən də bəylik paltarını geyib, bir ləzzətlə plovu xəlvətcə yeyək. Bu zaman Mürşüd əvə yaxınnaşıb, qapının dalınnan ər-arvadın sühbətinə qulax asırdı. Ər-arvad paltarları geyinib, aynanın qabağında dayandılar.

Arvad dedi:

– Kişi, de gürüm mən kimə uxşayıram?

Kişi dedi:

– Sən bir bikəyə, sunaya, Bəhmən bəyin arvadına uxşayırsan.

Sunra kişi suruşdu:

– Bəs arvadcan, məni kimə uxşadırsan?

Arvad dedi:

– Sən qunağı qayıdan Bəhmən bəyə uxşayırsan. Bu vaxt Mürşüd yavaşca qapını açıb urtaya atılır. Bəs mən kimə uxşayıram? - deyir.

Sən? Sən başımıza düşən bir bəlaya bənzəyirsən, – deyə ər-arvad səsdənir. Onnar çürəksiz plovu yeyib, yatıllar. Səhər isə onnar həmişəlik qunağın getməyini arzu edib onnan ayrılıllar.

## ŞƏHƏRLİ GƏLİN

Mahmud kişinin, güzünün ağı-qarası bir uğlu var idi. Oğlan yaşa duldu, unu şəhərdə məktəbə quydular. Beləliklə, oğlan məktəbi bitirib, sənət sahibi uldu. O, məktəbdə uxuyarkən bir qəşəng qıza aşıq ulmuşdu. Qızdan əl çəkmək isdəmirdi. Oğlanı kəndə öz ataları yaşayan kəndə işə gündərdilər. Ata-ana artıx sevincinnən yerə-güyə sığışmırdılar. Oğlan işdə ulsun, sizə onun anasından deyim. Anası Nardan xatun qunşuda ulan bir kəndçi qızını uğluna almax isdəyirdi. Ancax bu barədə heç kəsə sühbət açmamışdı. Bir gecə axşam yeməyinnən sunra Nardan xatun sühbəti ərinə, uğluna açdı. Əri Mahmud kişi bu işə can-başla razı uldu. Ancax uğlu bu işin baş tutmayacağını süylədi. Ata-ana mətəl qaldı.

– Oğlum! Bəs sən kimi isdəyirsən? – deyə anası suruşdu.

Mən, özümlə oxuyan Çimnaz xanımı isdəyirəm. O alınmasa, mən başqasına əvlənən dəyiləm, – deyə uğlan qəti fikirini bildirdi.

Naəlac qalan ata-ana qızı nişannamax qərarına gəldilər. Oğlannan qızın ünvanını alıb şəhərə yullandılar. Unlar əvvəl qızı gürmək isdədilər. Qız nə qız! İncə baxışlı, turşutma üzlü, sifətinin hər yanında ənlik-kirşan, dudağları təzə mal qanı içən küçüyün ağzına bənzəyirdi. Beli elə bil qarışqanın beli. Bir güclü külək əssə, unu yelpik kimi quvub apara bilərdi. Nə olsun? Oğlumuz isdəyib, biz də nişannayax, dedilər. Qızın

ata-anası oğlanı tanıyırdı. Oğlan vaxtın çuxunu onnarda keçirmişdi. Odur ki, təklifə razı uldular. Bir neçə vaxt keçdi, uğlanın tuyu başdandı, gəlin oğlan evinə qədəm quydu. Adət üzrə gəlin bir həftə əvdə iş etməzdi. Sunra isə əvin xırda işdəri ilə məşğul olmalı, yəni əv-əşiyi süpürməli, paş-paltarı yumalı, qeynanaya kümək ətməli idi.

Günnər bir-birini arxada quydu. Qeynana gəlinnən heç bir kümək gürmürdü. Ata-ana bu işdən çux narazı idilər. Ona gürə öz aralarında məsləhət gürdülər ki, necə etsinnər gəlin unnara kümək ətsin, ancax nə fayda. Gəlin hər səhər yuxudan durannan sunra azı iki sahat, ayna qabağında uturub qaş-güzünü düzəldir, dudax və yanağına ənlik-kirşan yaxırdı. Mən şəhər qızıyam, kənd işdəri mənə sərf eləmir, deyirdi. Bir gecə ər-arvad xəlvətcə məsləhətdəşdilər.

Kişi dedi:

– Mən səhər gəlin yuxudan durannan sunra əşiyi süpürməyə başlayacağam, sən gəlib mənnən süpürgəni almağa çalış, mənsə buraxmaram. Hər ikimiz əlləşək unda gəlin gəlib süpürgəni alıb əşikləri süpürər.

Bu yaxşı fikirdir, – deyə arvad razılaşdı.

Səhər açıldı, gəlin əl-üzünü yuyan zaman kişi süpürgəni alıb əşiyi süpürməyə başdadı. “Bu nə tuzdur, gürmürsünüz ki, mən əl-üzümü yuyuram”, – deyə gəlin dillənir. Hələ süz başa çatmamış, arvad yüyürür ki, süpürgəni kişinin əlinnən alsın, kişi bərk-bərk süpürgədən yapışdı. “Yux, verməərəm quy mən süpürüm!” – deyə kişi çığırmağa başladı.

“Ay kişi! Quca adamsan, ver mənə süpürgəni”, – deyə arvad səslənəndə, gəlin onnarın yanına gəlib deyir:

– Ay bədbəxtlər, niyə əlləşirsiniz? Heç yeri var? Bu gün biriniz süpürün, sabah biriniz. Burda səs-küy salmağın nə mənası var? – deyə gəlin bir yümürü gülüşlə güldü.

Arvad kişiyə baxdı, kişi arvada. Şəhər qızı alanın güzünə küllər ulub – deyə süpürgəni bir tərəfə, tulladılar. Özdəri isə utağa girib bu əməlin də baş tutmasınnan peşman uldular.

## QARI İLƏ DƏVƏ

Bir kəndə Əsmər addı bir qarı yaşayırdı. Ona bütün kənd hürmət edirdi. Ancax Əsmər qarı heç də yaxşılığı bilməz, una qiymət verməzdi. O, hər gün meşəyə gedib, şala ilə şax-şux gətirib qışa hazırrıx edərdi.

Bir gün Əsmər qarı meşəyə gəlir, şalasını quru odunnarla duldurub, evə qayıdırdı. O gürdü ki, yulun kənarında Aşım çəmənniyində bir dəvə otdayır.

– Heç bu dəvədən mənim xuşum gəlmir, quy bunu hürküdüm, itib getsin, – deyə əynindəki uzun dunu başına atır, sunra hu-hu-hu deyə qışqırır.

Dəvə səbr ilə başını qaldırır, gürür ki, bu Əsmər qarıdı, ona belə cavab verir:

– Ey qarı, Cihan müharibəsində mənim dalımnan tuplar gurultu ilə səs verirdi. Mən unda heç ürkmədim, indi sənin hu-hu-hu etməyindən ürkərəmmi? Yaxşısı budur ki, çıx öz yulunu get, əzab çəkmə.

Qarı gürdü, bu özü diyənnərdən deyil, şalasını gütürüb evinə getdi. Dəvə isə hələ indi də çəmənnikdə otlayır.

## NURUNUN ARVADI

Biri digərinə yaxın iki kənddə, iki dust yaşayırdı. Onnar uşaxlıxdan bir-biri ilə tanış, hətda qardaşdar kimi yaşayırdılar.

Dustdar vaxdına çatanda evləndilər. Hər ikisi sevdiyi qızları seçib evləmmişdilər.

Oğlannarın biri hər şeyi yaxşı başa düşən idi, digəri isə bir qədər avam uğlan idi. Onnardan biri Mirzə, o biri Nuru idi.

Toy gecəsi Mirzə gəlini qurxutmax üçün pişiyi tutub iki yerə cırdı, və dedi:

– Adə, mən sənə "pişik" deyirəm, sən mənə fikir verərsən. Kim mənə qulax asmasa, unu belə cırıb ataram. Gəlin bu işdən qurxub Mirzənin başına pərvanə tək dulanırdı, unnan elə

qurxurdu ki, əli-ayağı titrəyirdi. Nurunun arvadı luvğa bir arvad idi. O, Nuruya çux da fikir vermir, özü isdədiyi kimi dulanırdı.

Nuvruz bayramı günü idi. Nuru dusdu Mirzənin evinə bayrama getməli uldu. O, səhər arvadına xəbər verdi ki, Mirzəyə qunax gedəcək. Səhər yula düşdü. Mirzə qunağı lazımınca qarşıladı. Məclis quruldu. Hər şey o ki lazımınca süfrəyə düzüldü. Mirzənin səsi çıxanda arvad: "Baş üsdə, bu sahat!" – deyə hər işə diqqətlə yanaşdı. Nuru bu işə mat qalmışdı. Ara xəlvət ulanda o, Mirzədən bu siri açıb ona süyləməsini xahiş etdi.

Burda nə var ki? Mən gəlin gələn gecə bir dəcəl pişiyi gəlinin qabağında iki yerə cırıb atdım, dedim ki, kim mənə qulax asmasa, unu da belə cırıb atacağam. O günnən arvadın canına qurxu düşüb mənim hər süzümə əməl edir, – deyə Mirzə izah etdi.

– Aha, bu yaxşı tədbirdir, mən də belə edəcəyəm – deyə Nuru dilləndi.

Bayram qunağlığı qutarannan sunra Nuru evlərinə qayıtdı. Onnarın da bir dəcəl pişiyi var idi. Adam xürək yeyəndə stolun üsdünə atılıb "miyo-miyo" deyə miyildərdi.

Bu gecə bayram süfrəsinnən qalan aşı yeməyə başlayanda, pişik adəti üzrə stolun üsdünə atıldı. Nuru tez unu tutub, bir qıçın ayağının altına salıb, iki yerə büldü və dedi:

– Bax kim ki mənə qulax asmır, unun axırı belə ulacax.

Bu zaman arvad ayağa qalxıb Nurunun başına bir taxta vurdu:

– Ay axmax, sən gecikmisən, gərək bu işi ilk günnən görəydin, indi gecdir. Gəlini duvaxda ikən usda ələrlər, – deyə ələ əvvəlki xasiyyətin yeritməyə başdadı. Nuru isə elə-belə günün keçirməyə başdadı. Odur ki, deyillər:

Qunşun pisdir – uzax ul, arvadın pisdir – buşa. Pis arvadı düzəltmək ən çətin məsələlərdən biridir. Əvlənməkdə ehtiyatlı olun, amma gecikməyin.

## HİYLƏGƏR GƏLİN

Biri var idi, biri yux idi. Bir kişiynən bir xatun var idi. Onnarun bir oğlu var idi. Bir gün kişi xatununa dedi:

– Əy arvad, gel biz ülincən uğlumuzu evləndirək.

– Lap ürəgümnən xəbər verdün, mən də üzümə kümək edən bir adam axtarıram.

Beləliklə, bunnar razı uldular, uğlına qız dilədilər, bir az keçmədi ki, uğlunı evləndirdilər.

Gelin çux güzəl qız idi. Qaynatası və qaynanası una çux yaxşı baxırdı, biş-düşüni hazırlayır və hürmət edərdilər.

Aradan bir ay keçdi, gəlin üzünü açdı. İndi qaynana əmin idi, gəlin xırdaca ev işlərini gürəcək, kümək edəcək, lakin gəlin elini ağdan-qaraya vurmazdı.

Bir gün qaynana öz ərindən suruşdı: "Ay kişi, bu nə deməkdir ki, gəlin yuxudan eri işə gidənnən sunra durur. Nə inəgi sağır, nə malları nəxirə qatır, nə qoyun-quzuya baxır, hətta evi belə süpürgələmir. Qaynata dedi:

– Əy arvad, gəlin hələ təzədi, ürgənər, sunra işdəyər. Altı ay keçdi, gəlin genə heç bir şey eləmədi. Qaynata və qaynana razılaşıllar ki, duğrudan da gəlin çux tənbəldü. Bir gün bular belə bir qərara gəlillər. Səhər tezdən durub həyətə çıxmax, süpürgədən yapuşub, büyük səs-küy qalxuzsunnar. Biri desin ki, mənə ver süpürgəni mən süpürüm o biri desin, mənə ver süpürgəni, mən süpürüm. Bəlkə unda gəlin utanar və süpürgəni elimizdən alar.

Olar səhər təzdən durdilər, həyətə çıxdılar, süpügədən her ikisi yapışdılar, bərk-bərk sügüşərək, hərəsi süpürgəni özünə tərəf çəkərək belə deyirdi:

– Ver mən süpürüm.

O biri deyirdi:

– Yux, mən sənnən kiçigəm, həyəti mən süpürəcağam.

Bu vaxt gəlin uyanır, pəncərəni açır, baxır, kimdü səs-küy çıxaran. O, tez aşağa düşür, süpürgəni ularun əlinnən dartub

alır. Qucalar şad olullar və ürəyinnən keçirirdilər:

– Axır ki gəlin başa düşdü.

Gəlin güzdərini bərəltdi və qışqırub ulara dedi:

– Həyəti  günurtaya kimi sən süpür, – deyib qaynatasına baxdı. Günurtadan sunra isə sən, – deyib qaynanasına baxdı. Baxun, bu günnən sunra burada səs-küy qalxuzmayın. Quyun, rahat yuxulayım.

# VI. ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

Adımı kuvənc quy, uçax usdə quyma.

Abay bizdə, biz abaylarda.

Ad adamı bəzəməz, adam adı bəzəyər.

Ad mənim, dad sənin.

Adam var güzdən qızarar, adam var süzdən.

Adamın nə çux bilən qardaşı ulsun, nə də güzəl bacisi.

Adamın adı çıxınca, canı çıxsın.

Adamın dusdan düşməni çux ular.

Adamın yerə baxanı, suyun lal axanı.

Azarrının yanında alma yeməzdər.

Ayağda uturub başdan danışma.

Ayağı qədərdən artıx iri adamın bərəkəti ulmaz, ya kışı və ya qadın ulsa, unun ayağına düvlət gəlməz.

Ayağı nərdivana bir-bir quyarlar.

Ayran içdim xataya düşdüm.

Ayrı qardaş – yad qunşu.

Allah vərmağa isdəsə, yox yərdən çıxarar.

Allahdan gizli deyil, bəndədən nə gizli.

Allahın arvadı ulsaydı, u da arvaddan qurxardı.

Alma öz ağacınnan uzağa düşməz.

Ana bala ucunnan canını uda yaxar.

Analı qızın işi gürünər, anasız qızın dişi.

Anası gəzən ağacı qızı budax-budax gəzər.

Anasına bax, qızını al.

Anlamayana yaxşılıx eləməkdən, qulax asmayana nəsihət süyləməkdən, buşbuğaza sir verməkdən büyük səhv ula bilməz.

Annamaz, annasa da bannamaz.

Ara süzü ev yıxar.

Araba yıxılannan sura yul güstərən çux ular.

Arabanı at aparmaz, apra aparar.

Arabanın yanıynan, mərd adamın dalıynan.

Arvadın axır hiylesi ağlamaxdır.

Arvadın hürməti ərinə gürə, uğlunun izzəti atasına gürə, şagirdin biliyi məllimə gürə, quşunun gücü sərkərdəsinə gürə aşkara çıxar.

Arpa yemiş at mənzil kəsər.

Artıx tamah baş yarar.

Arxlar axar, çay ular.

Arıx ata quyruğu da ağırdı.

Asda qaçan namərddi.

Asda gəzib bərk qaçan.

At alınca yəhər alır.

At gürəndə axsayır, su gürəndə susuyır.

Ata arpa, igidə aş.

Ata evi meydan evi, ər evi zindan evi.

Ata evində duzdu su, ər evində duzdu su.

Ata mindi, atasını tanımadı.

Ata ulmayan ata qədrini bilməz.

Ata güzdür, uğul güzün işığı.

Atanın nəsbi (sənəti) uğula halaldı.

Atası turşu yeyib, balasının dişi qamaşıb.

Atlı itlə piyadanın yuldaşdığı tutmaz.

Atılan qəçələyə tikan batar.

Atı yük əzər, igidi qəm.

Atı nallayıllar, dəvə ayağını uzadır.

Axmax öz axmaxlığını heç vaxt buynuna almaz.

Axmax başın cəfasını ayaxlar çəkər.

Axıra qalan axura qalar.

Aşığınkı haynandı, mullanınki vaynan.

Ac adamı dindirmə, tux adamı tərpətmə.

Ac adamın gücü ulmaz, düvlətdinin insafı.

Ac quyma uğrı ular, çiplax quyma uğraş ular.

Ac ul, mərd ul.

Ac sərçənin yadındakı darı olar.

Ağacı süyüd ulanın barını güzdəmə.

Ağzıma dad, qarnuma şivən.

Ağzını xeyre aç, şər ucağ başındadır.

Ağladım bacarmadım, güldüm günümü keçirtdim.

Ağlı çux, pulu yux.

Ağıl bazarda satılmaz.

Ağıl yaşda deyil, başdadır.

Ağıl ulmayan yerdə bəxt neylər?

Ağıl xeyir qapılarının açarı, səadət xəzinəsinin kilididir.

Ağıl xuşbəxtliyin açarıdır.

Ağıllı biləni süyləməz, dəli süyləyəni bilməz.

Ağıllı quca evdə ulsa, ağıllı cavan da ular.

Ağıllı düşmənnən qurxma, ağılsız dusdan qurx.

Ağıllı işinə baxar, cahil dişinə.

Ağıllıya bir işarə, nadana bir kütək.

Badam barı ilə, adam girdarı ilə tanınar.

Bazarda bez ucuzdu diyə, adam özünü üldürməz.

Bal qabı tutanın əli bala girər.

Balığın başı, cuhudun aşı.

Baş bədənin tacıdır.

Baş ürəkdən su içər.

Başmaxçının başmağı yırtıx ular.

Başı dazdır, ağlı az.

Başına gələn başmaxçı ular.

Beş gün quv, bir gün uv.

Biz gəldik gəlin gürmağa, gəlin gətdi təzək yığmağa.

Biznən yumruğun hücəti ulmaz.

Bildir üləni, bildir basdurdı.

Bir "bugün" iki "sabahdan" yaxşıdır.

Bir adam ki, səni şirin dilə tutdu, unutma ki, hiyləsi var.

Bir ata yeddi uğul bəsdər, yeddi uğul bir atanı bəsdəməz.

Bir var "Koroğlu", bir də var kur kişinin uğlu.

Bir insan canının qədrini bilməsə, malının da qədrini bilməz.

Bir yorğanın altında dürd adam yata bilməz.

Bir ulsun, fərli ulsun.

Bir üküzdən iki dəri çıxmaz.

Bir əldə ulan barmaxlarun hamısı bir sümükdür.

Birisi işdəyir, o birisi dişdəyir.

Bitə açıx ələyib, dununu uda atma.

Bişincə güzləyən, düşüncə də güzdəyər.

Buynu uzun, beyni buş.

Buyun ulsa, buyundurux tapılar.

Burc yaddan çıxmaz.

Burclu burclunun sağlığını istər.

Buş çuval dik durmaz.

Buşdan bir çıxar, bərkdən iki.

Bu günün işini sabaha quyma, bilmədiyin işə başını suxma.

Buynuzdarı içəridə ulan xəxəy.

Büyük bəlaların mənbəyi tamahkarrıxdır.

Büyük diyənə qulax asmayan büyük balaya düşər.

Büyük yırtığın büyük də yamağı ular.

Büyüksüz evdə xeyir-bərəkət ulmaz.

Bühtana düşən udsuz yanar.

Bədən qucalar, künül qucalmaz.

Bəy dediyin nədir, bəyəmmədiyin nədir?.

Bəynən bustan əkənin tağı çiynində bitər.

Bərk adamnan alınan yumurtanın sarısı ulmaz.

Bərəkətə “haraya gitəsən” diyəndə “hürmət axtarmağa” – didi. Hürmət ulmayan yerdə bərəkət ulmaz.

"Can" deyən "can" eşidər.

Canını cibində gəzdirir.

Cidanı çuvalda gizlətmək ulmaz.

Cin şeytana xuş gələr.

Cümə günü atılan daş keçəli tutmaz.

Cıda çuvalda gizləmməz.

Çalan ulsa, uynayan tapılar.
****Çal***ğı olan yerdə uynamax ular.***
Çağırılmamış qunax süpürülməmiş yerdə əyləşər.

Çuban çux ulanda, qoyunu qurd yiyər.

Çuqannan qətirər, yabaynan suvurar.

Çux azın yanına gəlməz.

Çux isdəyən azdan da ular.

Çux işdəyən balta ayax altda ular.

Çüldə inək, evdə küpək.

Çürəyi tək yeyən, yükünü də tək aparar.

Çürəksiz ev ulmaz, küçəsiz kənd.

Çəkic üstə ul, zindan üsdə ulma.

Dama-dama daşi dələr.

Damcı daşı deşər.

Danışanda danışığın başa düşməyən  xata çıxartar.

Danışanda süzün yarımçıx quyan varsa, paxıldır, səni qürməh isteyen degil.

Daş düşdüyü yerdə ağır ular.

Desələr ki, güydə tuy var, arvaddar nərdivan axtarar.

Dil adama bal da gətürər, bala da.

Dil pərqarı ulmayan insan danışdırsan, acı ular.

Dili şirin, əməli bəd.

Dilini saxla, başın salamat ular.

Dinsəm dilim yanar, dimməsəm ürəyim.

Dinənin bağrını dimməyən partladar.

Diri it, ülü aslannan yaxşıdır.

Dişdəri səyrəg ulan adamla sevda eləmağ çətin ular.

Dişsiz ağız, daşsız dəgirman.

Dust başa baxar, düşmən ayağa.

Duslux ki var, şüşədir, sındırarsan kim yapar?

Duslux məhəbbəti xain və alçax adamlar araya girənə kimi qalar.

Dusnan ye-iç, alış-veriş iləmə.

Dusdsuz adam küksüz ağac kimidir.

Dusdun it ulunca, it dusdun ulsun.

Duran üküz yatan üküzün başını batırar.

Dünyanı arsızla həyasız yiyər.

Dünənki nükərçiliyinə baxma, bugünkü ağalığına bax.

Düşmən qapıya gəlsə, unu quvmazlar.

Düşmən zəif ulsa da, ehtiyatı əldən buraxma.

Dügülməyən düyüdən  aş ulmaz.

Dımbılı ələk, dımbılı sac, əlim xəmirdə, qarınım ac.

Düvlətliyə "Mübarək", kasıba "Hardan uldu"?

Düymə taxta qapımı, düyəllər dəmir qapını.

Dürd şey bir-birilə tutmaz; nəcibliklə nanəciblik, xeyirlə şər, işıxla qarannıx, gündüzlə gecə.

Dəvə durdu, dam yıxdı.

Dəvənin harası düzdür ki, buynu da düz ulsun.

Dəvəçi ilə dust ulanın, qapısı gen ular.

Dəgirman iki daşdan, məhəbbət iki başdan.

Dəli aydan qurxar.

Dəliyə ağul, qaraya sabun kar eyləməz.

Dəliyə dəli xuş gələr.

Dəmir islammaz, dəli utanmaz.

Dərd getməz, dəyişər.

Dərin su bulammaz.

Dəryadan keçib çayda buğuldu.

Ev alma, qunşu al.

Ev yıxanın evi yıxılar.

Ev tikməyən kişi ucalmaz.

Evi ev edən arvaddır.

Evində yux urvalıx, canında çux kuvxalıx.

Evinə qetsən, şırın ixtilat unda tapılmaz, əyər bir insan ki, əlini üzünə quyub barmağları arasınnan adama baxsa. U adamnan çürək kəsmək yaramaz.

Eyibsiz dust axtaran, dustsuz qalar.

Eyilib ülməkdənsə, dik durub acınnan ülmək yaxşıdır.

El ağzı, fal ağzı.

El sevəni aləm sevər.

El tikəni sel sükə bilməz.

El güzünnən düşən, heç vaxt buy atmaz.

Elin ağzını bağlamax ulmaz.

Elçi çux ular, qismət bir.

Elə süz deyir ki, dəymişi qalıb, kalı tükülür.

Eşqin tərsi, avandı ulmaz.

Eşşəyə minən adam, eşşəy iyinə davam ələməlüdü.

Eşşəyə gücü çatmayanda palanı dügür.

Eşşək eşşəyə "uzunqulax" dedi.

Ehtiyatlı ul, ümrü fələyin badına vermə.

Ehtiyatlı uğulun anası ağlamaz.

Əyri utur, düz danış.

Əyər bir adam kasıblığda sənə yuvux ulub, düvlətə minəndə səni axtarmasa, dayax ulmasa, namərddir, qardaş da ulsa.

Əyər sən danışanda dimməz qulax asan varsa, bil ki, sənə **yavuq*** adamdır.

Əyər çux danışan duğrusunu üzünə deyə, gərək ki, dustuğda mühkəm ular, çürəyi itirməz səninnən ülümə qədər.

Əyəsüz malı qurt dağıtar.

Əli bağlını hər kəs dügər.

Əli buş, üzü qara.

Əlim xəmirli, qarnım ac.

Əlimnən tutan yux, dalımnan itələyən çux.

Əlin çatmayan yerə əl uzatma.

Ələ bir ağıllı tapılmaz ki, o sudan qurulux, uddan suyuxlux tələb etsin.

Əmiyə qalan gəmirə qalar, dayıya qalan dəmirə.

Əmək, güzəllik və ağıl yalnız o zaman üz səmərəsini verə bilər ki, adamın bəxti ağıl üstə ula, yerdə qalan nə varsa, hamısı heşdir.

Əmən quzu iki ananı əmər.

Ər sevəni el sevər, ər dügəni el dügər.

Ərim, ər ulsun, evim kul dibi.

---------------

*Yavuq – yaxın

Ərri adam siqal vurar birçəgə, güzgü həcət degül güyçəgə.

Ərinəni ər almaz, alsa da saxlamaz.

Əriştə bəylər aşı, düşbərənin yuldaşı.

Ərlə arvadın savaşı – yaz gününün yağışı.

Ərsiz xatun, yüyənsiz at.

Əsili hükümdar rəhimli ulur.

Ət ulsa, qazan tapılar.

Əşşəyün yanindaki at əşşəg kimi qulaxlarını sallatar.

Fələy həyat hükmlərinin ən dəhşətlisidir .

Gazana tüksən, qaşığa gələr.

Gidənə yuldaş, gələnə qardaş.

Gülüş var ki, ağlamağın tayıdır.

Güvə malı üzər, qəm canı.

Gülüncə gülmə, üzün gülünc ularsan.

Günü gedib, külgəsi qalıb.

Güz gürmür, sifat utanmır.

Güzsüz yaşamax ular, vətənsiz yaşamax ulmaz.

Güzü alma-armud dərir.

Güzəl udur ki, camalı xuşbəxdər günütək ağ, saçdarı bədbəxdər günütək qara ula.

Güzəl güz üçün, ağıllı künül üçün.

Güzəllik baş tacıdır, hər adama qismət ulmaz.

Gürdü zarafat, gürmədi gərçək.

Gəzən ayağa daş dəyər.

Gəzən ayağdan ular, ağlayan güzdən.

Gəzənin ayağı şişər, uturanın başı.

Gəldi əcəl,  vermədi macal.

Gəlin duvaxda üyrənər, uşax beşikdə.

Gələnə qapı açıxdır, gedənə yul.

Gərəkməzi saxla, bir gün gərəx ular.

Hax gəlsin, nahax gəlməsin.

Havayı sirkə baldan şirindi.

Halal artar, haram batar.

Halva - halva diməklə ağız şirin ulmaz.

Haram mal, harama çıxar.

Hürmət iləyən, hürmət gürər.

Hər ağaşdan şirin bar güzləməx ulmaz.

Hər quş öz yuvasının ağasıdır.

Hər zərəl bir ağılı artırar.

Hər yemişin öz dadı var.

Hər kişi üz külbəsinə kül ələməlidi.

Hər kişinin üz dərdi, dəyirmançının su dərdi.

Hər kədərin dalınca bir sevinc, hər əyləncənin dalınca bir işgəncə gəlir.

Hər kəs üz əyibini bilsə, gəcə gəzər.

Hər kəsin dəlisi evdə, dərdi qarnında.

Hər səsi yuğun, hər bədəni büyükdən pəhləvan ulmaz.

Hər çibin bal versəydi, balı qaşıxla yeyərdilər.

Həsən suxdu dəyirmanı deyil ki.

Xayin vaxtınnan əvvəl ülər.

Xalam bildi, aləm bildi.

Xalı tuxuyan xak ular, uğlan duğan pak ular.

Xatun var, arpa dügər aş elər, xatun var, kişini külbaş elər.

Xatun yıxan evi fələk tikməz.

Xatuna qulax asanun başına ders ular.

Xeyirlə şərin dosdluğu tutmaz.

Xidmət-xələtsiz, xəyanət cəzasız ulmur.

Xürəgin dadı duzdadır, dünyanın dadı güzdə.

Xəyanətə qarşı mərhəmət ulmaz.

Xəmir təz gələndə arvad diyər: "Ərim məni çux isdəyir".

Xəsiyyət, nəsildən keçər.

İynə ilə qabır qazır.

İki qulax iki eşitmək üçün, bir ağız bir demək üçün.

İki nəfər didi: "İçmisən başını quy yerə".

İkinci arvad yamaxdır.

İlan qabığınnan çıxar, xasiyyətini dəyişməz.

İlan gürən ipdən qurxar.

İnsan dusdunu-düşmənini tanımalıdır.

İnsanda sağalmayan yara pis xasiyətdi.

İsdəyənin süzü dəydi, isdəməyənin güzü.

İt qədər - ... getirər, hamısınnan çux getirər.

İt itnən əlləşdi, yolçuya Allah verdi.

İt itün ətini yiməz, gürgaha birgə gıtməz.

İt yiyəsini unutmaz, pişik evi.

İt hürə-hürə başına qurd yığar.

İti yada sal, ələ ağac al.

İtin axmağı tula ular, atın axmağı yurğa.

İtin dalına keç, atın qabağına.

**İxtilat*** dananı qurda verdi.

İxtilat şirin, künbə yandı.

İş bilənə yanaşır, isdəyənə yux.

İşi bilənə tapşır, isdiyənə yux.

İşdəyəydü əşşək kimi, yaşayaydü bek kimi.

İşdəyən balta qapının altda ular.

İşdəyən dəmir pas tutmaz.

İşdəməyən çürək yeməz.

İşdəmək adamı safa çıxarar.

İşsizlik namussuzlux gətirər.

İşə bax, ala qarğa, şux tərlanı bəyəmməz.

Kal danışan süzünü yarımçıx quyar.

Kar xatının qarğışı, Allah versin yağışı.

Kasıb pul tapdı, quymağa yer tapmadı.

Kasıblıx eyib deyil, uğurrux eyibdir.

Keçini dəvə adına satır.

Keçmişi qaytarmax, gələcəyi  bilmək ulmaz.

Keçmə namərd kürpüsünnən, quy aparsın sel səni.

Keçəl başınnan qurxar, kur güzünnən.

Keçəl qız bəyənincə, tuy əldən gedər.

Keçən keçdi, vay gələcək dərdidir.

Kişi evin fəhləsi, xanım evin bənnası.

Kişi ud ulanda, arvad su ulmalıdır.

Kişiləri iki, xatunnarı yüz.

Kişinin qarnı bıçaxdan başqa hər şey isdər.

----------------
İxtilat* – söhbət

Kişinin süzü bir ular.

Kurlar şəhərində bir güzlü də hükmdardır.

Kurun güzü övrəzə açılar.

Kusa getdi saqqal gətirə, bığını da quydu gəldi.

Kur kura ayıb ələməsə, kurun bağrı çatdar.

Kur nə istər? İki güz, biri əgri, biri düz.

Kiçik adam fitnəkar ular, üzünü hamıdan yüksək tutar.

Küç geri qayıdanda, keçinin axsağı qabağa düşür.

Kühnə düşmənnən insana dust ulmaz.

Qabağa çıxsan başına vurallar, dala qalsan, dabanına.

Qabağa gedirəm, deyillər bicdir, dala qalıram deyillər gicdir.

Qazan açıx ulsa da, itdə də namus gərək, hamısını yeməsin.

Qazan daşanda çümçə mili astadan çıxar.

Qaya uçanda tuz qupar.

Qaymağı üzdən, balı dibdən yeyəllər.

Qayna qazan, yazacan, utur, qunax qışacan.

Qalan işə qar yağar.

Qar əkılən məhsulun yurğanıdır.

Qaraquş milçək tutmaz.

Qara qız ağarmadı, bulaxlarda su qalmadı.

Qara qız bəzənincə, tuy əldən gedər.

Qara günün ağ günü də var.

Qaradan qaş olmaz, özgədən qardaş.

Qarannığa daş atmazdar.

Qardaşqardaşı istəsəydi, Allahın qardaşı ulardı.

Qarnı tuxdur, güzü ac.

Qarğa qarğanın güzün çıxartmaz.

Qarğəynən duslux ədənin dimdiyi ... ular.

Qaş düzələndə, güzdən də uldum.

Quvun çıxdı, at xiyarı.

Quyma başını balışa, ver özünü yarışa.

Qunax qunağı isdəməz, ev yiyəsi heç birini.

Qunax süfrənin yaraşığıdır.

Qunaxnan əcəli bir kəz bilməz.

Qunşu qunşuya baxar, canını uddara yaxar.

Qunşu yaxşı ulsa, keçəl qız ərə gedər.

Qunşunun tuyuğu qunşuya qaz gürünər.

Qunşuda bişər, bizə də düşər.

Qunşun pisdir küç qutar, dişin ağrıyır çək qutar.

Qunşunun xeyrin istəməyən özü var olmaz.

Qurxa-qurxa cənnətə gedincə, gülə-gülə cəhənnəmə get.

Qurxaga **tabu*** ular.

Qurxan güzə çüp düşər.

Quç düyüşünə quç düzər.

Qoşqa dana bir nəxri oxşarsuz gürsətər.

Quca evin bərəkətidir.

Quca rahatdıx sevər.

Quzu quzuynan gəzər.

Quyu qazıyan quyuya düşər.

Qurbağa çux dil biləndi, amma ağzın açsa, ağzinə su girədü.

-----------------

Tabu* –qadağa

Qurd qucalanda çakkala gülünc ular.

Qurd dumannı gün axdarar.

Qurd əti qurda haramdır.

Qurddu, quyun dərisinə girif.

Qurtdan qurxan meşəyə gitməz.

Quru (buş) süfrəyə nə bismillah.

Qurt qarannuğu sevər.

Qüvvət hər şeyi sındırar, ağıl qüvvəti.

Qız anadan ulanda, güzünü açar, deyər: "Bura bizim ev deyil".

Qız anası elçi güzdər.

Qız qapısı şah qapısı, mini gələr, biri razı gedər.

Qız deyər anasız olaydım, bədəsil gəlin deyər qaynanasız.

Qız yükü, duz yükü.

Qız küçəri quşdur.

Qız özgəsinin əmanətidir.

Qizli qəzən aşkara duğar.

Qızıl palçıxda da parıldayır.

Qırmızıtük insan insafsız, namərd ular.

Qədərdən artıx buyu hündür adam axmax ular.

Qəzən ayağdan ular, ağlayan güzdən.

Qələm yazanı qılıc puza bilməz.

Qələm süzdən kəsgindir.

Qələmin ucu, qılıncın gücü.

Qəm dağı yerindən quparar.

Qərib dərdin tək ağlar.

Qəribin dili qısa, buynu uzun ular.

Laylay bilirsən, yat yuxla.

Lələ küçüb, yurdu qalıb.

Mal itirənin min yərə gumanı gedər.

Mal yiyəsinə uxşayar.

Malını yaxşı saxla, qunşunu uğru tutma.

Milçək şirinə yığılar.

Mullaya al demişlər, vər deməmişlər.

Mullanın qarnı beşdir, həmişə biri buşdur.

Mullanın şeytanla nə alveri?

Mullanın cibi dərin ular.

Muxənnətdən mahna əksük ulmaz.

Müsibət düzümlü adama bir, dözümsüz adama iki qat ağır ular.

Mərd Allahınnan gürər, namərd yuldaşınnan.

Mərdnən daş daşı, namərdnən bal yemə.

Məsləhətlə atılan daş uzağa düşər.

Məsəl - güldür, süz - çiçək.

Məclisdə içməyənə qəst ələyən, unu üzə salan düşmandır.

Məclisdə sühbətə başlasan, əyər ki sənin sühbətini kəsən varsa, səni sevən dəyil. Ara qarışdırır.

Məclisdə uturannardan əyər yuldaşlarına qüz edən, işarə ələyən varsa, u pis adamdı.

Namərdə yaxa vermə, mərdə arxa ul.

Nisyə çaxır içən iki dəfə keflənər.

Nubat (nüvbə) kasıba çatdı, deyirman yatdı.

Udu yağnan sündürməzdər.

Ulan uldu, turba duldu.

Ulanda qat-qat, ulmayanda ac yat.

Ulmalı cücə yumurtada çivildənər.

Unun çuxasında namaz yuxdu.

Urtaxlı qazan gec qaynayar.

Urtaxlı tuyuxdan tək yumurta yaxşıdır.

Uğlum uğul ulsun, una tapılmayan qız ulsun.

Uğru qalana yanar, ev sahibi gedənə.

Uğul arxadır, qız yaraşıx.

Öz atasına da xeyir vermiyən adamdır.

Özü üçün yatır, özgələr üçün yuxu gürür.

Özünnən düvlətdi ilə urtax ulma.

Özünün yavan çürəyi üzgənin aşınnan yaxşıdır.

Özünə qıymadığını heç vaxt özgəyə qıyma.

Özünə rəva bilmədiyəni, başqasına rəva bilmə, çünki hər bir əməlin öz mükafatı var.

Özgə kisəsindən pul bağışdamağa nə var.

Özgə süzünü danışanda öz süzünü eşidərsən.

Özgəyə quyu qazıma, özün düşərsən.

Özgənin eybini sənə deyən, sənin də eybini özgəyə deyəcək.

Öküzün altınnan buzov çıxarır.

Ölmüş inək süddü ular.

Ölmə eşşəyim, ölmə yazda yunca bitəcək.

Ölülər elə bilir ki, dirilər həmişə halva yeyir.

Ölüm var ölüm kimi, ölüm var zülüm kimi.

Ölən adam dirilməz.

Ört qapını, içəridə qalan sənindi.

Pay paylayanda payın azı pay paylayanın ulsa, u düz adamdır, danışıx sevən deyil.

Payız cücəsinnən xuruz çıxmaz.

Paxıla Tanrı verməz, versə də qarnı duymaz.

Peşə yaddan çıxmaz, lakin incəlikləri unudular.

Pis adamnan dost ulsan axırı peşmançılıxdır, nə qədər yaxşılıx eləsən də, yaxşılığı başa düşməz.

Pis süz yiyəsinə qayıdar.

Pisməyə pisməy etmə.

Pişik əl sürtər yerə gidər.

Pul sənnən, xərcləmək mənnən.

Puldan qunşu payı ulmaz.

... gicirtkanun gürçinnən başqa gül bitməz.

Pəhləvannar vuruşda, əli düz adamlar ticarətdə yapılar.

Rüşvət cəhənnəmin açarıdır.

Sabaha qalan xəşil dil üyrənər.

Saqqalı uzun, ağlı az.

Sayanın qulu, saymayanın ağası.

Saman uğrisi yazda çikər.

Sarıtük adam çux qılıxlı ular.

Saxla günü, gələr günü.

Sağ güz sul güzə inanmır.

Sağlamlığın qədrini xəsdə bilər.

Sirkə tünd ular, qabinə güç ular.

Sirri deməh ulmaz, deyilsə, o sirr ulmaz.

Sirri öz ürəyinə də dimə.

Sunalayan sunsuz qalar.

Su çuxura yığılar.

Suya süykəmmə, xana inamma.

Suyun lal axanı, adamın yerə baxanı.

Susmax razılıx əlamətidir.

Süddə ağzı yanan, suyu üfürüb içər.

Sınən ayax nə uzun ular, nə də qısa.

Süz vaxtına çəkər.

Süz vermək asandır, yerinə yetirmək çətin.

Süz deyən az ular, süz çeynəyən çux.

Süz nə qədər ki, deyilməyib, onu hər zaman demək ular, lakin, deyilmiş süzü geri qaytarmax ulmaz.

Süz turbaya girməz.

Süz çux ulan yerdə, yalan da çux ular.

Süzü mən nə qədər ki, deməmişəm qulumdur, ələ ki dedim, uldu ağam.

Süzün düzünü uşaxdan suruş.

Süzə usda, itə xəsdə.

Səbir acıdır, meyvəsi şirin.

Sən desən ağa ağ, u ki deyir ağa qara, undan əl çək, axırı danışıxdır, qalmaqaldır.

Sən dustu axtarmağında ul, düşmən ucax başındadır.

Səni dənizə susuz aparıb, susuz gətirərəm.

Səni çux istərəm, iki güzüvü yux istərəm .

Səni güydə axtarırdım, yerdə tapdım.

Sərçədən qurxan darı əhməz.

Şirin dil ilanı qumunnan çıxardar.

Şərihli qazan gec qaynayar.

Taza ələk mıxdə ular, mıxdən düşən vaxdı da ular.

Tay tayını tapar, su çuxurunu.

Tikədən qarın duymaz, məhəbbət artar.

Tuydan sura nağara, uynayır fəqir-fuqara.

Tuyuğun uşmağı zibilliyə qədər olar.

Tükü sarı, dişdəri səyrək, güzdəri güy adam yaxşı ulmaz.

Tülkü nə bilir tuyux bahadır.

Tülkünün şahidi quyruğu ular.

Təz evlənən də, təz çürək yiyən peşman ulmaz.

Təzə süpürgə təmiz süpürər.

Təzək yığan əllər, ipək gürdü dulaşdı.

Təklif ulan yerdən qayıtma, təklif ulmayan yərə başını suxma.

Tələsən su dəryaya çatmaz.

Təmbəl adam yatağan ular.

Təmbəl deyər: Ver yiyim, ürt yatım.

Təmbəl xatun su dağıdanda deyər: "Aydınlıqdır".

Tərsinə danışan adamla yul gedə bilməzsən.

U ki yerə baxıb sənə qüz gəzdirir, qalmaqal düşsə, sevinər, başqasına yaxşılıx ətməyini qabul bilməz.

Uzax yerin arpasınnan, yaxın yerin samanı yaxşıdır.

Uzaxdakı qardaşdan yaxındaki  qunşu yaxşıdır.

Uzaxdan gələn zurnanın səsi bərk çıxar.

Uman yerdən küsəllər.

Utan utammazdan, qurx qurxmazdan.

Uşağlı evdə qeybət ulmaz.

Uşağlıxda yalan deyənə büyüyəndə də inammazdar.

Uğri papağ bərk tutar.

Üz ürəyin güzgüsüdür.

Üz gürsətən yerdən ərimmə, üz gürsətməyən yerdə gürümmə.

Üzdən güzgü, daldan qayçı.

Üzümə bax, halımı bil.

Üküz qazananı üküz yiməz.

Üküz üldü, ortaq ayrıldı.

Üstü qalay, içi pas.

Üstümü unnu gürüb, adımı dəyirmançı quyma.

Vay şələ babanı basa, ya da baba şələni.

Varrının malı, kasıbın üvladı.

Varrının xoruzu da yumurta duğar.

Vaxtsız gələn qunaq üz kisəsinnən yeyər.

Verən əl ac ulmaz.

Vəfalı dust yad ulmaz, gürməsə yüz il səni.

Ya vəlvələdən, ya zəlzələdən.

Ya tələf ollam, ya xələf.

Ya hədəf, ya tələf.

Yabı at (kürən) xasiyyət itirməz.

Yad ağlar - yalan ağlar.

Yada yalvarınca, quy məni sel aparsın.

Yazda yatan qışda ağlar.

Yaylağa qar düşər – qışa nə qalar, saqqala dən düşər – yaşa nə qalar?

Yalançını mənzilinəcən quvallar.

Yalqızlıx pis yuldaşdan yaxşıdır.

Yamanı gürməyən, yaxşının qədrini bilməz.

Yarınnan ayrılan yeddi il ağlar, yurdunnan ayrılan ülənəcən.

Yastıx atan yastıxda oturar.

Yatan daşın altına su keçməz.

Yatmağına baxanda, gürdüyü yuxuya min şükür.

Yaxşı diyiblər, nəzəriyyə təcrübəsiz, şəkil məzmunsuz, düvlət ədalətsiz, dustlux sədaqətsiz ulmaz.

Yaxşı igid dayısına uxşar.

Yaxşı cücə yumurtadan bilinər.

Yaxşıluğa yamannuğ, qara itə samannuğ.

Yaxşılıx itməz, yamannıx itər.

Yaxşılıx qapı açar, məhəbbət içəri girər.

Yaxşılığa yamannığ, kur eşşəyə samanlıx.

Yaxşılığa yaxşılıx hər kişinin işidir, yamannığa yaxşılıx ər kişinin işidir.

Yaxşını yada vermə hayıfdı, yamanı yada vermə ayıbdı.

Yağış yağanda dəlinin güzü yaşlı ular.

Yeddi qunşudən soruş, amma öz bildigivi əldən buraxma.

Yeddi karan ülç, bir karan biç.

Yeddi fərsiz uğuldan, bir fərri qız yaxşıdır.

Yeyin at özünə heç vaxt qamçı vurdurmaz.

Yeməyin usdası, işdəməyin xəsdəsi.

Yersiz danışmağın axırı peşimançılıxdır.

Yul büyüyündür, su kiçiyin.

Yulçü yulunda gərək.

Yurğanıva baxıb, ayağıvı uzat.

Yuxsulluxdan və dilənçilihdən ölüm yaxşıdır.

Yumurta tuyuğa ağıl üyrədər.

Yumurtadan yun qırxır.

Yumurtası dəra düşüb.

Yurdda yaman qalar.

Yuxlayanı yuxlayan uyada bilməz.

Yüz namərd bir mərdə qurban.

Yüzdən quzuçu tutar daldan qayçı.

Zalıma rəhm etmək məzluma xəyanət etmək deməkdir.

Ziyan acıdan acıdır.

## VII. TAPMACALAR

O nədi ki, kütüyü güydədir, budağı yedə?
**(göy qurşağı)**

***

Bir nimçədə iki tuvux,
Biri isti, biri suvux
**(yay-qış)**

***

Atası diyər - haray bəlüm!
Anası diyər - mən neyləyim?
Uşaxları diyər - gelün qutarun.
**(tir duran şaxşaxlar)**

***

Alçax damnan qar yağar.
**(ələk)**

***

Dürt ayağlu, başı papaxlu.
**(taya)**

***

Tap-tupuş, yerə yapış.
**(polad)**

***

Üsdü qara, içi qırmızı.
**(qaloş)**

***

Gəl, gəl deyəndə, gəlməz,
Gəlmə-gəlmə deyəndə, gələr.
**(dudağlar)**

***

Yer altında kük gügərçin
**(yerkökü)**

***

Atdan hündür, itdən alçax.
**(yəhər)**

***
O yanı taxda,
Bu yanı taxda,
İçində alabaxda.
**(bəşigdə uşax)**
***
Miccurux çubuğları üsdündə ağ fərələr.
**(dişlər)**
***
Çüldəki atdar,
Çəməndə utdar.
Vaxtı çatanda,
Dimdiyi çatlar.
**(pambığ)**
***
Altı bulax içəllər,
Üsdü zəmi biçəllər.
**(quyun)**
***
Bir qutum var alanı,
Gəzər cümlə-cahanı.
Gütürrəm üldürməyə,
Nə əti var, nə qanı.
**(fikir)**
***
Ağ çül, qara tuxum,
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.
**(yazı)**
***
Dürd bacı bir-birinə baxar.
**(divar)**

***
Danışıram hündürdən,
Səsi gəlir kəndirdən.

**(telefon)**

***
İçində qışdır, çülündə bahar.

**(soyuducu)**

***
Bir güzgüm var qapaxlı,
Altı-üsdə saçaxlı.

**(göz)**

***
Bir qabım varağzı aşağı quyuram, dulur, ağzı yuxarı quyuram, buşalır.

**(papaq)**

***
Yux tüstüsü, yux hisi,
Əv qızdırır isdisi.

**(qaz)**

***
Mən qalıram, o qalır.
Mən gedirəm, o da gedir.

**(külgə)**

***
Güdək kişi çəpər tuxur.

**(biz)**

***
Güy üzündə yarım əppeh.

**(ay)**

***
Evimiz altı baxçalar,
Sürməli sandıxçalar.
Nənəmin bir dunu var,
Gah geyər, gah buxçalar.

**(güy qurşağı)**

***
Güdək kişi allanar,
Qızılları sallanar.
**(zuğal)**

Gecə qaravaş,
Gündüz bikə.
**(yorğan-döşək)**
***
Gecə bikə, gündüz qaravaş.
**(süpürgə)**
***
Dəryada balıx, başı da yanıx.
**(piltə)**
***
Bir qapım var Derbendi,
Nə bərəsi, nə bəndi.
Hey açılıb-bağlanır,
Heş kəs bilmir bu fəndi.
**(güz)**
***
Bir tikə fit daşı,
Yandırar dağı-daşı.
**(bibər)**
***
Hər evdə bir güllü yetər,
Gələn üpər, gedən üpər.
**(dulça)**
***
Ay növhanı, növhanı,
Çaxmax hanı, quv hanı?
Səksən səkkiz dəyirman,
Duxsan duqquz növ hanı?
**(bədəndəki damarrar)**

***
Bizim evdə kəndi var,
Kəndinin kəməndi var.
Uçub gedən bir quşun,
Ayağının bəndi var.

**(hürümçək)**

***
Çıxaram, diyər anası,
Çıxma! Diyib quymaz balası.

**(arabanın təkəri və çüyü)**

***
Ağca quyunnan qaraca süd sağdım.

**(doşab)**

***
Bir atım var sərsəri,
Səksən-duxsan tağı var.
Özü əski parçası,
Yeddi nuxta, bağı var.

**(çarıx)**

***
Mətənin kütüyü – kəndin kuxası

**(Sabı-ağacdan düzəlmiş ülçü vahidi; 20 kq. buğda tutar).**

***
Halalar, ay halalar.
Çüldə duvşan balalar.
Ayağınnan su içər,
Dimdiyinnən balalar.

**(sünbül)**

***
Uzun qullar uzanır,
Üzünə küynək qazanar.

**(oxlov)**

***
O nədir ki, güydən düşər,
Üzü pərsiz, buyağsız.
Onu gəlib bir quş eşər,
Qalar dilsiz, dudaxsız.
**(qar və gün)**
***
Dizi beldən yuxarı.
**(çəyirtkə)**
***
Balaca kişi quyu qazır.
**(damcı)**
***
Mən baxıram, u qaçır.
**(qulax)**
***
Üzü tox, gülgəsi yux
**(quyu-kollaf)**
***
Bir dərədə durmuş,
Diş dişə vurmuş.
Aləmi yemiş,
Acgüz  oturmuş.
**(dəyirman)**
***
Tənək başında qırmızı yumax.
**(alma)**
***
Tənək başında tüklü yumax.
**(şaftalı)**
***
Ammaz, ummaz,
Yerə düşər, sımmaz.
**(yarpax)**

***
Yul üsdə yağlı qayış.

**(ilan)**

***
Ətinnən kabab ulmaz,
Qanınnan kasa dulmaz.

**(nar)**

***
Ağ saqqal güyə qalxar.

**(tüstü)**

***
Qazma dulu ağ atlar.

**(dişlər)**

***
Burdan atdım yumaxlar,
Gedib güydə uynaxlar.

**(güzlər)**

***
İki qardaş bir yol arasında yaşayır, biri-birini gürmür.

**(gözlər)**

***
Yuğun qarın, dürd qulax.

**(yastıq)**

***
Derin qazanda terləyən qızdar.

**(gürzələr)**

***
Alçax kişi allanar,
Qızılları sallanar.

**(çiyələk)**

***
Çig ulanda yiyəllər, pişənnən sunra atallar.

**(dəfnə yarpağı)**

# VIII. BAYATILAR

Ara yaylıx künlündəkin,
Açma qüvlümdəkini.
Mənüm künlüm nə bilsin?
Sənin künlündəkini.

Əkib-biçib gələydim,
Mən su içib gələydim.
Yar yadıma düşəndə,
İşdən qaçıb gələydim.

Bağları barlı-barlı,
Baxçada gürdüm yarı.
Allah üldürsün ay qız,
Üzgəyə baxan yarı.

Quş buraxdım düzdərə,
Gedib qundu güllərə.
Buynu mərcanlı qızdara,
Qaldım yalvara-yalvara.

Quşu buraxdım dəriyə,
Uçub getdi dəriyə.
Sərv boylu mələyə,
Qaldım yalvara-yalvara.

Ağ alma allanıbdı,
Budaqdan sallanıbdı.
Xınıya gələn  qızın,
Dodağı sallanıbdı.

Ağ almaya al düşər,
Ciyərimə xal düşər.
İstədiyimi almasam,
Ürəyimə xal düşər.

Qarpızı bıçaqlaram,
Dürd yanın saçaqlaram.
Mən sevən qız gəlməsə,
Mən məni bıçaxlaram.

Şəhərdən aldım tuyuq,
Bağladım kola yovuq.
Sizin kimi qızdarı,
Mən gedib qoydum yarqız.

Bilirəm quydum yükə,
Yeddi qaş bükə-bükə.
Qardaşımın düşməni,
Duğransın tikə-tikə.

Bu səs meşədən gələr,
İy bənüvşədən gələr.
Bənüvşə bağlı yarım,
İndi meşədən gələr.

Qızılgül əkdim daşa,
Yetişdi başdan-başa.
Gündə bir məktub gələr,
Yaşa, qardaşım,  yaşa.

Ürdək uçar düzdərə,
Çux gürünər güzdərə.
Səninlə keçən günnər,
Çux gürünər güzdərə.

Yaşıldı başın ürdək,
Aldır qumaşın, ürdək.
Gedəndə cüt getmisən,
Hanı yuldaşın, ürdək?

Bu yulun iki qatı,
Asta sürərlər atı.
Heç kimsə sürə bilməz,
Adaxlım sürən atı.

Yula yulçu ulaydım,
Yula qurban ulaydım.
Yuldan keçən uğlanın,
Sevgilisi ulaydım.

Sevgi sevdim üç günə,
Gəlib çatdım bu günə.
Mən səni necə sevim?
Mən büyük, sən kiçikcə.

Əkin qırağı yuvşan,
Əkinə girdi duvşan.
Mən ki gələn deyiləm,
Yaylığı gündər nişan.

Əkin qırağı əkin,
Aldılar əlimdəkin.
Gavur, ya da müsəlman,
Olmasın mənim təkin.

Kəlimi quşdum kutana,
Getdi utana-utana.
Yeni yaşmaq tutana,
Qaldım yalvara-yalvara.

Bənüvşəyəm bitmişəm,
Kul dibində itmişəm.
Qardaşın həsrətinnən,
Üzümü yana tutmuşam.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq suynan güy çəmən,
Yenə marala qaldı.

Dağlarda gəzən mənəm,
Əhdim var, bəzəmmərəm.
Ürəkdən yaralıyam,
Çux dərdə düzəmmərəm.

Dəyirman üsdü çiçək,
Gəl gedib onu biçək.
Qardaşım adaxlısı,
Uzun saç, qara birçək,

Bulaq üstü toz ular,
Dəsdə-dəsdə qız ular.
Alsan da qız alginən,
Qızlar oyunbaz ular.

Küynəyi çitdi unun,
Yaxası bitdi unun.
Özü adam balası,
Xatını itdi unun.

Evə düşək atmışam,
Yatmağa gəl, ay uğlan.
Gəmidə balıq qalıbdı,
Satmağa gəl, ay uğlan.

Uzun buylu sənəm yar,
Səni sevən mənəm, yar.
Səni sevənlər ülsün,
Sənə qalan mənəm, yar.

Qardaşım ağa qardaş,
Sallan gir bağa, qardaş.
Bağdakı qızıl güllər,
Sənə sadağa, qardaş.

Bu bağdan güyəm dərdim,
Bilməm kimə gündərdim.
Qardaş yada düşəndə,
Ceyran tək qaçıb gəldim.

Dərya daşanda bilər,
Diş qəmşəndə bilər.
Bala ana qədrini,
Ayrı düşəndə bilər.

Yaylıq yazdım, gəl apar,
İtirmə, düşmən tapar.
Bu gün yaxşı səhərdü,
Aşıq yarını tapar.

Əzizim, qara dağlar,
Qar yağar qara, dağlar.
Hamı deyib-güləndə,
Ürəyim yara bağlar.

Əziziyəm, qulam mən,
Ağa sənsən, qulam mən.
Quymayıllar danışam,
Deyillər ki, qulam mən.

Əzizim, şəkər canım,
Bu dərdi çəkər canım.
Nə haqqım var, nə muzdum,
Bəylərə nükər canım.

Mən aşiğam nə dəm var,
Nə sühbət var, nə dəm var.
Dəyirmana getməyə,
Nə ulaq var, nə dən var.

Əzizim, dalda gəzər,
Gün gedər dalda gəzər.
Mərddər  qabağı güzdər,
Namərddər dalda gəzər.

Əzizim, kasa dulmaz,
Mərd əli kasad ulmaz.
Yüz namərdin çürəyin,
Doğrarsan, kasa dulmaz.

Əzizim, kətan sarı,
Ağ sarı, kətan sarı.
Çıxardım Şah dağına,
Baxaydım vətən sarı.

Mən aşıq bilən ulsa,
Qədrimi bilən ulsa.
Birliyi tup dağılmaz,
Ona səs verən ulsa.

Dust dust ilə xar ulmaz,
Bir tikəylə ac ulmaz.
Zəhmət sevən, iş gürən,
Özgəyə mühtac ulmaz.

Sarı küynək saz məni,
Heykəluva yaz məni.
Heykəluva yazmasan,
Heykalın tutsun səni.

Bağa girdim bir yana,
Yar yastığa dayana.
Uyan bülbül, uyan gül,
Bəlkə yarım uyana.

Bir quvağam düzdə mən,
Çəməndə sən, düzdə mən.
Güllər ətrini çəkər,
Qucalaram yüzdə mən.

Künlümü dağ eylərəm,
Əridib yağ eylərəm.
Qərib düşsəm yurdumnan,
Min il surax eylərəm.

Əzizim, çəkən dərdi,
Mən sənnən çəkən dərdi.
Nər çəkməz, dəvə çəkməz,
Mən sənnən çəkən dərdi.

Əzizim, günüm qara,
Yeməli üzüm qara.
Sənə kağız yazanda,
Deməli süzüm ara.

Səhər-səhər bağ içində,
Yarı gürdüm bağ içində.
Dayanıb dəstə bağlar,
Güllü bir bağ içində.

Əzizim, nə tərəzi,
Nə daş var, nə tərəzi.
Evini bərbad eylər,
Arvadın natarazı.

Əzizim, külbaş eylər,
Düyü bişər, aş eylər.
Xatun var ki, heç nədən,
Kişini külbaş eylər.

Çaylarda bilov daşlar,
Güzümnən gələn yaşlar.
Qardaşa yaxşı baxın,
Yanındakı yuldaşlar.

Çay qırağı sarımsax,
Sarı küynək, canım sağ.
Saxladı atan, anan,
Apardı bir qurumsax.

Mər daşı, mərmər daşı,
Qızıl üzügün qaşı.
Qız anadan ayrılsa,
Qurumaz güzün yaşı.

İstəkanın ağ ulsun,
İçi dolu yağ ulsun.
Qərib yerə getsən də,
Təki canın sağ ulsun.

İstəkanun qannıdı,
İçmərəm, dərmannıdı.
Qardaşım sevən qıza,
Üzgəsi nişannıdı.

Bu dağda əkin ulmaz,
Əkməsən, əkin ulmaz.
Güzüm səni gürməsə,
Ürəyim **səkin*** ulmaz.

Ay dulandı azbara,
Yem tükərəm qazdara.
Bir güyçək gəlin gəlsin,
Atam tikən anbara.

Çıxdım qaya başına,
Ayaq sürtdüm daşına.
Tükülsün qar, yağışı,
Düşmənnərin başına.

Güy yerrər, gülşən yerrər,
Güyərsin gülşən yerrər.
Sənnən yadigar ulsun,
Ayağın dəyən yerrər.

-----------------
***Səkin** – sakit, rahat

Dağların lalasına,
Gün düşər tarlasına.
Bacılar qurban olsun,
Qardaşın balasına.

Aradan camış baxar,
Ağzınnan küpük axar.
Biz qızı aparırıq,
Anasına kim baxar?

Aftafa qulpu qara,
Xavar gündərdim yara.
Dayammasın, bizə gəlsin,
Künlüm giyibdi qara.

Qara yaylıx qatbaqat,
Birin saxla, birin sat.
Adam adamı yeməz,
Gəl bir gecə bizdə yat.

Bu yulun iki qatı,
Asta sürəllər atı.
Heç kəslər sürə bilməz,
Adaxlım sürən atı.

Gəldilər aparmağa,
Ürehlər quparmağa.
Yığılın, quhum-qardaş,
Quymayın aparmağa.

Get bacım, ağlığına,
Gül apar yağlığına.
Gedə-gələ qalasan,
Dustların sağlığına.

Pəncərələr dərindir,
Su quymağa sərindir.
Bu igidin bacısı,
Habu evdə gəlindir.

Tapanca lülələri,
Gümüşdən güllələri.
Cəmi Dərbəndə dəgər,
Nəzakət kəlmələri.

Mis qutqanın içində,
Qulbağa qaş ulaymış.
Samayənin əlinnən,
Sevda azad ulaymış.

Küləy hayandan əsdi?
Kəmər əlimi kəsdi.
Məni atıb getmisən,
Demək sevgin əbəsdi.

Güzüm güzünə baxar,
Məni yandırıb-yaxar.
Bu qaş, bu güz səndə var,
Hər baxışın can alar.

Sevənlər dulanır,
Yaz nəfəsiylə.
Ürəylər uddanır,
Yarın səsiylə.

Dərbənd yolu şüşədi,
Dərbəndə gün düşədi.
Dərbənddəki yarımın,
Güzdəri bənüvşədi.

Su gəlib bəndə dəyər,
Gümüş kəməndə dəyər.
Sənin bir kəlmə süzün,
Cümlə Dərbəndə dəyər.

Dərbənd bizim ulaydı,
Daşı qızıl ulaydı,
Qardaşım bəy duranda,
Gecə uzun ulaydı.

Ay Mirağa, Mirağa
Nüyüt tükün çırağa.
Saçım sünbülə dünüb,
Barmaqlarım darağa.

Yeri ha, sona, yeri,
Sallanıb yana yeri.
Üzünnən öpüb qaçım,
Qızarıb yana yeri.

Mən aşıq üzəngini,
Asda bas üzəngini.
Tanrı canım alaydı,
Yardan əl üzən günü.

Yeri, yeri daş kəsən,
Qələm üsdə qaş kəsən,
Gəlib yaram qanatdın,
Gəlməyəydin kaş ki sən.

Baramaqurdu üsdə,
Dulanıb durdu üsdə.
Atanın oğlu gərax,
Nur salsın yurdu üsdə.

Bir yaralı quçam mən,
Yerim yuxdu qaçam mən.
Ürək dükan deyil ki,
Hər yetənə açam mən.

Ay qız, bir az bəri gəl,
Əlində saz, bəri gəl.
Künlümün isdəklisi,
Dilimin əzbəri, gəl.

Əzizim, yüz il qala,
Yüz il yığ, yüz il qala.
Bədəsil əsil ulmaz,
Buyunca qızıl qala.

Abı don, abı daraq,
Yarımı gürdüm bayaq.
Qaçdım, çata bilmədim,
Sınasan, belə ayaq.

Abı daraq asdana,
Kəklik girib busdana.
Qurxuram yağış yağa,
Qara tellər isdana.

Səhərin sübh əzəni,
Çağır mətləb yazanı.
Ya Tanrım, sən quvuşdur,
İki həsrət gəzəni.

Dəryadan ləpə gələr,
Ağ yağış səpə gələr.
Mənim alovlu yarım,
Atını çapa gələr.

Qəriblik yaman ular,
Suvrulub saman ular.
Qürbətlərdə qalanın,
Dərdi hər zaman ular.

Yulla gedən üç ilan,
Yumurtası puç ilan.
Mənnən qeyri də varmı,
Cavan ümrü puç ulan?

Əmimoğlu Şirin, gəl,
Yapıncıya bürün, gəl.
Qapıdan yul ulmasa,
Pəncərədən sürün, gəl.

Durna gedər ay, ilnən,
Qarlı dağlar üstünnən.
Apar yara salam, durna,
Mən yazığın diliynən.

Biz gəlmişik, gecədi,
Saatuvuz neçədi?.
**Qiyavlar*** xəbərrəşır,
Gəlin bacı necədi?

Qızıl üzük laxladı,
Verdim, anam saxladı.
Anama qurban ulum,
Məni tez adaxladı.

Ağ dunun ağluğ ulsun,
Buxçada bağlu qalsun.
Məni quyub yar sevdin,
Yarun üzgəyə qalsun.

----------------
*Qiyav – kürəkən

Gəl bacım, getmə bizdən,
Qar yağır əyri dizdən.
Elçivün buynu sınsın,
Səni ayırdı bizdən.

Bu qızı mən bileydim,
Lampasını sileydim.
Adaxlusın gürəndə,
Evə qaçıb gireydim.

Bu oğlan bulağ üsdə,
Çil papaq qulağ üsdə.
Bu uğlanun tuyunda,
Cavannar ayağ üsdə.

Bu məktəbin yulları,
Burma-burma yulları,
Qardaş gələni bilsəm,
Süpürərdim yulları.

Ağ damı ağartmışam,
Qulların saraltmışam.
Üzüm qara buğdayı,
Çuxların saraltmışam.

Güynən gedən quşa bax,
Ayağında daşa bax.
Sənə məktub yazanda,
Güzümdəki yaşa bax.

Gedərdim, gedən ulsa,
Dərdimi bilən ulsa.
Yazıb məktub verərdim,
Aparıb verən ulsa.

Bənüvşəyəm, bitmişəm,
Kul dibində yatmışam.
Mən sənin həsrətinnən,
Buynumu yan tutmışam.

Başımda fikirim var,
Qızılım, gümüşüm var.
Dilnən deyə bilmirəm,
Kağızda süzlərim var.

Pəncərənin milləri,
Açıb qızılgülləri.
Uğlanı yuldan eylər,
Qızın şirin dilləri.

Əşgdə alma tərək,
Əyib budağın dərək.
İsdəyini almağa,
Uğlanda ürək gərək.

Aşağıdan maşın gəlir,
Bimirəm neçin gəlir?
Həç bilmirəm nə işdi,
Şufirdən xuşum gəlir.

Apar, apar bu qızı,
Küynəkləri qırmızı.
Aparannar şad olsun,
Şadlığa saldı bizi.

Yar gedibdi yanımnan,
Yanumnan, imanımnan.
Yar gedən ülkə yansın,
Mənim ahi-zarumnan.

Maşınnar dayammadı,
Güzüm sənnən duymadı.
Mən səniynən gələrdim,
Atam-anam quymadı.

Çəkməleri mazlaram,
Ürəyimi yağlaram.
Sən yadıma düşəndə,
Qan-yaş tüküb ağlaram.

Qızılgülü biçmişəm,
Üstündə and içmişəm.
Güzəl qızlar içində,
Təkcə səni sevmişəm.

Tut ağacı buyunca,
Tut yimədim duyunca.
Yarı xəlvətdə gürdüm,
Danışmadım duyunca.

Evlərinin dalı qaya,
Qayadan baxallar aya.
Sənsiz keçən günnərim,
Gəlməz heç zaman saya.

Küynəyim otdu mənim,
Künlüm buluddu mənim.
Mən bir baxtavar qızdım,
Baxtım qayıtdı mənim.

Dağlar dağımdı mənim,
Qəm uylağımdı mənim.
Dindirsən qan ağlaram,
Yaman çağumdı mənim.

Yar gedibdi, yanıram,
Gedən günün sanıram.
Gedəndə küsdürmüşdüm,
Gəlsə, künlün alaram.

Alma atdım, al uğlan,
Al cibüvə, sal uğlan.
Al diyəndə almadın,
Hindi yanıb qal, uğlan.

Qızılgül həməm uldu,
Künlüm pərişan uldu.
Mən düşdüm qərib yerə,
Ağlamax peşəm uldu.

Qızılgül uyun-uyun,
Dərib sinəmə quyun.
Yaz yağışdan duymayır,
Mən sənnən necə duyum?

Qardaşum xandu, xandu,
Dağlarda quş quvandu.
Qardaşımın gəlini,
Uzun saç, qara xaldu.

Tərək iki yerdədi,
Bəhəri yerlərdədi.
İstəyüban yar sevdüm,
Qərib ülkələrdədi.

Quzular dayanıbdu,
Xırmanda dayanıbdu.
Yarsız olan uğlannar,
Pəşmürdə dayanıbdu.

Qızılgül, duyum-duyum,
Dərib sinəmə quyun.
Yağış yağsa, yer doymaz,
Mən sənnən necə duyum?

Ay çıxar yana-yana,
Gün çıxar işildana.
Uğlan büyük, qız kiçik,
Qalıpdı yana-yana.

Dağlar dağladı məni,
Gürən ağladı məni.
Viran qalsın qəriblük,
İpsiz bağladı məni.

Sarı quvun ərisin,
Santağından cürüsün.
Məni sənnən ayıran,
Sarı yağ tək ərisin.

Sevgi sevən mərd ular,
Sevməyən namərd ular.
Sevibən almasa u,
Onda ona dərd ular.

Qarabağda bağ ulmaz,
Qara salxım ağ ulmaz.
Qunşuda yar sevənin,
Ürəyində yağ ulmaz.

Yastuğ üzü qırmızı,
Əcəb tanıdığ sizi.
"Verəcəyik!”-deyirdik,
Əcəb allatdığ sizi.

Bu dərə nə dərədi,
Dərədən səs gələydi.
Qardaşım salan bağda,
Gəlini gül dərəydi.

Şalım ücü var ulsun,
İçində məxmər ulsun.
Sənsiz keçən günnərim,
Ağu, zəhrimar ulsun.

Sən gidərsən u üzə,
Dəxi gəlməzsən bizə.
Sən gəlincə il bitər,
Baxçamızda gül bitər.

Su gəlir qalxa-qalxa,
Tükülür bizim arxa.
Qunşudan bir qız sevdim,
Anamnan qurxa-qurxa.

Bu dağda maral gəzər,
Əl-ayağın daş əzər.
Mən yara neyləmişəm?
Yar məndən kenar qəzər.

Səni yuxuda gürdüm,
Məniynən küsüb gürdüm.
Məhəbbəti unudub,
Əlini üzüb gürdüm.

Küyneyi tikən ulsun,
Tikən yux, bükən ulsun.
Mən sənə güz tikmişəm,
Sənə güz tikən ülsün.

Ağ donu ağartmisən,
Yengəyə saraltmisan.
Çadranı başa çəkib,
Sən niyə saralmısan?

Yar yara suvqat verər,
Gül verər, çiçək verər.
Əyər suvqat tapmasa,
Yarıb üreyin verər.

Ağ küynəyi lilli yar,
Səni sevən, mənəm, yar.
Aləm səni sevsə də,
Sənə qalan mənəm, yar.

Gül əkdüm gülə-gülə,
Dərmədim gülə-gülə.
Evimi dustum yıxdı,
Üzümə gülə-gülə.

Uçdum, havada uçdum,
Sındı qanadım, düşdüm.
Mən bir qədirli quşdum,
Qədirbilməzə düşdüm.

Damnan turpax tükülür,
Taxtaları bükülür.
Ağlama, anam-bacım,
Sürmələrin tükülür.

Quyun gəzər quzu ilə,
Ayağının tuzu ilə.
Mən yardan incimişəm,
Yad qızın süzü ilə.

Çil gəlin, çil-çil gəlin,
Çiyni güyərçin gəlin.
Güzəllər arasında,
Alagüz, çiçek gəlin.

Bağa girdim bir yana,
Yar yasdığa dayana.
Uxu, bülbülüm, uxu,
Bəlkə yarım uyana.

Qədir büləğüv balam,
Nədir diləgüv balam.
Ağ quzu qurban kəsim,
Bitsin diləgüv balam.

Qardaşım handan gələr,
Aylanıb damdan gələr.
Qultuğunda Quranı,
Mulla yanınnan gələr.

Mənim qardaşağamın,
Cibi dulu abbasi.
Məni yaylağa gündər,
Başundan sadağası.

Bu dağlar ulmasaydı,
Saralıb sulmasaydı.
Bir ülüm, bir ayrılıq,
Heç biri ulmasaydı.

Dağlarım otdu mənim,
Künlüm buluddu mənim.
Gürmədim baxtavarrıx,
Baxtım qayıtdı mənim.

Məçidə mədrəsələr,
Qardaş gəldi desələr.
Bir canımı quymuşam,
Muştuluğa gəlsələr.

A qardaş, ağa qardaş,
Uyan gir bağa, qardaş.
Bağdakı qızılgüllər,
Sənə sadağa, qardaş.

Tutun dibi burular,
Dibində su durular.
Kutan sürən babamın,
Ağ qulları yurular.

Tutun dibi buyunca,
Tut yemədim duyunca.
Yaşadı atam-anam,
Danışmadım duyunca.

Gün çıxdı, düzə düşdü,
Tellərim yüzə düşdü.
Çarxı fələkun dünsün,
Ayrılıq bizə düşdü.

Əzizim, dügün eylər,
Bilmənəm nə gün eylər.
Atalu, analu qız,
Bayramin bu gün eylər.

Gelinnər gəlsin bize,
Yaylığlar versin bize.
Biz yayluği neylirik,
Gelinmiz bəsdi bize.

Ağ almanı dişdədim,
Dişlədim, gülüşlədim.
Dustum gəldi, vermədim,
Qardaşa bəğişlədim.

Mənim yulum aralı,
İçi uvlu, yaralı.
Mən yarımı tanıram,
Dağıstanın maralı.

Əzizim, yazan ağlar,
Dərdimi yazan ağlar.
Ülsəm də qərib yerdə,
Qəbrimi qazan ağlar.

Birinci biçib gelər,
Çay, suyun içib gelər.
Yar yadına düşəndə,
Quş kimi uçub gelər.

Gəcə uzun, ay batmaz,
Dərdlilər gəcə yatmaz.
Sənin kimi güzəli,
Bir də Allah yaratmaz.

Aşığıyam adının,
Adının, həm sanının.
Çıxaydım qabağına,
Sızə gələn qadının.

Əzizinəm, gündə mən,
Külgədə sən, gündə mən.
Əğyar ildə qurbandır,
Qurbanınam gündə mən.

Baxçalar barın isdər,
Heyvalar qarın isdər.
Mənim bu xəsdə künlüm,
Sevgili yarın istər.

Bu qala bir qaladır,
Bürcləri qap-qaradır.
Aşna olmaq asandır,
Ayrılmaq bir bəladır.

Eldə elmli kimi gəz,
Güydə tərlan kimi gəz.
Meylin məndə ulsun,
Üzün ceyran kimi gəz.

Zülflərin ələ gəlməz,
Dərdin canımdan getməz.
Səni gürən güzlərim,
Üzgə yar qəbul etməz.

Ay duğdu, üzə düşdi,
Qara zülf üzə düşdi.
Fələyin çərxi dünsün,
Ayrılmaq bizə düşdü.

Külgədəki quşa bax,
Dırnağında daşa bax.
Aləmə yağış yağsa,
Bizə yağan daşa bax.

Dərbəndin ağ alması,
Ağ olur ağ alması.
Yarım gələnə qaldı,
Yaramın sağalması.

Gızılgül uyum-uyum,
Derib quynuva quyum.
Sən mənnən duymuş ulsan,
Mən sənnən necə duyum?

Alma atdım, nar gəldi,
Küynək gəydim, dar gəldi.
U yandan külək əsdi,
Elə bildim yar gəldi.

Qaşdarın əyri zehdir,
Əyri baxma, günahdır.
U dağda bir düşman var,
U da mən çəkən ahdır.

Dağdan dağa gəzərəm,
Quşdar adı yazaram.
Sən bulut ol, mən yağış,
Yağa-yağa ağlaram.

Gün düşdü bu dağlara,
Yayıldı yaylağlara.
Bu canım qurban ulsun,
Saz çalan barmağlara.

Yaz havalar xuş gəlir,
Şirin cana nüş gəlir.
Sən verən gızıl üzük,
Barmağıma buş gəlir.

Qızıl üzük taparam,
Mən dünyaya baxaram.
İki dünya bir ulsa,
Sənin xətrin quymaram.

Bulağ başı ulurmu?
İçində daş ulurmu?
Ağılsız, cəhil oğlan,
Qıza yuldaş ulurmu?

Bu bulax, oyma bulax,
Su içən duymaz, bulax.
Bura gəlinlər gəlsə,
Tutginən, quyma, bulax.

Aşığam, vətən sarı,
Küynəyi geyim barı.
Çıxardım dağ başına,
Baxaydım vətən sarı.

Kağızım, ay kağızım,
Dili yox, lal kağazım.
Get qardaşın yanına,
Bir xəbər al, kağızım.

Mahnı hər gün deyərəm,
Üçdən, beşdə neylərəm.
Qardaşın xetri üçün,
Başım qurban eylərəm.

Ay duman, gel bu dağa,
Sürümü süren dağa.
Ya ülərəm, ya qalaram,
Derdi sallam bu dağa.

Durmuşam, üzüm yulda,
Dulaşar süzüm yulda.
Yarın surağındayam,
Qalıbdır güzüm yulda.

Ulduzlar sayrışanda,
Qelb qelbə qarışanda.
Çətin olur ayrılmax,
Güz güzə alışanda.

Bülbül uçar kullarda,
Gül budağlı kullarda.
Hardasan, yar, hardasan?
Güzüm qaldı yullarda.

Mən aşıq ula-ula,
Dağ üstə qala-qala.
Yar yulunda can verdim,
İntizar qala-qala.

Ana, mənə az ağla,
Qış qurtardı, yaz ağla.
Nə vaxt yadına düşsəm,
Ağ kağızı yaz, ağla.

Dərdi dərdimə qatma,
İlqarın ver, aldatma.
Quyub gedirəm səni,
Məni əğyara satma.

Qultuğumda bağlama,
Mən gedirəm, ağlama.
Gedirəm, yenə gəlləm,
Yaddara bel bağlama.

Tananda vardı qara,
Bilmədim, düşdüm tura.
Bizi ayrı salanı,
Rahat getməsin gura.

Aşığıq, qanı qara,
Dərdli çux, hanı çara?
Tutun, salın qəfəsə,
Gündərin canı yara.

Qəlbim qara gazandır,
Dilim ərzə yazandır.
Fələyə bel bağlama,
Fələk qara yazandır.

Əzizim, nə azandır?
Nə səsdir, nə azandır?
Mullaya bel bağlama,
Mulla quyu qazandır.

Əzizim, dağ başıdır,
Dağ üstü dağ başıdır.
Düşmənə bir tuy tutdum,
Şabaşı güz yaşıdır.

Əzizim, yazan ağlar,
Dərdimi yazan ağlar.
Mən ülsəm qərib eldə,
Qəbrimi qazan ağlar.

Mən aşiq, zilə gələr,
Güz yaşım gilə  gələr.
Sən yadıma düşəndə,
Sümüyüm dilə gələr.

Mən aşiqəm Dərbəndə,
Su gəlib, dulub bəndə.
Fələk bir tor qurubdu,
Gül yarım düşüb bəndə.

Elə bir gün ulaydı,
Sazla, düyün ulaydı.
Sizin kəndin qızdarı,
Bizə sürgün ulaydı.

Ay qız, gəl alım səni,
Bağda gül alım səni.
Qız vaxtında gəlmədin,
İndi dul alım səni.

Pəncərədə şüşə var,
Sürüşübən düşə var.
U məhlədə bir qız var,
Qardaşıma düşə var.

Bağımda var buyana,
Bağın yulu hayana?!
Hərə bir layla çalsın,
Bəlkə, yarım uyana.

Əzizim, mənəm sənsiz,
Məcnunam, mənəm sənsiz.
Dağda maral mələsə,
Bil ki, o mənəm sənsiz.

Əzizinəm, gül sarı,
Bülbül sarı, gül sarı.
Bülbül canın verəndə,
Başın quyar gül sarı.

Əzizim, fənərəm mən,
Od tutub yanaram mən.
Qaş altınnan güz eylə,
Arifəm, qanaram mən.

Bu el **Cavada*** gedir,
Aşıb Cavada gedir.
Uçubdur künlüm quşu,
Gür nə havada gedir.

Əzizim, sən gərəksən,
Ümrümə tən, gərəksən.
Üləndə qəbrim üsdə,
Duvamda sən gərəksən.

Əzizinəm, al mənnən,
Yaşıl sənnən, al mənnən.
Ya bu dərdə şərik ul,
Ya bu dərdi al mənnən.

Əzizim, həmən uldu,
Dərmədim, həşəm uldu.
Sənnən ayrıldım, sunra,
Ağlamaq peşəm uldu.

Xuruz ban verəndə gəl,
Sinəm can verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı, can verəndə gəl.

Əzizim, kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ülkə,
Ülməyə vətən yaxşı.

Ay gətdi batan yerə,
Mələklər yatan yerə.
Sinəm nişan quyaram,
Yar uxun atan yerə.

Tapanca güllələri,
Qızıldır güllələri.
Min-min tütəyə digər,
Yarımın məmələri.

Xalamdan etdim acıq,
Başımda sarı sancaq.
Nə qız oldum, nə gəlin,
Uddara yandım ancaq.

Əzizim, dağ başına,
Ürtübdür ağ başına.
Künlü şama istəyən,
Dulansın dağ başına.

Əzizim, naz üldürür,
Kababi güz üldürür.
İnan, qananı hər vaxt,
Tənəli süz üldürür.

Əzizim, meşələrdə,
Gül suyu şüşələrdə.
Hamısı yar quynunda,
Mən qaldım küçələrdə.

Əzizim, balabanı,
Asta çal balabanı.
Hamının yarı gəldi,
Bəs mənim yarım hanı?

----------------
*Cavad – yer adı.

Əziziyəm gül əllər,
Gül barmaqlar, gül əllər.
Dəryaca ağlın ulsa,
Kasıb ulsan güləllər.

Axşamlar, ay axşamlar,
Şamlar yandı axşamlar.
Evlilər evə getdi,
Qərib harda axşamlar?

Çay tükdüm yana-yana,
Çayım dünüpdü qana.
Oğlan şiyə, qız sünni,
Qalıbdı yana-yana.

Qarabağ bənüvşəsi,
Qəlbindədi şişəsi.
Qarabağda xalam var,
Ağlamaqdı peşəsi.

**Təreqdə*** sarı kişimiş,
Saralıb yerə düşmüş.
Hansı bəxtəvər ular,
Səvdiyi yərə düşmüş.

Əziziyəm aranda,
Dan yeri qızaranda.
Qalsa da uğlan qalsın,
Qalmasın qız aranda.

Barmağım beşdi mənim,
Yaşım un beşdi mənim.
Vəfasız yar əlinnən,
Bil ümrüm heçdır mənim.

Paxlava sini-sini,
Sevmişəm birisini.
Callad buynum vursa da,
Demərəm doğrusuni.

Qərib üldi, getürün,
Dar güçədən gütürün.
Qəribin vay xəbərin,
Kimsəsinə yetirin.

Künlüm qara qazandı,
Dilim ərzə yazandı.
Fələyə bel bağlama,
Fələk pərgar puzandı.

Əzizim bular imiş,
Nə sərin sular imiş.
Əzrayıl beddam ulub,
Can alan bular imiş.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Üləydim, qurtaraydım,
Mən bu günə qalınca.

Əzizim qarğamışa,
Qar yağar qarqamışa.
Yüz min bəndə nəynəsin?
Bir fələk qarğamışa?.

-----------------
*Təreq – Yer adı

Güyərçinəm, güyərçin,
Ağlaram için-için.
Məni anam niyə duğub,
Güynərəm için-için.

Gecə uzun, ay batmaz,
Dərddilər gecə yatmaz.
Mənim kimi dərdlini,
Xuda bir də yaratmaz.

Bu çaylar axar gedər,
Dürd yanı yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

Əzizinəm, gülə naz,
Gül eylər bülbülə naz.
Aç güzun, dünyaya bax,
Ağlayan çux, gülən az.

Pərişanam, pərişan,
Halım yuxdu suruşan.
Varmı mənim təkisi,
Dərdi dərdə qarışan?.

Əzizim, qaranı yaz,
Ağ üstə qaranı yaz.
Əvvəl dəfdər başında,
Mən bəxtiqaranı yaz.

Açıq quy pəncərəni,
Güzüm gürsün gələni.
Necə qəbrə quyallar,
Qəriblikdə üləni?

Bu sular asda gedər,
Dulanar dusda gedər.
Xaraba qalsın ülkəmiz,
Sağ qələn xəsdə gedər.

Armud ağacı ləli,
Dibində yaşıl xəli.
Burda namaz kim qılar?
Ya Məhəmməd, ya Əli.

Arazı ayırdılar,
Qan ilə duyurdular.
Mən sənnən ayrılmazdım,
Zur ilə ayırdılar.

Qavalım sındırdılar,
Ürəyim yandırdılar.
Yeddi cavan yığılıb,
Bir cavan üldürdülər.

Dağlar başı tütündi,
Kimin bağrı bütündi?
Əyil üzündən üpüm,
Dünya ülüm-itimdi.

Bu dağlar, ulu dağlar,
Çeşməsi sulu dağlar.
Burda bir qərib ülmüş,
Güy kişnər, bulud ağlar.

Eyvanda yatan uğlan,
Küynəyi kətan uğlan.
Yarıvı apardılar,
Xəvərsiz yatan uğlan.

Anam-bacım qız gəlin,
Əli-ayağı düz gəlin.
Yeddi uğlan isdərəm,
Bircə dəna qız gəlin.

Həyətimizdə çinar,
Yarpağı dinar-dinar.
Bizim bir oğlumuz var,
Saxlasın pərvərdigar.

Şaftalıyam, kalam mən,
Dilim yoxdur, lalam mən.
Qunşudan qız sevmişəm,
Pulum yoxdur alam mən.

Dağlarda saldım əkin,
Aldılar əlimdəkin.
Heç kafir, heç müsurman,
Ulmasın mənim təkin.

Dağlar başı qaralmış,
Yağdıqca qar, qaralmış.
Baxçamdan bir daş duşmüş,
Ud-uçuqmış, qaralmış.

Dağların qarı mənəm,
Gun düşsə, ərimənəm.
Qəbrimi üzdən qazı,
Cavanam, çürümənəm.

Aşiqəm, mən qalasız,
Şəhər ulmaz qalasız.
Mən ki, gidərki uldum,
Siz salamat, qalasız.

**Çalqan*** hündür yerdədi,
Əşiqləri hərdədi.
Hayıf Dərbənd qızları,
Hərəsi bir yərdədi.

Əl atdım, yara dəydi,
Əlim divara dəydi.
Dilim-ağzım qurusun,
Nə dedim yara dəydi?

Gəl bacım getme bizdən,
Qar yağır əyri dizdən.
Elçini necə süyüm,
Səni ayırır bizdən.

Başında ağ şalı var,
Ağ şalın uxşarı var.
Üzü müsəlman qızı,
Bikələr uxşarı var.

Gəl, bacim, ad eyləmə,
Düşmanı şad eyləmə.
Una gidənnən sunra,
Bizləri yad eyləmə.

Açın pərdə yanını,
Uğlan gürsün yarını.
Uğlan gürsə yarını,
Qurban eylər malını.

---------------

Çalqan – yer adı.

Ağ  çarşuv başındadı,
Un yeddi yaşındadı.
Mirza bu qızın qulu,
Əqili başındadır.

Həyətdə qızıl alma,
Qabığın yerə salma.
Qaynatan diyən süzü,
Can qızım, yerə salma.

Su gəlir axmağ ilə,
Qayalar yıxmağ ilə.
Mən yardan necə duyum?
Arxadan baxmağ ilə.

Quda, gəlmişik sizə,
Hürmət eyləyin bizə.
Əyər elə ulmasa,
Bir də gəlmərik sizə.

Qızıl üzügün taxın,
Əlvan xınasın yaxın.
U bizim əmanətə,
Bir həfdə yaxşı baxın.

Güydəki sarı ulduz,
Quyma mən qalım yalquz.
Sən gət **vaykuma*** yalvar,
Quymasın məni yalquz.

Uğlana bax, uğlana,
Adı dildə dulana.
Qardaşımın sağ qulu,
Dəfdər üstə dulana.

Qızıl güllər yetəndə,
Durnalar qeyitəndə.
Sənə minnət elədim,
Məni quyub gedəndə.

Gəl gedəy bərəsinə,
Çiyələk dərəsinə.
Qızdar aşığ ulubdur,
Qardaşımın səsinə.

Pəncərə qupar, qupar,
Get pəncərəni qupar.
Anam sənə qız verməz,
Get əsgərliyi qutar.

Ay çıxıbdı bir barmax,
Təpəmi yardı qarmax.
Məni sənə verməzlər,
Sənə qaldı yalvarmax.

Bu evlər uzun ulsun,
Az yulu bizim ulsun.
Bizə gələn gəminin,
Quyruğu uzun ulsun.

Eyvan altda yemişəm,
Mən unu gürməmişəm.
Gətir Quran and içim,
Mən yarı gürməmişəm.

-----------
*Vaykum – hərbi komissar.

Evləri kündələn yar,
Bizə gül gündərən yar.
Gülün yarpıza dünsün,
İlqar verib, dünən yar.

Dam üsdədir damımız,
Qarlıdır əyvanımız.
Sən urdan çix, mən burdan.
Ar ulsun düşmanımız.

Mis qazanın içində,
Qurbağa, qaz ulaydı.
Ata-ana əlinnən,
Qızdar azad ulaydı.

Alma atdım al, uğlan,
Al cibivə sal, uğlan.
Almanı dişləyəndə,
Məni yada sal, uğlan.

Yar-yar demək ayıbdır,
Yarın adı Qəyibdur.
Disə gəlinnər desin,
Qızdar desə ayıbdır.

Suyux su dağdan gələr,
Qızılgül bağdan gələr.
Tələsmə, əziz qardaş,
Qismət Allahdan gələr.

Qardaşım bağda gəzər,
Küynəyinə gül düzər.
Sevdiyi güzəl yarı,
Alıb yanıyla gəzər.

Gül atdım, yarı dərman,
Turpağı, yarı dərman.
Yarın kəlmələrinin,
Biri can, biri dərman.

Qızılgülün kulları,
Yulu gülə buyasın.
Qudalara gedirik,
Ayağımız tələssin.

Nəsur kişinin qızı,
Hanı unun baldızı?.
Açın uğlan qapısın,
Gürsün güylər ulduzu.

Su alaydım kəhrizdən,
Çürüdüm məhləvizdən.
Gündə bir məktub gəlir,
Yıxılmış məhləvizdən.

Gəlin gəldi, düşürün,
Quzu, quyruğ bişirün.
Gəlin unnan yiməsə,
Vurun buynun, düşürün.

Ağ almanı dişlədim,
Dişlədim, naxışlədim.
Qardaş gəldi, qıymadım,
Yar gəldi bağışladım.

Qarabağın meşəsi,
Güzəldi bənüvşəsi.
Qərib yerə düşənin,
Ağlamaxdur peşəsi.

Düşbərəni bükmüşəm,
Büküb yerə tükmüşəm.
Gəldiyim üç gün deyil,
Qaynanamı düymüşəm.

Get, bacım, yulun ulsun.
Ağ mələk dunun ulsun.
Sən ki belə gədirsən,
Yul sənə uğur ulsun.

Armud ağacı buda,
Armudu saxla suda.
Uzaxdan qız diləyib,
Ulmuşux quhum-quda.

Qardaşım ala dağlı,
Atı tüvlədə bağlı.
Qardaşımın gəlini,
Uzun saç, belibağlı.

Qardaşım, pir ulasan,
Pirə nəzür ulasan.
Bir dəstə gül içində,
Qızılgülə dulasan.

Qarabağda talan var,
Güydə **ayrapalan*** var.
Sən ki belə deyildin,
Səni eşqə salan var.

Gül əkdim gülə-gülə,
Dərmədim gülə-gülə.
Evimi dusdum yıxdı,
Üzümə gülə-gülə.

--------------
*ayrapalan – təyyarə.

## IX. LAYLALAR

Laylay atam balası,
Ayın-günün parası.
Mən sənə qurban olum,
Güzüm ağı-qarası.

Güyçək balam, a laylay,
Çiçək balam, a laylay.

***

Qünçə dulu bustansan,
Hər kamına çatasan.
Qızılı şah budağın,
Külgəsində yatasan.

Ay bala, bəndim laylay,
Şəkərim, qəndim laylay.

***

Gül dolu taxtın ulsun,
Qızıldan baxtın ulsun.
Qardaşının tuyunda,
Oynayan vaxdın ulsun.

Laylay, güyçəyim laylay,
Gülüm, çiçəyim laylay.

***

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim.
Bala, çəkim nazını,
Buya-başa çat dedim.

Balam laylay, a laylay,
Kürpəm laylay, a laylay

***

Süzün, soyun qurbanı,
Yaxşı buyun qurbanı,
Sən yeri, mən bir baxım,
Olum buyun qurbanı.

Balam laylay, a laylay,
Kürpəm laylay, a laylay.

***

Laylay dedi, çarçı mən,
Haraýçı mən, çarçı mən.
Toy günündə ulaydım,
Küçələrdə çarçı mən.

Gülüm laylay, a laylay,
Şirin dilim, a laylay.

***

Bağçalar bağa dönsün,
Bağın yaylağa dönsün.
Bircə kəlmə din-danış,
Ürəyim dağa dönsün.

Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan duranda,

Canımı qurban dedim.

Balam laylay, a laylay,
Körpəm, laylay, a laylay.

***

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə,
Quzu qurban demişəm.

Balam laylay, a laylay,
Körpəm, laylay, a laylay.

***

Kamalı dərin bala,
Kəlməsi şirin bala.
Allahdan əhdim budur,
Tuyunu gürüm bala.

Balam laylay, a laylay,
Körpəm laylay, a laylay.

***

Laylay dedim düz barı,
Gəl dərdimi üz barı,
Balama qurban ulsun,
Yüz arvad, yüz qarı.

***

Gün çıxanda ay batar,
Ay batanda gün çıxar.
Mənim körpəcə balam,
Şirin yuxuda yatar.

***

Yuxuların şirindi,
Arzuların dərindi.
Mənim bu qız balamın,
Yeri yaman sərindi.

***

Arzum, diləyim mənim,
Gülüm, çiçəyim mənim.
Bu dünyada hamıdan,
Sənsən güyçəyim mənim.

Laylay gülüm, a laylay,
Şirin dilim, a laylay.

***

Baharım, yazım laylay,
Sühbətim, sazım laylay.
Sən yat, çəkim keşiyin,
Kürpəcə quzum laylay.

Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Ayım-günümdü balam,
Şirin dilimdi balam.
Mənim həm yurdum-yuvam,
Həm də elimdi balam.

# X. ADƏT-ƏNƏNƏLƏR

## DƏRBƏNDDƏ QIZ TOYU

Evimin yaraşığı,
Başımın şah tacı.
Günurtalıq qunaqsan,
Qoy bəzəyim utağı.

Dərbənddə deyəllər: "Qız toyunun gül yeri" xınayaxdı gecəsidi. Bir para oymaqlarda "Qızlar gecəsi" də deyillər. Ərgən qızdar axşamnan cəm olallar gəlin gedəsi qızın başına. Deyə-gülə xına yaxar, qızı alnan-şalanan bəzəyib eləyəllər ay parçası. Sunra çal-çağır başlanar. İlk əzəl gəlinə tərif deyilər. Qızdar dəsti bir ağızdan belə uxuyar:

Bəxdin mübarək, gəlin,
Taxdın mübarək, gəlin.
Ağ əllərə əlvan həna,
Yaxdın, mübarək, gəlin.

Sunra şirin səsdi, dilavər bir qız irəli yeriyib ərköyün-ərköyün uxuyar:

Almanı atdım xarala,
O xaraldan bu xarala.
Gəlin dündü marala.
Bəxtin mübarək, gəlin,
Taxtın mübarək, gəlin.

Qızın biri gəlinə bəzək vura-vura süz atar, qız məclisinə uğlan süzü gətirər:

Öyləri havar-havar,
Ceyran ceyranı quvar.
Qızbahası yüz tümən,
Oğlan, xəyalında var.

Bayaxdan süzü dilinin ucunda gəzən alma yanaxlı qız nazdana-nazdana gileylənər:

Papağı var buxarı,
Çinyi mahud çuxalı.
Getmişdim evlərinə,
Demədi gəl yuxarı.

Qaydadı ki, tuy xınasını uğlanın anası gətirsin, gəlinin baldızı da yaxsın. Di gəl, qızdar dəsdi aman verməz, qabağa düşüb xınanı özdəri yaxallar. Uğlan evinnən gələn əli xunçalılar bir anda başdarını qaldırıllar ki, gəlin çuxdan xınalanıb. Onnar da burclu qalmaz, xına üsddən bir də xına yaxallar. Bu da bir cür şuxluxdu ki, el-camaatın ürəyincədi.

Uğlan evinnən xınayaxdıya gələnnər də süzlə, güzgüylə qarşılanar.

Gürərsən ki, budu qızın biri qul açıb uynaya-uynaya üzünü tutdu gələnnərə:

Əlində tuy xınası,
Gəlir uğlan anası.
Evinə gəlin gedir,
Elin güzəl sonası.

Süzün bu yerində uğlan evinnən gələnnərdən biri xunça gütürüb uynaya-uynaya süz deyər:

Gəlin gətirə bilməz,
Süzün ütürə bilməz,
Quhum-qardaşı çuxdur,
Cehiz yetirə bilməz.

Neçə belə şirin-şirin süzlə, sühbətlə məclis baş alıb gedər, çalıb-çağıran kim, deyib-gülən kim.

Yığnax buyu xınayaxdıya gətirilən pay-pürücü, sur-suvqatı bəh-bəhlə əldən-ələ adladar, baxıb-baxıb üyəllər. Ərgən qızdar ürəklərində bir uğlan adını murazlayıb gəlinin sağ əlini tellərinə tuxundurallar. Sunra xəlvətə çəkilib həmən bir tutam teldən üpəllər. Gəlinnər tapşırmasıdı, qızdar o teli cığalandırıb yeddi gün şax saxlasalar, murazlarına yetəsidilər.

Xınayaxdı gecəsinin bir üzgə sınağı da var; urtalığa büyuk bir nimçə quyular, hər qız bir almanı nişannayıb atar nimçəyə.

Xırda bir uşağı çağırıb deyəllər ki, bəyəndiyin almanı gütür. Uşaq hansı almanı gütürsə, o almanın yiyəsi tez bir zamanda ürəyində tutduğu isdəyə çatmalıdı.

Beləcə, gecənin bir yarısına kimi çal-çağır uzanar. Uğlan evinnən gələnnər yır-yığış eləyib getmək isdəyəndə süzüb qapıdan çıxa-çıxa belə tapşırma tapşırallar:

Qızıl üzüyün taxın,
Əlvan hənasın yaxın.
Bizim əmanətimizə
Bu gecə yaxşı baxın.

Ən axırda qapıdan çıxan üzünü xınayaxdıya tuplaşanlara tutub razılıqlarını, künlü xuş getməklərini yaraşıxlı bir düzgünün boyuna biçər:

Dərya qırağı qumlar,
Dəmir qapılı damlar.
Daha biz gedər ulduq,
Siz sağ ulun, adamlar.

Adətdi, xınayaxdıdan qayıdan uğlan adamları öz duqqazlarınnan içəri girən kimi gərək bir yarpaq bəzəkli söz desin. Tutalım, gəlin gətirəcəkləri qız dərzi qızıdı, onda çırtıx çala-çala uxuyullar ki:

Öyləri ağdı uğlanın,
Dürd yanı bağdı uğlanın.
Almışıq dərzi qızı,
Damağı çağdı uğlanın.

Uğlanın bacısı yerə-güyə sığmaz, şadlığınnan, bilməz ki, neyləsin, uçmağa bir cüt qanad istər. Ürəyi atdana-atdana, qulları qanaddana-qanaddana yaz çiçəyinə bənzər təzə-tər süzdərnən beli tuqqalı, teli sığallı gəlinin tərifin yetirər qardaşa:

Dəyirman üstü çiçək,
Gəl gedək, onu biçək.
Qardaşımın gəlini,
Uzunsaç, qarabirçək.

... Hə, xınayaxdıdan sunra gəlir “qız yula saldı”nın süz-sühbəti. Elə ki, uğlan evinin adamları dəstə tutub üzdərini yetirirlər qız evinin qapısına, bəli, baxsan, nə dəm-dəsgah düzəlir. Üst-üstdən gələn ismarışlar zurnaçını pul kimi közərdir bir hovurdaca. Hələ zarafata salıb yanıq verənnəri, qız evinnən ələ yetən dəmir-dümürü, qab-qacağı çırpışdırıb aranı qarışdırannarı demirsən. Qız evinin adamları belədə gərəkdi özlərini şax tutsunnar, cırnayıb cızıxdan çıxmasınnar. Yux, işdi cırnadılar, tavanasız tərpənib haray-həşir saldılar, onda uğlan adamlarının şuxluğu daha da artasıdı.

Özü də bu şuxluğu uynaq-uynaq məzəli kəlmələrnən naxışlamağa məqam gəzəllər ki, əllərinə fürsət düşən kimi deyələr:

Daş daşa,
Dırnaq daşa,
Siz savaşa,
Biz tamaşa.

Gəlinin belini bağlayıb ona uğullu-qızlı, odlu-ocaqlı halal bir güzəran diləyəllər. Özü də kəmər bağlamazdan əvvəl uğlanın bacısı irəli durub deməlidi:

Gəlinə bax, gəlinə,
Xına yaxıb əlinə.
Aparmağa gəlmişik,
Kəmər vurun belinə.

Yan-yürəsinnən qızlar kövrəlmiş gəlini dilə tutub uvudarlar:

Uzun-uzun yullarınan
Uzadırıq qız, səni.
Güzgü quyub güllərinən
Bəzədirik qız, səni.

Gəlini taxtınnan durğuzub xeyir-dua verəllər, bu xeyir-duaların bir parası ata-ana adınnan, bir parası bacı-qardaş, bir parası da yar-yoldaş adınnan süylənər. Qardaş dilinnən gələn alxışların bəzəkli xeyir-duaların yeri ayrıcadı. Bu arzu-dilək-lərdəki qardaş mehri ipistidi, könül tərpəndirən, güz nurran-

dıran hənirdədi:

... Suya gedəsən, bacım,
Quma batasan, bacım.
Gəlin getdiyin yurdda,
Binə atasan, bacım.

Get bacım, yula yula...
Güzlərin dula-dula.
Təki sənin üstündə
Tanrı güz ula, ula.

Ucasan hava bacım,
Dünəsən quşa, bacım.
Bu qonduğun budaqda
Tutasan yuva, bacım.

Gəlin öz uymaxlarınnan aralı bir uymağa küçəndə tay-tuşları onu düvrəyə alıb belə deyəllər:

İstəkanın ağ ulsun,
İçi dulu yağ ulsun,
Uzax yerə küçürsən,
Təki canın sağ ulsun.

Tuy tuydu, unun yaraşığı da künül uxşayan dudaqqaçdıdı, duzlu-məzəli ərkyanalıqdı. Yuxsa, tuyun nə dadı, nə ləzzəti? Gəlin küçən qızı yula salanda qız adamının uğlan adamlarına şirincə bir düzgünü ərkyanalıqla deməyi də elə bu səbəbdəncədi:

Əlində var cəm bu qızın,
Qulunda mərcan bu qızın.
Biz sizə qız vermişik –
Can sizin, can bu qızın.

Bax, beləcə deyə-gülə, çal-çağırnan gəlini atdandırıb üz tutullar uğlan evinə sarı. Qabağa çapar salallar ki, muşduluğa getsin.

Qız evinnən beş addım aralanmamış uğlan adamınnan birinin dili dinc durmaz. Qayıdar ki:

Gəlmişdik aparmağa,
Ağ cehiz quparmağa,
Yığılın, ay tay-tuşu,
Quymayın aparmağa.

Bir ayrısı da ehmal tərpənər, dilinin şirin yerinə salıb işin sunrasına işarəynən belə deyər:

Həyətində var tənək,
Dolanar çərxi-fələk,
Aman quda, can quda,
Qunaqlıq eylə, gələk.

Süz düzməkdə geri qalmayanın biri də dilavərriknən, mehr-ülfətnən sağollaşar:

Biz aş ulaq, siz yağ ulun, qudalar,
Biz gedirik, siz sağ ulun, qudalar.

Hə, muştuluqçu bayaq ha yulun əhədini kəsib üzünü yetirər uğlan evinə. Süzdən necə təkan alıb qanad gütürmüşdürsə, o havaynan da şaddığın surağını nağdılayar:

Süyüddər birçəkləşdi,
Dürd yanı güyçəkləşdi.
A bəy, gəlmişəm deyəm,
Gəlinin gerçəkləşdi.

Bir də gürəllər ki, bir quvhaquv, bir hay-haray, bir çal-çağır var ki, kefindən keçən... Gəlini araya alıb qabağında uynaya-uynaya gətirəllər. Duqqazdan girən kimi kəkili xınalı, burma buynuzlu bir qoç kəsib gəlini adladallar üstünnən. Başına şirni, noğul səpəllər. Evin kandarına çatanda ayağının altına saxsı atallar, gəlin onu vurub sındırar, baş barmağını da bala batırıb astanaya sürtər, sunra keçib gedər bəy utağına. Bəy utağı dünüb ular gəlin utağı. Gəlini yuxarı başda baxımlı bir yerdə əyləşdirəllər. Yengə gəlib özünü nişan verə-verə sığallı süzlərlə gəlinin xətrini xuş elər:

Xuş gəldin, bizim gəlin,
Əzizim, güzüm, gəlin.
Sənə gümüş yaraşmaz,
Geyərsən qızıl, gəlin.

Beləcə, xınayaxdı gecəsinnən bu yana ürəyi uçuna-uçuna yul gələn ağ duvax gəlin binə qurub ev-eşik ulmaqdan ütəri seçib bəyəndiyi ucağa qədəm basar. Gəldiyi yerdə qayım-qədim ulsun, üvlad toyu, nəvə boyu gürsün, ağbirçək öyüdüncə oturub dursun.

## KƏNDDƏRDƏ DİNİ BAYRAMLAR

Dərbənd kənddərində yaşayan müsəlmannar dini bayramları çux sevir və əzizdəyirdilər. Bu bayramlardan ən sevimlisi "Uruclux" və "Qurban" bayramları idi.

İndi hər bayramın xüsusiyyətləri barədə sühbət açaq:

**Uruclux bayramı.** Bu bayram dindar adamların dediyinə gürə, belə əmələ gəlmişdir. Pəyğəmbərin urdusu susuz bir vilayətə düşür. Burada nə içməyə su, nə də yeməyə bir şey tapmaq ulmur. Ərzağın azalmasını gürən peyğəmbər urduya, ərzağa qənaət etməsini tapşırır. Bir səhər, bir də axşam yeməli ulullar ki, bu da Ramazan ayında baş verir. Odur ki, əhali peyğəmbərə sadiq qalmaq üçün həmin ayda uruc tutur. Bu bir dini bayram kimi bütün İslam dininə sitayiş edən xalqlar üçün məcburi bir iş ulur. Bayram isə Urucluğun, yəni Ramazan ayının utuzuncu günü olur. Bu bayramda əhali "şura", "quqal", "hal" və "külçə" bişirir. Əzizdəri ölənnər "Qara bayram" verir. Kəndin mullaları hürmətdi adamlarla evbəev gəzib, bayram nemətlərinnən yeyir, ülülərin ruhuna dua uxuyullar.

Yeri gəlmişkən, bir maraxlı hadisəni sizə sühbət edim. Kənddə bir yuxsul kişi olur. Adına Hənis deyillər. Hər gün o, ulağı ilə meşəyə gedir, udun duğruyub, iki-üç günnən bir Dərbənddə udun satıb xırda nəmətlərdən evə getirirdi.

Kişi hər dəfə gətirdiyi nemətlərdən (xurma, kişmiş, qənd və s.) arvada ayırıb pay verir, diyir:

– Ay arvad, bunnarı Ramazan üçün quy.

Arvad da yığıb quyurdu. Dimə Hənısın dağda Ramazan

adında bir qunağı var imiş. Ramazan ayı yetişmək üzrə idi. Dağlı Ramazan qunağı Hənisə baş çekmək üçün kəndə gəlir. Hənisin arvadı Ramazanı gürən kimi diyir:

– Ay kişi, sən tezdən niyə gəlirdin? Hənis sənin üçün gür nə qədər sürsət quyub diyə, Hənisin Uruclux ayı, Ramazan üçün yığdığı ərzağı una güstərir.

Dağlı Ramazan da işi başa düşür, firsəti əldən buraxmır:

– Mən yulüstü sizə gəldim, yuldaşlarım kəndin kənarında məni güzdəyillər. Hər nə varsa ver, mən gedim, – deyə arvaddan bir çuval nəmət alıb yula düşüb.

Axşam ulur. Hənis ulağını ağaclaya-ağaclaya evə gəlir:

– Ay kişi, sənə şad xəbər verim. Ramazan qunağımız gəlmişdi. Sən onunçun quyduqlarının hamısını una verdim, – diyə arvad dilləndi.

– Ay evi yıxılmış, məyər u sürsəti mən dağlı Ramazan üçün yığmışdım, yoxsa "Uruclux" ayı Ramazan üçün?

Arvad tutduğu işdən peşiman ulur. Bir aylıq kasıb kişinin sürsəti əldən gedir.

## QURBAN BAYRAMI

Deyilənnərə gürə, peyğəmbər neçə il ovliya uturur, unun fərzəndi ulur. O gedib pirlərdə Allaha yalvarmağa başdayır. Əhd edib diyir:

– Əyər uğlum ulsa, unu qurban kesəcəyəm.

Vaxt keçir, il başa gəlir, Allah unun diləyini bitirir, unun bir uğlu ulur. Uşax dürd-beş yaşdarına çatanda, peyğəmbər əhdinə sadiq çıxmax üçün unu getirib kesmək isdeyir. Biçağı nə qədər uşağın buğazına çekir, biçax kesmir. Hirsinnən o, biçağı divara çırpır. Bu zaman divar iki yerə ayrılıb, içərisinnən bir quyun çıxır. Allahın əmriylə gələn bu quyunu peyğəmbər uşağın əvəzinə qurban kesir. Həmin gün aləmdə "Qurban bayramı" elan ulunur. Bu bayramda hər kəs öz gücünə görə mal kesir. Kimi quyun, kimi üküz, kimi xuruz, ke-

sir. Bu bayram da belə əmələ gəlmişdir. Dünənimizdən xəbər verən bu əfsanəvi hadisələr xalq arasında bu gün də yaşamaxdadır.

## QƏDİM ADƏT-ƏNƏNƏLƏR

Qədim Dərbənd tuyları bələ ulurdu: Qızı oğlanın atası, anası seçərdi, bəyənərdi, sunra uğluna deyərdi ki, uğlum, qızı sənə alırıx. Uğlan "İstemirəm!" deməzdi. Sunra əvvəl xatunu elçi gündərərdilər. Cümə axşamı günü, sunra uğlanın atası və əmisi gedərdi, diləyib nişan aparardı, tuy çalardı. Bir-iki ildən sunra, üç gün üç gecə tuy çalıb, ildırqa düzəldib araba ilə gəlini gətirdilər. Araba ər evinə çatanda uğlan anası damnan gəlinin üsdünə kunfet, şəkər atardı. Evə girəndə ayağının altına dəri atıb, əlini una batırıb asdanada durar, başına vurub çürək kəsərdi. Qayınanası bala barmax salıb hamının ağzına barmağını sürtərdi.

## "QULDİL" BƏZƏMƏK OYNU

Lap qədim uyunlardan biri də "Quldil" bəzəkməkdir. Uyun belə başdayır:

Əzəldən insannar savadsız ulmasına gürə təbiətdə baş verən bir sıra hadisələri aydınnaşdıra bilmirdilər. Buna gürə də onnar bir sıra işdər baş vərdikdə sadağa verirdilər – "Quldil" düzəldirdilər. Namaz qılırdılar. Əyər yaz aylarında heç bir damcı da yağış yağmasa, quraqlıx düşəndə, kənddərdə "quldil" düzəldib gəzdirirdilər. Oğlannardan birinin əllərin şaxlarla başınnan ayağadək bağlıyırdılar. Sunra unun etrafına çuxlu uğlan, və qız tuplaşıb birlikdə kəndbəkənd, küçəbəküçə gəzdirərdilər və bu süzdəri uxuyardular:

Quldil-quldil dursana ha, ha,
Çümçəmi duldursana ha, ha.
Bir yumurta versənə ha, ha.
Güydən yağış tükdürər ha, ha
Allaha da xuş gələr ha, ha.

Camahat isə, nə əlinnən gəlir, onu "quldil"ə verərdilər.

# XI. LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

### Mullanın qunaxları

Deyillər ki, Mulla Nəsrəddinin iki dusdu var imiş. Bir gün onnar Mullaya deyillər ki, bu gecə sənə qunax olacağıq. Mulla deyir ki, arvada çudu bişirtdirəcəyəm, gəlin bizə.

Olar bir az içki də alıb axşam Mullanın evinə gidillər və gürüllər ki, Mullanın arvadı, duğrudan da, çudu bişirir. Bir az oturduxdan sunra arvad çuduları quyur urtaya. Mulla diyir ki, gəlin qumar uynayax. Kim uduzsa, o nə yeyəcəh, nə də içəcəh. Onnar başdayıllar qumar oynamağa. Mulla isə bunnarın ikisini də udur, çuduları yiyib, içkini də içir. Dustdar ac gəlib ac gidəndə Mulla deyir:

– Qumar oynayanın anası tezdən satılıb.

### Mullanın fəndi

Mullanın bu kələklərinnən duymuş yuldaşlarınnan biri una həmişə rast gələrmiş. Mulla hər gün cibinə nuxud, ya da quvut tüküb camahat içində yiyərdi, amma heç kəsə verməzdi. Mullanın bir dusdu isə həmişə birtəhər yaxınnaşıb onun cibinə əl salıb öz payını alardı. Mulla da çalışardı ki, onu yaxına buraxmasın. Bir gün isə Mulla bir cibinə kağıza büküb mal təzəyi quyur, o biri cibinə isə nuxud tükür. Molla uçara çıxıb ağaçın üsdündə uturub bir az sühbətdən sunra başdayır cibinnən çıxarıb nuxud yeməyə. Bunu gürən dustu bir yul tapıb unun yanında oturur. Asda-asda yaxınnaşıb əlini unun cibinə saldıxda Mulla tez unu tutur. Buraxanda gürürlər ki, unun əli bulaşıb. Bunnan sunra o heç vaxt Mullanın cibinə əl suxmur.

## Mən də tapıldım

Günnərin birində Mullanı naxıra gündərillər. Mulla səhər tezdən naxırı sürüb çülə çıxardır. Günurtaya yaxın Mulla lap inciyir və murux yığıb gələn uşaxlara rast gəlir. Onnarı saxlayıb qumar uynamağa başdayır. Mulla qumarı şərtlə uynayır və uşaxların yığdığı muruğu özünə alır. Mulla qumar uyunu ilə məşğul ulduxda unun naxırı dağılır, özü isə çıxıb evə gəlir. Axşam səs qalxır ki, kiminin inəyi yuxdur, kiminin danası. Mulla isə qaçıb gizdənir və arvadına deyir ki, camahata desin ki, Mulla evdə yuxdu. Axırıncı adam gəlib diyəndə ki, inəyi tapılıb Mulla da tüvlədən qışqırır ki, "mən də tapıldım".

## Güzlərini sağaldacağam

Bir gün də Mulla uçarda uturmuşdu. Bir az sühbətdən sura ora iki kur kişi gəldi və sühbətə başdadılar. Kur kişilərin biri o birisinnən suruşdu: "Bir azca sən gürürsən, mən isə gürmürəm". Bunnar deyişməkdə ikən Mulla diyir ki, ikiniz də gürürsünüz. Ancax bunnar buyunnarına almıllar. Bir neçə günnən sunra bunnarı uturmuş gürən Mulla, onnara yaxınlaşıb diyir ki, bir balta gətirmişəm itiləməyə, ancax heç bir adam yuxdur ki, daşı hərrəsin.

Kişilərdən biri diyir ki, Mulla sən baltanı tut biz isə asda-asda hərriyək. Mulla tez əlinə bir daş alıb uşaq çağırıb su gətirdir. Bunnar çarxı hərriyillər. Mulla isə daşı itiliyir. Onnar o qədər hərriyillər ki, gün gəlib, günurta ulur. Axırda biri diyir ki, ay Mulla axı sən daşı niyə itiləyirsən? Mulla tez cavab verir ki, sabah da gəlsəniz, o birinin də güzdərini sağaldacağam.

# BƏHLUL DANƏNDƏ LƏTİFƏLƏRİ

## Bu qədər tuyuğun bir xuruzu olmalıdı, ya yux?

Bəhlul Danəndə dilavərriyinnən, hazırcavablığınnan hamının matını-qutunu qurutmuşdu. Bir gün xəlifənin əsabələri fikirrəşib-fikirrəşib bu qərara gəldilər ki, bir fənd qurub Bəhlul Danəndəni pisikdirsinnər. Xəlifəyə dedilər:

– Ya xəlifə, fikrimiz var ki, Bəhlul Danəndənin başına elə bir uyun gətirək ki, daha ağzına su alıb sussun.

Xəlifə suruşdu:

– Necə eləyə bilərsiniz? Axı, Bəhlul Danəndəyə hazırcavablıxda, tədbirri tərpənməkdə çata bilən adam yuxdu.

Dedilər:

– Sən buyur ki, on-on beş adam səninlə səyahətə çıxsın. Bəhlul da ulsun bizim aramızda. Biz hamımız özümüzlə bir yumurta gütürək. Çülün urtasında əmr verin ki, hər kim yumurtlamasa, onu falaqqaya saldırıb düydürəcəyəm. Biz unda kul dibinə çəkilib, bir az keçmiş qaqqıldaya-qaqqıldaya əlimizdə yumurta gələcəyik hüzuruna. Bəhlul Danəndə də heç bir şey gətirə bilməyib, biyabır olacaq. Çülün düzündə nə tədbir tükəsidi ki?!

Xəlifə razılaşdı.

O biri gün əsabələrinin dediyi adamları, bir də Bəhlul Danəndəni gütürüb gəzməyə çıxdı. Bir az gəlib dolaşannan sunra çüllüyün urtasında birdən üz tutub düvrəsindəkilərə dedi:

– Tez ulun, hər biriniz tuyuq kimi yumurtalayıb, mənə gətirin! Əgər kim gətirməsə, onu falaqqaya salıb üldürəcəm.

Adamlar buyuruğa bəndiymiş kimi tez hərəsi bir kulun dalına çəkildi. Üsdünnən bir az keçmiş hərəsi əlində bir yumurta qaqqıldaya-qaqqıldaya xəlifənin yanına qayıtdı. İşi belə gürən Bəhlul Danəndə də başdadı quqquldaya-quqquldaya o tərəf-bu tərəfə qaçmağa. Xəlifə unu dulamaq üçün suruşdu:

– Bəhlul Danəndə, bəs sənin yumurtan hanı? Elə buş-buşuna quqquldayırsan?

Bəhlul Danəndə bu süzü güzdəyirmiş kimi, tez dilləndi:

– Xəlifə sağ ulsun, bu qədər tuyuğa bir xuruz gərəkdi, yuxsa yux?!

## Kefim nə vaxt isdəsə

Bir gün Bəhlul Danəndə yulla gedirdi. Birdən bir quluzorru onun tədbirliyini yuxlamax qəsdiylə qabağını kəsib dedi:

– Ey Bəhlul Danəndə, mən səni üldürməliyəm. Ancax ürəyinnən keçən bir isdəyin varsa, deynən onu yerinə yetirim, sunra səni üldürüm.

Bəhlul Danəndə sakitcə dilləndi:

– Quy bir yasin oxuyum, sunra üldür.

Quluzorru razılaşdı. Bəhlul Danəndə yasinin başından bir az uxuyub dayandı. Sonra tərpəndi ki, çıxıb getsin.

Quluzorru dedi:

– Bəs nə oldu? Yasinin dalısını niyə uxumadın?

Bəhlul Danəndə özünü o yerə quymayıb qayıtdı ki:

– Şərtimiz belədi ki, yasini uxuyub qurtarandan sonra sən məni öldürə bilərsən. İndi kefim nə vaxt isdəsə, mən unda yasinin dalısını uxuyub qurtaracağam. Sən də unda gəlib məni üldürərsən. Oldumu?!

Quluzorru Bəhlul Danəndənin bu süzünə bəndiymiş kimi uğunub getdi...

## O nə hünər sahibidi ki...

Bir günnəri xəlifə isdəyir ki, Bəhlul Danəndəni sınağa çəkib pisikdirsin. Bu niyyətnən də Bəhlulu yanına çağırıb üzünü tutur una:

– Ey Bəhlul Danəndə, deyillər, sənin ağılda-kamalda tayın yuxdu, o səbəbdən də sənnən iki şeyi suruşub üyrənmək

isdəyirəm.

Bəhlul Danəndə arif adamıydı, o sahatca **anşırdı*** ki, xəlifə unu ələ salmaq niyyətindədi. Özünü u yerə quymayıb deyir:

– Həzrəti xəlifə sağ ulsun, eşidirəm. Buyurun gürəh, nə surğu-sualdı belə?

Xəlifə suruşur:

– Ey Bəhlul, diynən gürüm, suda yaşayan ən büyük heyvan nədi?

Bəhlul Danəndə sakitcə cavab verir:

– Timsahdı.

Xəlifə diyir:

– Xub, burası belə. İndi keçək ikinci surğuya. İkinci surğum budur ki, bəs unda yer üzündə ən büyük heyvan hansıdı?

Bəhlul da elə bil buna bənd idi, özünü canıyanan kimi güstərib buzarır:

– Qibleyi-aləm sağ ulsun, o nə hünər sahibidi ki yer üzündə səndən büyük ulmuş ula?!

**Baş gərəkdir**

Bir gün xəlifənin ayağı bərk ayrıyır. O, həkimi çağırtdırıb ayağının dərdinə əlac istəyir və deyir:

– Tez elə ayağımı sağalt, bütün məmləkət mənim yuluma müntəzirdi. O qədər işim tükülüb qalıb ki...

Bu zaman xəlifənin yanında ulan Bəhlul bunu eşidir və diyir:

– Xəlifə sağ ulsun, məmləkəti idarə etməyə baş gərəkdi, ayağın bu işə bir qarışacağı yuxdur.

--------------------

*Anşırmaq – başa düşmək.

# MÜXTƏLİF LƏTİFƏLƏR

## Eşşək ulacax

Bir kişinin adını eşşək quymuşdular. Hamı unu "eşşək" – diyə çağırırdı. Axırda bu addan bezən kişi kəndün ağsaqqallarını evinə yığıb didi:

– Ey ağsaqqalar, gelün siz mənim adumı dəgişün, hamı məni "eşşək" diyə çağırır. Belə qalsa, arvadum məni indidən sunra eve qoymaz. Ağsaqqallar ona evdən çıxmağa məsləhət gürüllər. Məsləhəttəşib "eşşek" adlanan kişini evə çağırıb və diyillər:

– İndidən sunra sənün adun Qoduq olacax.

Təzə adı olan Qoduq çox razı oldı, ulara yimax – içmax verdi.

Sunra unnan arvadı suruşdu: – "Di, gürüm, ağsaqqallar sənə nə təzə ad verdi?" Kişi dedi:

- İnnən sunra, arvad, mənə Qoduq diginən. Doğrudan da, güzəl addı? – diyə Qoduq sual verdi. Arvadı özünnən çıxdı:

– Ay, dəli, heç bilmirsən ki, Qoduq də iki ildən sunra eşşək olacaq?

## Səməd dayının elçiliyi

Kəndçi Xəlil kişinin Xanbala addı bir uğlu var idi. Xəlil Allah rəhmətinə gidənnən sunra Xanbala evləmmək niyətinə düşdü. O, yaxın kəntdə yaşayan əsli Himeydidən olan Naz adlı bir qadının qızını sevir. Qız da Xanbalanı güzaltı etmişdi. Bir gün Xanbala Səməd dayını evinə çağırıb elçi göndərmək istəyir. Naz arvad Səməd kişiyə uzax quhum idi. Odur ki, onun süzünü yerə salmaz deyə Xanbala Səməd dayını elçi seçmişdi.

Ərtəsi gün Səməd dayı kəhər atı minif Kamax kəndinə Nazın qızı Səfiyə üçün elçiliyə gidir. Səməd dayının Hacıbala

adlı bir bacısı uğlu var idi. O, yulda fikirləşir ki, əyər Naz arvad qızı Xanbalaya verməsə, Hacıbala üçün nişannaram. Bu fikir başında o, Kamaxa çatır. Naz arvadın qapısında atını bağlayıb içəri girir. Quhumlar bir-birilə görüşüf hal-əhval xəbər alıllar. Sunra mətləbə keçib, gəlməsinin məqsədini Naz arvada süyləyir. Naz arvad yerindəcə titrəyir. Onun tekcə bir qızı var idi. Bütün dərdi-sərini ununla bülürdü. Onu ügey ana yanına verməyə heç də razı ula bilməzdi. Ona gürə Səməd kişiyə didi:

– Səməd dayı! Mən sənin hər hansı bir qulluğun ulsa bitirərəm, ancax bu məsləhət mənə sərf eləmir. Xanbalanın atası ülüb, ügey anası evdə qalıb, onun da qızı var. Mən belə bir oda qızımı diri güzlü ata bilmərəm. İncimə!

Səməd kişi bir qədər susdu, sunra ikinci hiyləyə əl atdı:

– Naz! Sən Hacıbalanı, anası Sevdanı, atası Şix Mirzəni yaxşı tanıyırsan. Sevda ilə Şıxmirzə Allah rəhmətinə gidib. Hacıbala üz əli, üz başıdır. Gəlsənə qızı una verəsən.

Naz bir uca səslə qəh-qəhə çəkib güldü, sunra Səməd kişiyə dedi:

– Ey, elçi Səməd! İki qarpızı bir əldə tutmazdar, birinə elçi gəlib, digərinə diləməzdər, gəl mənnən əl çək! Mənim sənə verəsi qızım yuxdur.

Naz arvad Səmədi yola saldı. Səmədin süvdası baş tutmadı. Kur-peşiman kəndə qayıtdı. Əhvalatı Xanbalaya deyir. Xanbala Səməd kişiyə belə diyir: – Bunu mən bilirdim, ancax unu deyim ki, atalar duğru diyiblər: "Üzgə üzgə üçün laləbayatı uxuyar". Sağ ul, Səməd dayı. Zəhmətinə gürə sənə minnətdaram, – diyib unu yula saldı.

## Xiyara şükür

Bustançı Əhməd neçə il idi ki, bustan əkirdi, onun gəliri ilə dulanırdı. Onun bustanında yemiş, qarpız, xiyar, çuğundur, turp, suğan kimi tərəvəzdər var idi. Bir il unun bustanında xi-

yar məhsulu hamıdan qabax bəhər verir. Əhməd fikirrəşir ki, nə etsin ki, kəndin ağası üçün nübar, bir az təzə xiyar aparsın. O, səhər tezdən durub bustana gidir, bir çanta təzə yetişmiş xiyar dərir, birbaş kənd ağasının evinə gidir. Ağaya xəbər verillər ki, bəs bustançı Əhməd sənə pay gətirib, üzü də təzə barama xiyar. Ağa onu layığınca qarşılayır, una bir-iki manat pul da verib yula salır. Vaxt keçir, yer-yemiş azalır, Əhmədin bustanında qara turp və payız xiyarı çıxır. Əhməd əvvəla bir qədər turp derir. Sunra fikirrəşir: Bəlkə turp ağanın xuşuna gəlmədi. Hər yerdə xiyar qurtarıb, bəlkə ağanın yadına xiyar düşüb, bu yul da una xiyar aparacağam. Bustandan iri xiyar derir, çantaya duldurur. O dəfə ki, barama xiyar aparmışdım, indi isə iri dəyən xiyar aparım, – diyə Əhməd birbaş ağanın evinə yullanır. Nükərrər ağaya xəbər verirrər. Əhmədi içəri aparıllar. Əhməd xiyar çantasını açır, sunra diyir:

– Ağa sağ ulsun, sununcu məhsuldur, bir də gətirənə qədər bunu tapmax ulmaz.

Ağa xiyarrarı gürüb nükərə əmr edir ki, xiyarrarı bir-bir Əhmədin başına çaxın. Hər xiyar başa dəyəndə Əhməd: "xiyara şükür!" – diyirdi. Ağa unnan suruşdu:

– Sən nə üçün "xiyara şükür" diyirsən?

Əhməd:

– Ağa sağ ulsun! Mən sənin üçün qara turp gətirirdim. Birdən yadıma düşdü ki, bəlkə ağa xiyar isdəyir, çünkü hər yerdə xiyar qurtarıb, udur ki, sənə xiyar gətirdim. "xiyara şükür!" ona gürə diyirəm, tupr əvəzinə xiyarı gətirdim. Əgər tupr gətirsəydim, unnar dəyən baş sağ ulmazdı. Yumşax xiyar isə o qədər bərk ağrıtmır.

Ağa sühbəti dinnəyib ucadan güldü. Əhmədi isə heç bir pay vermədən evdən quvdular. Odur ki, unun nəslinin adın "Xiyara şükür" quyublar.

## Lal gelin, kar gelin

Ata-ana uğlannarını evləndirillər. Qızın ata-anası qıza nəsihət edir ki, qaynana, qayınata dediyi süzə yux diməyəsən, lal ul, kar ul, ancax ki, süz qaytarma. Gelin ata-ananın dediyi kimi heç danışmır. Her işi gürür, qayınataya, qayınanaya çux hürmət edir. Unnarın qulluğunda durur, amma heş nə danışmır. Uğlan ata-anaya bu işdən narazı qaldığını bildirir və təzə arvad almağ isdeyir. Çarasız qalan ata-ana razı olullar. Bu işdən gelinə sühbət edillər, ancax onnan heç bir süz eşitmillər. Tuy çalınır. Uğlana təzə gelin getirirlər. Lal gelin inekleri sağır, getirib südü ucağa quyur. Alıb uşağını uturur bir qıraxda. Getirib gelini bu evdə quyullar. Birdən süd daşır.

Duvağın altında olan gelin deyir:

A kar gelin, lal gelin,
Südüv daşdı, al gelin!

Belə işi gürən lal gelin dillenir:

A fur-fusti, fur-fusti,
Giyov gelib çatınca,
Səsüv aləmi basdı.

Bunu danışan gürən xalq gedib uğlana gelinin danışdığı süzdəri diyillər. Qabax arvadın süzdəri uğlanın xuşuna gelir. O biri gelini duvağda evlərinə yula salır.

## Atlu

Bir atlu yulnan gidirdi. Gelib bir quyun sürüsünə rast uldu. Salam verib çubannan suruşdı:

– Ay çuban qardaş, bu sürünün heç sayı-hesabı yuxdu, kimün sürüsüdü?

– Bu sürü Mahmud bəgün sürüsüdü, – diyə çuban cavab verdi.

Sağollaşıb atlu yuluna davam etdi. Az gitdi, çux gitdi, dərə-təpə düz gitdi, gelib bir çəmənə çıxdı. Burada naxır sürüsünə

rast geldi. Salamlaşıb naxırçıdan suruşdu ki, bu naxır kimün naxırdı? Naxırçı cavab verdi ki, bu naxır Mahmud begündü. Atlu dərə təpə-düz gitdi, gelüb bir dağun başına çıxdı. Bu dağda bir sürü keçi dulaşırdı.

Atlu xavar aldı ki, bu keçi sürüsü kimindir?

– Bu sürü Mahmud begün sürüsüdü, – diyə çuban cavab verdi.

Atlu yuluna davam etdi. Gelib bir güzəl çəmənnügə çatdı. Burada gül-çiçək çux idi. Atlu yurulmuş halda uzandı ki, yuxlasın. O sahat yuxuya getdi. At isə çəməndə utlayırdı. Birdən unu bir neçə nəfər sirkələməyə başdadı. Atlu uyandı və məhəttəl halda onnara baxdı.

Adamlar una çek buradan atuvı, bilmirsən, bu gül-çiçək hamısı Mahmud begündü. Atlu kədərli halda alub atını buradan uzaxlaşdı. Az gitdi, çox gitdi, dərə-təpə düz gitdi, gelib bir yeşilluğa çatdı. Burada gül vardı. Ürdəklər burada utlayırdı.

Unnarın sayı-hesabı yux idi. Atlu üzini ürdəkçiyə tutub:

– Bu ürdəklər Mahmud begündümi?

– Bəli, Mahmud begündü, – diyə ördəkçi cavab verdi.

Bunu eşidən yolçı atı burada qoyub getmağa başladı. Ürdəkçi mat-məhtəl halda atludan suruşur:

– Ay insan, bəs atı niyə quyub gidirsən?

– Quy bu at da qalsun o Mahmud begə, bəlkə unda unun güzü duyar – diyə cavab verib yuluna davam edir.

## Səbr daşı

Günnərin bir günündə bir kənddən uzax yerə gəlin küçür. Anası xeyir-dua verəndə gəlinin cibinə bir daş da salır ki, bax, bu daş nə vaxt dillənsə, sən də unda dillənərsən. Yəni, dikbaş ulma, düzümlü ol, hər süzə cavab vermə.

Gəlin də bunu belə başa düşür ki, yəni heç danışma!

Gəlin küçdüyü yerdə heç danışmır. O qədər danışmır ki, hamı diyir bəs gəlün laldır. Axırda iş o yerə çatır ki, əri deyir:

– Neynirəm bu lalı. Gedin mənə bir salamat arvad gətirün.

Gəlün yenə də düzür, danışmır.

Bir gün gəlinün əri tuy eləyib, evinə təzə gəlün gətirir. Təzə gəlün həyətə girən kimi hələ atdan düşməmiş, "lal gəlin"ə sataşmax istəyir, unun yanında qürrələnir. Ucağın üsdündə aşıb-daşan qazana baxıb diyir:

– Ay lal-kar mürdəşir, aşın daşır, gəl düşür.

"Lal gəlin"in səbri tükənir, günüsünün bircə süzünə düzə bilmir. Cibindəki daşı yerə çırpır diyir:

– Özün yəhər başında, güzün ucax daşında, dillicəsən, dur düşür!

## Birinci dəfə durmazdım

Bir kenddə bir kişi var idi. O, heç yerdə işdəmirdi. O, bu verən tikə-mikəni yiyıb küçədə gəzirdi. Bir gün o qunşusı Rəhim kişinin evində yaxşıca arax içib çıxdı. Küçəynən ayaxlarını sürükləyə-sürükləyə evə tərəf gitmağa başladı. Birdən sürüşüb yıxıldı. Xeyli vaxtdan sunra ayağa durdu. Bir az vaxtdan sunra o genə yıxıldı. Durub öz-özünə didi:

– Mən bilsəydim ki, ikinci dəfə də yıxılacağam, birinci dəfə durmazdım.

## Yəqin sizdə adətdir

Səhər tezdən Gülsüm nənə xəmir yuğurub çürək bişirdi və şurba hazırramaq qərarına gəldi.

Onun 4 uğlu, 4 gəlini və 10-dan çux nəvələri var idi.

Ailə masa arxasında oturub qazanın qaynamağını güzdəyirdi. Kiçik qardaş büyüyə işarə edərək duzla dulu bankanı güstərdi. O da bir qədər fikirrəşəndən sunra duzu gütürüb qazana atdı. Onun dalınca Nəsrulla, Nəsrullanın dalınca Cəmaləddin, onun dalınca isə ən büyük qardaş Qazı bir-bir qazana duz atmağa başdadılar. Həmin otaxda unların qunaxları

var idi. Bu mənzərəni gürən qunax da qazana duz atmağa başdadı. Gülsüm nənə qunağın bu hərəkətini gürəndə şurbanın dadına baxdı. Şurba çux duzdu ulmuşdu.

Uğlannarı bir-bir otaqdan qaçdılar. Gülsüm nənə bütün hirsini qunağa tükərək unu yumuruxlamağa başdadı. Gülsüm nənəni sakitləşdirməyə çalışan qunax dedi:

– Allah xatirinə, ay nənə, mən bunu qəsdən eləmədim. Fikirrəşdim ki, yəqin sizdə belə bir adətdir ki, evdə hər bir adam qazana duz atmalıdır.

## Sən elədiyin fikri mən özüm də eləmişəm

Bir kişi evdə toxutdurduğu palazı satmaxdan ütəri payi-piyada yullanır Dərbəndə. Yulda gürür ki, bir atdı da üz tutub unun kimi gedir Dərbəndə. Baxır ki atdının yükü-zadı yuxdu, unu dannayıb dedi:

– Ay qardaş, – diyir, atının tərki bumbulubuşdu, nə ular, uzax yuldu, mənim bu yükümü də atına çat, rahat gidim. Duva eləyərəm, savab yiyəsi ularsan.

Atdı piyadanı başınnan eləmək niyyətiynən deyir:

– Kişi, gürmürsəmmi mənim atımələngənin biridi, məni güclə aparır, sənin də yükünü buna çatsam, partlayıb ülər ki?!..

Belə deyib də atını səyirdib aralanır. Amma bu, kəmfürsətin biriymiş. Bir az gedənnən sunra öz-özünə fikirrəşir ki, Allah necə mənim ağlımı aldı ki, piyadanın süzünü rədd elədim. Hazırca palazıydı, atın tərkinə quyduğumnan çapırdıb aradan çıxacaqdım: piyada ha yüyürsün, ha bağırsın, gəlib ata çatandı bəyəm? Qayıdım deyim ki, ver aparım.

Piyada da atdı aralanannan sunra elə bil yuxudan ayılır. Öz-özünü dannayır ki, gür, heş mənim ağlım varmı? Bu atdı, mən piyada. Nə bilim necə adamdı, hansı yuvanın quşudu: ulmadı elə, uldu belə. İnsafınnan dünüb, yükü atın belinə çatan kimi atı səyirdib aradan çıxsa, mən neylərəm? Elə Allah üsdümdə

uldu ki, razılıq vermədi. Piyada belə fikir elədiyi yerdə, bir də baxır ki, budu ha, həmən atdı qayıdıb gəlir unun yanına. Bilir nə məsələdi. Atdı gəlir, piyadanın qənşərində dayanıb deyir:

– A kişi, yükünü bəri ver aparım, səni bu yüklə yulda quymax insafdan deyil.

Piyada gülüb belə cavab verir:

– Gecdi, qardaş, çıx get yulunnan. Daha vermərəm. Sən elədiyin fikri elə mən özüm də eləmişəm...

## Sən verirsən şurdan-murdan...

Birisi evinin bir yanını sükdürüb həmən tərəfdən bir utax da artırmax istəyir. Amma bu iş yiyəsi bir balaca simic ulduğunnan çağırdığı usdaların yemək-içməyini qıtnaxlınan verir. Usdalar gürürllər ki, naharrarı dadar-duymazdı, üsdəlik də içində tamsımmalı bir şey yuxdu. Başdayıllar divarı künülsüz-künülsüz hörməyə. İş yiyəsi baxır ki, vaxt gəlib keçir, bu gün-sabah qış qapını kəsdirəsidi, di gəl, hürgü çux ləng gedir. Bu minvalnan usdalar işi heç qışın urtasına da başa vurmazdar. Bilmir neyləsin, qalır içinnən qırıla-qırıla. Bir dinmir, iki dinmir, axırda özünü saxlaya bilməyib buzarır:

– Ay usda, ay əmiuğlu, belə ulmaz axı, bir az əlli tərpənin, bu gedişnən biz axırda qarın, yağışın altında qalmasax yaxşıdı...

Usdalardan biri yüyrəkdilli ulur, iş yiyəsinin süzü qutarar-qutarmaz, u yandan qayıdır ki:

– Əmioğlu, burda bizdik bir iş yoxdu:

Sən verirsən şurdan-murdan,
Biz də vururux urdan-burdan.
Sən verginən ətdən-mətdən,
Biz də vurax bərkdən-bərkdən!

İş yiyəsi usdanın süzünnən alımını alıb bunnan belə unnarın yeyib-içməyinə yaxşı baxır, hürgü də beş-altı günün içindəcə başa çatır...

## İstəmərəm, ha

Bir gün meşələr padşahı Aslan heyvannarı hüzuruna yığıb deyir:

– Ürəyimə sərin bulax suyu düşüb. Filan dağdakı filan bulağın suyunnan bir kuzə duldurub gətirün.

Padşahın süzünə “bəçeşm” deyib heyvannar bir qırağa çəkildilər ki, məsləhətdəşib uyğun bir heyvanı su dalınca gündərsinnər. Dedilər:

– Tez gedib-gəlməyə duvşan yaxşıdı. Quy o getsin.

Duvşan yaxasını qırağa çəkdi:

– Ay başınıza dünüm, mənim bərk qaçmağıma baxmayın, yaman qorxacağam. Elə yanımda balaca bir şıqqıltı ulsa, qorxumnan kuzəni əlimnən salacağam, o da düşüb sınacax.

Dedilər:

– Unda qurd hamıdan ürəhlidi. Suyu qurd gətirsin.

Qurd tez dilləndi:

– Vallah, mən öz xasiyyətimə bələdəm, yulda quyun-quzudan bir şey gürsəm, kuzəni atıb unu parçalamağa cumacağam.

Qərəz, kimin adını çəhdilərsə, hərə bir şeyi tutalqa eləyib, yaxasını bir qırağa dartdı. Axır-axırda tısbağanı üzüyula tapıb su gətirməyi unun buynuna quydular. Tısbağa çar-naçar kuzəni gütürüb utdarın arasıyla üz quydu padşah deyən bulaxdan su gətirməyə. Bəli, bir sahat, iki sahat keçdi, tısbağadan bir xəbər çıxmadı. Güzləməhdən səbri tükənmiş heyvannar başdadılar onun qarasınca süyləmməyə. Elə bu heyndə tısbağa beş addımlıxdan başını qaldırıb dunquldandı ki:

– Ey, qeybətimi eləməyin, yuxsa getmərəm, ha!..

## O boyda kələmin də bu boyda qazanı olar

İki yalançı uturub irəlidən-geridən basıb bağlaya-bağlaya sühbət eləyir. Biri o birinə deyir:

– Bəs deməzsəmmi, bu il kələm əhmişdim, yaxşı da gəlişib

üzünü tutmuşdu. Bir tərəfdən başdadım dərməyə. Axırda biri qıraqda qaldı. Buna dəymədim, kələm də elə buna bəndiydi. Başdadı büyüməyə. Kələm yekəlib, lap qunşunun hasarına dirəndi. Qunşuya minnət elədim ki, icazə versin unun hasarını bir az o tərəfə çəkim, gürək kələmin axırı nə ulur? Qərəz, axırda bu kələm bütün həyəti, sunra yulu-izi tutdu.

O biri yalançı baxdı ki, əlac yuxdu, gərək dinsizin ühdəsinnən imansız gələ, qayıtdı ki:

– O gün bir qazan gətirdilər ki, yan-yürəsini düzəldib qaydaya salım, üzünə də qalay çəkim. Qazan, nə qazan! Çəkici əlimə alıb əyri-üyrüsünü düzəltməhdən ütrü başına dulanana kimi gün axşam ulurdu. Bu üzdən çəkiclə qazanın qırağını düyürdüm, o üzdə şagirdim bu səsi eşitmirdi.

Birinci yalançı özünü saxlaya bilməyib dillənir:

– Əşi, mən ülüm, yalan demə, o buyda qazan ulmaz, unu neyləyillər elə?!

O birisi də elə buna bəndiymiş kimi açılır, nə açılır:

– Niyə də ulmasın, ay qunşu, bəs unda sənin o buyda kələmini bunnan xırda qazanda necə bişirsinnər?!

## Gedənbaş-gələnbaş

Gün o gün ulur ki, ala dana buya-buxuna dulub kutana quşulmax həddinə çatır. Bir səhər dan üzü açılar-açılmaz, utunusuyunu verib unu işləməyə aparıllar. İndiyə qədər yaxşıca bəslənib-süslənib, uyur-uyur uynamaxdan savayı ayrı bir şey gürməyən, illah da kutan çəhməyin nə ulduğunnan başı çıxmayan ala dana atdana-atdana qabaxda gedir. Elə bilir ki, kutan çəkmək də elə ürüş-utarğada gəzib dulanmax kimi bir şeydi.

Ala dananın hal-qəziyədən bir şey annamadığını gürən quca üküz suruşur:

– Ay dana, hayana gedirsən?

Ala dana sevincək böyürür:

– Kutana! Kutana!

Quca üküz dünyanın işdərinnən halıydı. O səbəbdən də bir süz deməyib axşamı güzdəyir. Çöl işi başa yetib hamı geri qayıdan zaman quca üküz yenə də danadan suruşur:

– Ay dana, hardan gəlirsən belə?

Gün buyu kutan əkməhdən heyi qalmayan ala dana bu dəfə astadan ağızucu dillənir:

– Kutandan...

## Gönə də bax!

Simic bir ağa olur, əlində gürüləsi işi varıymış, isdəyir işi elə gürdürsün ki, ucuz düşsün. Bazara çıxır. Çux çək-çevirdən sunra bir adamla belə razılığa gəlir ki, bu gürüləcək işin qabağında həmən adama bir çarıxlıx gön versin. İşdəməyə gələn adam gönü qabaxdan alır ki, axşam çarıx tikə, sabah həmin çarıxnan işə çıxa. Amma ağanın verdiyi gön yaxşı gön olmur, kühnəlib əmələ yaramırmış. Qərəz, səhəri gün ağaynan süvdə kəsən adam vədə tamamında gəlir, başdayır işə. Günurta ularulmaz bu baxır ki, çarığın altı yırtılıb. Üzünü ağaya tutub deyir:

– Mən gedəsi uldum.

Ağa deyir:

– Bəs şərtimiz beləydi ki, bir gün işləyəcəksən, hələ heç gün yarı deyil.

Kişi çarığın altını güstərib ağaya buzarır:

– Günə baxdığın təki, gönə də bax də!

## Əl-ayağından bəllidi...

Bir gün dəvə özünü darta-darta yulla gedirdi. Unun üzünnən razı yerişinə güz quyan adamlar suruşdular:

– Ay dəvə, hardan gəlirsən?

Dəvə luvğa təkəbbürlə dilləndi:

– Bazardan.

– Bazarda neyləyirsən?
– Zərgər dükanım var, zərgərrik eləyirəm.
Dəvənin bu süzünü eşidənnər gülüb dedilər:
– Elə əl-ayağının nəcibliyinnən bəllidi...

## Dərdim başqa dərddi...

Bir gün dəmirnən qızılın hərəsini bir zindan üsdünə quyub düyürdülər. Qızıl baxdı ki, bu dəmir düyüldükcə bir haray quparır, bir fəryad iləyir ki, az qala səsi ərşə yetişsin. Axırda düzməyib üzünü tutdu qunşusuna:

– Ay dəmir, bu nə hay-həşirdi salmısan? Mən qiymətdə sənnən bahalı ula-ula, yar-yaraşığım da səninkinnən üsdün ula-ula səsimi bu qədər ucadan çıxartmıram. Amma sənin səsin dünyanı başına alıb. İkimizi də eyni zindan üsdündə, eyni çəkicnən düymüllər bəyəm?!

Dəmir yanıqlı-yanıqlı dilləndi:

– Ey, ay qunşu, sühbət qiymətdə, yaraşıxda ulsaydı, dərdim nəydi? Məni bağırdan ayrı səbəbdi. Bilirsənmi, ay qızıl, sən qızılsan, səni dügən dəmirdi – özgəsidi. Amma mən bədbəxti dəmirdi dügən, özümünküdü – dəmirdi, ona gürə tablaya bilmirəm. Ah-naləmin dünyanı başına almağı da bu səbəbdəndi. Özümünkü dügür ey, özümünkü dügür məni! Dərd budu, zülüm-zillət budu!..

## Qanmazı çuxdu

Çuban sürünü çaya tüküb suvarırdı. Özü də bir qıraxda durub elə bir ucdan "qurrey-qurrey" deyirdi. Bir yul adamı da urdan keçirdi. Ayağını saxlayıb üzünü tutdu çubana:

– Ə, çubansan, ki çuban! Quyun özü suyu gürmürmü? İsdəsə içəcəh, isdəməsə yux. Daha "qurrrey"i neynir?

Bu çuban da hələm-hələm süz altında qalan deyildi. Yul adamının atmacasını elə güydəcə tutdu. Amma özün o yerə

quymayıb qayıtdı ki:

– Baxma, hərdən qanmazı da ulur, “qurrey” deməsəm, içməyəcəh...

## Xudu bəy də bazardadı

Keşmişdə Xudu adında kasıblaşmış bir bəy varmış. Bir gün o, kiminnən papax, kiminnən çuxa, kiminnən parıldayan xrum çəkmə, kiminnən də gümüşü xəncər alıb bağlayır belinə. Onun belə geyinib-keçinməsini gürən qunşuları suruşullar:

– Xeyir ulsun, ay bəy, hara belə hazırraşırsan?

Xudu bəy əhvalını puzmadan ütkəm-ütkəm deyir:

– Gedirəm həfdə bazarına, quy desinnər ki, Xudu bəy də bazarda idi...

## Mulla Pənah ve çuban

Bir çuban çüldə oturub süd duğramacı yeyir. O, özünün yanınnan kendli Mulla Pənahın keçdiyini gürüb, mullanı açdığı süfrəyə çağırır. Mulla tez razılaşır. Sühbət eyləyillər. Birdən çuban deyir:

– Mulla, bir dəli şeytan deyir, bu quyunnardan üçünü mullaya ver. Sən ne meslehət gürürsən, şeytanın süzünə baxım ya yux?

Acgöz mulla o sahat Qurandan ve başqa kitablardan misal gətirib deli şeytanın süzünə baxmax lazım ulduğunu bildirir. Çuban heç nə demir. Bir azdan o yene mulladan soruşur:

– Mulla Pənah, hindi deli şeytan deyir ki, dur ayağa, əlindəki çumağnan mullanı düyüb üldür. Necə mesləhət gürürsən, şeytanın süzünə baxım ya yux?

Mulla Pənah tez Quran ve başqa kitablarda deli şeytanın süzünə baxmağın çux ağır günah ulduğunu deyir:

– Yux-yux, oğul! Lənət şeytana! Ağıllı ul, adam deli şeytanın sözünə baxmaz, – deyib qaçır.

Çuban onun dalınca gülür.

## Hansı dərdi çəkim?

Mirzəbək can üsdə idi. Həmən gecə qar-tufan idi. Bunnara pay verilən ana keçi iki bala vermişdi. Anası aciz olduğu üçün balaları duğub, sonra ülmüşdü. Mirzəbək də səhərə yaxın vəfat etdi.

Şanisə tüvləyə dönüb baxtı gördü ana keçi iki bala doğub, şad oldu. Amma gürdü ki, ana keçi ülüb. Çox peşman uldu. Mirzəbəkə bu qədər yazığı gəlmədi Şanisənin. Ona gürə ki, uğlu-uşağı yux idi Mirzəbəkin. Səhər açıldı, qunşu arvaddardan biri gəldi. Şanisiyə tapşırdı ki, o irəfin yuxarisındakı turları da alsın. Adamlar yasa gəlincə qunşu piçə od saldı. Şanisə turları ağaca süpürgə bağlayıb alanda, irəfdə ulan çini badələrin üçü yerə düşüb sındı. Hər bir zərər bu gecəyə qalmışdı diyib ancax indi Şanisə daralıb ağladı. Bir sahata əv arvadlarla duldu. Hər gələn arvad uxşayıb ağlayır, yetim, kasıb, fağır Mirzəbək diyib güz yaşın tükdülər. Arvaddardan biri Şanisəyə təpinib danışdı. Sən niyə dimmirsən, uxşa, ağla.

Şanisə ükürlənib didi:

– Ay bacılarım, hansı dərdi çəkim, təkçə Mirzəbəkinmi?

Tüvlədə iki balasın quyub ülən keçini, yuxsa anamdan qalan, sınan üç badəninmi dərdin çəkim? Hansı dərdi çəkim bacılarım? İndi Mirzəbəki kim axdarar?

# XII. UŞAQ FOLKLORU

## BARMAQLAR

Baş barmaq,
Başala barmaq.
Uzun hacı,
Qıl turacı,
Xırdaca bacı.

Bu vurdu,
Bu tutdu.
Bu bişirdi,
Bu yedi.
Vay, bəbəyə qalmadı.

## MƏHƏMMƏDAĞA

Məhəmmədağa
Girdi bağa,
Bu quş vurdu,
O da qurbağa.

Verdi qunağa,
Qunaq yemədi.
Saldı yağa,
Özü təllədi,
Bizə vermədi.
Yedi qurbağa,
Düşdü yatağa.

***

Hadıydı, Huduydu,
Sənin yerin gədiyidu.

Al başına, kül başına,
Ət taxtasın vur başına.

## CÜCƏLƏRİM

Cücələrim birər-birər,
Suyu gürüb yaxın gələr.
İçər, gedər eşələnər,
Yeyər, içər  cücələrim,
Duyub qaçar cücələrim.

Cücələrim bəzəklidi,
Bəzəklidi, düzəklidi.
Sarı, çil-çil, hər rənglidi,
Yeyər, içər  cücələrim,
Duyub qaçar cücələrim.

Cücələrim civıldaşar,
Qanad çalar, pırıldaşar.
Anaları qırıldaşar.
Duyub qaçar cücələrim,

## HAMAM HAMAM İÇİNDƏ

Hamam hamam içində,
Xəlbir saman içində.
Dəvə dəlləklik elər,
Kühnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.
Hamamçının tası yux,
Dəlləyin güzgüsü yux.

## A TEŞTİ

A teşdi, teşdi, teşdi,
Vurdum, Çalğanı keşdi.
İki xuruz dalaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan güyərçin uşdu.
Güyərçin, alapaxta,
Yuvası qəlbi, taxta.
Gürüm onu kim vursa,
Qan qussun laxta-laxta.

## ƏKİL-BƏKİL

Əkil-bəkil quş idi,
Tənəgə qummuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi.
Meydanın ağacdarı,
Dən gətirir quşdarı.
Çəpər çəhdim, yul aşdım,
Qızılgülə dulaşdım.
Bir dəsdə gül dərməmiş,
Nənəm gəldi, mən qaçdım.

## TÜLKÜ, TÜLKÜ, TÜNBƏKİ

Tülkü, tülkü tünbəki,
Quyrux üsdə lünbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız.
Xuruz bizim mullamız,
Çaqqal bizim çavşımız.

Ala qarğa carçımız,
Tuyux bizim çərçimiz,
İlan bizim qəmçimiz.
Sarıbabada gəzərsən,
Sarı bığları burarsan,
Bir çumax vurram ülərsən.
Tülkü, tülkü, tülkü səni,
Üldürəllər, bil ki səni.
Tülkü, tülkü, tünbəki,
Quyrux üsdə lünbəki.
Ayı axmax,
Dunuz tuxmax.
Qurd ulavuş,
Çaqqal çavuş.
İlan qamçı,
Tıspağa çanax,
Biz ona qunax.

## YANILTMACLAR

Mən gedirəm indi şumu tuxmaqlamağa. Tuxmaqlasan da tuxmağlayacam, tuxmağlamasan da tuxmağlayacam.

*   *   *

Çəp keçi, çəp keçidi aşdım, çəpəki keçib, çəpərə keçər.

*   *   *

Acdım, sac asdım, yadımdan çıxdı az asdım.

*   *   *

İynəni sarı sapa sapla, düm sarı sapla, sapları sapla sapla.

# XIII. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

***AŞIQ MİNATULLAH***

## DAĞISTANIN

Qalıb bir qunaq ol bu Dağıstana,
Bəzəkli çülləri var Dağıstanın.
Keç Qafqaz dağların, gəl Dağıstana,
Seyrəngah elləri var Dağıstanın.

Çox millətli qardaşları, onun var,
Əmək sevən qız-oğlanı, onun var.
Almalı, heyvalı bağlar, o onun var,
Bəhərli bağları var Dağıstanın.

Ulu çay hey axıb Xəzərə dolır,
Darvaq çay bağlanıb, dağlar sulanır.
**Rekauitel, Muşkişiət*** nə dadlı olur,
Uzumlu bağları var Dağıstanın.

Almalı, heyvalı, üzümlü Dərbənd,
Armıdlu, xurmalı, meyvəli Dərbənd.
Xəsdə şəfa tapır sizdən, Qaya kənd,
Şəfalı suları var Dağıstanın.

## QIZLAR

Səhər-səhər yaşıl bağlar içində,
Biri-biri ilə yarışan qızlar.
Həm alaqda, həm bağlarda, biçində,
Zərbəçi adilə çalışan qızlar.

------------------------

*Rekauitel, muşkişiət – üzüm növləri.

Altı qızdır bu manqanın dəsdəsi,
Hər zaman iş üsdə edirlər bəhsi.
İki norma yarım ödər hərəsi,
Zərbəçi adına alışan qızlar.

Qabaqda gedəndir xanım Nazana,
Maral baş qaldırıb baxır hər yana.
Nazlı sühbət edər deyər, Ceyrana,
Şirin danışıqda qarışan qızlar.

Şad ol, Minatullah, sən də həmişə,
Çalmaq və oxumaq eylədin peşə.
Manqa başçısıdır Nərgız, Bələfşə,
Bu birlik işində yarışan qızlar.

## ƏZİZ KƏNDİM

Kənardan baxanda sənə,
Mən sevindim, əziz kəndim.
Axı bənzərsən şəhərə,
Mən sevindim, əziz kəndim,
Yaşasın mənim vətənim.

Asfalt boyu yaşıl olar,
Çiçək  asar, gül baxçalar.
Plana düşüb binalar,
Mən sevindim, əziz kəndim,
Yaşasın mənim vətənim.

Elektrikləşib evlər,
Parlaq, işıq şən küçələr.
Şad olur görən ürəklər,
Mən sevindim, əziz kəndim,
Yaşasın mənim vətənim.

## OXUYUR

Keçəydim bağ kənarınnan,
Bağçada bülbül oxuyur,
Mən xuşlandım avazınnan.

Bu nazənin eylər nazı,
Oxşayar baharı, yazı,
Əcəb xoş gəlir avazı.

Oxuyanda hərdən-hərdən,
Sulmaz bağı heç nəzərdən,
Xəbərsizdir o gedəndən.

Oxşayar, qaynayar coşar,
Çux hündür dağları aşar,
Hərdən aşığa sataşar.

Nə qafildən bilər bilməz,
Desəm də keyfinə dəyməz,
Atəş qəlbimdə heç sönməz.

Çox da mənə satma nazın,
Əlimdə oynayar sazım,
Aç kefin Minatullahın.

## BİLƏ-BİLƏ

Bir canan ilə dust oldum,
Axır özüm bilə-bilə.
Sühbət eylədim, məst oldum,
Mənə baxdı gülə-gülə.

Dayandı durdu qarşımda,
İpək çarqat var başında.
Xumar güzündə, qaşında,
Sevinci var gülə-gülə.

Salam verdim salamlaşdı,
Gördüm, ürəyim alışdı.
Suna təki yaşıl başdı,
Naz eyləyir gülə-gülə.

Fərə kəklik kimi araz,
Mən ülüm, gəl eyləmə naz.
Mintullah əlində saz,
Çalıb-oxur gülə-gülə.

## QOCA KƏNDİM

Neçə-neçə əlli illər keçirdin,
Yadındamı sənin, ey quca kəndim?
Nə cür əkib, nə cür biçib yeyərdin,
Yadındamı sənin, ey quca kəndim?

Varlının ulardı yüz satı yeri,
Yoxsulun çox idi sayı, qədəri.
İcrayə alardı, şumlardı yeri,
Yadındamı sənin, ey quca kəndim?

Şumlardı, əkərdi kasıb o zaman,
İsti qum altında salardı xırman.
Varlı yağlı yeyər kasıb turş ayran,
Yadındamı sənin, ey quca kəndim?

Varlının olmazdı dini-imanı,
Verməzdi kəndliyə arpa-buğdanı.

Təlbəmlər açardı baqqal dükanı,
Yadındamı sənin, ey quca kəndim?

Varlılar alırdı xəncəlnən bıçaq,
Oğlanların öyrədərdilər qaçaq.
Ölüb-öldürərlər su üsdə ancaq,
Yadındamı sənin, ey quca kəndim?

## NƏDİR?

Bir adını danış, ismini süylə,
Deməyib yerindən cuşmağın nədir?
Sana öz dostunu, yığ sən cəm eylə,
Dəlibən qəlbimi yıxmağın nədir?

Bir belə məclisdə eyləmə nazı,
Tutuban əlində sədəfli sazı.
Dustun, aşnan ulsun səndən irazı,
Qaytaq xoruzu tək uçmağın nədir?

Şən məndən istərsən nə süz surmağa?
Duraram üzbəüz, qabaq-qabağa.
Şahmar tək hazıram səni sançmağa,
Bir mənə qıyğacı baxmağın nədir?

Mən də  sən layıqda qəldim məclisə,
Yeyib-içib kəf edərəm nə isə.
Mənnən nə istərsən-bu gözum üstə,
Deməyib qövlümü yıxmağın nədir?

Şirin dostum, sənə deyən yox süzüm,
Sən ol dustum, həm qardaşım həm gözum.
Dust-aşna yığılıb quy desin düzün,
Mənəm, mənəm deyib durmağın nədir?

Minatullah əsirgəməz qanını,
Layıqyana dusta verər canını.
Yaxşı-yaman dust-aşnanı tanı,
De gürüm süzünün mətləbi nədir?

## SƏNİN

Vurulmuşam sənə mən, ey güzəl ceyran,
Yanıram dərdinnən mən sənin, inan.
Mənim tək olarmı bu dərdə yanan?
Qalıbdır canımda həsrətin sənin.

Sən bir tərlan uldun, mən də bir laçın,
Kəsdim mən bərələr, qalmadı **qusum***
Nə cür inandırım, nə cür and içim,
Qalıbdır canımda həsrətin sənin.

Əlimnən qaçırdım güzəl maralı,
Mən nə çarə edim, duşdun aralı.
Minatullah, oldu səndən yaralı,
Qalıbdır qanımda həsrətin sənin.

## OLUR

Dostum, qız sevirsən, al qonşu kənddən,
Qonşu kəndin qızı hörmətli olur.
Yaxşıynan-yamanı özün bilirsən,
Qonşu kəndin qızı hörmətli olur.

Öz kəndindən alsan olur beyhəya,
Bir ay keçməz çıxar molla haraya.
Əldə dayaq tutar, ya da bir paya,
Qonşu kəndin qızı hörmətli olur.

------------------------
*Qusum – burada ov mənasındadır.

Qonşu kəndin qızı beyhəya olmaz,
Saxlayar namusun, hayasın satmaz.
İşində-guçundə heç dala qalmaz,
Qonşu kəndin qızı hörmətli olur.

Öz kəndinnən alsan qəzər hər yanı,
Hərdənbir yağlayır ata-babanı.
Təpiklər ananı, döyər atanı,
Qonşu kəndin qızı hörmətli olur.

Qonşu kəndin qızı abırsız olmaz,
Kəndlərdən gələmlər hörmətdən qalmaz.
Hörmət eylər, özün hörmətdən salmaz,
Qonşu kəndin qızı hörmətli olur.

Öz kəndinnən alsan çatdırmaz başə,
Qəsd eylər imaça, qeynəlməz işə.
Sözün duz qəlməsə, deyəcək başə,
Qonşu kəndin qızı hörmətli olur.

Minatullah yaxşı-yamanı bilər,
Ömürdən oturub bir neçə illər.
Hər bir kənddən qəlib bizə gəlinlər,
Qonşu kəndin qızı hörmətli olur.

## OYNAYIR

Yeni bahar bizə qəlib, ey dostlar,
Bülbül cəh-cəh vurur, güllər oynayır.
Al-yaşıl qeynər ellər, obalar,
Ürəklər şad olur, dillər oynayır.

Çiçəkli baharın ətir içindən,
Gənclər vəcdə gəlir bahar eşqindən,

Gözəl Dağıstanın əsən yelindən,
Üstümə tökülən güllər oynayır.

Minatullah sevinib sazını sazlar,
Keçibdir zimistan, gəlibdir bahar.
Atadan-babadan qalan məsəl var,
Mizrab telə dəysə, tellər, oynayır.

## BU GUN

Bahar vaxtı abu-leysan gələndə,
Düşu yanıq çöllər sevinər bu gun.
Ətirli bənəfşə boynun əyəndə,
Ürəklər şad olub sevnir bu gun.

Dağnan aran geyib yaşıl libası,
Bürüyüb hər yanı bülbül sədası.
Oğlan və qızların var bir arzusu,
Gələcək həyata sevinir bu gun.

Minatullah coşub, saz alar ələ,
Cavanlıq oxşayır  açılan gulə.
Bahar qəlib, çatıb bu bizim elə,
Bahar sağlığına sevinər bu gun.

## DAĞISTANIN GÖZƏLİ

Səhər-səhər durub gedər bulağa,
Bizim dağlı Dağıstanın gözəli.
Bir görən istəyir səni görməyə,
Bizim dağlı Dağıstanın gözəli.

Görməli boyun var, gözəl qamətin,
Şirvan pambığına oxşar bədənin.

Səni görən çəkər sənin həsrətin,
Bizim dağlı Dağıstanın gözəli.

Elə bil çəkilib, qələmdir qaşı,
Barmağında üzük firuzə qaşı.
Yaşıl atlas kofta sənə yaraşı,
Bizim dağlı Dağıstanın gözəli.

Minatullah sözün kutah eyləyər,
Dilində əzbərdir sinəsi dəftər.
Cavanlar yığılıb yolunu gözlər,
Bizim dağlı Dağıstanın gözəli.

## BİL QƏDƏRİNİ

Bir ərzim var sizdən isdəkli dostlar,
Məclisdə içəndə bil qədərini.
Nə isə, hər yerin bir qaydası var,
Məclisdə içəndə bil qədərini.

Ürək sevən dostlar birqə oturar,
Öz qədərin içən hörmətli olar.
Şad olmaq, oxumaq oynamaq olar,
Məclisdə içəndə bil qədərini.

Məclisdə doğrudur, içki içəllər,
İçqi məclisində sağı seçəllər.
İçqinin qədərin, vaxtın biləllər,
Məclisdə içəndə bil qədərini.

Tost məclisdə olsa, nizam qaydası,
Sönməz o məclisin şamı-havası.
Hər zaman olacaq şadlıq sədası,
Məclisdə içəndə bil qədərini.

Minatullah açıq deyər sözləri,
Çox sevir məclisi, doğru dostları.
Yaxşı dostu araq hörmətdən salı,
Məclisdə içəndə bil qədərini.

## BU DÜNYADAN

Mənəm deyən bu dünyadan,
Nə aparar bu dünyadan?
Axır ömurun verər bada,
Nə aparar bu dünyadan?

İnsan bu dünyanın kəfin,
Sürsə də, bilməz ləzzətin.
Biri gün çəkəcək həsrətin,
Nə aparar bu dünyadan?

Hər kəsə lazımdı sağlıq,
Sağlıq olsa, olar varlıq.
Bir yaxşılıq, bir yamannıq,
Nə aparar bu dünyadan?

Minatullahın söhbəti,
İsdər dostu-məhəbbəti.
Çox isdəyən mal-dövləti,
Nə aparar bu dünyadan?

## ŞAD OLMUŞAM

Ceyran boylu bir gözəldən,
Mən ürəkdən şad olmuşam.
Danışan şirin dilindən,
Mən ürəkdən şad olmuşam.

Mən oxlandım qaş-gözundən,
Çox razı oldum özundən.
Sevirəm deyən sözündən,
Mən ürəkdən şad olmuşam.

Minatullah doymaz eldən,
Gözəli salmaz nəzərdən.
Baxış vərən qönçə güldən,
Mən ürəkdən şad olmuşam.

## SƏNİ SEVƏNDƏ

Bilirsənmi sənə namə yazmışam?
Gözum görüb ürək səni sevəndə.
Məhəbbət eşqini cana salmışam,
Gözum görüb ürək səni sevəndə.

Naz eyləmə, mənə insaf eylə sən,
Şad ürəklə söylə, bir danışginən.
Uçub könlum quşu, gedib səniynən,
Gözum görüb, ürək səni sevəndə.

Minatullah qoşub söz deyər sənə,
Duşub eşqin dəryasının içinə.
El-ölkə yığılsa, nə eylər mənə?
Gözum görüb ürək səni sevəndə.

## SÖZ VERMİŞƏM

Aşıq, qəl dindirmə məni,
Bir oğlana söz vermişəm.
Sözümnən dönə bilmərəm,
Bir oğlana söz vermişəm.

Bir sözdür, demişəm ona,
Yanıram mən eşq oduna.
Canım qurbandır canına,
Bir oğlana söz vermişəm.

Mənim adım Bahar xanım,
Gül-çiçəkdir hər bir yanım.
Minatullah qardaş canım,
Bir oğlana söz vermişəm.

## BAHAR XANIM

Bağışla, sən Allah mənim özümə,
Qoşadır saçların, ey Bahar xanım.
Eşitginən sənə deyən sözümə,
İncidir dişlərin, ey Bahar xanım.

Sevgiyə heç bir şey tay ola bilməz,
Sevməyən, sevginin qədrini bilməz.
Bir sözdən ötəri adam inciməz,
Qələmdir qaşların, ey Bahar xanım.

Minatullah bilib sənin halını,
Eşqə düşən yandıracaq canını.
Ürəkdən o sevir Bahar xanımı,
Xoşdur baxışların, ey Bahar xanım.

## NƏ GÖZƏL-GÖZƏL

Baharda gözəldir güllər, gözəllər,
Baharda quşlar da nə gözəl-gözəl.
Hər tərəf gul-çiçək, yasəmənlikdir,
Baharda gözəllər nə gözəl-gözəl.

Bəzənib gözəldir birindən biri,
Nə gözəl bəzəyib bu bahar sizi.
Dərib əllərilə lalə-nərgizi,
Tutub dəstə bağlar nə gözəl-gözəl.

Minatullah görub sizi sevini,
Bu bahar bəzəyib nə gözəl eli.
Bülbülün nəğməsi, ətiri, gülü,
Gəlir hər tərəfdən nə gözəl-gözəl.

## TƏRİFLƏMƏ

Ey qohumlar, ey qonaqlar,
Sizdən ixtiyar olarmı?
Ey mehriban, əziz dustlar,
Saznan söz demək olarmı?
Bizə qonaq olan dustlar,
Mənə ixtiyar olarmı?
Bizə Miras Pirmalını,
Çağırıb görmək olarmı?

Əziz dustlar, mən deyərəm,
Ey çoban Pirmalı qardaş.
Mən şad olub sevinərəm,
Baş çoban Pirmalı qardaş.
Yeri gəlib söz deyərəm,
Ey çoban Pirmalı qardaş.
Dilimdə əzbər eylərəm,
Ey çoban Pirmalı qardaş.
Sənə bir dastan deyərəm,
Ey çoban Pirmalı qardaş.
Saznan tərifin eylərəm,
Baş çoban Pirmalı qardaş.

Saznan tərif edib səni,
Yazdım eşqin dastanına.
Çağıranda incimədin,
Gəldin dost-aşna yanına,
Göznən görub şahad uldum,
Gedim kolxoz fermasına,
Neçə illər zəhmət çəkdin.
Sən baxdın kolxoz malına,
Qızqanmadın canını sən,
Qoydun qaramal yoluna.
Qaramal qədrini bilən,
Ey çoban Pirmalı qardaş.

## PARTİZAN MAKSİM

Yaşı on il tamam olan bir uşaq,
Soruşdu anadan bir gun o ancax.
Dedi ona atam qedib-qəlmədi,
Ananı fikir aldı bir az dayandı,
Uşaq bu sözünə şübhəli qaldı.
Uşaq təkrar etdi soruşdu gənə,
Yavaş gedib əyləşdi öz yerinə.
Ananın gözləri dolmuşdu yaşdan,
Qeyri bir tərəfə baxdı yavaşdan,
Uşaq baş qaldırdı, aynaya baxdı,
Ana öz kədərin yaddan çıxardı
Dərindən ah çekdi, ana söylədi.
Dedi: Düzdür atan gedib gəlmədi,
Bu dövlət, bu torpaq bizə vətəndi.
Qorumağa gedib, atan əsgərdi.
Uşaq fikirləşdi, dayandı bir an.
Dedi: Mən doğrudan əsgər oğluyam.
Atanı heç olarmı yada salmayan?
Gəldi ağır günlər, illər də keçdi,

O gundən çox aylar, illər də keçdi
Faşistər ayağın vətənə qoydu,
Şəhərlər taladı, kəndləri soydu.
Yığdı cavan qız-oğlanı bir yerə,
Qul elədi apardı o öz yerinə.
O vaxt buludlar da gözun sıxardı,
Nisana nə hüquq, azadlıq vardı,
Maksimin nə güçü, quvvəsi vardı
Ayrıldı, anadan o mərhum qaldı.
Kəsildi çarəsi onun hər yerdən,
Gəzib-dolanırdı o küçələrdə,
Qara gunlər keçirirdilər birgə.
Bir gun Maksim evdə gəzdi-dolandı.
Nə isə daxıldan bir məktub tapdı.
Birdən o məktubu açdı, oxudu.
Məktubun içindən çıxdı şəkil də.
Maksim fikirləşdi, dayandı bir an,
Dedi: Mən ordayam, əsgər oğluyam.
Onu əvəz etmək üçün borcluyam.
Atəş tək yanırdı, gəzirdi Maksim.
Gəzib-dolanırdı o axşam-səhər,
Keçirirdi günün açıb birtəhər,
Maksim fikirliydi, dururdu səhər.
Ürəyində vardı qəmli fikirlər,
Birdən ona əl yellədi bir nəfər.
Yavaş-yavaş gedib çatdı yanına.
Qorxu və həyəcan salıb canıma,
Bu adam çox yavaş səslə süylədi:
Oğul, bu yana dur, xəlbətdir dedi,
Maksim də yanında onun əyləşdi
O sözdən ürəyi çox sakitləşdi.
Axı Maksimindir bu el, bu oba,
Nə isə, hazırdır qulaq asmağa,
Dedi: Bala, nə gəzirsən sən misgin?

Atan kimdir, deginən mənə ismin?
Anam katorqada faşistlərlədir.
Atam Andreydir, adımdır Maksim,
De görum bu yerdə çoxdan faşist var.
İki ildir bu kəndi faşist talayar.
Deyəsən, bu yerdə komendant da var?
Bəli, əlli nəfər silahlı əsgər qoruyar.
Deyib başa satdı Maksim sözünü.
Doğru bir söz sormaq olarmı səndən?
Adını bağışla qızlətmə məndən.
Bala, sən adını gizlədsən məndən
Qeyri yerdə ola bilər deyərsən?
And içirəm bir kəs bilməz Maksimdən.
Oğul, mənim adımı çoxları bilərdi,
Hər yerdə Mixail əmi bəllidi.
Biz laqerdən qaçan əsgərlərdənik,
Axır bu çöllərdə biz gizlənirik.
Maksim də şad oldu, birdən söylədi,
Mənim öz atam da əsgərdir dedi.
Kisədən çıxardı şəkil göstərdi
Dedi: Budur, mənim atam əsgərdi.
Mixail şəkilə baxdı dedi:
Sənə kümək eləmək mənim borcumdur.
O gündən oldular onlar da dostlar,
Məsləhət gördülər, ayrıldılar.
Qoydular bir vədə o yerə gəlmək.
Keçmişdi görüşdən bir neçə gün vaxt,
Şərait var idi hər işi bilmək,
Hər işi öyrənib Maksim bilmişdi.
Dostu Mixailə tez yetirmişdi.
Gəzərdi kəndləri, gələrdi gecə,
Tələsirdi gəlib onu görüncə
Çatdırardı Maksim faşist sorağın.
O gecə onlara düşərdi qırğın.

Gecə yarı idi, oyandı Maksim
Eşitdi zərbəli qumbara səsini,
Ara verməz işlədi tüfəng-avtomat.
Uçə işlədi axır dayanmaz,
Dan söküldü, axır sabah açıldı.
Bir nəfər Mixail dedi, qışqırdı.
Şad oldu Maksim də çıxdı evindən.
Gördü Mixaili, öpdü üzündən.
Əlində tutmuşdu,  vardı avtomat,
Gülə-gülə o Maksimi dinlədi.
Maksim, bala, gəlsən bizimlə, dedi.
Partizan dəstədir bizim dəstəmiz,
Var bu meşələrdə bir düşərgəmiz.
Bilirəm ordenli əsgər oğulsan,
Maksim də şad oldu düşdü qabağa
Gedib nənəsindən izin almağa.
Nənə izin verdi öz nəvəsinə.
Atan kimi orden tax sən döşunə.
Maksim nənəsindən çox razı qaldı,
O gündən partizan bir oğlan oldu.
Hərdənbir gələrdi o, evlərinə
Heç bir söz deməzdi o, nənəsinə,
Hər yeri dolaşıb, Maksim gəzərdi,
Onun fikirini kimsə bilməzdi.
Hər işi öyrənib qaçıb iz ilə.
Tez xəbər verərdi öz dəstəsinə
Partizan komandir polkovnik Kozub,
Danışdı Maksimlə üz-üzə baxıb.
Azadlıq cəbhəsin vətən bilirdi,
Maksim də vətənin azad quşu idi
Gəzdi-dolandı o, hər yanı.
İtirdi, tapmadı doğma ananı,
Atası gəlmişdi razı oldu ondan.
Balaca qəhrəman bu intizamla,

O durdu dayanıb ata önündə,
“Qızıl Ulduz” orden vardı döşündə.

## XAL YANAĞINDA

Səhər-səhər badi-səba əsəndə,
Bir gözəl görmüşəm xal yanağında.
Dindirəndə şirin-şirin danışır,
Elə bil yapışıb bal dodağından.

Qaldırıb başını qöz ilə baxar,
Ona muştaq olan canından çıxar.
Hüriyə, pəriyə taydır, oxşayar
Qırmızısı, ağı var yanağında.

Gəzər Minatullah obanı, eli,
Heç görməyib belə açılan gülü.
Tutub **çarqatını*** ağ şimşək əli
Hilal qaş üzüyü var barmağında

## YAR QABAĞIMDA

Mənimçin zimistan bahara bənzər,
Şirin danışanda yar qabağımda.
Elə billəm oxuyandır bülbüllər,
Şirin danışanda yar qabağımda.

Çox illəri mən də qürbətdə qaldım,
Yaşım keçib yavaş-yavaş qocaldım.
Sevib-sevilməkdən mən heç doymadım,
Şirin danışanda yar qabağımda.

---------------------
*Çarqat – yaylığ.

Heç qocalmaz Minatullah cavandı,
Hərçayı söz, yar yanında yamandı.
Elə bil xəstəyçin şəfa, dərmandı,
Şirin danışanda yar qabağımda.

## QIZLAR

Bir qayda var bizdə ata-babadan,
Dəstə-dəstə gəlir toylara qızlar.
Eyninə geyibdir zərdən-zibadan,
Oxşayır baharın geyminə qızlar.

Kimi sola baxar, kimisi sağa,
Kimi sığal verir ağ buxağa.
Elə bil çöllərdə bitib şamama,
Kimisi oxşayır ceyrana qızlar.

Minatullah bilir saznan deməyi,
Çox sevədir toy-bayramı görməyi.
Haq yanında qabul olub diləyi,
Sizinki də qalanı bu yaza qızlar.

## QARDAŞLARIMIZ

Uçuş meydanından kosmosa çıxıb,
Qəhrəman kosmonavt qardaşlarımız.
Dövlət tapşırığın başa çatdırıb,
Qəhrəman kosmonavt qardaşlarımız.

Qaqarin yolunu çatdırdız başa,
Çox şad olduq biz, uçanda siz qoşa.
Vətən salam deyib yeddi qardaşa,
Qəhrəman kosmonavt qardaşlarımız.

Biz bir vətəndaş tək sizinlə varıq,
Doğma hökümətə çox minnətdarıq.
Salamlar, dastanlar sizə yazarıq,
Qəhrəman kosmonavt qardaşlarımız.

Vətən tapşırığın öhdəyə aldız,
Sülhün salamını dünyaya saldız.
Birlik uçuşunda yeni ad aldız.
Qəhrəman kosmonavt qardaşlarımız.

Minatullah şad ol, gəlmisən coşa,
Çoşanda ürəyin əl vurur saza.
Çox-çox salam söylər yeddi qardaşa,
Qəhrəman kosmonavt qardaşlarımız.

## BU GUN

Əziz dostum, məndən sənə nəsihət,
Gəlmisən cahana qonaqsan bu gün.
Heç qüvənmə bu dünyanın malına,
Mənə olsun deyib şad olma bu gün.

Sənin kimi şad olanlar gəlibdir,
Bay oluban mal-dövləti qurubdur.
Gözu qalıb bu dünyadan köçübdür,
Mənim olsun deyib şad olma bu gün.

Minatullah deyər belə söhbəti,
Çox sevib dünyada nazu-neməti.
Belə imiş bu dünyanın adəti,
Mənim olsun deyib şad olma bu gun.

## ÇİMİKƏND

Mən deyim dostum, sən eşit,
Sifahi sazdır əlimdə.
Sevimli dostlar yığılıb,
Bu gun şadlıq məclisində.
Heç kəs onu deyə bilməz,
Nə var mənim  ürəyimdə.
İş o yerə gəlib çatıb,
Var bir neçə söz dilimdə.
İsdəyirəm sizə deyim,
Gözəl olubdur Çimikənd.

On bir ildir mən bu kəndə,
Sizə gələn mehmanam mən.
Gəlib-gedsəm də bu kəndə,
Sala bilmərəm nəzərdən.
Üç tərəfi bağça-bağdır,
Bir tərəfi çəmən, çaydır,
Taza tikilib binalar,
Qürrələnir səni görən,
Deməkçün heç başa gəlməz,
Gözəl olubdur Çimikənd.

Kim deməyə bilər onu,
Keçmişdə olmuşdur nələr.
Mən onu deyə bilmərəm,
Onu axı görən bilər.
Azad həyat, xoş yaşayış,
Axı onu gözüm görər.
Qız-oğlana təhsil verir,
Ali təhsilli müəllimlər.
Hər işi plannan qedir,
Qözəl olubdur Çimikənd.

Dövlət planına düşüb,
İldən-ilə gözəlləşir.
Həkim, aqronom, müəllim,
Səndə yaşayır, işləyir.
Kolxozçular hər sərqidə,
Bu işləri qeyd eləyir.
Ziyalıları bu kəndin.
Firəvan həyat gözləyir,
Qoy olsun biz deyən kimi,
Gözəl olubdur Çimikənd.

Bir tərəfində görünür
Üzümlü bağları gözəl.
Üzümlü bağlarında,
Çalışan qızları gözəl.
Evlərə işıq çəkilib,
Mal-qara ferması gözəl,
On bir ildir Minatullah,
Görub səni salıb nəzər.
Əsrlər boyu yaşasın,
Gözəl olubdur Çimikənd.

## GÖZƏLLƏR

Səhər-səhər ayna bulaq başında,
Durub dəstə-dəstə sana gözəllər.
Dayanıb baxallar biri-birinə,
Darayıb zülflərin yana gözəllər.

Biri uca boylu, birisi təpədir,
Biri seviləndir, biri sevəndir.
Biri dost yolunda canın qoyandır,
Birisi göz qoyur yana gözəllər.

Aşıq Minatullahın əldə sazı var,
O adətdir qözəllərə naz olar.
Kimisinə qisməti bahar, yaz olar,
Kimisi qəst eylər cana gözəllər.

## GƏLSİN

Kim görmək istəsə, bəhərli bağlar,
Dağlı Dağıstana görmağa gəlsin.
Durnagöz, çeşməli ayna bulaqlar,
Dağlı Dağıstana görmağa gəlsin.

Aranında bitər bağça-bostanı,
Kələmi, xiyarı, həm badımcanı.
Qözəl kolxozları xoşbəxt insanı,
Dağlı Dağıstana görmağa gəlsin.

Minatullah indi sazını sazlar,
Çoxdur Dağıstanda sən tək aşıqlar.
Gözəl şair, artist, bəstəkarlar,
Dağlı Dağıstana görmağa qəlsin.

## MƏN

Azəri xalqının bir oğluyam mən,
Tapmıram ruhumu qaldıra bilən.
Yazıram, oxuram özüm-özümdən,
Bir gun olacaqdır mən istəyən, mən.

Kəndim Vəlinəndir, dil Azərbaycan,
Rayonum Dərbənddir, mahal Dağıstan.
Bu yerdə dilimi bilən tapmıram,
Doğurdan od tutub bax, yanıram mən.

Hə lazımdır demək, boş yerə yazmaq,
Mən eşqə düşsəm də, dustağam dustaq.
Bizimlə qonşudur bax Qaraqaytaq,
Görəndə alışıb odlanıram mən.

Çox sevəndi Minatullah milləti,
Qazıqumuq, ləzgi, avar milləti.
Dağıstanda var onların hörməti,
Çalıb oxuyanda allanıram mən.

## BAĞA GƏL

Bağ yanında səhər-səhər qedən qız,
Şirin bir imana bizim bağa gəl.
Qaş oynadıb qözləri ilə gulən qız,
Qönçə gul dərmağa bizim bağa gəl.

Əzəldən bağladıq biz əhdi-peyman,
Gəlməsən küsərəm, oluram peşman.
Təklif eyləyəndir sizə bu bağban,
Qoşə gəzişməyə bizim bağa gəl.

Mən ölüm, meylini qırma sən məndən,
Dilimin hər zaman əzbərisən sən.
İnanıb yadlara sən məndən kussən,
Küsmə, barışmağa bizim bağa gəl.

Minatullah, səni görübdür bağdan,
Yaxşı olmaz çox danışmaq uzaqdan.
Bir busə ver mənə o gül yanaqdan,
Hərdən görüşməyə bizim bağa gəl.

## DAYAN GÖRUM

Bu ana yurdumun bahar çağında,
Ey maral yerişli, bir dayan görum.
Qəl bir insaf eylə, mən çobana sən,
Ey dişləri inci, bir dayan görum.

Sən bilginən mən bir yaralı quşam,
Eşqim başa vurub, mən də coşmuşam.
Az qaldı göz görub ağlından çaşam.
Ey qaşları kaman, bir dayan görum,

Qoyaram yolunda mən canı qurban.
Olmuşam hüsnünə mən sənin heyran,
Mən ölüm, bir dayan, ey bala ceyran.
Ey yanağı alma, bir dayan görum.

Minatullah eyləyib səninlə söhbət,
O gün aramıza düşüb məhəbbət.
Mən ölum, sən mənə eylə bir hörmət,
Ey dodağı qaymaq, bir dayan görum.

## NƏ DEYİRLƏR

Mənim əziz telli sazım,
Eşit, sənə nə deyirlər.
Beykəf olma tənha sözdən,
Eşit, sənə nə deyirlər.

Sənin adın sifahi saz,
Naz eyləmək səndə olmaz.
Səni çalan olur pərvaz,
Eşit, sənə nə deyirlər.

Minatullah səni çalır,
Mizrab vurur, ləzət alır.
Gözlə, axırı nə olur,
Eşit, sənə nə deyirlər.

## EY MAMED KALA

Rayonların, kolxozların, kəndlərin,
Gedən, gələn yolu, ey Mamed Kala.
Sərnişinlər gəlib səni görəndə,
Şübhələnir sənə, ey Mamed Kala.

Bir gəlib düşəsən "Mir" küçəsinə,
Düşəndə nəzər sal hər tərəfinə.
İstəsən getməyə sən maqazinə,
Keçmağa yol yoxdur, ey Mamed Kala.

Kim qonaqdır səhər sənə, o görər,
Mağaza ətrafı olubdur göllər.
Zibili göllərə tökərlər evlər,
Belə keçir halın, ey Mamed Kala.

Sənə nəzər salan doğrudan yoxdur,
Daşın batıb yolun çuxur-çuxurdur,
Göllərin **xodurdur*,** pis qoxuludur,
Belə keçir halın, ey Mamed Kala.

Hər bir yerdən gəlib-gedən bu yerə,
Salır nəzər nohurlara, göllərə.
Çoxlar deyər nə vaxt bu yer düzələr,
Kim qayğıya qalır, ey Mamed Kala?

-----------------
*Xodur – çirkli.

## BU YANA GƏL

Dostum, xəbər alıb soruşdum səni,
Bir göstər üzünü sən bu yana gəl.
Əzəldən bu yerdə qözlərdim səni,
Bir şirin söhbətə sən bu yanə gəl.

Qəlib bir əyləşsən mənim yanıma,
Eşqin sövdasını saldın canıma.
Çox şirin gəlmisən mənim qanıma,
Bir şirin söhbətə sən bu yana gəl.

Minatullah canı dosta qurbandı,
Gəlməsən yanıma ürək peşmandı.
Çox həsrətəm sənə xeyli zamandı,
Bir şirin  söhbətə sən bu yanə gəl.

## İTDİ

Bir gözəli çox ürəkdən sevirdim,
Hayıf ki, zəhmədim zay oldu, itdi.
Nə dərdimi bildi, nə başa düşdi,
Hayıf ki, zəhmətim zay oldu itdi.

Mən ona pis sözü deməzdim, inan,
Canımı qoyardım yolunda qurban.
Saldı ayrılığı, özü oldu peşman,
Hayıf, aralıqda toz oldu, itdi.

Minatullah çalır, oxur saz ilə,
O sevinir bahar ilə, yaz ilə.
Çox illər yaşayır, ləzzəti duymur,
O peşman gunləri yox oldu, itdi.

## BƏNÖVŞƏNİ

Bir bahar səhəri seyrə çıxanda,
Görmuşam gül bağda mən bənövşəni.
Geyinib, bəzənib səhər çağında,
Görmüşəm gül bağda mən bənövşəni.

Nə gözəl bu bahar çatdırıb başa,
Bağda qörub, mən eylədim tamaşa.
Bir qız ilə səhər qəzəndə qoşa,
Görmüşəm gül bağda mən bənövşəni.

Minatullah tutar əlində sazın,
Gözəldir baharım, qözəldir yazım.
Mən görmüşəm tərif etmək nə lazım?
Sevmişəm gül bağda mən bənövşəni.

## ƏLİNDƏN
(Zarafatyana)

Şikayətim çoxdur şəninə,
Yatan arvadın əlindən.
Gün-gündən artır dərdim,
Yatan arvadın əlindən.

Vaxt olsa, tapmaq olmaz,
Heç şirinə çatmaq olmaz.
Şərbət olsa, içmax olmaz,
Yatan arvadın əlindən.

Axşam yatar, səhər durar,
Bir ifdara plan qurar.
Uşaqlar ağlaya durar,
Yatan arvad əlindən.

Həfdədə bir bişirər çörək,
Normadı yeddi günə tək.
Sənə düşməz isdi xörək,
Yatan arvad əlindən.

Kefi gəlsə gidər işə,
Düşübdür belə gərdişə.
Gün keçir qara həmişə,
Yatan arvadın əlindən.

Bir desən, sənə beş deyər,
Səs salar qonşular gələr.
Cürbəcür kələklər gələr,
Yatan arvadın əlindən.

Ağır-ağır sözün deyər,
Sözündən zəhər tökülər.
Gələn-gedənlər inciyər,
Yatan arvadın əlindən.

Minatullah uzun illər,
Göznən görər, onu diyər.
Hamısın sinqər eylər,
Yatan arvadın əlindən.

## İNCİDİM

Dostum, yaman olub halım,
İncidim, səndən incidim.
Sənə vardır bir sualım,
İncidim, səndən icidim.

Mən tez meyxanaya gəldim,
Dostluq salamını verdim.

Sənə pis söz mən demədim,
İncidim, səndən incidim.

Bir ötəri gördum səni,
Ruhumun yox heç xəbəri.
Danış bir keçən sözləri,
İncidim, sədən incidim.

Bu gün gəldim sənə mehman,
Düz danış, olmayım peşman.
Musəlmansan, mənə inan,
İncidim, səndən incidim.

Aşıq Minatullah özü,
Danışmaz hərçayı sözü.
Basdın sinəsinə közü,
İncidim, səndən incidim.

***TƏHMİRAZ İMANOV***

## SAXLAMIŞAM MƏN

Bir zaman eşqindən gəlib ilhama,
Coşğun çaylar kimi çağlamışam mən.
Güllərdən dəstələr bağlayan kimi,
Sözlərdən dəstələr bağlamışam mən.

Çətindir sabahı görmək dünyada,
Sən atlı gedirdin, mənsə piyada.
Ayrılıq günləri düşdükcə yada,
Göyərçintək səssiz ağlamışam mən.

Artıq evlənmişəm, bağışla məni,
Sanma unutmuşam olub-keçəni.
Qəlbimdə müqəddəs, saf bir güşəni,
Səninçün yadigar saxlamışam mən.

## ÇIXARAM

Könlüm həsrətdə, qulağım səsdə,
Çağırsan haraya deyə çıxaram.
Yollar ayrıcına, cığır başına
Bəlkə səni gördüm deyə çıxaram.

Bil ki, yazılmısan taleyimə sən,
Sevginlə günəşdən daha istisən.
Vallah, əmr eləsən, ulduz istəsən,
Yağışdan yapışıb göyə çıxaram.

Hicranın axırı şirin vüsaldır,
Təsəlli bu uzun yolu qısaldır.
Qəlbinə toxunan hansı məlaldır?
Qorxma, qəmlərinə yiyə çıxaram!

***QARADAĞLI XALİD***

## DÜŞÜBDÜR

Ey ağalar, çərxi-fələk dolandı,
Bu dünyamız əcəb hala düşübdür.
Zəbur tək etibar çəkilmiş ərşə,
Azğın könlüm yüz xəyala düşübdür.

Məğribdə, məşriqdə külli-məkanda,
Bütün gen dünyada, cümlə-cahanda,

Yüz dostda, bir misqal etibar handa?
İnsan azıb, şeytan dala düşübdür.

Hər kim dostluq etsə, çoxdur minnəti,
Məlum dostluğunda, vardır zəhməti.
Hərgiz yaxın durma, olsa cənnəti,
Zaman dönüb, qeyli-qala düşübdür.

***ABDARAXMAN***

## TAMAŞA

Adəm oğlu bilə başa nə qələr,
Dövran bir gün öləndədir tamaşa.
İsrafil mələk surun çalanda,
Dünyaya səs verəndədir tamaşa.

Allaha düşmandır yalan deyənlər,
Vay neyləsin üzrə malın yeyənlər.
Yalandan and içib qan əyləyənlər,
Haqq altında durandadır tamaşa.

Ah-vayı diyərəm azar içində,
Öləndə qəbrim də bizar içində.
Cəsədim göynəyir cavab içində,
Münkər-ənkir gələndədir tamaşa.

Bu dünyanın malı kimə mal ulur,
Məhşər qünü axirəti şal ulur.
Qulaqlar kar ulur, dillər lal ulur,
Haqa cavab verəndədir tamaşa.

Sabaha kəçməzmiş Münkərin süzü,
Haqın dərgahında qaradir üzü.
Məhşər meydnanda kor olar güzü,
Yer bağıra durandadır tamaşa.

Dədilər kı, çənnət nimət açılır,
Yaxşılar, yamannar ul qun səcilir.
Dədilər ki yol yox, hardan kəçilir?
Sirat körpü gürəndadır tamaşa.

Abdaraxman, alı baş qayqıda olanda,
Məhşər qünü haq divanın quranda.
İmdi məndən kim dəb soval alanda,
Haqa cavab verəndədir tamaşa.

## AMAN GÜNÜDÜR

Başına dündüyüm gözəl nərgizim,
Biz az qatdaş eyle, aman günudur,
Qortalıb taqetsiz ağarib başım,
Nərgiz, qatdaş eyle, aman günudur.

Axışır göz yaşım, hərdən dayanır,
Fikirin qəlbimi temiz yandirir.
Alışdırıb, oda atıb yandırır,
Nərgiz, qatdaş eyle, aman günüdür.

Bütün varlıqımnan varam yulunda,
Çağırram mevlamı dilek duamda.
Sənə şəfa versin gözəl mevlan da,
Nərgiz, qatdaş eyle, aman günüdür.

Atam İlyas, dərd oduna qalandım,
Yenib-yenib dağa-daşa dulandım.
Ateşdi bedenim, ot tutub yandım,
Nərgiz, qatdaş eyle, aman günüdür.

Mekke, Medine, gözəl xudadan,
Məhəmməd peyğəmber, Xizri babadan.
Dualar dilərəm evliyalardan,
Nərgiz, qatdaş eyle, amman günüdür.

Anam dərd elinden divana ulub,
Bacı-qardaşların peşman uturub.
Həkimlərin sənə çare axtarıb,
Nərgiz, qatdaş eyle, aman günüdür.

Bu şair qəlbimdən çox salam-dua,
Sənə kömək olsun o gözəl mevla.
Alimlər, müminlər, Şix Səfər baba,
Nərgiz, qatdaş eylə, aman günüdür.

## ANAYA MƏKTUB

Əvvəla, əlimə qələmi alım,
Vətəni səyr etsin mənim xəyalım.
Günəşli Krımın gül havasınnan,
Ötən bülbüllərin xoş avazınnan.
Bir parça kağızdan, yazan qələmnən,
Dudağımnan, həm gileyli dilimnən.
Günəş qədər yüksəlmişəm şəfəqdən,
Oğlun İlyasdan da çox-çox salamlar sizə.
Göndərirəm dalqalanmış küləklə,
Mühübbətli salam sizə ürəkdən.
Aparsın salamını yetirsin başa.
Qafqazın dağların o aşa-aşa,

Bir vaxt ular bahar gül açar.
Ötər bülbül, kəpənəklər dil açar.
Sizə gətirmişəm pənah və güman,
Qonax gələcəyəm sizə yaz zaman.
Pencərə ağzında bir quca anam,
Yaşlı gözlərilə baxır yoluma.
Oğluvuz salamat qayıtacaq evə.
Fikir çəkmə, heç darıxma ağlama.

***ŞAMİL***

**O GÜN**

Bir gün ular il-alemi yığarsan,
O kəskin diller de lal olar o gün.
Bir yuva quruban qəbrivi qazı,
Qəbirdə əzabi çəkərsən o gün

Çinazəvi tutar qoxum-yoldaşlar,
Qəbrivə qoyacaq əziz qardaşı.
Zar-zar ağlar qızıv, yaruv-yoldaşuv,
Qabirde əzabi çəkərsən o gün.

Çekdiyin cefalar qalar dünyada,
Beş arşın ağ çatar sene o haqda
Yiğib saxlama sən, o mal-dövləti,
Qəbirde əzabı çəkərsən o gün.

İnkir-Minkir qələr o vaxt yanuva,
Ağır barmağını qaxar başuva.
Çatan olmaz, o vaxt harayuva
Qəbirdə əzabi çəkərsən o gün.

O dünyada dədəmiz zulmatdı zulmat,
Orda yoxdu bazar, ya alıbdı, ya sat.
Şamiləm, söylerem, bir insafla sat,
Qəbirdə əzabı cəkərsən o gün.

*AŞIQ NİFTULLA*

## UNUTMA

Telli sazım, budur sənə minnətim,
Səni yada saldığımı unutma.
Sevib-seçib, səni usta əlindən,
Altun verib aldığımı unutma.

Qurban olum ustadının əlinə,
Bəzək vurub oxşadıbdır gəlinə.
Xoş avaz yaradıb verib telinə,
Məni eşqə saldığını unutma.

Sədəfin var, bəzəyin var, nazın var,
Baharın var, günəşin var, yazın var.
Canı eşqə salan xuş avazın var,
Sinəm üstə çaldığımı unutma.

Səni alıb mən məclisə girəndə,
Qəmli könüllərin pasın siləndə.
Qızlar baxıb yaşmaq altdan güləndə,
Heyran olub qaldığımı unutma.

Niftulla da günü keçən bəndədi,
Həqiqəti desə, quca sindədi,
Yenə gözüm könlüm, canım səndədi,
Xəyallara daldığımı unutma.

## OLMADI

Gözəllər sultanı divan eylədi,
Hay saldı, hayıma gələn olmadı.
Çəkib qılıncını bağrım teylədi,
Bir dönüb halımı bilən olmadı.

Canımı bürüdü eşqin ataşı,
Yandı kabab oldu, bağrımın başı.
Köməyə çağırdım qohum-qardaşı,
Yetib göz yaşımı silən olmadı.

Biçarə Niftulla düşüb kəməndə,
Bivəfa gözəli tanıdım mən də.
Qəm ləşkəri məskən saldı sinəmdə,
Bu ağır ləşkəri bölən olmadı.

*YERSULU AŞIQ EMİN*

## GÖY ATIN TƏRİFİ

Ay ağalar, sizə tərifin deyim,
Düldül kimi gəlir meydana göy at.
Gümüş cilovları, məxmər çulları,
Qızıldan rəng geyib gərdana göy at.

Boyunu nazikdi, ayağı uzun,
Çapanda şax tutur üzün.
Yoxuşda yorulub qatlamaz dizin,
Müddəti səs salıb hər yana göy at.

Meydanda iyidi naümid qoymaz,
Tərpənib süzəndə ceyranı saymaz.
Yorğa yerişindən gözlərim doymaz,
Aşıq Emin qalır heyrana, göy at.

*ŞƏRAFƏDDİN HACIYEV*

## DƏRBƏNDİM

Ağsaçlı anasan – mənsə övladın,
Səninlə bağlıdır varlığım, adım.
Pozulmaz kitabım, ulu ustadım,
Daşları söhbətli qoca Dərbəndim.

Kim səni sevməyir, sevə bilməsin,
Dönük olanların üzü gülməsin.
Bu gözəl camalın gözə gəlməsin –
Hüsnü təravətli qoca Dərbəndim.

Saçımı sübhünün mehi darayır,
Harda olsam, gözüm səni arayır.
Sən mənim ən qədim könül harayım –
Tarixi şöhrətli qoca Dərbəndim.

Yorğun Narınqala barigahımdır,
Zümrüd meşələrin seyrəngahımdır.
Hər daşın, hər qayan qibləgahımdır,
Koroğlu qeyrətli qoca Dərbəndim.

*AŞIQ ƏHMƏD*

## MALDARLA KASIBIN DEYİŞMƏSİ

Bir maldarla kasıb gəldi üz-üzə
Maldar dedi: kasıb, hörmət məndə var.
Cavab vərdi kasıb gəlib həvəsə:
Acizlik, yoxsulluq, zillət məndə var.

Maldar dedi: kasıb, girmə meydana,
Ağıl qoy başına, olma divana.
Gəl qapıma, olma belə virana,
Gecə-gündüz kef, kifayət məndə var.

Kasıb dedi: maldar, girrəm məydana,
Deyərəm sözümü mərdi-mərdana,
Ölmərəm acından, getmə gümana,
İşləməyə canda qüvvət məndə var.

Kasıb dədi: maldar, uyma çox mala,
Dolanır zamana, gəlir zavala,
Yoxsulam, möhtacı, ollam məlala,
Açıq qabaq, həm səxavət məndə var.

Kasıb dədi: baxma, maldar, halıma,
Mindirmərəm bir də səni dalıma,
Haqq yetirər rüzi əhli-halıma,
Açıq dilli, bollu kulfet məndə var.

## KASIB

Nə zaman getsə məclisə
Qovular, döyülər kasıb.
Danışmağa ağız açsa,
Yer-yerdən söyülər kasıb.

Hər vaxt üzü məzəmmətli,
Görmədi bir gün ləzzətli,
Xəyirdə, şərdə dövlətli,
De, heç bir anılar kasıb?

## BİL, AŞIQ ƏHMƏD

Eşq oduyla bağrım başın dağlaram,
Mənim ərzi halım bil, Aşıq Əhməd.
Gecə-gündüz zarı-zarı ağlaram,
Axan çeşmim yaşım sil, Aşıq Əhməd.

Aşıqlar aşığısan, pirlərin məti,
Xub insansan Adəm ata zürrəti,
Yalvarıram, ey Məhəmməd ümməti,
Bu dərdə bir çarə qıl, Aşıq Əhməd.

Molla Cuma verib tacı-taxtını,
Göndərər nişana tamam Axtını,
İnsafən Çınıxlı versin vaxtını,
Deginən yaşamdan gül, Aşıq Əhməd.

# XIV. DASTANLAR VƏ AŞIQ RƏVAYƏTLƏRİ

## KOROĞLUNUN BİLHƏDİ SƏFƏRİ

Bir dəfə Koroğlunun yulu Dərbəndə düşür. Onunna birgə bir neçə dəli ( quçu) olur. O, atdarı Dərbəndin qala ətəyindəki karvansarayda yerləşdirir.Dəlilərə tapşırır ki, atlara yaxşı baxsınnar, karvansaraydan başqa yerə çıxmasınnar:

– Məni güzləyin! Mən gəzib əhalinin əhvalınnan xəbər tutub, şəhərin mənzərələri ilə tanış ulacağam. Ancax sizə tapşırım, mənim harda ulmağımı heç kəsə deməyin. Bizim burda ulmağımız gizli qalmalıdır – deyib şəhərə girdi. Az gezdi, çox gezdi, dukannarı gezdi, alverçilərlə rastdaşdı, dəvə karavançıları ilə gürüşdü. Bir kes unun Koroğlu ulduğunu bilmədi.

Gün günurtadan keçib **əkindiyə*** yaxınnaşırdı. Unun yulu yuxarı bazara düşdü. Bazarda çox satıcı və alıcı da var idi. Birdən unun güzü bazarın yuxarı başında dirəyə bağlanan ata düşdü. At çux qəribə at idi. O, bu qədər yerrər gezib belə at gürməmişdi. Atın rəngi sarımtıl, ağ ləkəli cəmdəyi, qara yalquyruğu var idi.Koroğlu ata çux diqqətlə baxdı, yaxınnaşdı ki, bunun yiyəsi kim olduğunu bilsin. Atın hündür, uzun qıçdarı, alaçarpaz güzdəri var idi. At ayağını yerə çırpanda yer titrəyirdi. Çux vaxt keşmədi ki, bir nəfər əlində iki kənd çuvalı dulu sürsətlə ata yaxınnaşdı. At yiyəsini gürən kimi kişnədi. Atçıya baxanda Koroğlunu vəhmə gütürdü; unun hər ayağı bir dirək, hər əli bir yekə kürəyi, qulları ağac budağını xatırradırdı. Gürəsən bu kimdir? – deyə o fikirrəşdi. Atçı çuvalları yerə quyub bazara qayıtmaxda ulsun, Koroğlu tez özünü karvansaraya çatdırır. Özü ilə bir dəli alıb bazara gəlir.O biri dəlilərə onnarı güzdəməyi tapşırır.O, bazara çatanda ala atdı ata minirdi. O, atın başını yula düzəltdi, at bir- iki dəfə yerində fırranıb pəncə üsdə qalxdı, sunra yula davam etməyə başdadı.

------------------

*Əkindi – günün batmaq vaxtı.

Azmı-çuxmu yul gəldi, bir qalanın qapısında dayanıb atdan düşdü.( Koroğlu dəlisi ilə onu izdəyirdi) Çiynini qala qarısındakı yekə daşa vurub daşı itələdi, qapı açıldı. O, atı çekib qalaya girdi, qapını ürtdü.

– İmdi nə edək, bu atçı hara gedə bilər? – deyə Koroğlu dəlisinə dilləndi:

– Gəl, biz də daşı itələyək, qapı açılsın, deyə dəli ilə məsləhətdəşdi.

Unnar daşı itələdilər, qapı açıldı, atdarı çekib içəri girdilər. Burada heç kes yux idi.Hətta yaşayış evi belə yux idi. Ancax qala qapısınnan gedən bir yul var idi. Atçı özü də bu yul ilə getmişdi. Unnar həmin yulla getməyə başdadılar. Birdən qalanın cənub tərəfə burulmasını və döngədə bir meydançanın ulmasını gürdülər. Meydançada iyirmi ədəd ala at bağlanıb utdayırdı. Bu atdar hamısı unun bazarda gürdüyü atdara bənzəyirdi. Atdardan biri meydançaya yad at gəlməsini hiss edib ucadan kişnəməyə başdadı. Bu zaman o biri tərəfdən, bağlı qalanın içinnən bir nəfər atdara yaxınnaşdı. Unun buynunda ux-yay var idi. O, o tərəf bu tərəfə baxmağa başdadı. Koroğlunun atı tab gətirə bilməyib bir nərə ilə kişnədi.Qaladan çıxan uğlan ox-yayı əlinə alıb onnara yaxınlaşdı:

– Siz kimsiz? Bura nə üçün gəlmisiz? – deyə suruşdu.

– Yulçuyuq, yul azmışıq, – deyə Koroğlu dilləndi, əyər icazə versəniz biz burda gecələmək isdəyirik – dedi.

Uğlan:

– Bir az dayanın, bu sahat gəlirəm – deyib qalaya girdi. Bir azdan çıxıb: - Buyurun, gəlin! – deyə qunaqları qalaya apardı. Başqa biri atdarı tutdu, dirəylərə bağladı.

Koroğlunu dəlisi ilə içəri apardılar. O, gürdü ki, bura bir güzəl, səfalı bir mənzərədir. Burda utaxlar bəzək-düzək içindədir. Sərin sulu bulağın suyu qalanın divarınnan axıb keçir. Eyvannarda bəzək- düzək içində cavan qızdar, gəlinnər gezişillər. Hər tərəfdə, divarlarda ux-yaylar asılıb. Məşq üçün yerrər var. Koroğlu başa düşdü ki, bura quçular düşərgəsidir.

Özünü büruzə vermədi. Dərin fikirrərə getdi.Çux vaxt keçmədi, bir cavan uğlan unnara əl-ayağını  yuyub utağa keçməyi məsləhət gürdü. Koroğlunun canı atda idi. Qırat una narahatlıq verirdi. Unnar əl-üzünü yuyub içəri girdilər. Otağın uzunnuğu 15-20 metr ulardı. Yerə süfrə serilmişdi. Axşam yeməyi üçün hazırrıq gürülmüşdü. Koroğlu Dərbənd bazarında gürdüyü uğlanı tanıdı. Süfrəyə 20 nəfər cavan uğlan, 25 nəfər qız eyləşdi. Bunnarın arasında biri geyimilə başqalarınnan fərqlənirdi, özü də dulu cəmdəyli 30-35 yaşlarında ulan uğlan idi.

Qədəhlərə şərab tüküldü. Həmin uğlan ayağa qalxdı:

– Tust deyincə mən bilməx istəyirəm ki, qunaqlarım kimdir? Hardan gəlib, hara gedillər? – dedi.

Koroğlu ayağa qalxıb ədəblə xahiş etdi ki, varsa ona bir saz versinnər. O sahat saz hazır uldu. Koroğlu uxumağa başdadı:

Gör nə güzəl səfası var,
Sizin yerlərin, yerlərin.
Qunaq sevər iyidləri,
Sizin  yerlərin, yerlərin.

İncə beli kəmər əzər,
Barmaqlarda həna gəzər.
Sunası güllərdə üzər,
Sizin yerlərin, yerlərin.

Dərbənddən aldığım surağı,
Qədəm quyum qala sarı.
Koroğlu uldu qunağı,
Sizin yerlərin, yerlərin.

Tamada uğlan başa düşdü ki, unnarın qunağı quç Koroğludur. Qunaxlara ulan hürmət birə-beş artdı. Bu gecə belə keçdi.

Bəs bu mənzərə ki, Koroğlu düşmüşdü, nə mənzərədir? Bu qala nə qaladır? Bu uğlannar kimlərdir?

İndi qulaq asın dalısını süyləyim:

– O zaman ki, Şərkəni şəhəri zəlzələdən batmışdı, unda

şəhərin qalan əhalisi, Şərkənidən bir-iki versin aralı bir kənd salmışdılar. Bu kəndin adı Bilhədi idi. Bu kənd qala ilə əhatə ulummuşdu. Qalanın büyük daş qapısı var idi. Unun yuxarı, qərb düzənniyində Şərkəni qalaçaları var idi. Burada yenidən kiçik bir mənzərə düzəldilmişdi. Bu uğlan ki, Koroğlu o birilərinnən fərqləndirirdi, onun adı Xələcəm idi. Qalan on duqquz uğlan isə unun ən yaxın iyiddəri idi. Bu iyirmi uğlanın hamısı evli idi. Qalada hərəsi üçün ayrıca otaqlar düzəldilmişdi. Məclisdə əyləşən qadın xaylaqlarının iyirmisi bunların arvaddarı idilər. Bəs beş qız? Bunnarın biri Ataman, qalannarı da başqalarının bacıları idi.

Ataman çux ağıllı uğlan idi. Bunnar da Koroğlu kimi yerri əhalini bəy-xannardan quruyurdular, yuxsullara kümək edirdilər. Koroğlu hələ yerinə düşmüşdü. Odur ki, bu iyiddərlə lap yaxınnan tanış uldu. Atamannan xahiş etdi ki, Dərbənddə qalan dəliləri bura dəvət etdirsin. Xələcəm bir nəfər atdı gündərib unnarı qalaya getirtdi. Bu gürüş bir on-on beş gün çəkdi. Günnərin bir səfalı günü idi. Koroğlu səfərə çıxmaq niyyətinə düşdü. Xələcəmə öz fikrini süylədi. Xələcəm bacısı Məryamı çağırıb Koroğlu üçün bir günnük süvqət hazır etməyi tapşırdı. Koroğlu bu qızı gürmüş, ancaq unun Xələcəmin bacısı ulmasını bilmirdi. İndi bu işin üsdü açıldı. Koroğlu Xələcəmə dedi:

– Mehriban dust! Burada ya sənin, ya da mənim ata- anamız yuxdur ki, elçi gündərib qız isdəyək. Mən isdəyirəm ki, səninnə quhum olum, qüvvəmiz daha mühkəm ulsun.

Xələcəm fikrə getdi. Koroğlunun həmişəlik burada qalmayıb Çənnibelə gedəcəyini o, yaxşı bilirdi. Bəzən belə hallar qadınlar üçün yaxşı çıxmırdı. Bəs güzünün ağı-qarası bacısı Məryam buna nə deyəcək. Axı o, bu yerrərə, həm də burda olan qızgəlinnərlə vərdiş etmişdi. Qəriblik onu sarsıtmazmı? – deyə özözünə fikirrəşdi. Sonra üzünü Koroğluya tutub dedi:

– Qunaq, bəlkə Allah-talə sənə bu qızı qismət etmək üçün səni buraya gətirib çıxarmışdır? Quy hələ qızla məsləhət

gürək, bu sevdaya o nə deyir. Unnar razılaşdılar. Hər ikisi bir utağa girib qızı da çağırdılar. Məryam qız işi başa düşmüşdü. Əlbətdə, onun da ərə getmək vaxtı idi. Nə etsin, gərək razı olsun. Unnar sühbəti qıza bəyan etdilər. Qız:

– Mən nə deyə bilərəm? Mənim qardaşım ixtiyar sahibidir. O, nə desə, mən də unu deyərəm.

Xələcəm ilə Koroğlu məsləhətdəşib işi düzəltdilər. Bütün qala əhli bu işdən şad uldular. Toy tədariki gürüldü. Cavannarın tuy məclisi görmağa böyük həvəsi vardı. Koroğlu özü qız üçün bazarlıq vurdu. Dərbəndin məzəli yeyintilərindən, xurma, qeysi, kişmiş, İran düyüsü, İstanbul şabalotu və sairə alıb dəliləri ilə qalaya gətirdi. Fərman ayının onunda tuy başladı. Yeddi gün, yeddi gecə tuy çalındı. Koroğlu Məryam xanımın ruhunə sahib uldu. Bunnar bu qalada bir neçə vaxt qədər yaşadılar. Günnərin bir günündə Koroğlu Məryam xanıma dedi:

– Əzizim Məryam xanım, mən belə uzaq səfərlərdə çux da qala bilmərəm. Neçə gecədir Çənnibeldən yuxular gürürəm. Gəl yığışaq, qardaşının icazəsilə Çənnibelə gedək. Məryam elə bil fikir dəryasına batdı. Bu, pərəstiş etdiyi iyiddən necə ayrıla biləcəyini ağlına belə gətirə bilməzdi:

– Vay, ehtibarsız kişilər. Gür nə iş tutmaq isdəyir. Məryamın rəngi heyva yarpağı tək saralmışdı.

Qardaşı Xələcəmə bu barədə danışdı. Xələcəm Koroğluya deyir ki, Məryamı bu qalada quysun, hər vaxt isdəsən gəlib apara bilərsən. Məryamın bir aylıq evlilik düvründə bədənində deyişiklik əmələ gəlmişdi. Bu barədə o, Koroğluya bəyan etmişdi. Tədbir gürüldü. Məryam qalmalı, Koroğlu isə Çənnibelə getməli oldu. Bütün qala əhli yığışıb ayrılıx məclisi düzəltdilər. Qalanın anbarınnan yeddiillik şərablar süfrəyə düzüldü. Maral, ceyran kababları sünbələrə keçirildi. Şaddıx məclisi başlandı. Çalmax, uynamax, uxumax başdandı. Kefin bu güzəl çağında Koroğlunun bir dəlisi çaparaq qalaya yetişdi. (Koroğlu özü ilə ulan dəlilərdən birisini saxlayıb qalannarını Əyvazın hüzuruna göndərmişdi) Gələn atdı Əyvazın uğurram-

masını ona xəbər verdi. Koroğlu sağullaşıb yula düşəndə Məryama dedi:

Canım Məryam, güzüm Məryam,
Sənə qurban özüm, Məryam.
Ayrılırıq həsrətinə,
Bilməm necə düzüm, Məryam?

Mənim səndən var xahişim:
Bətnindəki yadigarım,
Uğlum ulsa, adımı quy,
Qızım ulsa, Nabat, Məryam.

Hər ikisi bir-birinə, avandlı təhəgi payaya sarmaşan kimi sarıldılar. Güz yaşdarı Məryamın ağ paltarının düşdərini isdatmışdı. O, fikirrəşirdi: – İndi o Əyvazı axdarmağa getsə, bəy-xan düyüşlərində necə ular? Sağ qalarmı? Bir də onu gürə bilərəmmi? Bu fikir içərisində unnar bir-birinnən ayrılıb qaladan çıxdılar. Koroğlu yulu qısa etmək üçün Qəsəni yulunnan getməli uldu. Qəsəniyə çatanda Koroğlu əniş yulla düşməli idi. At birdən qulaqlarını şəkləyib dayandı.O, ata bir qamçı vurdu. At hələ tullanmışdı ki, unun pəncəsi bir yekə bilov daşının üsdünə düşdü. Atın ayağı altınnan dəmirçi dəmiri düyəndə çıxan od çılqımı kimi çılqımlar çıxdı. Koroğlu atın başını çəkib atdan düşdü, daşa baxdı, gürdü ki, atın ləpiri daşın üsdə nal şəkli kimi dərin bir çuxur salıb. O, xəbərə gələn dəliyə dedi:

– Al, yaz ki, bu daş üsdündə ulan çuxur Koroğlunun atının ləpiridir. Bilsinnər ki, Koroğlu Bilhədi qalasında ulub, yulu Qəsənidən keçib getmiş. Quy bu iz bir nişanə izi olsun. ( Bu ləpir indi də Qəsəniyə düşən yulda qalıb, unu heç kes yerinnən tərpətmir, yul ilə qunşu kənddərə gedənnər bu ləpirə baxır, ununla xəbərsizdəri tanış edillər).

Koroğlu Çənnibelə gedib Əyvazdan xəbər tutur və əvvəlki kimi bəy-xan hakimiyyətinə qarşı vuruşdar keçirir.

Deyillər günnər, aylar tez keçir. İndi sizə Məryamdan süh-

bət açım. Koroğludan ayrılan günnən duqquz ay keçmişdi. O, hamiləlikdən xilas uldu. Unun bir uğlu uldu. Adını Koroğlu quydu. Kürpənin ili tamam olmamışdı ki, qala əhlinə pis bir xəstəlik düşdü. Bu, "çuma" xəsdəliyi idi. İyid uğlannar, cavan arvaddar xəstəliyə düzə bilməyib tələf ulmağa başdadılar. Xələcəm öz bacısı ilə arvadını alıb Bilhədi kəndinə gəldi. Qalannarı qalanı tərk edib şəfa tapmax üçün Qəsənin üsdündə düz bir meşədə yerrəşdilər. Nə fayda, gündə bir-iki nəfər dünyadan küçürdü. Diri qalannar ülülərə məzar daşdarı sancır, ağır həyat keçirirdilər. ( Bu mənzərə indi də Qəsənin üsdündə bir düzlükdə durmaqdadır)

Vaxt keçir, əhali bütünlüklə təlafata uğrayır.

Bəs Xələcəm, Məryam, uğlu Koroğlu, bacısı, necə uldular?

Bu barədə deyillər ki, Xələcəm o qədər qüvvətli uğlan ulur, unun qulunu bükməyə adam tapılmazdı. Unnar Bilhədi kəndində yaşamağı başdayıllar. Xəsdəlikdən azad olullar. Məryamın uğlu büyüyür, əlli-qullu bir pəhlivan olur. O, Mahigeri adında bir qızla evlənir. Qısa bir müddətdə Xələcəmlər nəsli çuxalıb yayılmağa başdayır. Quca nəsilləri, cavan nəsillər əvəz edir. Günün bu günü Bilhədidə Koroğlu nəslinnən ulan adamlar yaşayır. Deyillər bir dəfə Koroğlu, Məryamdan xəbər bilmək üçün qalaya gəlmək fikrinə düşür. O, qalaya çatınca tum əkən bir quca kəndliyə rast gəlir. Unun buynunda dəmirdən uzun bir şey var idi. Koroğlu bu kəndlidən qala haqqında bildiyini süyləməyi xahiş edir. Quca kəndin bütün əhvalatını una süyləyir. Unnar ağac külgəsində oturub nahar da edillər. Birdən Koroğlu suruşur:

– Əmi, bu nə işdir, buynunnan dəmir asıb gəzirsən?

– Uğlum, bu tüfəngdir, – deyir.

– Onunna hər hansı bir heyvana, adama vursan, o sahat ülür.

Koroğlu mətəl qaldı.

– Əmi hələ məni vur, gürüm ülürəm, ya yux – deyə Koroğlu qucaya təklif edir.

– Uğlum, bu quca vaxtımda məni qana salma, – deyə quca

una yalvarır. Onda bu üküzü vur, baxım gürüm ülürmü? Al bu da sənin üçün iki öküz almağa pul, – deyə una bir kisə pul verir.

Quca naəlac qalıb tüfənglə üküzü nişan alıb atır. Üküz o sahat mələyib yerə sərilir. Koroğlu gürür ki, bu başqa bir aləmdir. Daha qılınc, qalxan, ox-yay düvrü keçib. Unu hər kəs kulun dalınnan vurub yerə sala bilər. Odur ki, bütün yarağını qucaya verib:

– Daha mən Koroğlu deyiləm. Mən bu günnən Koroğluluğumu atdım, – deyə atını minib Çənnibelə üz quydu. Bütün dəliləri yığıb unnarı azad etdi. Özü də o günnən düyüşlərinnən əl çəkib yaşamağa başdadı.

## ŞAHZADƏ ƏBİLFƏZ VƏ RƏNA XANIM

Baharın yaxşı vaxtı idi. Çüllər, çəmənnər yaşıl utlar və əlvan çiçəklər ilə bəzəmmişdi. Dağın dibində, yaşıl çəmənin üsdündə qurulmuş qara alaçıqlar gürünürdü. Dağın yamacında çuban quyun sürüsü qabağında ney çalırdı. Bu halda bir türkmən qızı alaçıxdan çıxdı, dərədəki bir zuğal ağacının kütügündən çıxan bulağın üsdünə gəlib uturdu. Əlini başına quyub çubanın yanıxlı ney çalmağına qulaq asdı. Bu halda dünyagürmüş bir quca qarı yuldan keçirdi. Qızı böylə qəmgin gürdükdə onun yanına gəlib xəbər aldı:

– Qızım, nəyə gürə belə qəmgin uturmusan? Yuxsa nişannının ayrılığınnan ütəri böylə darıxıbsan? Öyləmidir?

Qızın yanaxları qızardı və güzdərinnən iki damcı yaş axdı. Qarı dedi:

– Sənin nişannın nə üçün getmişdir? Mən bunu bilmədim, çuxdan getmişdirmi?

Qız ağlayıb dedi:

– Tuyumuzu eləməyə gücü çatmayıb. Yeddi ildir ki, pul qazanmağa diyarbadiyar ulub getmişdir.

Qarının qıza yazığı gəlib dedi:

– Qızım, fikir etmə, mən sənin üçün bir nağıl danışaram,

bəlkə bir az məşğul ulasan ki, fikrin dağılsın.

Qız şad ulub dedi:

– Çux sağ ul, nənə.

Qarı da uturub nağıl deməyə başdadı:

Misir şəhərində bir padşah vardı. Bu padşahın Əbilfəz addı bir oğlu vardı. Bir gün oğlan yatıb bir yuxu gürdü və səhər durub ağlamağa başdadı. Padşah bunu bilib oğlunu yanına çağırdı və dedi:

– Oğlum, bu mənim əlimdə çox asandır, dərdini mənə süylə, əlac eləyim.

Padşah nə qədər dedisə, oğlu cavab verməyib güzünün yaşını tükdü. Xulasə, padşah təngə gəlib dedi:

– Oğlum, əgər dərdini mənə deməsən, yəqin bil ki, özümü üldürəcəyəm.

Oğlan naəlac qalıb, ağlaya-ağlaya dedi:

– Şah baba, əgər izin versən, buyur sazımı gətirsinnər.

Padşah çux təcübləndi, əmr elədi, şahzadənin sazını gətirsinnər. Qulluxçular gedib şahzadənin sazını gətirdilər. Şahzadə sazı alıb bu süzdəri dedi:

Qəflətdə yatmışdım gəldi yuxuma,
Ürəyim əşqilə duldu, neyləyim?
Oyandım yuxudan, ayrıldım yardan,
Sevdasın başıma saldı, neyləyim?

Padşah oğlunun bu cür süzdər oxumağına təcüb edib dedi:

– Oğlum, başa düşməyirəm, nə deyirsən, açıq süylə.

Oğlan bir ah çəkib atasına yalvarmağa başdadı:

Seyr etmişəm bağçasını, bağını,
Əridübdür ürəyimin yağını.
Yəməndən almışam mən surağını,
Şaxta vurdu, gülüm suldu, neyləyim?

Gəzib bağın, güllərini biçmişəm,
Dust yulunda bu canımnan keçmişəm.

Eşqin çeşməsinnən bir cam içmişəm,
Güzəl yarım qaldı, neyləyim?

Padşah mat-məhbud qalıb ağlaya-ağlaya dedi:

– Oğlum, haraya gedirsən? Mən sənnən necə ayrıla bilərəm, bu ulan iş deyil.

Oğlan yenə bu süzdəri dedi:

Aman babam, yetişginən ərzimə,
Gəl and içim, inanginən süzümə.
Dünya qaranlıqdur, vallah güzümə,
İzin ver, şah babam, mən getməliyəm.

Bülbül kimi itirmişəm gülümü,
Tərk edirəm vətənimi, elimi.
Aman atam, tutma mənim əlimi
İzin ver, şah babam, mən getməliyəm.

Xulasə, padşah gürdü şahzadənin əhvalı özgə cürdür. Daha bunu saxlamağnən mümkün dəyil, çarəsi kəsilib, izin verdi.

Şahzadə Əbilfəz şad-xürrəm yerinnən durub, mükəmməl geyindi. Bir qədər qızıldan-cavahiratdan gütürüb qılıncını həmayil etdi. Ata və anasına vida ədib, ata suvar uldu. Tək və tənha yula düşdü. Dağlardan, dərələrdən gecə, qarannıq məşələrdən keçərək gəlib bir yerə çatdı.

Uzaxdan qurulmuş qələçə gürünürdü. Şahzadə dərhal yetişib həmən qələçəyə çatdı. Tez atını gəlib bir kəniz aldı və suruşdu ki, ulmaya siz şahzadəsiniz? Oğlan mat-məbud qaldı ki, bunu haradan tanıdı? Şahzadə təcüb eləyib dedi:

– Bəli, mən həmən şahzadə Əbilfəzəm. Kəniz dedi:

– Qoy sizin gəlməyinizdən xanıma **müjdə*** verim. Şahzadənin təcübü daha da artıq uldu. O, bu fikirdə idi ki, bunnar məni haradan tanıyırdılar? Bir vaxt, gürdü ki, bir mələk misalında qız, yaşında da neçə nəfər kəniz xuraman-xuraman gəlillər. Yaxınnaşdıqda xanım ədəb ilə salam verib dedi:

– Şahzadə Əbilfəz, xuş gəlmişsən, səfa gətirmişsən, buyur gedək. Qız oğlanın əlinnən tutub gətirdi öz təxtinin üsdündə

oturtdu, özü də onun yanında uturdu. Onnan sunra kənizdərə buyurdu ki, xürək hazır eyləsinnər. Bu bir fəsahət və mərifət ilə danışırdı ki, şahzadə valeh ulub, heyran qalmışdı. Bir azdan sunra cürbəcür xörəklər və nüvbənüv şirnilər araya gəldi. Yeyib-içdikdən sunra qız dedi:

– Niyə məndən kim ulduğumu və səni haradan tanıdığımı soruşmayırsan?

Şahzadə dedi:

– Vallah, mən öylə bilirəm ki, bura behişdir və sən də hürilərin ən güzəlisən.

Qız gülüb dedi:

– Xeyir, nə bura behişdir və nə də mən hüriyəm. Ancaq sənin məhəbbətin məni bu biyabana salmışdır. Mən Çin padşahının qızıyam, adım da Rəna xanımdır. On beş yaşımda hər vilayətdən məni isdəməyə gəlirdilər. Neçə-neçə padşah oğlannarı şəhərlərinnən avarə düşüb gəldilər. Mən heç birinə razı ulmadım. Atam da bu barədə bir süz demədi, fəqət, ixtiyar özündədir deyirdi. Günnərdən bir gün çux xiffət elədim ki, mənim axırım necə ulacaqdır? Bu fikirlə yatdım, yuxuda ali imarətdə bir oğlan gürdüm. Xəbər aldım bu oğlan kimdir? Dedilər Misir padşahının oğlu Şahzadə Əbilfəzdir. Biixtiyar yuxudan uyandım. Münəccimləri gətirib yuxumu onnara agah ələdim və özüm dəxi hər əlminən xəbərdar ulduğumdan, kitabi alıb baxdım. Onnarın süzdəri mənim süzümə bərabər gəldi. Münəccimlər dedi:

– Bu oğlanın başına bir qəziyə gələcək ki, şəhərdən ayrı düşüb bu tərəflərə gələcəkdir. Mən də atamnan izin alıb üç ildir ki bu biyabanda məskən etmişəm. Biçarə atam da mənim ayrılığıma tab eləməyib vəfat etdi. Camahat çux isdədi ki, mən onnara padşah ulum, ancax mən onu qəbul ətmədim. Mal-düvləti cəm edib buraya gətirdim və sənin yulunu güzdəməyə başladım. Hər yuldan keçənin adını xəbər alırdım, nişannarını deyirdim. Düz üç ildir ki, sənin camalının nəqşi mənim qəlbimin ən gizli yerində yerləşmişdir. Odu ki, bu gün

səni gürən kimi tanıdım. İndi şükür Allaha ki, muradıma yetmişəm və bu neçə ildə çəkdiyim zəhmət zay ulmadı. Şahzadə bu süzdəri eşidincə başdadı zar-zar ağlamağa. Qız onun güzünün yaşını silib dedi:

– Niyə ağlayırsan? Nə dərdin vardır? Mən canımnan keçib sənin dərdinə şərik ulmağa hazıram, heç fikir eləmə. Oğlan sazını gütürüb Rəna xanıma dədi:

Can çıxıb cəsətdən ixtiyarım yux,
Künlümün bir səbri, həm qərarı yux.
Düşdüm eşq uduna bir kənarı yux,
Quy gedim, güzəlim, yenə gələrəm.

Yəmən diyarında var neçə bağlar,
Möhübbət ateşi cigərim dağlar.
Atam-anam fərağımda qan ağlar,
Quy gedim, güzəlim, yenə gələrəm.

Yerlərin çiçəyi güyün ulduzu,
Qəfildən sevdaya salıbdır bizi.
Sərfinazdır, Yəmən şahının qızı,
Quy gedim, gözəlim, yenə gələrəm.

Rəna xanım bu əhvalatdan xəbərdar ulub güzünün yaşını tükməyə başdadı və dədi:

– Heyif ulsun, çəkdiyim zəhmət zay uldu getdi. Şahzadənin cavabında Rəna xanım bu süzdəri dedi:

Səndən ayrılandan bir gün gürmərəm,
Süylə gürüm, mənə nə vaxt gələrsən?
Mən meylimi heç kimsəyə vermərəm,
Süylə gürüm, mənə nə vaxt  gələrsən?

Xəbər gündər vətəninə, əlinə,
Mayil uldum köftarına, dilinə.
Gəcə-gündüz göz tikmişəm yoluna,
Süylə gürüm, mənə nə vaxt gələrsən?

Maral azğın düşüb qalır çüllərdə,
Aşiqlərin süzi ular dillərdə.
Sən gedərsən, güzüm qalar yullarda,
Süylə gürüm, mənə nə vaxt gələrəm?

Şahzadə Əbilfəz:

Mehman ulub otağına girmədim,
Həsrət qaldım güllərini dərmədim.
Fələyin əlinnən bir gün gürmədim,
Səbr eylə, güzəlim, yenə gələrəm.

Aşiqlərdə sühbət ular, süz ular,
Məşüqədə işvə ular, naz ular.
Gedibən gəlməyim, vallah, az ular,
Ağlama, güzəlim, yenə gələrəm.

Əbilfəzin dərdü-qəmin təzələ,
Cavan ümrüm bağı dündü xəzələ.
Fəda olum Rəna adlı güzələ,
Ağlama, güzəlim, yenə gələrəm.

Şahzadə Əbilfəz bu süzdəri deyib ayağa durdu. Artıq sühbət haramdır deyib qılıncını buynuna saldı, yula düşmək isdədikdə Rəna xanım dedi:

– Şahzadə, indi ki, gedirsən, Allah küməyin ulsun! Amma sənnən bir iltimasım var.

Oğlan dedi:

– Nədir iltimasım?

Qız dedi:

– Bilirəm, orada sənə çux hiylələr ədəcəklər. Hər yerə səni gündərsələr, məbadə, məni gürməmiş gedəsən.

Oğlan dedi:

– Baş üsdə və onu da yəqin bil ki sənin süzünnən kənara çıxmayacağam. Heç fikir etmə, inşallah tezliklə qayıdıb gələrəm!

Bunnan sunra “xudahafiz” deyib yula düşdü. Rəna xanım onun dalınca həsrət ilə baxıb ağlamağa başladı. Amma şahzadə dayammadan gecə-gündüz at sürdü. Yəmən şəhərinə gəlib çatdı. Karvansaraya düşüb bir qədər rahat ulduqdan sunra şəhərin tamaşasına çıxdı. Gəzə-gəzə gəlib bir qəsəb tükanın qabağına yetişdi. Gürdi xeyli camahat bura yığılmışdır. Tükanın içərisində 40-45 yaşdarında bir kişi qulları çirməkli və neçə-neçə cavan şagirddər bunun qabağında alış-veriş ədirlər. Şahzadə bu işə təcüb ədib dedi:

– Yəqin burada bir şey var, yuxsa bir qəsəb tükanına bu qədər adam yığılmaz. Şahzadə birinnən suruşdi ki, bu cəmahat nəyə yığılmışlar?...

Kişi dedi:

– Məgər qəribsiniz?

Əbilfəz dədi:

– Bəli, bu gün bu şəhərə varid ulmuşam.

Kişi dədi:

– O tükanda olan adamın adı Qəsəb Həmzədir, şəhərimizdə onnan əlmli adam yuxdur, bu camahat ona çux əhtiram ədirlər. Bizim padşahın bir qızı var. Çux cavannar unu isdəyir. Kürdoğlu addı bir pəhləvan dəxi, o cümlədən onu isdəyir. Qız onu isdəməyir, deyir özümü üldürürəm, Kürdoğluna gətmərəm. Padşah Kürdoğlunnan qurxur, ona gürə deyib ki, hər kəs mənim qızımı isdəyirsə, şəhərdən bir ağaclıqda qədim zamannan qalmış tilsimli bir hamam var. Həmin qədim zamannan qalma tilsimli hamama gətməli, urada halva çalıb tilsimi sındırmalıdır. Onnan sunra qızımı ona verəcəyəm. İndi nə qədər padşah oğlannarı və qeyriləri ora getmişlər, onnardan gəri qayıdan ulmamışdır. Tilsimə düşüb qalıblar urda. İndi bu cəmaətin buraya yığışmasınnan səbəb udur ki, Həmzə həmən hamamın sirrini bilir. Şahzadə Əbilfəz əhvalatı bilib bir tərəfdə uturdu. Bir sahatdan sunra adamlar dağıldı, sakitlik düşdü. Oğlan başını aşağı salıb fikrə getdi. Bir vaxt gürdü ki, Qəsəb Həmzə qabağında durubdu. Oğlan ayağa durub salam

eylədi. Həmzə oğlanı tükana apardı və şagirddərinə buyurdu ki, yemək gətirsinnər. Şagirddər yemək gətirdilər. Özü süzə başlayıb dedi: – "Oğlan, süylə gürüm kimsən və nədən ütrü bura gəlmisən? Mən səni uzaxdan gürüncə bildim ki, qəribsən. Səni öz uğlum kimi də sevdim. Sənə deyirəm ki, sən buraya nahaq gəlməmisən. Əyər fikrini mənə deməsən, peşman ularsan. Sən cavansan, dünyanın işdərinnən xəbərdar deyilsən. Gizdətmə dərdini.

Şahzadə fikir eylədi, gürdü ki, Qəsəb Həmzə düz deyir. Oğlan başına gələn əhvalatı ona tamam danışdı. Həmzə dedi:

– Oğlum, indi ki, belə uldu, mənim də üvladım yuxdur, indi sən mənim uğlumsan. Mən əhd eləmişəm ki, malımı-canımı sənin yulunda quyum. Getməyinə razı deyiləm. Mənim evimə gedək.

O, axşam zamanı uğlanı gütürüb əvə gəldi. Arvadı soruşdu ki, qunağın kimdir? Qəsəb Həmzə dedi:

– Qunax deyil, üvladımız yux idi, Haqq-təala bizə oğul əta etmişdir. Sən də gəl burada otur.

Xulasə, Şahzadənin kim olduğunu o kişi öz arvadına məlum əlċdi. Axşam təamını yedikdən sunra hər kəs yerində isdirahətə məşqul oldu. Gecədən bir qədər keçmişdi, ancax oğlan yatmamışdı. Gürdü ki, ayax səsi gəlir. Yavaşca güzünü açıb gürdü ki, Qəsəb Həmzə kişidir. Qılıncını əlinə alıb evdən eşiyə çıxmaq isdəyir.

Şahzadə dayandı, Həmzə bayıra çıxmaq isdəyəndə, o da tez ayağa durub qılıncını gütürüb onun dalınca getdi. Bir qədər gedib şəhərin kənarında bir qalın meşəyə çatdılar. Qəsəb Həmzə meşəyə daxil uldu. Oğlan onun dalınca gedib gürdü meşənin qalın bir yerində bir dana büyük utax vardır. Otağın yuxarısında taxt vardı. Dürd tərəfində səndəllər var, üsdündə adamlar uturmuşdur. Onnarın hamısı başdarını aşağı salıb uturmuşdular. Amma təxtin üsdündə Həmzə uturmuşdu, oğlan da onun dalınca girib bir səndəli buş gürüb uturdu. Bir az keçməmiş bir nəfər qapıdan girib düz şahzadənin üsdünə

gəldi. Onun qulunnan dutub dedi ki, dur mənim yerimnən! Şahzadə ona bir yumrux vurunca o, yıxılıb qeşş elədi. Buraya o qədər adam gəlmişdi ki, bunnan kimsə xəbər duymadı. Bir-iki sahat bu hal ilə qaldılar. Sunra Qəsəb Həmzə başını qaldırıb dedi:

– Mən sizə deyirəm, amma bacara bilmirsiniz, gəlün bu müşkül işdən əl çəkün. Ayağa durun, yatmax vaxdıdır. Adamlar dağılıb getdilər. Qəsəb Həmzə isdəyirdi çıxsın, amma Şahzadəni gürüb təcüb eylədi: Xəbər aldı ki, oğlum, məgər sən də gəlibsən?

Şahzadə dedi:

– Bəli.

Qəsəb suruşdu:

– Sən harada uturmuşdun?

Oğlan dedi:

– Sənin yanında.

Sonra əhvalatın hamısını danışdı və dedi:

– Ata, çux təvəqqe ədirəm ki, bu işdən məni agah ədəsən.

Həmzə dedi ki, əvə gedək, danışaram. Əvə gələnnən sunra oğlan əl çəkməyib elə yalvardı və minnət əylədi ki, bu sirri ona açsın. Həmzə dedi:

– Şəhərimizin bir ağaclıq məsafəsində bir dana Bilhür hamam var, hər kim gedib o hamamda halva bişirib gətirsə, o tilsim də puç ular və halvanı yeyən adam da ümürlü ulub gec qucalar. Padşah dəxi bu işdən xəbərdardır və una gürə şərt eləyib ki, hər kəs onun qızını isdəyirsə, urada halva bişirib gətirməlidir. Gürdüyün adamlar hamısı şahzadə və büyük adamların oğlannarıdır. Sənin yumruxla vurduğun adam da dəxi bir büyük adamın uğludur. Onnarın yanıma yığılmaxlarının səbəbi udur ki, Bilhür hamamının sirrini mənnən başqa bilən yuxdur. İndi iki ildir ki, hər gecə yanıma cəm olullar. Mən də bildiyimi onnara deyirəm və neçə dəfə getmişlər, bir nəfər də qayıdan ulmamışdır. Çünki urada olan əcəyibləri gürməyə cürət ətməyillər. Şahzadə bu əhvalatı eşidincə Həm-

zənin əllərinnən üpüb dedi:

– Bəs indi ki, siz hamamın sirrini bilirsiniz, nə ular, mənə də məlum ədiniz. Allah Kərimdir, bəlkə bir elac tapıb mən una əlac edəm. Həmzə dedi:

– Mənə yəqindir ki, bu iş sənin əlünlə açılacaq. Budu, sənə deyirəm, hər nə gürdün, qurxma. Əyər mənim cavan vaxtım ulsaydı, çuxdan bu işlə qurtarmışdım və padşahın qızına sahib ulmuşdum, ancax mənə lazım deyil.

Sonra isə hər nə ki lazımdı, oğluna üyrətdi. O gün, o gecə keçdi, o biri axşam gecədən bir qədər keçmişdi, Şahzadə ayağa durdu. O, qılıncını belinə asdı və lazım ulan şeyləri alıb Həmzə ilə yula düşdü. Balaca bir dağın yanına çatanda Həmzə dedi:

– Get, səni Allaha tapşırdım, yenə sənə deyirəm, məbadə qurxmayasan! Ələki tilsimi puç ətdin, heç kimə baxmayıb buraya gələrsən. Mən burada səni güzdəyirəm. Oğlan Həmzənin əlini üpüb üz quydu getməyə. O, dağın üsdünə çıxanda gürdü ki, biyabandır. Buradan bir işıq gəlir. O, işıq gələn tərəfə gətməyə başdadı. Bir də gürdi ki, qabağı dəryadı. O, özünü suya vurdu, gürdü ki, heç bir şey ulmadı. Bir az getmişdi ki, gürdü haman biyaban od tutub yanır. Bir zərəri ulmayıb unu da keçdi. Hamamın qapısına yetişdi. Necə ki, Həmzə demişdi, iki şir oğlana hücüm ətdi. Oğlan onnarın hərəsinə bir yumrux vurunca şirlərin hərəsi bir yerə sərildi. Şahzadə qapıdan içəri girib gürdü ki, bir nəfəri başı aşağı asmışlar. Birisi də onun ətini tikə-tikə kəsib ağzına verir. Asılan adam uğlanı gürdükdə yalvarmağa başdadı ki, məni bunun əlinnən xilas ələ. Oğlan qılıncı çəkib güydən asılanı iki parça ələdi, o birisi qaçıb hamamın içinə girdi. Oğlan daxil ulub gürdi hamamın içi gündüz kimi işıqdır və heç kəs də yuxdur. Şahzadə əsla xuf eləmədi, bir tərəfdə uturub halva bişirməyə məşqul oldu. Bu əsnadə gürdi ki, hər tərəfdən ona kəsilmiş baş, qul-qıçlar atılır. Oğlan onnarı gütürüb udun kimi bir-birinin üsdünə yığdı. Sonra üç kəsilmiş baş atdılar. Şahzadə bunnardan da qurx-

mayıb bir tərəfə quydu. Ancax tələsik halvanı bişirdi, bişirib qurtarınca hamamın hər tərəfinnən əl uzanıb halva isdədilər. Oğlan acıxlanıb hər ələ bir çumça vurub qaytardı. Çunki Həmzə tapşırmışdı ki, onnara halva vermə. Oğlan halvanı dəsmala bağladı və ayağa durub bayıra çıxmax isdədikdə gürdü hamamın bir tərəfinnən nazənin bir qız dəf çala-çala bunun qabağına gəlib dedi:

– Ay oğlan, nə ular, ya mənimlə bir qədər sühbət ədəsən, ya da ki halvadan bir tikə mənə verəsən. Qız əlin isdədi uzatıb oğlanın əlin tutsun. Şahzadə tez qılıncı vurub onun başından iki parça ələdi. Bu əsnadə bir gurultu peyda uldu. Oğlan başını, dizi üsdə quyub bir qədər dayandı. Öylə ki, gurultu sakit uldu, oğlan baxıb gürdi ki, nə tas var, nə hamam var, bir çül-biyabandır. Şübhə az qalmışdı. Qabaxda gürdüyü əlamətlərdən bir əsər qalmamışdı. Oğlan düz Qəsəb Həmzənin yanına gəldi. İkisi də şad-xürrəm əvə gəldilər. Həmzə oğlanı rahat ədib halvanı da yaxşı yerə quydı. Sabah uldu, padşaha xəbər çatdı ki, bu gecə Bilhur hamamın tilsimi sındırılmışdır, lakin kimin tərəfinnən, bilimmir! Padşah bu xəbərdən şad ulub dedi:

– Car çəkin, hər kəs Bilhur hamamının tilsimini sındırıbsa, dayanmayıb yanıma gəlsin.

Həmzə Əbilfəzi də gütürüb şahın yanına gəldi, halvanı taxtın yanına quyub dedi:

– Bu uğlan Misir padşahının uğludur, tilsimi o sındırıb.

Padşah çux sevindi, onu üpüb dedi:

– İndi sən mənə oğul uldun. Qızımı da ona nişannadım.

Bunu gürən Kürdoğlunun çarəsi kəsildi, hiylə qurmağa başdadı. Onun sehr bilən bir qulamı vardı. Onu yanına çağırıb dedi:

– Elə et ki, Sərfinaz xanım una qismət ulmasın.

Qulam dedi:

– Mən bu gecə qızı uğurrayıb aparıb ceyrana dündərərəm. Oğlan gəzib tapmaz, qız sənə qismət ular.

Kürdoğlu razılaşdı. Qulam qızı oğurrayıb ceyrana dündərdi. Özü də bir quca şəklinə girib qız ilə bərabər meşədə uturdu. Səhəri gün kənizdər qızı mənzildə gürməyib ağlaya-ağlaya padşahın yanına gəldilər, əhvalatı una danışdılar. Ağlamaq, vay-şivən padşahın sarayına düşdü. Şahzadə bu xəbəri eşitdi, padşahın yanına gəlib gürdü ki, padşah qəm dəryasına qərq ulub. Şahzadə Əbilfəz padşaha dedi:

– Şahım, heç fikir eləmə, tezliklə gedib qızı tapıb gətirərəm.

Sonra şahzadə atına süvar olub yula düşdü. Gedib Rəna xanımın qələçəsinə yetişdi. Rəna xanım onu gürüb dedi:

– Əzizim, xuş gəlmisəm, nə olub ki, əhvalın pərişandı?

Şahzadə dedi:

Salam ulsun sənə, nazənin dilbər,
Ağlayıb-ağlayıb gülən varmola?
İtirmişəm qara güzdü ceyranı,
Həmdəm olub onu gürən varmola?

Səməndimi qava-qava gətirdim,
Baş gütürüb dərgahına yetirdim.
Sərfinazı tapmış idim, itirdim,
O güzəl sənəmi gürən varmola?

İsdəyirdim seyrə çıxam gülzara,
Çərxi-dun qoymadı, qaldım avara.
Rəhm elə güzəlim, elə bir çara,
Gürən onun yerin bilən varmola?

Oğlan əhvalatı Rəna xanıma danışdı. Qız bir qədər fikirdən sunra dedi:

– Bu işdər tamam Kürdoğlunun hiyləsidi. Sərfinazı Kürdoğlunun qulamı aparıb ceyran surətinə salıb meşədə saxlayır. Bax, bu yulla gedərsən, meşəyə çatıb gürəcəksən ki, bir quca kişinin yanında bir ceyran var. O quca kişi qulamdı, ceyran da Sərfinaz. Əvvəl xoşdux ilə qızı onnan istərsən, əgər verməsə, üldürüb, qanını ceyranın üsdünə çilərsən, dərhal öz sürətinə

düşər. Amma yenə sənə tapşırıram, hər yerə səni göndərdilər, məni gürməmiş getməzsən.

Oğlan ununla vidalaşıb, yula düşdü. Rəna xanımın güstərdiyi yul ilə gedib, ta ki, meşəyə çatdı. Meşəni gəzdi. Bir qarannıx yerə yetişib gürdü bir quca uturub, yanında da bir ceyran var. Şahzadə qucaya salam verib belə dedi:

Salam ulsun quca, sənə,
Gəlmişəm aparım, gedim.
Quyma məni yaman günə,
Ver mənə, aparım, gedim.

Quca, bir ərzim var sənə,
Amandı, rəhm eylə mənə!
Quyma məni yaman günə,
Ver mənə, aparım, gedim.

Sənsən bir quca piranı,
Sürübsən səfa-düvranı.
Qultuğundaki ceyranı,
Ver mənə, aparım gedim.

Quca hirsdənib dedi:

– Rədd ol buradan! Mən heç kimə ceyran vermərəm.

Oğlan dimməyib onun başınnan vurub iki parə elədi və qanınnan gütürüb ceyranın üsdünə tükən kimi qız əsl surətinə gəldi və suruşdu:

– Sən kimsən ki, məni bu cadunun əlinnən azad eylədin?

Oğlan dedi:

– Mən Misir şahzadəsiyəm. İki ildir ki sənin eşqündən tactəxtimi atıb diyarbədiyar gəzirəm.

Qız dedi:

– Bəs mənim nişannım sənsən?

Oğlan dedi:

– Bəli.

Bir qədər sühbətdən sunra qızı gütürüb yula düşdü. Sürətlə

gəlib şəhərə daxil uldular. Onnar əhvalatı padşaha danışdılar. Onnar toy tədarükündə ulmaq isdəyirdilər. Amma Kürdoğlu hərəmzada yenə bir hiylə ilə padşahın yanına gəlib dedi:

– Şah, sizin bu damadınız həqiqətən tərifə layiqdir. Ancax bir iş vardır, onu da əmələ gətirsə, daha unun misli-bərabəri ulmaz.

Oğlan bu süzü eşidib dedi:

– Süylə, əmələ gətirməyə hazıram.

Kürdoğlu dedi:

– İrəm baxçasında bir bağ vardır. Orada bir alma ağacı vardır. Ağacın dibində bir qara quyun utlayır. Qoyun əti və almalar hər dərdin dərmanıdır. Əyər unnarı tapıb gətirsən, mənə məlum ular ki, nə qədər hünər sahibidir.

Şahzadə dərhal yerindən durdu. Padşah ilə vida edib yula rəvan uldu. Vəzirrər öz aralarında deyirdilər ki, heyf şahzadədən. Kürdoğlu unu hiylə ilə ülümə göndərdi. Oğlan gecəni gündüzə qatıb at sürürdi. Ta gəlib Rəna xanımın qələçəsinə yeşitdi. Rəna xanım uğlanı gürüncə buixtiyar durub oğlanın qabağına gəldi və əlinnən dutub dedi:

– Sevgilim, yenə zalimlər səni hara göndərdilər?

Oğlan əhvalatı danışdı. Qız bir qədər düşündükdən sunra dedi:

– İrəm baxçasını mən sənə nişan verərəm. Amma bir şərtlə: qayıdanda bir gecə burada qalıb gedəsən.

Oğlan dedi:

– Baş üsdə!

Oğlan daha dayammayıb Rəna xanımın güstərdiyi yulla getdi. Qız dediyi baxçaya çatıb almaları dərdi, quyunu gütürüb gəldi. Axşam zamanı Rəna xanımın qələçəsinə yetişdi. Qız gülə-gülə unun qabağına çıxıb dedi:

– Şükür Allaha, səni sələmət gürdüm. Bəs hanı gətirdiyün şeylər?

Oğlan almaları quyun ilə bərabər una verdi. Gecə bir qədər sühbətdən sunra o biri utağa gedib yatdılar. Qız almaları alıb

sandığa quydu və yerinə başqasını quydu. Quyunun yerinə başqasını bağladı. Sübh açıldı, oğlan yerindən durub Rəna xanımın yanına gəldi və dədi:

– Xanım, getməyə izn verirsən?

Rəna xanım qəmgin halda dedi:

– Bəli, gedə bilərsən.

Oğlan həsrətlə una baxıb qəmgin halda yula düşdü. Bu tərəfdən əyanlar şahzadəni güzləyirdilər. Şahzadə padşahın divanxanasına daxil oldu, gətirdiyi almaları və quyunu yerə quydu. Padşah qulunu uğlanın buynuna salıb artıq məhəbbətlə şad uldu. Üzünü vəzirə tutub dedi:

– Dayanmax zamanı deyil. Bu günnən şahzadənin tuyu başlansın.

Kürdoğlu dərd-qəm dəryasına qərq ulub öz-özünə deyirdi: hər tərəfdən əlim üzüldi. Ayrı çarəsi yuxdur, bir tədbirlə unu üldürməliyəm. Gecədən bir az keçmiş oğlanın yanına gəlib dedi:

– Səndən bir təmənnam var, zəhmət çəkib bir gecə bizə gələsən.

Oğlan xəyal eylədi və öz-özünə dedi: Əgər getməsəm, deyər qurxdu. Ona gürə dedi:

– Yaxşı, gələrəm.

Kürdoğlu şad ulub getdi. Bir neçə gün keçdi, hami şad-xürrəm tuy tədarikinə məşğul idi. Şahzadə öz-özünə: muradıma çatacağam xiyalində idi. Yenə Kürdoğlu haramzadə şahzadənin yanına gəldi. Başdadı yalvarmağa:

– Bir gəcə mənə qunax gəl.

Şahzadə dədi:

– Niyə zəhmət çəkirsən? Ayrı vaxt gələrəm.

Kürdoğlu yalvarıb dedi:

– Sabahdan başımız tuya qarışacax, onnan sunra bilirəm, vətəninə gedəcəksən. Daha mümkün ulmaz. O məlun bilirdi ki, bu gecədən qeyri firsət düşməyəcəkdir. Ona gürə hər cür ulsa da, onu razı edib mənzilinə apardı. Yeyib-içdikdən sunra

söhbətə uturdular, gecə yarı uldı. Oğlan durub getmək istiyirdi. Kürdoğlu dedi:

– Yaxşı qəhvə hazırlamışam, bir fincan içək.

O, fincannarı gətirib birini oğlanın qabağına quydu, birini də özü içdi. Oğlan qəhvəni içincə başı gicəllənib yerə yıxıldı. Kürdoğlu zalım qılıncı sıyırıb unu duğradı. Kürdoğlu zənd etdi ki, oğlanın işi tamam uldu. Tez bir çadirşəbə bürüyüb sandığa quydi. Ağzını bərkidib dalına aldı, gecə sübhədək getdi. Sübhə bir az qalmış bir biyabanda sandığı yerə quydu. Özü mənzilinə qayıtdı, şeyləri gizdədib rahat uldu. Bir kimsə unun işinnən xəbər tutmadı. Amma Rəna xanım yuxusunda gürdü ki, qannan bir dərya var. Şahzadə Əbilfəz bu dəryanın içindədi. Onu gürdükdə dedi, məni burdan xilas edin. Qız hüvlənk yuxudan uyanıb xidmətçiləri çağırtdırdı. Hamısı hazır uldular. Qız dedi:

– Tez atları hazırrayın.

Özü də geyindi, nükərrəri, kənizdəri gütürüb yula düşdü. Gecənin bir aləmində divanə kimi getməyə başdadı. Sübh zamanı Yəmən şəhərinə gəlib çıxdı. Rəna xanım bir yerə yetişib gürdü ki, quşdar bir yerə yığılışıb. Qızın ürəyi xəbər verir kimi quşdar ulan yerə gəldi. Rəna xanım gürdü bir sandıx var. Hükm elədi sandığı açdılar. Gürdü ki, qan dulub sandığın içinə. Bir şey çadırşəbə bürünmüşdür. Qız əlləri əsə-əsə çadırşəbi açıb gürdü ki, şahzadə qırmızı şəfəq kimi al qanına qərq ulmuşdur. Rəna xanım bu halı gürüncə huşu başınnan çıxıb fəryad eylədi. Ah! Hansı zalim səni bu hələ salmış? Gürdün bu biinsaflar axırda sənə nə elədilər?... İndi mən sənə nə çarə edim?... Bir qədər ağladıqdan sunra qulamlara buyurdu ki, sandığı gütürüb evə aparsınnar. Əmr elədi, isti su hazırladılar. Nükərrərə əmr elədi ki, İrəm bağçasınnan gələn quyunu kəsdilər və hər ədvasi ilə tüküb qazana ağzını da bağlayıb bişməyə quysunnar. Özü də şumşada uxşar qullarını çirməyib yaraların qanını təmizdəyirdi. Sunra yumşaq yerdə yatırdıb qazanı gətirdi. Əlilə onun yağını onun yara-

larına tükdü və bişmiş əti də yumşaq əskilərə yaxıb bədəninə saldı. Ayağa durub İrəm baxçasınnan gələn almanın birisini şərbət əyləyib hazır quydu. O birisin də əlinə alıb oğlanın yanına gəldi. Yasdığın yanında uturdu. Almanı burnuna tutdu. Oğlanın qara zülfləri ay üzünü bulut tutan kimi dağılıb bürümüşdü. Qız şumşad barmaqları ilə zülflərin bu yana verib oğlanın kaman misalli qaşdarına, qara güzdərinə, ux kimi kipriklərinə tamaşa ədib ağlayırdı. Eşq odu ürəgində zübhanə çəkib uynayırdı:

Aç, şəhla güzünü, yuxudan oyan,
Pozğun əhvalinə qurban olduğum.
Məni Məjnun ədib çüllərdə qoyan,
Mələk surətinə qurban olduğum.

Kəsdirmişəm nəz balışın yanını,
Sanamışam kipliklərin sanını.
Nə tapmısan bu yuxunun kamımı,
Oyan, güzdərinə qurban olduğum.

Əşqdən olmuşam dəli, divana,
Yanmışam odunnan misli pərvana.
Kimlər səni bileşdirdi al qana,
Sərdü-kəmayinə qurban olduğum.

Nəsb-şəbdə yatmışdım, oyandım,
Əşqin ateşilə alışıb-yandım.
Mühübbət yulunda möhkəm dayandım,
Gəzər yerlərinə qurban ulduğum.

Rəna fəda olsun qara telinə,
Bu gül camalına, miskin halinə.
Qünçə dəhalinə, şirin dilinə,
Ahu baxışına qurban ulduğum.

Rəna xanım oğlanın yanında uturub bu cür ah-zar ədirdi. Bu əsnadə gürdü oğlan huşə gəlib tərpəndi. Qız şad olub tez almanın şərbətini onun buğazına tükdü, o biri almanı da şərbət edib verdikdən sunra oğlan güzün açdı. Rəna xanım şaddıxdan bilməyirdi nə qayırsın. Xəbər aldı ki, səni bu halə kim saldı? Oğlan başına gələni danışdı, suruşdu ki, bəs məni buraya kim gətirdi? Qız dəxi əhvalatı süylədi. Bir neçə günnən sunra oğlanın yaraları sağaldı. Həmişəki halına gəldi, qız da onun başına pərvanə kimi dulanıb onun xidmətinə məşğul idi.

Padşaha xəbər verdilər ki, şahzadə Əbilfəz yuxdur. Bu xəbərdən padşahın güzündə dünya qaraldı. Keşikçiləri çağırıb dedi:

– Bu neçə işdir ki, şahzadə yux  ulsun? Keşikçilər ərz ələdilər:

– Bizim burcumuzdur ki, gələni quymayax. Axşam gürdük ki, şahzadə Kürdoğlu ilə sühbət ədir. Onnan sunra geyinib getdi. Bizim nə burcumuz var ki, onnan xəbər alax. Padşah onnara mürəxxəs ədib dedi vəzirə ki, unun başına nə gəlmişsə, Kürdoğludan gəlmişdir. Xəbər gündərib Kürdoğlunu çağırtdılar. Padşah acıqlı suruşdu:

– Hanı şahzadə?

Kürdoğlu padşahdan bu acıqlı süzü eşidib qəzəbnak ulub cavab verdi ki:

– Sən bir mekanı ulmayan adamı gətirib qızını una verirsən, adını da şahzadə quyursan. Hər gecə qızınla sühbət edirdi. İndi də qızınnan xəbər al, deyib çıxıb getdi.

Padişah dedi:

– Vəzir, bu nə süzdür?

Vəzir dedi:

– Yalan deyir, bu onun özünün hiyləsidir.

Padşah hirsdənib hərəmxanaya gedib qızdan sual əlJdi. Qız and içib dedi:

– O cadunu üldürüb gətirdikdən sonra özünü görməmişəm.

Bir-iki günnən sonra Kürdoğlu xəbər gündərdi ki, qızı

mənə versin. Yuxsa şəhərini alt-üst edib, viran ədəcəyəm. Padşah məhtəl qalıb dedi:

– Vəzir, nə əlac ədək?

Vəzir dedi:

– Bir qızdan ütrü vilayətə fitnə salıb, aləmdə biyabır olmağın faydası yuxdur, qızı una verməlisən.

Padşah durub hərəmxanayə gəldi və əhvalatı bəyan etdi. Qız dəhşətə düşüb dedi:

– Mən bu işə heç razı ulmaram.

Ata-anası dedi:

– Qızım, güclə iş ulmaz, bir nüv bəhanə ilə mühlət alax bəlkə? Allah kərimdir, bəlkə bir çarə tapdıx, hər cür ulsa da sən razı deyilsən.

Xəbər gündərillər ki, Sərfinaz xanım deyir, qırx gün mühlət versin, bəlkə nişannımnan xəbər çıxa. Əyər çıxmazsa, baş üsdə. Bunu qəbul ətməsə, özümü üldürrəm. Kürdoğlu bu xəbəri əşidib dedi:

– Nə eybi var, qoy güzləsin. Ürəgində deyirdi ki, mən onu üldürmüşəm, bir də dirilib gəlmiyəcək ki? Quy nə cür isdəyir, öylə ulsun.

Bu tərəfdən oğlan Rəna xanımın yanında gün keçirirdi. Bir gecə yatıb yuxuda gürdü ki, Sərfinaz ağlayır. Suruşdu ki, niyə ağlayırsan?

Sərfinaz dedi:

– Necə ağlamayım, məni yadınnan çıxarıb zalım Kürdoğlunun əlində giriftar əylədin. Oğlan yuxudan uyanıb qəmgin bir halətdə sübhədək yatmadı. Elə ki, sübh açıldı, Rəna xanım yerinnən durub gəldi gürsün oğlan ayılıb, yuxsa yux! Gürdü oğlan pərişan haldadır. Rəna xanım unun yanında uturub dedi:

– Əzizim, nə ulmuşdur? Niyə qəmginsən?

Oğlan cavab verməyib ağlayırdı. Qız unun ağlamasını gürüb dedi ki, niyə ağlayırsan? Sənin ağlamağına tabım yuxdur. Bilirəm dərdin nədir, utanma, süylə. Oğlan sazı gütürüb uxumağa başdadı:

Canım Rəna, güzüm Rəna,
Quy mən gedim, güzəl yarım!
Sənə qurban ulum, Rəna,
Quy mən gedim, güzəl yarım.

Mən olmuşam şeyda bülbül,
Rəna ulubdur qünçə gül.
İxtiyar əlimdə deyil,
Quy mən gədim, güzəl yarım.

Durna gədər qatar-qatar,
Meşələrdən keçib ütər.
Zalım rəqib kama yetər,
Quy mən gədim, güzəl yarım.

Qız gürdü ki, şahzadənin halı üzgə cürdür. Rəna başdadı ağlamağa və ürəyində deyirdi ki, hayıf çekdigim zəhmətə, zay uldu. Bu neçə ildə həm canımnan, həm də malımnan keçib sənin yulunu güzlədim. Ay əzizim, heç ağlama və kəfini puzma. Yenə də sənin yulunda canımı quymağa hazıram. Rəna xanım elə yerinnən durub bir dəs dəbriş libası gətirib şahzadəyə verdi və dedi:

– Əzizim, əgər bu libasınla gətsən, sənin düşmənnərin çuxdur, yenə səni puç ədəllər. Gəl sən bu libası geyin və əlivə bir dəxi saz al. Aşıx kimi uxuya-uxuya get. Sərfinazı Kürdoğluya nişannayıblar, tuyları başdanıb. Get əzizim, Allah küməyin ulsun. Şahzadə əvvəlcə Rəna xanımın o gül cəmalinə baxıb ürəkdən bir ah çəkib dedi:

– Güzəlim, məni bağışla. Bu eşqin odu axır mənim əvimi yıxacaq. Amma səbr eylə, güzəlim, Allah Kərimdi, bəlkə yenə qayıdıb gəldim.

Şahzadə yenə sazın alıb gürək Rənayə nələr dedi:

Nə edim, nə çarə edim?
Mən dünürəm, künlüm dünməz.

Ürəgim dərdim süyləyir,
Ağlama güzəlim, yenə gələrəm.

Qız:

Xəbər gündər vətəninə əlinə,
Mayil oldım kipriyinə, qaşına.
Neçə ildir güz tikmişəm yuluna,
Getmə güzəl yarım, mən də gəlirəm.

Oğlan:

Əy Fələk! Əşq vurub yenə başıma,
Kürdoğlu quyubdur ağu başıma.
Qurban ulum, Rəna, bir cüt qaşına,
Ağlama güzəlim, yenə gələrəm.

Qız:

Çəkdiyim zəhmətim hayıf, zay uldu,
Bu güzəl cəmalım saraldı, suldı.
Bir əşq,  bir arzu künlümdə qaldı,
Getmə, güzəl yarım, mən də gəlirəm.

Oğlan:

Oturmuşdum şad-xürrəm bu evdə,
Gəlibdür başıma mənim bu süvdə,
Kürdoğlu duğrayıb məni bu tuyda,
Ağlama, güzəlim, yenə gələrəm.

Qız:

Qurban ulum sənin uca buyuna,
Kürdoğlu saldı səni uyuna.
Atanı yetirsin Xuda tuyuna,
Gətmə, güzəl yarım, mən də gələrəm.

Oğlan:

Etgilən indi fəqan, ürəgim,
Bitməz oldu indi mənim diləyim.
Çuxda çuxdur mənim səndən istəyim,
Ağlama güzəlim, yenə gələrəm.

Qız:

Gətsən əyər, ullam təranə kimi,
Dalınca gəzmişəm divanə kimi.
Dulandım başına pərvanə kimi,
Getmə, güzəl yarım, mən də gəlirəm.

Şahzadə Əbilfəzin ürəyi fəqan etdi. O, həsrətlə Rəna xanımnan ayrılıb Yəmən şəhərinə üz quydu. Rəna xanım unun dalınca baxıb ağlaya-ağlaya əvə qayıtdı. Şahzadə gəcə və gündüz yul gəldi, ta ki gəlib Yəmən şəhərinə yetişdi. Gürdü ki, Yəmən şəhərinin qapısında qaraullar dayanıbdır. Şahzadə salam verib dedi:

– Aç qapını, mən qeyri vilayətdən gələn aşığam. O, çux yalvarıb qapını açdırdı, şəhərə daxil oldu, gəzə-gəzə padşahın evinə tərəf gətdi. Gürdü ki, padşahın evində bir dəsgah qundarılmış. Şahzadə qapının yanına gəlib icazə isdədi içəri girməyə. Fəqət qapıdakılar əvvəlcə razı ulmadı, sunra padşaha xəbər gedənnən sunra şahzadəni içəri quydular. Şahzadə həyətdə qalıb sazı çala-çala eşqin odu ürəyini yandırıb uxumağa başdadı.

Şah Əbilfəzin səsin eşidən qızın elə bil bədəni od tutub yandı. Şahzadə gəlib məclisdə şahın yanında əyləşdi. Gürdü ki, evin yuxarı başında şah, vəzir, vəkil və başqaları da evin orta tərəfində Kürdoğlu, aşağı tərəfə isə pərdə çəkilmiş və pərdənin dal üzündə Sərfinaz, anası və başqa qızdar əyləşmişdi. Padşah dedi:

– Dəbriş, bir az oxusaydın, künlüm bir qədər xuşdanardı. Şahzadə isdədi ki, sazın alıb uxusun.

Kürdoğlu dedi:

– Bu qurumuş murdarı haradan tapdınız?

Padşah dedi:

– Eh! Quy bir qədər uxusun, onun səsi oğlum şahzadənin səsinə bənzəyir. Şahzadə alıb sazı, yanıxlı süzdər ilə uxumağa başladı:

Aman şahım, canım-canım,
Bu bir süvda idi gəldi başıma.
Uşaq idim düşdüm dərdi-mühnətə,
Ədalətli şahım, et divanımı.

Gəzib-gəzib dəryalara dulmuşam,
Gül rəngimdə saralmışam-sulmuşam.
Şah oğlu idim, indi gədə ulmuşam,
Ədalətli şahım, et divanımı.

Bu sitamgar saldı məni tufana,
Rəhm ətmədi, bir mən kimi cavana.
Qılıncı çəkib bulaşdırdı al qana,
Ədalətli şahım et divanımı.

Sərfinazım fərağımdan ağladı,
Rəna xanım ürəyimi dağladı.
Biinsaf Kürdoğlı məni duğradı,
Ədalətli şahım, et divanımı.

Kürdoğlı öz adın əşitdikdə diqqətlə baxıb gürdü ki, bu, şahzadədir. Padşah, vəzir-vəkil dayanıb dimmədilər. Sərfinaz da anasına dedi:

– Eşidirsən nə deyir, dayan gürək dalın nə deyəcəkdir?

Oğlan havanı dəyişdirib yenə uxumağa başdadı:

Aman şahim, canım şahim,
Yarım əğyara dil verib.
Məgər ülüb şeyda bülbül?
Qüncə gül xarə dil verib?

Yuxusunda məni sevdi,
Durub əhvalımı bildi.
Rəna xanım qanımı yudu,
Yar üzgə yarə dil verib.

Sürməmişəm zövqü-səfa,
Yulunda çəkmişəm cəfa.
Öz yarım ulub bivəfa
Bir sitamkarə dil verib.

Padşah daha tab gətirməyib qulunu şahzadənin buynuna salıb ağlamağa başdadı. Vəzir və əyannar oğlanın əhvalına zar-zar ağladılar. Amma oğlan sakit ula bilməyib yenə uxumağa başdadı:

Bir ərzim var şahim sənə,
İzn ver mənə, süyləyim.
Bu zalim zülm edib mənə,
İzn ver, gedim üldürüm.

Yalvarıram zarı-zarı,
Ayırmışdı nazlı yarı.
Rəhm etginən, səni tanrı,
İzn ver, gedim üldürüm.

Uşaqlıxda keçdim cannan,
Yara dəgib mənə yannan.
Budu iltimasım sənnən,
İzn ver gedim üldürüm.

Qoy durum gedim yanına,
Bir qorxu salım canına.
Bulaşdırım al qanına,
İzn ver, gedim üldürüm.

Padşah o sahat hükm eylədi ki, Kürdoğlunu dutsunlar, qullarını bağlasınnar. Cəlladdar o sahat Kürdoğlunun qullarını

bağladılar və dustaqxanaya göndərdilər. Oğlan başına gələn qəziyyəni başdan-ayağa süylədi. Padşah dedi ki, Allaha çux şükür ulsun ki, nicat tapdın. Tuy edib daha səni özümnən ayırmaram. Şahzadə padşahdan bu süzü eşidib dedi:

– Heç insafdır ki, mən burada eyş-işrətdə ulum, Rəna xanımın güzü yulda ağlaya-ağlaya qalsın? Mənim dirilməyimə bayis odur.

– Nə əybi var, vəzir gedib onu gütürüb gələr. Sərfinazın tuyun əylədikdən sunra onun da tuyunu edərik. O da bizim qızımızdır. Oğlan padşahın əlin üpüb, dedi:

– Rəna xanım çox fərasətli və əğilli bir qızdır, ula bilər ki, buraya gəlməyə razı ulmasın. Əyər iltifat ədib Sərfinazı mənə vermək fikrin varsa, uraya apararam. Bəlkə unu da razı ədib öz vilayətimə apararam. Atamın-anamın güzü yuldadır, bilmirəm o biçarələrin günü necə keçdi?

Padşahın rəhmi gəldi, qızı aparmağa razı oldı. O, gəcəni qalıb sabahı padşahın iznilə qıza zinət verib, ləl-cəvahirata qərb ədib şahzadəyə verdilər. Şahzadə bir nəfər kənizdən başqa kimsənin gəlməyinə razı ulmadı və qızı gütürüb yula düşdü.

Amma Rəna xanım oğlanın fərağında, gəcə-gündüz ağlayırdı, yatmayırdı. Nə qədər özünə səbr verirdisə, aram tapa bilmirdi. Bir gün ürəgi çux dutulmuşdu. Pəncərənin qabağına uturub səhraya tamaşa əyləyirdi. Bu əsnadə gürdü üç nəfər gəlillər. Diqqətlə baxdıqda gürdü şahzadə, yanında bir nazənəm sənəm, cəvahiratla qərq ulmuş bir nəfər kənizlə gəlməkdədirlər. Rəna xanım ayağa durdu, onnarın qabağına çıxdı. Qızı gürüncə ürəyi, ağlı başınnan uyandı. Amma məlum əyləmədi. Sunra içəri keçib bir şüşə zəhər içdi. Gəlib şahzadəyə dedi:

– Şahzadə, nəyə gəldin? Bu biçarəni də cəlalınnan ayırıb sərgərdan quydun. Mən ki sənə izn verməmişdim. Bilməyirsən mən canımnan keçmişəm?

Oğlan ağlaya-ağlaya qızın əllərini dutub dedi:

– Mənim güzəlim, bu nə süzdür deyirsən? Məgər mənim sənnən ayrılmağa taqətim varmı? Duğrudur, sən mənə izin

vermisən, mənnən əl çəkmisən. Amma nəyləyim, mən əl çəkə bilmirəm. Rəna xanım titrəyə-titrəyə cavab verdi:

– Mən bu gəcə öz əşqimi sənə məlum ədərəm.

Bu süzü deyib dayandı. Axşam araya gəlmişdi, kənizdər aralığa düzülmüşdülər. Bir qəmli məclis arəstə ulmuşdu. Rəna xanım öz halında dəyildi. Ona gürə ki, içdigi zəhərin təsirinnən bədəni xəzan yarpağı tək əsirdi. Gül rəngi zəfəran kimi saralmışdı. Nə dinməyirdi, nə də danışmayırdı. Dəfə-dəfə ah çəkirdi, hər nə qədər dindirdilər, cavab verməyib huşə gədirdi. Gəcədən bir nə qədər kəçmiş birdən yuxudan uyanan adam kimi: "şahzadə dur yanıma gəl", – deyə çağırdı. Oğlan tez durub gəldi. Onun qabağında uturub ağlamağa başdadı. Rəna xanım una həsrətlə baxıb dedi:

– Ağlama, mənim ümrüm az qalıb ona gürə ki, özümçün hazırladığım zəhər şərbətini içdim və öz həqiqi mühübbətimi izhar ətdim. Əzizim, mən sənin əşqinin odunnan bad-fənayə getdim. Ancax sənnən rica ədirəm, qabağımda utur ki, bu axır ümrümdə sənə duyunca baxım. Pərvanə şamın başında yanıb fəda olan kimi, mən də sənə canımı fəda ətdim. Amma şahzadə divanə kimi lal ulub məhəttəl qalmışdı və heyran-heyran una baxırdı. Rəna xanım həzin-həzin uxumağa başdadı:

Misir şahzadəsi, qulaq vər mənə,
Həlal əylə, dəxi mən gədər uldum.
Bir nəçə vəsiyyətim var indi sənə,
Həlal əylə, dəxi mən gədər uldum.

Maral kimi ağlamışam güzümdən,
Duymamışam yarın şirin süzündən.
Ahu baxışından, xumar güzündən,
Həlal əylə, dəxi mən gədər uldum.

Atam yuxdur fərağımda ağlasın,
Anam yuxdur sinəsini dağlasın.

Quy kənizdər güzdərimi bağlasın,
Həlal əylə, dəxi mən gədər uldum.

Şahzadə bu əhvalı gürdükdə Rəna xanımı bağrına basıb dedi:

– Mənim mayeyi-zindəngahım, bu nə işdir başıma gətirdin? Niyə özünə və mənə rəhmin gəlmədi? Öylə xiyal əyləyirsən ki mən sənnən sunra yaşayacağam? Sən onu yəqin bil ki, yaşamayacağam! Rəna xanım halətdən üzülüb onun qucağında dedi:

– Qulaq ver, dəxi ülürəm.

Sunra nəfəsi dutula-dutula dedi:

– Bir künülə iki mühübbət sığmaz. Sizin xuşbəxtliyinizi puzmamaq üçün mən bu işi dutdum:

Mühübbət hissəsin sükə bilmədim,
Daha, güz yullara dikə bilmədim.
Əşqin ateşini çəkə bilmədim,
Halal əylə, dəxi mən gədər uldum.

Mühübbətim azalır sahatbasaat,
Əşqidən olmadım bir ləhzə rahat.
Yar yanında can verirəm fəraqət,
Halal əylə, dəxi mən gədər uldum.

Oğlan gürdü ki, Rəna xanım bir yanıqlı ah çəkib güzünü yumdu və dünyaya vida ətdi. Bu əsnada kənizdər fəryad ədib başdadılar başdarına vurmağa. Oğlan onnarı sakit ədib divanə kimi bir az mat-məhbut qalıb, qucağında da mələk misall Rəna xanım. Şahzadə onun qəddi-qamətinə və ruhsuz cəmalına tamaşa ədirdi. Nagah kənizdərə qışqırıb dedi:

– Sizi and verirəm bunun canına, bir az sakit ulun. Mənim süzdərimi eşidin, taki özümi mən də güzəlimə yetirim. Mənim hər yerdən küməyim ulan müşküldə yuldaşım o idi. İndi də quymaram o qurxulu məzarə yalquz gedsin.

Onnan sunra üzünü quydu o mərmər kimi qızın aypara üzünə. Həsrətlə suyuq, buz ulan üzünnən üpüb dedi:

– Mənim mələyim, sənin kimi vəfali yardan sunra mənə

dirilik həram ulsun, dayan, getmə, mən də gəlirəm. Gecə sən məni yalquz quymadın, dünya evində mənə kümək uldun, axirət evinə də bərabər gedək.

Sonra sazı gütürüb uxumağa başdadı:

Qurbanı olduğum gül üzli yarım,
Gətmə güzəl yarım, mən də gəlirəm.
Üzüldü taqətim, getdi qərarım,
Getmə güzəl yarım, mən də gəlirəm.

Çərxi-fələk bizi quydu arada,
Həsrət qaldım, yetişmədim murada.
Cansız cəsəd qala bilməz dünyada,
Getmə, güzəl yarım, mən də gəlirəm.

Uşaqlıqdan seyr əylədim, cahanı,
Əşq odunnan çəkdim, ahu-fəqanı.
Sənnən sunra isdəmirəm dünyanı,
Gətmə, güzəl yarım, mən də gəlirəm.

Tərki-vətən olub, getdim bu təştə,
Otağın uxşayır bağı-behiştə.
Mələk deyim sana, ya ki fəriştə,
Getmə, güzəl yarım mən də gəlirəm.

Sənə qurban ulum, əy qaşı kaman,
Aç şəhla güzünü, ülürəm uyan.
Lazım deyil mənə başqa bir canan,
Getmə, güzəl yarım mən də gəlirəm.

Bu halda Sərfinaz xanım ağlaya-ağlaya şahzadənin yanında uturdu. Oğlan ona baxıb cigərdən bir ah çəkib, dedi:

Uşaqlıqdan valeh, heyran ulduğum,
Xudahafiz, dəxi mən gədər uldum.
Ağlar güzdərinə qurban ulduğum,
Xudahafiz, dəxi mən gədər uldum.

Oxudum dərsimi, yetdim tamama,
Qara xəbərimi gündər anama.
Cavan uldum, yetişmədim mən kama,
Xudahafiz, dəxi mən gədər uldum.

Sağalmadı bu qəlbimin yarası,
Tapılmadı bu dərdimin çarası.
Anama yazginən, saxlasın yası,
Xudahafiz, dəxi mən gədər uldum.

Yazgilən üsdümdə qəbir tiksinnər,
Bəylik utağıma qara çəksinnər.
Gəlib məzarımda güllər əksinnər,
Xudahafiz, dəxi mən gədər uldum.

Mənnən sunra bu dünyadan duysunnar,
Şahanə təxtimi mənim soysunnar.
Rəna xanım ilə bir məzarə quysunnar,
Xudahafiz, dəxi mən gədər uldum.

Şahzadə bu süzdəri deyib, sazı yerə vurub sındırdı və xəncəri ürəginə sancdı. Həzin-həzin, can verə-verə uxumağa başdadı:

Əşq odunnan rəngim saralıb suldu,
Cigərim kasası dərd-qəmə duldu.
Tamam arzularım könlümdə qaldı,
Fəda ulum sənə, mən də gələrəm.

Məqamın cənnətdir, özünsə mələk,
Ayrılığı saldı bu zalim fələk.
Sərfinaz da nakam qaldı sənin tək,
Fəda ulum sənə, mən də gəlirəm.

Ürəyimi qəmi-ləsgər bürüdü,
Cigərlərim qana dünüb əridi.
Cavan canım zay uluban çürüdü,
Fəda ulum sənə, mən də gəlirəm.

Tərlan kimi gəzdim Yəmən çülündə,
Bülbül ulub uxuyaram gülündə.
Can quyaram vəfali yar yulunda,
Fəda ulum sənə, mən də gəlirəm.

Əbilfəzəm, bitməz uldu dirəyim,
Bada getdi, hayıf uldu əməyim.
Nakam uldum, qübar etdi diləyim,
Fəda ulum sənə, mən də gəlirəm.

Oğlan belə deyib bihuş olub qızın üsdünə yıxıldı. Sərfinaz xanım unun başını dizinin üsdünə aldı. Gürdü onun rəngi ağarmış, qan onu bürümüşdür. Sərfinaz onu qucaqlayıb, dedi:

Çərxi-fələk bizə güz-nəzər ətdi,
Cavan canımı mum tək əritdi.
Rəna xanım əcəbcə kama yetdi,
Mən dünyada ağlar qalıb neylərəm?

Bu vaxt gürdü ki, oğlanın əlləri sustalıb işi tamam uldu. Sərfinaz bu halı gürdükcə daha tab ətməyib başını yuldu. Zülflərin pərişan ədib qəşş ələdi. Unnan sunra huşə gəlib dedi:

– Ah, həyif ulsun sizə daha sizdən sunra mən çalıb nə gün gürəcəm?

Ağlayıb-ağlayıb özünnən gədib qaldi. Bu növh ilə gəcə sübhədək qəşş ədir, halə gəlir, ağlayırdı. Sübh vaxtı onun da ürəyi partlayıb, ağzınnan qan fəvarə vərib axmağa başdadı. Özünü onnarın nəşlərinin üsdünə salıb canını yar yulunda qurban əylədi. Kənizdər bu dəhşəti gürüncə az qala divanə olub çüllərə düşdülər. Axırda səbr ədib üçünü də bir qəbirə dəfn ədib mücavir ulub oturdular.

Qarı süzünü qutarmışdı. Türkmən qızı bunnarın halinə

ağlayırdı. Nagah gürdü ki, isdəklisi səfərdən gəldi. Unnar gürüşdülər. Bir neçə günnən sunra türkmən qızına tuy uldu və o muradına çatdı. Qarı da onnara analıx elədi. Unnar ruzigarrarını xuş keçirdilər.

***BABA BABAYEV***

## NADİR ŞAH VƏ MURTUZƏLİ
(Dastandan parça)

Nadirqulu ilə durub üz-üzə,
İkinci başbilən başlayır süzə:
"Hünərin bəllidir ləzgi xalqına,
İşlətmə xəncəri, quyginən qına.
Dünyaya çux şahlar gəlib-gediblər,
Qılıncla baş kəsib, şaddıq ediblər.
Çox da qürrələnmə göz uymağınnan,
Kəndləri talayıb boş qoymağından.
O uzaq diyardan gəlmisən bura,
Silahsız xalqlarla cəng vura-vura.
Nə qədər gec deyil, qayıt İrana.
Bu dağlar yurdunu quyma virana".

Dillənir üçüncü başbilən quca,
Deyir, deyilənlər bəs edər bunca.
Padşah sülhə gəlsə, adı ucalar,
Sülh olsa, səhrada güllər açılar.
Bizim dağları gəl çəkmə dara,
Bu dağlar, dərələr gütürməz yara.
Şaha əmr etməyə yuxdur haqqımız,
Amma unutma ki, dağdır arxamız.
Məsləhət verməkdir burcumuz bizim,
Geriyə dünərik, versəniz izin.

Fikirli-fikirli baxır şahənşah,
Küksündən ayrılır kədərli bir ah:
"Varam sizdə ulan bu etibara,
İgidlik yaraşır bu şah dağlara.
Murtuzəli kimi cəsurunuz var.
Yurda həyan ular bu cür uğullar.
Sizi bağışdadım o qəhrəmana,
Hünəri yar ulsun o pəhləvana.
Dağlara yaraşır dağların leyi,
O igid oğula min əhsən deyin.
Ömrün mənasını annadım indi,
Künlümün bir həzin kamanı dindi.
Gəldiyim yullarla geri gedirəm,
Şahdağa gəlməyi tüvbə edirəm".
Peşman-peşman şah baxır güyə,
Sarı sim qəlbində dil açıb deyən.
Deyir, ey Şah dağı, bağışda məni,
Yaxın təpə bildim uca zirvəni.
Bu dağlar yurduna bata bilmədim.
O məşhur keçidə çata bilmədim.
İtirdim quşundan yüzlərlə adam,
Yaxşı ki, sağ qaldım buna çux şadam.
Pəsələng quşunla geri dünürəm,
O hündür zirvəndən yerə enirəm.

Gürdüyü bir yuxu çıxmır yadınnan,
Sürüşüb düşürdü uca qayadan.
Bir pələng yapışıb buynundan sıxır,
Qəzəblə, hiddətlə ovuna baxır.
Bu necə yuxudur, nə deyir Allah?
Ayılır, yuxudan əsə-əsə şah.
Yuzucu yuxunu tərsinə yuzur,
Dümmədüz yazını əyricə yazır:
"Yıxılmaq qalxmaqdır, qibleyi-aləm,

Sənə ram ulacaq dünyeyi-aləm.
Qurxur ki, düz desə çatacaq sunu,
Yanılmış şah dağa çəkir quşunu.
O yuxu yadına düşüb yenidən,
Deyir, səhvim olub mənim binədən.
Dağların nə yaman hikməti varmış.
Bilirəm, səfərim gedib bicaya,
Ürəkdən burcluyam siz üç qucaya.
Bir də, dərs almışam Murtuzəlidən,
Təkbətək quşunu yulunnan edən.
Əgər quşunumda tək bircə nəfər,
Ulsaydı, hünərdə una bərabər,
Heç bərkə düşməzdim bu zirvədə mən,
Bu mühüm şərti mən unutdum nədən?
Bir də ki, Tanrıya etsəydim səcdə,
Mənə tay ulmazdı bir kimsə gücdə.
Anladım səhvimi, artıq çux gecdir,
Xalqa zülm edənin axırı heçdir.

Şah dünüb indi də arana baxır,
Güzləri yul çəkir, İrana baxır,
Yerində elə hey vargəl eyləyir,
Üz tutub quşuna belə süyləyir:
"Yaraşmazdı mənə belə bir səfər.
Məni məğlub etdi tək bircə nəfər.
Sevinsin ləzgilər, bu dağlı ellər,
Onnara heç yaxın düşərmi yellər?
Bir də qayıtmaram bu yerə, inan.
Bezmişəm mən daha qan axıtmaxdan".

Vüqarla geriyə dünür üç quca,
Pəhləvan güvdəli, buyları uca.
Uzaxda onnarı güzləyən elə,
Hünərlə, fəxrlə deyillər belə:

"Şaha qalib gəldik kamalımızla,
Quruduq bu yurdu amalımızla.
Elin uğulları bir ulsa əgər,
Hər düşmən ram ulub, una diz çükər!"

## TAYIRBEY VƏ QUBA AŞIĞI

Keçmişdə kənddərdə, şəhərrərdə aşıq məclisləri ulurdu. Aşıqlar, bir birinə üsdün gəlməyə qəsd edirdilər. Kamil aşıqların adı hər bir məclisdə çəkilirdi. Belə aşıqlardan biri də Babilhədi şəhərində yaşayan Aşıq Tayırbey idi. Aşıq məclislərində onun büyük hürməti var idi. Heç bir aşıq onu süzlə bağlaya bilməzdi, çux hazırcavab aşıq idi. Bir dəfə Azərbaycanın Quba şəhərində xanın büyük bir tuy məclisi olur. Aşıqlar arasında Tayırbeydən söz düşür. Qabaqda da çox addı-sannı aşıqlar var idi. Bir nəfər aşıq Babilhədidə Tayırbeyi kilitbenddə otuzdurduğunu sühbət edirdi. O dedi ki, kim bunu açsa, bil ki o güclü aşıqdır.

Aşıq aldı sazı gürək nə dedi:

Ol nedir ki, güydən yerə sallanır?
Ol nədir ki, hər nə versən allanır?
Ol nədir ki, dal üzünnən nallanır?
Hansı quşdur, qultuğundan duğur hey?

Aşıqlar bir-birinə baxdı, dillənən ulmadı. Onda o, ikinci kilitbəndi dedi:

Əziziyəm bina gürdüm,
Qəlyanı yana gürdüm.
Səksən uğul, qırx ata,
Yüz əlli ana gürdüm.

Aşıqlardan yenə səs çıxmadı. Bunnarın arasında, bir luvğa aşıq var idi. O, həmişə özünü üyərdi, ancaq kütbaşlıların başçısı idi. Duğrusunu desək, aşıqlar onnan çux **kiriyirdi***.

----------------

*Kiriмək – çəkinmək, ehtiyat etmək.

O ayağa qalxıb dedi:

– Mən Tayırbeyin yanına öz şagirdimi göndərəcəyəm. Baxım gürüm, o necə aşıqdır. Əyər, o mənim təklifimə əməl etsə, unda mən bilərəm ki, o, həqiqi aşıqdır.

O, şagirdini çağırıb dedi:

– Gedərsən düz Bibilhədiyə. Axtarıb Aşıq Tayırbeyi taparsan, una deyərsən ki, mənim ağam sizdən xahiş edib, deyib ki, mənim üçün bir cüt üküz alasan, hər ikisi biri-birinə uxşasın, onnarı biri-birinnən ayırmaq mümkün ulmasın. Sonra cavabını alıb gələrsən.

Şagird gəlir Babilhədiyə. Axtarıb Aşıq Tayırbeyin evin tapır. Tayırbek unu evə dəvət edir. Nə qulluğa gəlməsini suruşur. Şagird aşığın xahişini Tayırbeyə süyləyir:

– Ağam sənnən xahiş edib, ona iki üküz alasan, hər ikisi bir-birinə uxşasın, üküzdəri bir-birinnən ayırmaq mümkün ulmasın.

Tayırbey məxrəcini pozmadı:

– Baş üstə, oğlum, düzələr, – dedi.

Qunağı axşam yeməyinnən sunra arxayın etdi ki, ağasının qulluğun bitirəcək, arxayın yatıb yuxusunu alsın.

Səhər açıldı. Tayırbek qunağa səhər yeməyi verdi, sunra dedi:

– Oğlum, get ağana de ki, üküzdər hazırdır. Gəlib apara bilər. Ancaq ağana de ki, ya gecə, ya da gündüz gəlməsin.

Şagird də urdan qayıdıb öz ağasına dedi:

– Aşıq Tayırbey sizə üküzdər alıb hazırlayıb. Tapşırdı ki, üküzdəri aparmağa ya gecə və yaxud gündüz gəlməsin. Quba aşığı mətəl qalır. Necə yəni nə gecə gəlməsin, nə də gündüz? O, fikirrəşir ki, duğrudan da, Aşıq Tayırbey kamil aşıqdır deyə bu sühbəti aşıqlara sühbət edir. Həmin aşıqlardan biri deyir:

– İndi inandız ki, Aşıq Tayırbey hazırcavab aşıqdır. Onnarın hamısı Aşıq Tayırbeyin hünərinə afərin deyir.

Gəlin onun kilidbəndlərin sizə açım:

Yağışdır ki, göydən yerə sallanır,
Uşaqdır ki, hər nə versən allanır.
**Abasıdır*** dal yerinnən nallanır,
Şüpərəkdir qultuğundan duğar hey.

## MİKAİL VƏ AYBƏNİZ

Mikail adəti üzrə hər səhər camışdarı bulağa suya aparırdı. Bu dəfə unun işi daha xuş keçdi. O, camışdarı bulağa aparanda bulax üsdə səhəng dulduran bir qızı gürdü. Qız onu gürcək qızılgül ləçəyi tək qızardı, səhəngi çiyninə necə aldığını bilmədi. Elə bil qəsdən, yulda gəlib-gedən də yux idi. Onun əynində sarımtıl diba parçadan küynək, naz-nazı adlanan ipək örpək, ayaxlarında qırmızı məhislər var idi. Qız o qədər gözəl idi ki, aşıqlar tərifinə belə layıq idi. Qızın sul yanağında ulan qara xal unun camalına daha artıq güzəllik verirdi. Mən əyər Mikayilin yerində ulsaydım, yəqin divanə ulardım. Ancax Mikail özünü çux ədəbli apardı. Qızın yulunnan çəkilib, onun dalınca baxmağa başdadı. Onun ürəyinnən nələr keçirdi?

– Hansı bəxtəvərin malı ularsan? – deyə öz-özünə pıçıldadı. Bəs siz? Qızın Mikaili gürcək qızarması səbəbsiz deyildi. Bəlkə onun da ürəyinnən nə isə keçmişdi.

Mikail kasıb bir kişinin uğlu idi. On-on iki yaşlarında atası Nuru kişi Allah rəhmətinə getmiş, o, ana himayəsində büyümüşdü. İndi onun on doqquz-iyirmi yaşı olardı. Ucabuylu, qarasaçlı, ənlikürəyli, qılçın giyimli bir uğlan idi. O, camışdarı evə gətirib, arpa-samanını tükdü, sunra evə girib dərinnən bir ah çəkdi. Gürəsən anamı əlçi gündərsəm, Qabil kişi qızı mənə verərmi? Axı o, kəndin varrılarınnan ulan bir mülk sahibidir. Mən isə yuxsul kişinin oğlu deyib kürsüdə əyləşdi. Mikailin anası Səadət çux arif qadın idi. O, oğlunun dərin fikirdə ulmasını bilib suruşdu:

---------------------

*Abası – 20 qəpiklik pul.

– Oğlum, olmaya, kəfin yuxdur, yuxsa?

Mikail tez anasının sözünü kəsdi:

– Yox ana, ələ-belə, malların yemi çatmaz deyə fikirrəşirdim, – dedi.

Mikail ürəyində tutdu ki, qızla məsləhət gürməmiş əlçi göndərməsin. Bir neçə gün qız ilə uğlan rastlaşmadılar. Bir dumannı gün Mikailin yulu, Aybənizin (qızın adı Aybəniz idi) qapısınnan düşür. Bəxtə olan kimi Aybəniz də urada idi. O, qıza işarə etdi:

– Bağçaya, armud ağaclarını urdan çaplamağa gedirəm, – dedi.

Aybəniz anası Sürməyə dedi ki, kəndin yaxınında ulan armud ağacının altında bir çuval armud var, gedim yığım getirim. Anası razı uldu. Qız tez bir çuval gütürüb yula düşdü. Dumannı gün, xəlvəti gürüş üçün əlverişli idi, çünki kənardan baxannar heç kəsi gürə bilməzdilər.

Mətləbə gələk. Mikail yulun kənarında durub Aybənizi güzdəyirdi. Bu an o gəlib çıxdı. Hə, gəldin?

– Gəldim, – deyə qız cavab verdi. İmdi biz məsləhəddəşək, mən səni neçə vaxtdır sevirəm. Məncə, bunu sən başa düşmüsən, – deyə Mikail süzə başdadı. Qız adəti üzrə daha bərk qızardı, onun yanaxları od içində idi. Ürəyi gürünmədiyi üçün bilmək ulmurdu. Ancax qızın tələsik verilən cavablarınnan bilmək ulmurdu ki, ürəydə cələng-fələkdir.

– Biz ilqar edək və bu ilqardan dünməyək, – deyə Mikail dilləndi. Sura qızla sağullaşıb ayrıldılar.

Vaxt gəlib keçirdi. Mikail anasını qıza əlçi göndərdi.

Aybənizin atası Qabil kişi Səadətin süzünə elə bir cavab verdi ki, yazığın dəyəni qalıb, kalı tüküldü. Səadət arvad kurpeşman evə qayıtdı. Oğluna dedi ki, Qabil öz qızını qardaşı oğlu Cabbara verir. Onnan əl çək, oğlum. Mikailin gəmisi elə bil Qara dəryada qərq uldu.

– Yox, mən buna düzə bilmərəm, – dedi. Mikail sərraş saz çalan bir oğlan idi. Əlindən az-az aşıqlıq da gəlirdi. Ancax

cütçülük etdiyi üçün bu işlə məşğul ulmurdu.

Bir dəfə o, qunşu kənddən, quhumlarından qayıdanda, Aybənizin Cabbara nişannandığı xəbərini eşitdi. Onu elə bil şahmar ilan vurdu. Bəs qız bu işə razı uldumu? – deyə öz-özünə sual verdi.

– Yux-yux ula bilməz, gərək tuy gecəsi qızı alıb qaçım, – dedi.

O, qıza bir bənddən ibarət bir namə göndərir:

Ay qız ilqarından dünməz,
Bir ilqarda durmusanmı?
İyidlər süzündən dünməz,
Məni deyib durmusanmı?

Qız naməni uxuyub, una cavab yazır ki, nə vaxt isdəsə, ununla quşulub qaçmağa razı ulduğunu bildirir.

Aybəniz xanımın tuyu başdanır. Ata-anası qızı bayır-bucaq üzünə həsrət quyur. Onu güzdən quymullar. Qız anasına çux yalvarır, ancaq anası küpəgirən qızının süzünə qulaq asmır ki, asmır.

– Ana! Mən gəlin gedən gecə özümü asacağam, onda dizinə düyüb ağlayarsan, sunra iş-işdən keçəcək, peşman ulacaqsan, – dedi. Anası una heç çibin cızıltısı kimi belə qulaq asmadı.

Mikail istədi Cabbarı vursun, ancax fikrinnən daşındı, yux, bu kişilikdən deyil, – dedi. Əyər unu vursam o, birdəfəlik azad ular, una başqa kələk gəlmək lazımdır ki, ümrü buyu unutmasın, – dedi.

– Yayılım atəşləri açıldı, qız-gəlinlər, cavan oğlannar qızın əvinə gəldilər ki, gəlini aparsınnar.

Gəlin arabaya mindi. Cabbarın bəzək utağına qədəm quydu. O, özü ilə paltarların altında, rəhmətlik babasının ikiüzlü qızıl çaxmalı xəncərini almış idi. Bunu bir kəs bilmirdi.

Budur, gecə xeyli keçdi. Cabbar giyovlux paltarı içində utağa daxil uldu. Onun sifətinə baxanda adamın qusmağı gəlirdi. Sifətinin çuxurrarında bir cam darı gizlənərdi. Burnu

qışda buzdayan qara çuğundura bənzəyirdi. Bığları keçinin saqqalı kimi çənəsinnən aşağı düşmüşdü. Başında quyun dərisinnən qara papax var idi. Papaxının altınnan qaşdar bilimmirdi, ancax delikdən baxan tülkünün güzdəri tək iki güz parıldıyırdı. O, kürsüdə oturub ayaqqabılarını çıxartmax isdədi. Birdən səs eşitdi:

– Ayağa dur! Tez burdan çekil, – deyə Aybəniz əlindəki xəncəli una güstərdi. Yuxsa öz-özümü üldürəcəyəm – deyə duvağı başınnan atdı. Əlində sıyrım xəncəl onun yaxınına gəldi.

– Dur çekil, deyirəm sənə! – deyə xəncəli ona tərəfə uzatdı.

Cabbar naəlac qalıb otaqdan çıxdı. Əhvalı heç kəsə demədi. Cavan qızdır, özü yula gələr, – dedi. Ancax belə ulmadı. Cabbar evdən çıxan kimi qız pəncərədən atılıb birbaş Mikayılın yanına getdi.

– İndi gedək, mən azadam, sənin ixtiyarındayam, – dedi. Qoy sevgilini sevgilidən ayıran ata-analara ar ulsun deyə unnar gecə yarı yula çıxdılar.

Cabbar səhər qapını açıb evə girdi, gürsün ki, qızın ürəyi sakitdəşib, ya yux. Gürdü utaqda bir kəs yuxdur. Tez qızın ana-atasına xəbər gündərdi. Qız tapılmadı. Onun Mikailə quşulub qaçmasını zəng etdilər. Mikailin anasınnan oğlunun harada ulmasını suruşdular. Anası oğlunun on gün bunnan qabax qunaxlığa getməsini xəbər verdi. (Duğrudanda bu yaxın günnərdə Mikailin kənddə gürən ulmamışdı, tuyda da yux idi) Burada fikir bir qədər deyişdi. Onda qız öz-özünü hara ulsa, asıb, – deyə anası dinnəndi. Çünki o, bu süzdəri qızının ağzınnan eşitmişdi. Odur ki, “yəqin belə ular” deyə fikirləşdi və heç kəsə bir süz deмədi.

Mikail və Aybəniz isə o vaxtdan sunra şad-xürrəm ümür sürüb xuşbəxt yaşamağa başdadılar.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**I. İnamlar və sınamalar.**

Məmmədyusif Səfərəliyev (Aşağı Çalğan kəndi), Əfəndi Rəşidov (Çinar kəndi), Söhbət Allahverdiyeva (Vəlikənd kəndi), Nəsibə Quliyeva (Bilici kəndi), Bibiheybət Ağayeva (Dərbənd).

**II. Mövsüm və mərasim nəğmələri.**

Söhbət Allahverdiyeva (Vəlikənd kəndi), Umzahidat Hacıyeva (Dərbənd), Gülsüm Feyziyeva (Cimikənd), Xədicə Orucova (Qaradağlı kəndi), Zülfüqar Məhərrəmov (Dərbənd), Umcahan Daşdıyeva (Zidyan kəndi), Həcər İsayeva (Tatlar kəndi), Şəkər Sultanova (Dərbənd).

**III. Əfsanə və rəvayətlər.**

Umzahidat Hacıyeva (Dərbənd), Əliheydər Abbasov (Sabnava kəndi), Səlmi Orucova (Dərbənd), Güllər Tələtova (Tatlar kəndi), Asiyət Nəzərova (Dərbənd), Məmmədyusif Səfərəliyev (Aşağı Çalğan kəndi), Bayram Qardaşov (Dərbənd), Balaxan Mirzəliyev (Vəlikənd kəndi), Qəsnişirin Mürsəlova (Dərbənd), Əfəndi Rəşidov (Çinar kəndi), Şahsənəm Ağayeva (Vəlikənd kəndi), Əminə Qəhrəmanova (Mitəyi kəndi), Salavat Dəmirov (Zidyan kəndi).

**IV. Nağıllar.**

Səlmi Orucova (Dərbənd), Temirxan Samurxanov (Bilici kəndi), Nurəhməd Qarayev (Dərbənd), Tələt Səmədov (Sabnava kəndi), Zahidat Ağarəhimova (Bərəkey kəndi), Rəhman Aslanov (Dərbənd), Kümsiyyət Zahirova (Səlik kəndi), Umcahan Daşdiyeva (Zidyan kəndi), Yunis Qasımov (Bbilhədi kəndi), Məmmədsəfi Aslanov (Padar kəndi), Balaxan Mirzəliyev (Vəlikənd kəndi), Nəbi Ramazanov (Zidyan kəndi), Həcər İsayeva (Tatlar kəndi), Şəkər

Sultanova (Dərbənd), Nəsibə Quliyeva (Bilici kəndi), Bibiheybət Ağayeva (Dərbənd).

Qeyd: "Sehirli sandıq", "Süleyman peyğəmbərin qızı", "Yüz tikədən bir tikə", "Üç qardaş", "Şah oğlu ilə vəzir oğlu", "Süleyman peyğəmbərlə Simurq quşu" nağılları. O.Əliyev və R. Xəlilovun tərtibçisi olduğu "Allah yıxan evi qızlar tikər" kitabından götürülmüşdür. Bu nağılları Niftulla Qocayev (Rubas kəndi) və Sədulla Məmmədov (Dərbənd) söyləmişlər.

**V. Qaravəllilər.**

Asiyət Nəzərəva (Dərbənd), Nəbi Ramazanov (Zidyan kəndi), Qəhrəman Qəhrəmanov (Mitəyi kəndi), Əfəndi Rəşidov (Çinar kəndi), Məmmədsəfi Aslanov (Padar kəndi), Qəsnişirin Mürsəlova (Dərbənd), Şahsənəm Ağayeva (Vəlikənd kəndi), Rəhman Aslanov (Dərbənd), Temirxan Samurxanov (Bilici kəndi), Nurəhməd Qarayev (Dərbənd).

**VI. Atalar sözləri və məsəllər.**

Əfəndi Rəşidov (Çinar kəndi), Yunis Qasımov (Bilhədi kəndi), Umzahidat Hacıyeva (Cimikənd), Nəsrulla Yarəh-mədov (Aşağı Çalğan kəndi), Salavat Dəmirov (Zidyan kəndi), Əliheydər Abbasov (Zabnava kəndi), Məmmədyusif Səfərəliyev (Aşağı Çalğan kəndi), Bayram Qardaşov (Dərbənd), Həcər İsayeva (Tatlar kəndi), Abdulla Sultanov (Bilici kəndi), Məmmədsəfi Aslanov (Padar kəndi), Şahsənəm Ağayeva (Vəlikənd).

**VII. Tapmacalar.**

Rəhman Aslanov (Dərbənd), Əliheydər Abbasov (Sabnava kəndi), Zahidat Ağarəhimova (Bərəkey kəndi), Qəhrəman Qəhrəmanov (Mitəyi kəndi), Bayram Qardaşov (Dərbənd), Kümsiyyət Zahirova (Səlik kəndi), Balaxan Mirəliyev (Vəlikənd), Zülfüqar Məhərrəmova (Dərbənd), Surat Rəcəbova (Tabasaran), Nurəhməd Qarayev (Dərbənd),

Nəsibə Quliyeva (Bilici kəndi), Əminə Qəhrəmanova (Mitəyi kəndi), Şəkər Sultanova (Dərbənd).

**VIII. Bayatılar.**

Gülsüm Feyziyeva (Cimikənd), Xədicə Orucova (Qaradağlı kəndi), Umzahidat Hacıyeva (Dərbənd), Əminə Qəhrəmanova (Mitəyi kəndi), Asiyət Nəzərova (Dərbənd), Həcər İsayeva (Tatlar kəndi), Umzahidat Ağarəhimova (Bərəkey kəndi), Qəsnişirin Mürsəlova (Dərbənd), Şahsənəm Ağayeva (Vəlikənd), Bibiheybət Ağayeva (Dərbənd), Sonaxanım Maqomedova (Tabasaran), Umcahan Daşdıyeva (Zidyan kəndi), Şahsənəm Ağayeva (Vəlikənd kəndi), Cəmilət Muradova (Tabasaran).

**IX. Laylalar.**

Nəsibə Quluyeva (Bilici kəndi), Həcər İsayeva (Tatlar kəndi), Güllər Tələtova (Tatlar kəndi), Söhbət Allahverdiyeva (Vəlikənd), Asiyət Nəzərova (Dərbənd).

**X. Adət-ənənələr.**

Surat Rəcəbova (Tabasaran), Cəmilət Muradova (Tabasaran), Firəngiz Rəşidova (Dərbənd), Sonaxanım Maqomedova (Tabasaran), Nurəhməd Qarayev (Dərbənd), İsabek İsayev (Tabasaran), Nəsibə Quliyeva (Bilici kəndi), Nəsrulla Yarəhmədov (Aşağı Çalğan kəndi), Rəhman Aslanov (Dərbənd), Abdulla Sultanov (Bilici kəndi).

**XI. Lətifələr.**

Yunis Qasımov (Bilhədi kəndi), Bayram Qardaşov (Dərbənd), Məmmədsəfi Aslanov (Padar kəndi), İsabek İsayev (Tabasaran), Temirxan Samurxanov (Bilici kəndi), Balaxan Mirzəliyev (Vəlikənd kəndi), Nəsrulla Yarəhmədov (Aşağı Çalğan kəndi), Nurəhməd Qarayev (Dərbənd), Salavat Dəmirov (Zidyan kəndi), Rəhman Aslanov (Dərbənd), Əfəndi

Rəşidov (Çinar kəndi).

**XII. Uşaq folkloru.**

Şəkər Sultanova (Dərbənd), Əminə Qəhrəmanova (Mitəyi kəndi), Umcahan Daşdiyeva (Zidyan kəndi), Sonaxanım Maqomedova (Tabasaran).

**XIV. Dastanlar və aşıq rəvayətləri.**

“Koroğlunun Bilhədi səfəri”ni Aşıq Tayırbey (Bilhədi kəndi), “Şahzadə Əbilfəz və Rəna xanım”ı Ayxanım Xəmmədova (Cimi kənd), “Tayırbey və Quba aşığı”nı Aşıq Niyaz (Bilhədi kəndi), “Mikail və Aybəniz”i isə Salavat Taqirov (Zidyan kəndi) söyləmişlər.

# GÖSTƏRİCİ

## I. ŞƏXS, MİFOLOJİ VƏ FOLKLOR OBRAZLARI

**A**

Allah
Altay
Azreil
Ali
Acdaha (əjdaha)
Aslan usta
Aybəniz
Aşıq Əfəndi
Ay
Aşıq Minatullah
Aşıq Tayırbey
Axır Çərşənbə
Aşıq Niftulla

**B**

Bəhmən
Bəhrəm
Bahar xanım
Bənövşə
Baba Babayev
Bəlli Əhməd
Burla Xatun

**C**

Cavad
Ceyran qız
Camal
Cin
Cırtdan

Ceyran
Cabbar
Cənnət
Cahan şah

**Ç**

Çopur Məmməd
Çərşənbə axşamı

**D**

Div
Danay Behli
Dursunalı
Dəmirçi oğlu
Dəli Həsən
Dürat
Danəndəyi Bəhli

**E**

Eldar
Eyvaz

**Ə**

Əli
Əjdaha
Əhməd
Əhməd xan
Əskəndər
Əsmər qarı

**F**

Fələk
Fatimə
Fitnə

Fərhad
Fatma arvad
Fatma xanım

**G**

Gülşən
Günəş
Gürcüoğlu Məmməd
“Güləduraq” xanı
Güləndam
Gülsüm nənə
Gaflan
Gülbəniz

**H**

Həzrəti Fatimə
Həzrət Əli
Həzrəti Qabil
Hüristan (qız adı)
Hafiz
Hürribike
Hənəfə
Hürixanım
Hüri
Həmzə
Halaypozan

**X**

Xuda
Xudayar
Xalil

**İ**

İbraqim

İslam dini
İslam tarixi
İsa kişi

**K**

Kosa Səfər
Keçəl
Koroğlu

**Q**

Qabil kişi
Qaradağlı Xalid
Qazı (ad)
Qorxubilməz
Qəyib
Qırat
Qazan xan
Qarabağ
Qiyas şah

**L**

Larisa

**M**

Mulla Pənah
Mulla Əmir
Mixail
Məmmədəli xan
Məcnun
Məhəmmədağa
Məhəmməd peyğəmbər
Məhəmməd kişi
Məhərrəm
Məleykə

Mirbaba
Mərdan
Məsum
Murad
Mahmud kişi
Mürşid
Mulla Dursunalı
Musa kişi
Mulla Əkbər
“Mizçi” Vəli
Melek qarı

**N**
Nəvaziş xanım
Nisa
Nazana xanım
Nərrulla
Nəsur kişi
Nadir şah

**O**
Omar
Ovçu Pirim

**Ö**
Ömər

**P**
Pirəhməd kişi
Pəri
Pəri xanım
Pənah
Pəhləvan Nəzər
Partizan Maksim

Peyğəmbər
Perixanım
Pirbaba kişi

**R**

Ruhanə xanım
Rustam xan
Rasul
Riza
Ramazan dayı
Ramazan bayramı
Rövşən

**S**

Süleyman peyğəmbər
Sultan Nesur
Səddar
Sati
Sevda
Suleyman
Səməd dayı

**Ş**

Şah Abbas
Şirin
Şöklü Məlik
Şahzadə Yusif
Şah Mahmud
Şahzadə Turan
Şeytan
Şahzadə Əbilfəz

**T**

Tanrı

Tərvaz şah
Təhmiraz İmanov

**U**

Ulduz
Uruz

**Ü**

Ülkər

**Y**

Yusif
Yusif paşa
Yaqub
Yusif – Hazi

**Z**

Zümrüd
Zərnişan xanım
Zeynəb
Ziya
Ziyəddin

## II. YER ADLARI

**A**

Araz çayı
Aşağı Necili (kənd)
Ağadəd piri
Ağhəmzəli (kənd)
Arpaçay
Aşağı Calğan (kənd)
Aran

**B**
Bilhayel (kənd)
Bilhədi (kənd)
Babilhədi (kənd)
Bakı

**C**
Cüğdağ mahalı
Cuvuddar bulağı
Cuxur mahalı

**Ç**
Çobannərə (kənd)
Çinar kəndi
Çənlibel
Çılıx kəndi

**D**
Düyün (şəhər)
Dvin (şəhər)
Dəhnəz (kənd)
Darvaq (kənd)
Dağıstan
Dyubek (kənd)
Dağbasar vilayəti
Dərbənd
Dəmir xırmanı meydanı
Dübəy kəndi
Dürx mağarası
Dağni kəndi
Dəvəçi

**E**
Ersi kəndi

**Ə**

Ərəb vilayəti
Ərəbistan şəhəri

G

Gəlin batan bulağı
Gündəlan kəndi

**H**

Hindistan
Həbəşistan şəhəri
Huri kəndi
Himeydi kəndi
Hepye kəndi

**X**

Xələcəm
Xuçni şəhəri
Xuçni qalası
Xuçin kəndi
Xaraq mahalı
Xəlǝlli mahalı
Xəzər dənizi

**İ**

İslam məscidi

**K**

Kurkanı kəndi
Kor bulaq

**Q**

Qaya kənd
Qızıl göl

Qala mahalı
Qumral mahalı
Qazan şəhəri
Qızdırma bulağı
Qurban bayramı
Qara bayram
Qaragöz kəndi

**M**

Meçit meşə
Mamed Kala
Marağa kəndi
Məkkə

**N**

Narın qala
“Nazik novuca” bulağı
Novruz bayramı

**P**

Pir bulaq
Pirmalı

**R**

Rukel kəndi
Ruqur kəndi
Ramazan bayramı

**S**

Səlbasar kəndi
Sarıbaba (ərazi)

**Ş**

Şərkəni şəhəri

Şamaxı şəhəri

**T**

Taras çölü
Tabasaran

**U**

Urucluq bayramı

**V**

Vəlikənd

**Y**

Yarsaq kəndi

**Z**

Zil kəndi

## III. BİTKİ, AĞAC, HEYVAN VƏ QUŞ ADLARI

**A**

Alma
Ayı
Arpa
Armud
Aslan
At
Arı

**B**

Buğda
Balıq
Boyana

Bənövşə
Bülbül
Bibər

**C**

Canavar
Ceyran
Cökə
Cücə

**Ç**

Çiçək
Çəpiş
Çuğundur
Çəyirtkə
Çiyələk
Çaqqal
Çibin

**D**

Dəvə
Dövşan
Dana
Dovuz (donuz)
Dəfnə yarpağı

**Ə**

Əslan

**F**

Fil

**G**

Göyərçin

Göyəm

**H**

Heyva
Hörümçək

**X**

Xoruz
Xına
Xurma
Xiyar

**İ**

İnək
İt
İlan
İydə

**K**

Keçi
Kəklik
Köpək
Kəl

**Q**

Qarğa
Qartal
Qoyun
Qurd (həşərat)
Qızılgül
Quzu
Qarpız
Qurd (canavar)
Qaz

Qırqovul
Qaraquş
Qoz

**L**

Lalə

**M**

Meymun
Moruq

**N**

Nər
Nar

**Ö**

Öküz
Ördək

**P**

Pişik

**S**

Sərçə
Siçan
Sona (quş)
Sünbül

**Ş**

Şir
Şahin
Şaftalı

**T**
Tərlan
Tovuz quşu
Tülkü
Tut

**U**
Ulaq
Uzunqulaq

**Ü**
Üzərlik
Üzüm

**Y**
Yemiş
Yarpız

**Z**
Zümrüd quşu
Zoğal

## IV. PEŞƏ, SƏNƏT, ALƏT, SİLAH ADLARI VƏ DİGƏR ANLAMLAR

**A**
Atlaz
Atçı
Araba
Ayran
Aş
Alov
Aşıq

**B**

Bəzirgan
Başmaq
Balta
Beşik
Barama
Bal
Bağban
Başmaqçı

**C**

Cəllad
Cehiz
Cihan müharibəsi
Cəvahir
Corab

**Ç**

Çoban
Çeşmə
Çıraq
Çörək
Çudu
Çuval
Çaxmaq
"Çuma" xəstəliyi
Çarsov
Çömçə

**D**

Dəvəçi (peşə)
Delleyçi (dəllək)
Danaçı
Dilənçi

Dərviş
Dam
Dəyirman
Dükançı
Duvaq
Daraq
Dəf
Dolça

**E**

Ekinçi

**Ə**

Əriştə
Ərəbə

**F**

Fənər
Fərman ayı

**G**

Gön
Güzgü
Gümüş
Göy qurşağı

**H**

Halva

**X**

Xəşil
Xörək
Xəncər

**İ**

İynə
İmarət

İlxı
İlxıçı

**K**

Kəmər
Kaman
Kişmiş
Kəhriz
Koxa
Kabab
Karvan
Kotan
Kərpiç
Köynək
Küpə
Kəbin
Kağız
Kötük

**Q**

Qazı
Qovud
Qazı (vəzifə)
Qarpız
Qaraquş
Qurbağa
Qaşıq
Qaymaq
Qazan
Qoz
Qızbahası
Qız boyu
Qızıl
Qatıq
Qəlyan

Qədəh
Qızılgül
Qılınc

**L**

Libas
Ləzgi

**M**

Müzdür
Molla
Mirzə
Malikanə
Milçək
Məxmər (parça)
Məçid
Mehtər
Motal

**N**

Novruz
Nərdivan
Nağara
Namə
Noxud
Nəlbəki
Nökər
Nal
Naxırçı

**O**

Odunçu
Oxlov

**P**

Plov

Pul
Paltar
Pir
Paxlava
Padşah
Pambıq
Papaq
Pendir
Pəhlivan

**R**

Rəssam

**S**

Sünbül
Saz
Süpürgə
Sövdəgər
Səməni
Sayacı
Sərdar
Sultan (vəzifə)
Sirkə
Saat
Sümük
Seyid
Saqqal

**Ş**

Şal
Şam
Şəkərbura
Şərab
Şəkər

**T**

Tüfəng
Tacir
Tonqal
Tuman
Taxça
Tükançı
Tamada
Toxmaq
Tümən (pul)

**U**

Un
Urva

**Ü**

Üzük
Üskük

**V**

Vəzir
Vəkil

**Y**

Yelpik
Yumurta
Yaylıq
Yaylaq

**Z**

Zimistan (qış)

## MÜNDƏRİCAT

**Çoxcildli "Azərbaycan folkloru antologiyası"nın (AFA) nəşr olunmuş kitabları................................3**

***Dəmirqapı Dərbənd: etnik-milli yaddaşımız və mənəvi dünyamız (H.İsmayılov, T.Orucov)................5***

**I. İNAMLAR VƏ SINAMALAR.................................22**

**II. MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ**

Toy mahnıları......................................................28
Oğlanla qızın deyişməsi.........................................40
Ağılar, yas deyimləri..............................................40
Ağılar....................................................45
Sayaçı sözləri və holavarlar....................................47
Sayıçı sözləri............................................47
Holavarlar...............................................48

**III. ƏFSANƏ RƏVAYƏTLƏR**

Xuçni galası.......................................................49
Şərkəni kəndi......................................................52
Dürx mağarası.....................................................53
Yeddi qardaş qalası..............................................54
Marağa kəndi haqqında........................................57
Dərbənd xanının qızı............................................59
Yeddi qardaş və bir bacı.......................................61
Beyin nükəri.......................................................62
Pəhləvan Nəzər...................................................64
Üç qardaşın bacısı...............................................66
Molla Pənahla çuban qızı......................................69
Gəl duraq kəndinin xanı.......................................69
Qızdırma bulağı..................................................73
Fağırın ahı..........................................................73
Fəsad və Qəçələ..................................................75

Yeddi qardaş və bir bacı qalası................................76
Qolçomax və müzdür..............................................77
Ovçu Pirim..........................................................79
Nənəvay dərəsi....................................................80
Şıxheydər dağı.....................................................81
Qannı dərə...........................................................82
Mulla Dursunalı...................................................83

## IV. NAĞILLAR

Aşbaz oğlu padşahın nağılı.....................................85
Dəvə ilə dəvəçinin nağılı........................................88
Zümrüd quşu.......................................................90
Şahzadə Yusif və Ceyran qızın nağılı.......................92
Zərnişan xanımın nağılı..........................................96
Paxıl qardaşdar...................................................100
Mahmud xan və quca............................................103
Bağbanla üç oğlu.................................................104
Ədalətli vəzir......................................................105
Kafirin müsəlman olması.......................................106
Ata vəsiyyəti......................................................107
Xudayarın qızı....................................................108
Qismətin qoyruğu kəsildi.......................................110
"Pəhləvan" Nəzərin nağılı.....................................111
Yuxsul kəndli və Xudayar bəy...............................113
Selim və Sultan...................................................114
İki qunşu...........................................................115
Çaqqal padşahın nağılı.........................................117
Ovçu Pirimlə arvadı.............................................118
Vəfalı arvad........................................................122
Dəvəsi itən kişinin nağılı......................................125
Ağıllı yolovçu......................................................126
Odunçu Ali.........................................................129
Cütçü Əhməd bey................................................130
Həzrəti Qabil və Molla Əkbər................................131

Dağlar qızı Sevda....................................................133
Şah Abbas və quca..................................................138
Üç bacı...................................................................139
İyid Eldar..............................................................142
Mahmud şahla vəzir...............................................145
Şah və bülbül.........................................................147
İki xal.....................................................................148
Danay Behlal və Şah Abbas....................................149
Padşahla rəssam.....................................................151
Fatma xanım...........................................................152
Məhəmmədin nağılı...............................................156
Ağıl və bəxt............................................................159
"Qabax qız"ın nağılı...............................................160
Şah Abbasın evlənməsi...........................................163
Sehirli sandıx..........................................................167
Süleyman peyğəmbərin qızı...................................171
Yüz tikədən bir tikə...............................................179
Üç qardaş...............................................................183
Şah oğlu ilə vəzir oğlu...........................................188
Süleyman peyğəbərlə Simurq quşu........................193

**V. QARAVƏLLİLƏR**

Üzü ağ olan çuban...................................................196
Acı dil, başa bəladır...............................................197
Mənasız söz...........................................................198
Dələdüzla ağıllı kişi...............................................199
Şah Abbas iki qəpik tapa bilmir.............................201
Üzlü qunax.............................................................202
Şəhərli gəlin...........................................................204
Qarı ilə dəvə..........................................................206
Nurunun arvadı......................................................206
Hiyləgər gəlin........................................................208

**VI. ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR................210**

**VII. TAPMACALAR.................................................245**

**VIII. BAYATILAR.....................................................252**

**IX. LAYLALAR..........................................................274**

**X. ADƏT-ƏNƏNƏLƏR**
Dərbənddə qız toyu..................................................278
Kənddərdə dini bayramlar........................................284
Qurban bayramı........................................................285
Qədim adət-ənənələr..............................................286
"Quldil" bəzəmək oynu..........................................286

**XI. LƏTİFƏLƏR........................................................288**
*MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ*
Mulanın qunaqları........................................288
Mulanın fəndi...............................................288
Mən də tapıldım............................................289
Gözlərini sağaldacağam...............................289
*BƏHLUL DANƏNDƏ LƏTİFƏLƏRİ*
Bu qədər toyuğun bir xoruzu oldmalıdı, ya yox..290
Kefim nə vaxt istəsə.....................................291
O nə hünər sahibidi ki...................................291
Baş gərəkdir..................................................292
*MÜXTƏLİF LƏTİFƏLƏR*
Eşşək olacax..................................................293
Səməd dayının elçiliyi..................................293
Xiyara şükür..................................................294
Lal gelin, kar gelin........................................296
Atlu...............................................................296
Səbr daşı.......................................................297
Birinci dəfə durmazdım................................298
Yəqin sizdə adətdir.......................................298
Sən elədiyin fikri mən özüm də eləmişəm...299

Sən verirsən şordan-mordan........................300
İstəmərəm, ha...............................................301
O boyda kələmin də bu boyda qazanı olar....301
Gedənbaş-gələnbaş......................................302
Gönə də bax!................................................303
Əl-ayağından bəllidi....................................303
Dərdim başqa dərddi....................................304
Qanmazı çoxdu.............................................304
Xudu bəy də bazardadı.................................305
Mulla Pənah ve Çuban.................................305
Hansı dərdi çəkim?......................................306

## XII. UŞAQ FOLKLORU..............................................307

Barmaqlar...............................................................307
Məhəmmədağa........................................................307
Cücələrim...............................................................308
Hamam hamam içində..............................................308
A teşti......................................................................309
Əkil-bəkil................................................................309
Tülkü, tülkü, tünləki...............................................309
Yanıltmaclar..........................................................311

## XIII. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

*Aşıq Minatullah*

Dağıstanın...................................................312
Qızlar...........................................................312
Əziz kəndim................................................313
Oxuyur.........................................................314
Bilə-bilə......................................................314
Qoca kəndim...............................................315
Nədir?...........................................................316
Sənin.............................................................317
Olur...............................................................317
Oynayır........................................................318

Bu gun........................................................319
Dağıstanın qözəli........................................319
Bil qədərini...............................................320
Bu dünyadan..............................................321
Şad olmuşam..............................................321
Səni sevəndə...............................................322
Söz vermişəm.............................................322
Bahar xanım................................................323
Nə gözəl-gözəl...........................................323
Təriflәmә...................................................324
Partizan Maksim.........................................325
Xal yanağında.............................................329
Yar qabağımda............................................329
Qızlar.........................................................330
Qardaşlarımız..............................................330
Bu gun.......................................................331
Çimikənd....................................................332
Gözəllər.....................................................333
Gəlsin........................................................334
Mən............................................................334
Bağa gəl.....................................................335
Dayan görum...............................................336
Nə deyirlər..................................................336
Ey Mamed Kala...........................................337
Bu yana gəl.................................................338
İtdi.............................................................338
Bənəfşəni....................................................339
Əlindən (zarafatyana).................................339
İncidim......................................................340
*Təhmiraz İmanov*
Saxlamışam mən.........................................341
Çıxaram.....................................................342
*Qaradağlı Xalid*
Düşübdür...................................................342

*Abdaraxman*
Tamaşa....343
Aman günüdür....344
Anaya məktub....345
*Şamil*
O gün....346
*Aşıq Niftulla*
Unutma....347
Olmadı....348
*Yersulu Aşıq Emin*
Göy atın tərifi....348
*Şərafəddin Hacıyev*
Dərbəndim....349
*Aşıq Əhməd*
Maldarla kasıbın deyişməsi....349
Kasıb....350
Bil, Aşıq Əhməd....351

**XIV. DASTANLAR VƏ AŞIQ RƏVAYƏTLƏRİ......352**
Koroğlunun Bilhədi səfəri....352
Şahzadə Əbilfəz və Rəna xanım....359
Baba Babayev....389
Nadir şah və Murtuzəli (dastandan parça)....389
Tayırbey və Quba aşığı....392
Mikail və Aybəniz....394

**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT............398**
**GÖSTƏRİCİ....402**
I. Şəxs, mifoloji və folklor obrazları....402
II. Yer adları....408
III. Bitgi, ağac, heyvan və quş adları....412
IV. Peşə, sənət, alət, silah adları və digər anlamlar....416

**Azərbaycan folkloru antologiyası,**
**XIV kitab, (Dərbənd folkloru),**
Bakı, "Səda" nəşriyyatı, 2006.

***Nəşriyyat direktoru:***
***Elşən Hətəmzadə***

**Kompüterdə yığdı:**
***Ləman Həsənova,***
***Sevinc Bəhlulova***

**Korrektor:**
***Tahir Orucov***

**Kompüter tərtibçisi və**
**texniki redaktoru:**
***fizika-riyaziyyat elmləri namizədi***
***Baxşəli Süleymanov***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 27 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab "Səda" nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.